# VİLAYƏT BAĞÇASI

## BEŞİNCİ CİLD

İslam İnqilabının Böyük Rəhbəri Ayətullah Xameneinin
tələbə və müəllimlərə tövsiyələri

Çevirən: İbrahim Mirzə

## Ədalət, mənəviyyat və azadlıq[1]

Bismillahir-Rəhmanir-Rəhim.

Çox səmimi və gözəl bir məclisdir. İnsan hiss edir ki, məclisdə ixlas, gənclik şövqü və iman dalğalanır. Siz əziz qardaş və bacılar, tələbə və şagirdlər çox böyük nemət olan gənclikdən əlavə bir üstünlüyə də maliksiniz. O üstünlük budur ki, elmi işlə, təhsillə məşğulsunuz. Bundan əlavə, bu məclisdə iştirak edənlər bu ekskursiyanin proqramı daxilində elm qaynaqlarından bəhrələndilər. Proqramları yeni başlayanlar da inşallah, özlərini bu pak çeşmələrlə doyuracaqlar. Ümidi gənclərə, xüsusən də elm və təhsillə məşğul olan gənclərə dikilən mənim üçün bu məclis çox sevindiricidir. Əvvəla, müəllimlərə və çox dəyərli olan bu mədəni işin təşkilatçılarına təşəkkür etməyim lazımdır; xüsusən də cənab Misbaha - dövrümüzdə doğrudan da mübarək və səmərəli şəxsiyyətlərdən və İslam maarifinin təmiz düşüncəsinin mənbəyi olan bu şəxsə. İnşallah, Allah ona və digər zəhmət çəkənlərə çox dəyərli olan bu xidməti davam etdirmək səadəti nəsib etsin və gənclərin bu elm çeşmələrindən daha geniş və daha dərin istifadəsinə şərait yaratsın.

**Elm - əməlin müqəddiməsi**

İslam təfəkkürünün çox geniş sahələrini öyrənmək çox dəyərli işdir. Amma unutmayın ki, insanın üzərinə qoyduğu vəzifəyə diqqət yetirmədən boşluqda bilgi öyrənmək çox da uğurlu deyil. Elm əməlin müqəddiməsidir. Bir şey öyrənirik ki, doğru yolu tanıyaq, onda addımlayaq, israrla dayanaq və məqsədlərinə sarı irəliləyək. Dini bilgi gəncə, xüsusən də tələbə və şagirdə, arxasınca gələn saleh əməllə birgə öyrədildikdə, onu silahlandırmalı, bugünkü nəslimizin önündə mövcud olan çox mühüm və çətin yolu qət etmək üçün onda inam yaratmalıdır.

**Əsl imanın xüsusiyyəti**

Bu gün siz gənclərin öhdəsinə düşən iş çox böyükdür. Bir zaman bu ölkənin gənclərinin seçilmiş bir hissəsi öyrəndikləri əsl İslam maarifi ilə İslam inqilabının böyük hərəkətinin öncülü olub Böyük İmamın ilk köməkçilərinin çevrəsini təşkil edə bildilər. Belə böyük bir inqilab elm sayəsində baş verdi. Həmişə yolları açan, maneələri ortadan götürən, böyük dağları yaran, durmadan irəliləyən və digərlərini də arxalarınca aparan şəxslər - əsas silahları bilgidən ibarət olan seçilmişlərdir. Onlar nə istədiklərini və nəyin ardınca getdiklərini bilirlər. Bu onlara möhkəm iradə verir, yorğunluq və tənbəllik hissini onlardan uzaqlaşdırır. Əsl din-imanın xüsusiyyəti belədir. Sizin İslam tarixində müşahidə etdiyiniz bütün böyük hərəkətlər bundan qaynaqlanır. Qeyri-dini sahədə də səfərbər olan elm, məlumat

---

[1] "Vilayət layihəsi" çərçivəsində tələbə və şagirdlərlə görüşdə çıxışı: 8 avqust 2002.

və iradələr daha mühüm və böyük işlər gördü. Bu gün sizin bilgi və məlumatlarınız qarşınızdakı yolu elə açmalıdır ki, üzərinizdə olan çox böyük işləri görə biləsiniz.

**İslam inqilabının missiyası**

İslam inqilabının missiyası təkcə İslam adlı bir dövlətin qurulması deyildi. Bu böyük ağacın çoxlu çiçəkləri hələ açılmamışdır. Bu çiçəkləri bu nəsil açmalı, ağacın meyvə verməsini təmin etməlidir. Bəli, əgər İslam inqilabını özünə təhlükə görən hegemon düşmənlərin düşmənliyi, yəni bugünkü dünyaya hakim olan zülmkar siyasi və iqtisadi sistem olmasaydı, bu məqsədə daha tez çatmaq olardı. Lakin bu düşmənliklər də bir reallıqdır. Hərəkəti bu reallıqlara uyğun planlaşdırıb proqramla irəliləmək lazımdır.

Gözləmək olmaz ki, bizim qarşımızda heç bir düşmən olmasın. Düşmən həmişə olub və var. Bəllidir ki, düşmən əngəl törədir, lakin deyəcəyəm ki, Allahın düzgün yolu hələ də müqavimətli yolçuları yeni zirvələri fəth etməyə çağırır. Onlar sizlərsiniz. Bu bilgi o hərəkətə və o işə kömək etməli, sizi hazırlamalıdır. Sizin öyrəndiyiniz bu biliklər ilk növbədə ətrafınızdakı mühitə təsir buraxmalıdır; həm təhsil, həm də iş və ailə mühitinə.

**İslam inqilabının mövqeyi**

Düzgün İslam maarifinə yiyələnmiş bir gəncin işi təkcə şübhələri aradan qaldırmaq deyil, yəni təkcə müdafiə mövqeyində durmamalıdır. Məlumatlı və özünə inanan bir gəncin məntiq və düşüncə vasitələri baxımından mövqeyi hücumçu mövqeyidir. İnqilabın əvvəllərində mən universitetə gedib çıxış edəndə və suallara cavab verəndə solçu qruplara bağlı bir gənc soruşdu ki, filan hadisə qarşısında siz necə müdafiə oluna bilərsiniz. Dedim ki, mən müdafiəm olunmuram, hücum edirəm. İslam inqilabı müdafiə mövqeyində deyil. Əgər biz müdafiə mövqeyində olsaydıq, indiyə qədər işimiz bitmişdi. İslam inqilabının mövqeyi hücumçu mövqeyidir. Nəyin əleyhinə hücum? Bu gün bütün dünyada siyasət aləminə və xalqın həqiqi həyatına hakim olan zülmkar sistemin, yəni müstəmləkə quruluşunun əleyhinə. Müstəmləkə quruluşunda yalnız iki tərəf mövcuddur: müstəmləkəçi və müstəmləkə altında olan. Ya gərək özünü müstəmləkəçi edə biləsən, ya da əks təqdirdə, müstəmləkə və hökmranlıq altında qalasan. İslam inqilabı dünyada belə zalım quruluşlar əleyhinə fəryad və təhdiddir. İslam quruluşunun və İslam inqilabının xalqlar tərəfindən sevilməsinin səbəbi də budur. Siz görürsünüz ki, dünyada müxtəlif siyasət və üsullarla daim İslam Respublikasına təzyiq göstərirlər ki, müxtəlif hadisələrdə, misal üçün, Fələstin məsələsində mövqe bildirməsin. Bəzi sadəlövhlər elə birlirlər ki, problem təkcə bundadır ki, İslam Respublikasının filan hadisədə sərt mövqeyi var; deyirlər ki, siz sərt mövqe seçməyin. Halbuki problem bu deyil. Problem odur ki, İslam Respublikasının prinsipial mövqeləri dünyada müstəmləkə siyasətlərini təhdid və xalqları ümidvar edir.

### Tələbənin bilgisi

Deməli, öyrəndiyimiz bilgi bizi tələbə, yaxud şagird gənc olaraq silahlandırmalı, bizdə yetərincə özünəinam yaratmalıdır ki, nəticədə ətraf mühitimizi, daha ağır məsuliyyət və daha geniş dairədə olduqda isə həmin geniş dairəni işıqlandıra bilək.

Tələbə və şagirdin siyasi və mədəni fəaliyyəti bu məlumatlar vasitəsilə istiqamətlənməli və rövnəqlənməlidir. Tələbə və şagird nə etməli olduğunu bilməlidir.

Belə bir mövqedə şübhələri aradan qaldırmaq da asan olacaq. Lakin məqsəd təkcə bu deyil ki, oturub bizim tərəfimizə bir şübhə atılmasını gözləyək, sonra da əlac axtarıb şübhəni aradan qaldıraq. Buna əsasən, bilgi öyrənməyin yanında məsuliyyət hissindən doğan həvəs də olmalıdır; bilgili bir insanı səbirsiz edib özünün düzgün vəzifəsinə sarı və doğru yolu qət etmək üçün hərəkətə gətirən həvəs və eşq. Vəzifə və məsuliyyətə qarşı bu həvəsi, diqqət və eşqi yaddan çıxarmayaq. Biliyin yanında bu hiss də olmalıdır.

Düzdür, elmsiz duyğu zərərlidir. İfrat və yaxud təfritə, qayda-qanunsuz işlərə çəkiləcək duyğu və həvəssiz elmin də heç bir nəticəsi yoxdur, donmuş halda olan və istifadə edilməyən bir sərvət kimidir. Əgər elm, məlumat və bilik sərvətinin uca məqsədlər yolunda işlənməsini istəyiriksə, həmin həvəslə və məsuliyyət hissi ilə birgə olmalıdır. İnsan bu iki qanadla uçub zirvəyə çata bilər.

### Siyasi fəaliyyət - aktiv cəmiyyətin vəzifəsi

Sonrakı məqam budur ki, bu bilgilər sizə siyasi fəaliyyətin meyarını da öyrətməlidir. Aktiv bir cəmiyyətdə hamı siyasi fəaliyyət göstərməyə borcludur. Siyasi fəaliyyət siyasətbazlıqdan və siyasətpərəstlikdən başqa bir şeydir. Siyasi iş - cəmiyyətin indiki vəziyyəti ilə tanış, ayıq olmaq, onu təhdid edən təhlükələri tanımaq, dost və düşmən cəbhəsini müəyyənləşdirmək və onlara qarşı uyğun mövqe seçməkdir. Belə siyasi dərk hamıya lazımdır. Bunun ardınca fəaliyyət də olacaq. Bu, sözügedən İslam məlumatlarından qaynaqlanan meyarlara uyğun olmalıdır. Əgər bir siyasi fəal bu meyarları bilməsə, haqq və batil cəbhələrini qarışdırıb bir-birindən ayıra bilməyəcək.

### Haqq və batilin tarixi

Tariximiz yolun ortasında haqq və batil cəbhələrini səhv salan insanlarla doludur. Əvvəl adətən, ya bir səhv qarşıya çıxır, insanın getdiyi yol və hərəkətdə küncə çəkilməsinə səbəb olur, sonra nəfs istəkləri, mənəvi nöqsanlar, əxlaqi qüsurlar, həvəslər və çirkinliklər qarşıya çıxır, insanı son süquta sarı sürükləyir. Beləliklə, bir gün haqq cəbhəsində olan şəxslər başqa bir gün haqqa qarşı xəncər çəkirlər. Bunu həm erkən İslam dövründə gördük, həm öz tariximizdə, həm özümüzə yaxın tarixdə. Məşrutə dövründə eləlləri vardı ki, bir gün haqq cəbhəsində hərəkət edirdirlər, amma qeyd etdiyimiz amillər səbəbindən, sonra

haqqa qarşı xəncər çəkdilər. Bu ona görədir ki, insan siyasi fəaliyyətin meyarlarını itirir. Bu bilgi sizə bu meyarları verməlidir.

**Tələbə fəaliyyətində məqsəd**

Sizin görməli olduğunuz fəaliyyətin məqsədi nədir? Məqsəd qeyd etdiyim kimi, inqilabı ideal vəziyyətə çatdırmaqdır. Bizim inqilabımız çox böyük və hərtərəfli bir inqilabdır, bəşərin ən əsas ehtiyacları üçün sözü və proqramı var. Bunların çoxu açmamış çiçək kimidir. Bu çiçəklərin açması və sonra meyvəyə çevrilməsi üçün münasib şərait və gözəl hava lazımdır. Hələ bu şərait yaranmamışdır. Əlbəttə, bu, ağacın barsız olması demək deyil. Xeyr, bu ağac səmərəlidir, bu çiçəklərin açmasına kömək etmək lazımdır. Onların açmamasına bəzi əngəllər səbəb olmuşdur. Sizlər bu əngəlləri aradan qaldırmalısınız.

**Gələcək nəslin məsuliyyəti**

Gələcək nəslin məsuliyyəti var. Bir zaman bəzi şəxslər böyük bir iş gördülər. Bu işin əvvəli idi, amma sonrakı nəsillərin də hər biri öz növbəsində vəzifələrini yerinə yetirməlidirlər. İnqilab dövründə və inqilabın hazırlıq mərhələsində dünyada olmayan sizlərin vəzifəsi o zaman dünyada olan bizlərin vəzifəsindən daha ağır, daha şirin, təsirləri daha uzunömürlü ola bilər. Bir tunel açmaq mühüm işdir, amma bəzən bu tuneli möhkəm saxlayıb uçmağa qoymamağın, uzunömürlü olması üçün ona möhkəm dirəklər düzəltməyin əhəmiyyəti daha böyük olur.

**Ədalətsevərlik**

Bu inqilabın əsası nəyin üzərində dayanır? Onun əhəmiyyətli, ümdə və öz daxilində başqa məsələləri də ehtiva edən şüarlarından biri İslamda ədalətsevərlikdir. Ədalətin çox geniş mənası var. Bu ifadədə işlənən “İslam” sözü də çox mənalıdır. Belə deyil ki, biz eləcə deyək "İslam ədaləti" və müxtəlif tapıntılara uyğun olaraq ədalət barədə zehnimizdə məchul bir təsəvvür yaransın. Xeyr, ucalan bayraq İslam ədalətinin bayrağı idi. Çünki ədalət adı ortada idi. Ədalət anlayışı insanların ürəyində çox geniş və təsirli olduğundan, dünyanın uzaq nöqtələrində, hətta qeyri-müsəlman bölgələrində də insanları cəlb etdi. Bu inqilab qələbə çalanda sevinənlər təksə İslam ölkələrinin müsəlmanları və təkcə müsəlmanlar deyildilər. Dünyanın məhrum ölkələrindən olan qeyri-müsəlmanlar, hətta bəzi qeyri-müsəlman məzhəblərinin ruhaniləri, müxtəlif bölgələrdə yaşayan məsihi ruhanilər də siyasi və dini ayrıseçkiliyi bütün vücudları ilə duyduqlarından, inqilabdan vəcdə gəldilər.

**Ədalətsevərlik və inqilabın təsiri**

Mən səksəninci illərin əvvəlində, prezident olarkən Cənubi Afrika ölkələrinə səfər etdim. O zaman Cənubi Afrikanın millətçi rejiminin həbsxanasında olan çox məşhur qaradərili rəhbərlərin bəziləri öz adamları vasitəsilə mənə xəbər göndərdilər ki, biz imamın aşiqiyik və inqilabı sevirik. Onlar müsəlman deyildilər,

lakin İslamın və İslam Respublikasının ucaltdığı ədalət bayrağına belə hörmət ifadə edirdilər. O zaman Cənubi Afrika Respublikasında çox zalım və qaniçən bir aparteid rejimi hakim idi. Buna görə də, İslam Respublikası qurulanda o ölkə ilə əlaqəsini kəsdi. Tağut rejimin onunla çox isti münasibətləri vardı. Sonra onların görkəmli şəxsiyyətlərindən biri həbsxanadan azad olundu. Cənubi Afrikada inqilab baş verdi, rejim dəyişildi və həmin şəxs bir neçə il Cənubi Afrikanın prezidenti oldu. Yəni belə bir rejimin hökmdarlığı altında birinci dərəcəli mübarizlər həbsxananın içindən imama və İslam Respublikasına sevgilərini bildirirdilər. Mənə dəfələrlə bu sözü çatdırdılar. Bu, ədalət bayrağına görə idi. İslam ədaləti ifadəsindəki İslam sözü göstərirdi ki, bu ədalətin təmælləri İslam təfəkkürünün əsasları üzərində ucaldılmışdır. Bu söz dünya müsəlmanlarında başucalığı hissini oyatdı. Dünyanın bütün müsəlmanları qürur və şəxsiyyət duydular. Yüz dəfələrlə dünyanın bütün yerlərindən olan görkəmli müsəlman şəxsiyyətlər bizlərə, İslam Respublikasının müxtəlif vəzifələrində çalışanlara xəbər göndərirdilər ki, biz müsəlman kimi öz şəxsiyyətimizi itirib ayrılarına qarışmışdıq, amma siz bizə şəxsiyyət verdiniz, bizi diriltdiniz. Bu, İslam Respublikasının və İslam inqilabının ucaltdığı bayrağa görə idi.

**Qərbdə azadlığın mənası**

Son 200 ildə dünyada İslam inqilabı ilə müqayisə olunası iki böyük inqilab baş vermişdir: biri 1789-cu ildə, yəni 200 ildən bir qədər artıq öncə baş vermiş Böyük Fransa İnqilabı, digəri isə 1917-ci ildə, təxminən 90 il bundan əvvəl baş vermiş Sovet Oktyabr İnqilabı. Fransa inqilabının əsas şüarı azadlıq idi, Sovet kommunist inqilabının əsas şüarı isə bərabərlik. O azadlıq Qərbdə tamamilə yanlış bir anlayışa çevrildi. Mənası insanların həyat yolunun seçimində azadlığı olan bu söz fərdi və cinsi azadlıqlara, pozğunluğun azadlığına çevrildi. Xalq demokratiya adı altında müxtəlif təbliğatlarla və gözəgörünməz bir tor vasitəsilə müxtəlif rejimlərin, güc sahiblərinin istədikləri bütün istiqamətlərə çəkildilər. Həmin vəziyyət bu günə qədər də davam edir.

Qərbdəki siyasi azadlığın bir hiylə olması bu gün təkcə bizim sözümüz deyil. Bu, Qərbin özündən olan bir çox mütəfəkkilərin və xeyirxah insanların sözüdür. Zahirdə görünən demokratiyadır, əslində isə həmin gözəgörünməz təbliğat torudur. (Əlbəttə, seçkilərdə xalqın 30-35 faizindən 60 faizə qədəri ancaq iştirak edir. Amerika seçkilərində səsvermə hüququ olanların yalnız 35-40 faizi səs verir). Bütün təbliğat maşınları da nəhəng güclülərin və şirkət sahiblərinin ixtiyarındadır; yəni hər bir avtoritar rejimdə əsas söz sahiblərinin. Bu gözəgörünməz tor xalqı istədiyi tərəfə çəkir, xalqlara zorla yeridilən məqsəd və usulların dəyişdirilməsinə imkan vermir. Bunlar fəsad azadlığını, seksual azadlığı, veyillik və əxlaqdan qurtuluş azadlığını yayırlar; çünki yenə bu güclərin xeyrinədir.

İkinci inqilabdakı bərabərliyin taleyi də birinci inqilabdakı azadlığın taleyinə bənzədi. Yəni kommunistlər bərabərlik adı altında təxminən 70 ildən artıq çox kəskin, qaranlıq və dözülməz bir bərabərsizlik yaratd;lar. Gözəl şüarlar verdilər;

həm azadlıq, həm bərabərlik gözəl və cəlbedici şüarlardandır. Əslində isə əksinə əməl olundu.

**Ümumi vəzifə**

Əgər biz ədalət şüarında təkcə sözlə kifayətlənib əslində, onu təmin etməsək, bizim işimiz də onların işinə bənzəyəcək. Bu da İslamın və İslam əsaslarının heç bir vəchlə qəbul etmədiyi bir haldır. Harada olursa-olsun, hamının əsas vəzifəsi ən mühümlərindən biri ədalət olan əsas şüarların həyata keşməsinə yardım etməkdir.

**Ədalətin mənası**

Qeyd etdiyimiz kimi, ədalət İslamda çox geniş anlayışa malikdir. Ədalət - yəni insanın bütün maddi və mənəvi ehtiyaclarının təmini. Ədalətin mənası hər bir haqq sahibinin haqqını özünə verməkdir. Görün insanların hüquqlarının nə qədər geniş dairəsi var. Onların hamısı təmin edildə ədalət bərqərar olur. Bu ədalətin içində, təbii ki, azadlıq da var; düzgün mənada olan azadlıq, təbliğ və iddia etdikləri yanlış azadlıq yox.

Bu ədalətin daxilində düzgün mənada bərabərlik də mövcuddur. Bərabərlik - yəni ayrıseçkiliyin olmaması. Bərabərliyin mənası bu deyil ki, kişi və qadın bir-birinə bənzəsinlər. Kommunistlər bu səhvə yol verdilər və onun içində də ilişib-qaldılar. Bərabərliyin mənası budur ki, hamı qanunun və həqiqətin müəyyən etdiyi səlahiyyətlər çərçivəsində cəmiyyətə və insana bəxş olunmuş ilahi nemət və imkanlardan bəhrələnə bilsinlər: qanun qarşısında, səhv qarşısında, öhdəyə düşən vəzifə qarşısında hamı bərabər olsun. Düzdür, insanların səyi üçün imkan genişdir. Biri daha artıq çalışır, daha artıq nailiyyət əldə edir; biri az işləyir, az qazanır; biri yaxşı iş görür, nəticəsi də yaxşı olur; biri pis iş görür, nəticəsi də pis olur.

**Ədalət, mənəviyyat və azadlıq**

Bunlardan əlavə, bu inqilabda mənəviyyat da var, yəni təkcə azadlıq və bərabərlik deyil. İslamda olan azadlıq və ədalət mənəviyyatla yanaşıdır. Buna görə də, bu gün Qərbin düçar olduğu və qərblilərin özlərinin də başa düşdüyü ümdə boşluq burada yoxdur.

Mənəviyyatın olmaması əxlaqi dəyərlərin zəifləməsinə səbəb olur, bir ölkə və bir cəmiyyət kökündən dağılmaq təhlükəsi qarşısında qalır. Bu gün bir çox Qərb cəmiyyətlərində bunun əlamətləri görünür. Onlar anlayır, başa düşür və xəbərdarlıq edirlər. Çoxlu Qərb ölkələrində olan fəsad mənəviyyatın boşluğundan irəli gəlir. Bu, davam edəcək, çünki onlar əxlaq mənəviyyatını sözün həqiqi mənasında qəbul etmirlər. Həm də çalışırlar ki, bu bədbəxtlikləri dünyanın bütün bölgələrinə ötürsünlər. Bunlar geniş mövzulardır. Bu barədə danışmaq istəmirəm.

**İslam öyanışının mərkəzi**

Siz gənclər əldə etdiyiniz bilgi və məlumat silahı ilə bu bayrağı yüksəkdə saxlaya bilməlisiniz. Düzdür, çox ağır və böyük vəzifədir. Dünyada bir qrup insan öz təbliğatları, xüsusi üsulları və əslində, psixoloji bir müharibə ilə təbliğ edirlər ki, inqilablar dövrü bitmişdir. Bu, müstəmləkə quruluşunun ehtiyacı olan və bu təbliğatı aparmağa məcbur olduğu bir məsələdir. Bunlar dünyanın hər hansı bir nöqtəsində din, mənəviyyat və İslama əsaslanan bir inqilabın baş verməsindən diksinirlər. Buna görə inqilablar dövrünün bitdiyini təbliğ edirlər. Bilirlər ki, İslam oyanışının mərkəzi İslam İranı olmuşdur. Bu mərkəzin özünü hədəf seçirlər. Bu bayrağı yüksəkdə saxlamalı olan ruhiyyə və insanları zəiflətmək istəyirlər. Deyirlər ki, İslam inqilabı qocalmışdır. Bu, təbliğat hiyləsidir. Mən bir dəfə də bunu demişəm. Bu, elmi proqnoz deyil, xeyr, əgər İslam inqilabı qocalıb əldən düşsəydi, hegemon düşərgə onunla mübarizə aparmaq üçün bu qədər xərc çəkməyə məcbur olmazdı. Bəlli olur ki, gənc və güclüdür. Buna görə də onunla mübarizə üçün bu qədər xərc çəkirlər. Bu inqilabın gənc qalmasının səbəbi intrinsik olaraq, bu inqilabın özündədir.

**İnqilabların həyatı və ölümü**

İnqilabların bir gənclik, bir həyat və bir ölüm dövrü olmaları düz sözdür, yəni hər bir şey məhv ola bilər. Bir inqilabın və bir quruluşun da məhv olması mümkündür. Quranda da bir çox yerlərdə işarə vurulub ki, əgər xalqlar ilahi qanunlara etinasız olsalar və öz vəzifələrini yerinə yetirməsələr, Allahın neməti onlardan götürülər və sahib olduqlarını əldən verərlər.

Bir inqilabın və bir quruluşun bir gün ölməsi mümkündür. Bir inqilabda həyat və ölüm amili nədir? Burada çox əhəmiyyətli olan iki amil var: Birincisi inqilabın deviz və bayraqlarıdır - bir inqilabı təsvir edən şüar və məqsədlər. Əgər bu şüarların faydalı ömrü bitsə və inqilabın deməyə sözü olmasa, tələf olar. Amma bu da İslam inqilabı barədə heç zaman özünü doğrultmayacaq. Bu inqilabın təsvir etdiyi şüar və məqsədlər insanın mahiyyəti və fitri ehtiyacları ilə qarışmışdır. Qeyd etdiyimiz kimi, bu inqilabın məqsədləri - ədalətsevərlik, insansevərlik, zülmə qarşı mübarizə, məzlumu müdafiə, təbəqələrarası məsafəni azaltmaq, Əmirəlmömininin şərafətli və həmişəyaşar kəlamında dediyinin qarşısını almaq: bir dəstə zalımın toxluğu, qarınqululuğu və başqa bir dəstənin aclığı və cana gəlməsi. Bu şüarlar heç zaman köhnəlmir. İnsanın əsas ehtiyacları tarix boyu eynidir. İslam inqilabı və İslam bu ehtiyacları diqqətdə saxlayır, onları təmin etməyə çalışır. Əcnəbi bir qüvvənin hökmranlığı altında olan bir xalqın müstəqilliyi əsaslı bir ehtiyacdır. Bu, inqilabın şüarlarından biridir. İnsanlar üçün azadlıq, özünün insani, islami və düzgün mənasında, qəti bir ehtiyacdır. Deməli, şüarlar baxımından İslam inqilabı köhnəlik qəbul edən deyil. Bu şüarlar insan üçün həmişəlik və daimi ehtiyaclardır.

**İnqilab sahiblərinin zəifliyi və yorğunluğu**

İnqilab üçün problem yaradan ikinci amil budur ki, inqilabın sahibləri və işçiləri - yəni xalq və məmurlar zəifləsinlər, yorulsunlar, səhv etsinlər və lazımi qabiliyyətləri əldən versinlər. Hər bir inqilab və hər bir quruluş bu problemə düçar olsa, məhv olacaq. Bunu həmişə bir təhdid kimi nəzərə almaq lazımdır. Bəzliləri dayanmadan deyirlər "təhdid, təhdid". Həqiqi və ciddi təhdid budur. Həqiqi təhdid bu deyil ki, başqa bir dövlət xalqa buynuzunu, yaxud dişini göstərsin. Canlı bir varlıq çalışır ki, müxtəlif siyasi, hərbi və əqli yollarla özünü müdafiə etsin, təhlükəni özündən uzaqlaşdırsın. Lakin şərti budur ki, canlı və ayaq üstə olsun, özünə güvənsin, özündə lazımi bacarıqları qorusun. Bizim bəzən məmurlara və əziz xalqımıza verdiyimiz tövsiyələr bu cəhətə görədir.

**İnqilabçı ləyaqəti – inqilabın qarantı**

Biz özümüzdə inqilabçı xüsusiyyətlərini saxlamalı və qorumalıyıq. Əgər bu xüsusiyyətlər qorunsa, inqilabın ideologiyasında heç bir çatışmazlıq yoxdur. İnqilabın şüarları məhvolası və istifadə müddəti bitəsi deyil. Onlar əbədidir. Biz özümüzdə bu ləyaqətləri gücləndirməliyik; ilk növbədə məmurlar, sonra isə inqilabda və ölkədə təsirli olan aparıcı şəxslər.

Məmurlar barədə deyim ki, bizim ölkəmiz birinci dərəcəli məmurlar baxımından problemsizdir. Onlar sədaqətli, ixlaslı, işgüzar və fəal şəxslərdir. Bu gün düşmənlərin təbliğatının biri budur ki, ölkənin yüksək rütbəli məmurları, üç hakimiyyətin başçıları, yaxud ölkənin birinci dərəcəli idarəçiləri bacarıqsızdırlar. Sanki bir qrup insan bir gəmiyə minir, qəfildən sərnişinlərə xəbər verilir ki, kapitan gəmini idarə edə bilmir. Təsəvvür edin ki, gəmidəki insanlar nə hala düşərlər, necə iztirab və təşviş yaranar. Biz bir gəmiyə minmişik, ümidvarıq ki, kapitan kabinasında oturan cənablar gəmini dalğa və qayalara toxunmaqdan qoruyub bizi sahilə sağlam çatdıra biləcəklər. Lakin birdən bizə xəbər verirlər ki, bunlar öz işlərini bacarmırlar. Bu bir ölkə üçün çox çətindir. Düşmənlər xalqda belə bir hiss yaratmaq istəyirlər. Düşmənin psixoloji müharibəsi çox kəskindir, siz gənclər buna diqqət yetirin. Bu təsəvvür əsla düzgün deyil. Ölkənin birinci dərəcəli məmurlarının və yüksək rütbəli müdirlərinin bəzi işlərdə səhvə yol vermələri mümkündür. Kimin səhvi yoxdur ki?! Bu, mümkündür. Onların bəzi siyasi üsullarında, yaxud baxışlarında fərqlər ola bilər. Bu, meyar deyil. Lakin onların hamısı inqilab xəttinin davam etdirilməsində, inqilabın və imamın yolunun məqsədlərinin həyata keçirilməsində maraqlıdırlar, özlərini buna borclu bilir, bu yolda çalışırlar. İnsan bunu müşahidə edir.

**ABŞ islahatı**

Eşitdiniz, bu yaxınlarda amerikalılar və onların bəzi davamçıları hökumət və prezident üzərində dayanıb dedilər ki, bunlar bacarmırlar, bilmirlər, istəmirlər. Bəli, ABŞ-ın istədiyi işi ölkə məmurları, prezident və digərləri, şübhəsiz ki, yerinə yetirmək istəmirlər. Amerikalıların "islahat" adlandırdıqları məsələ bu xalqı xar etməkdən, ABŞ hakimiyyətini qəbul etdirməkdən, ABŞ-ın bu ölkəyə yenidən

hakimiyyət yolunu açmaqdan və xalqın İslama arxa çevirməsindən ibarətdir. Deyirlər ki, İranın prezidenti və hökuməti bunu istəmir. Bəli, əlbəttə, istəmir. Bu ölkədə heç bir məmur bizim düşmənimizin və amerikalıların bu ölkədə həyata keçirməyə çalışdıqları işi istəyə bilməz. Nə üçün? Çünki xalq İslama bağlıdır, bu inqilabı sevir, onu özününkü bilir. Minlərlə şəhidi bu yolda tədqim edən bu xalqdır. İslam, inqilab və bu quruluş üçün fədakarlıq göstərənlər bu xalqın uşaqları idi. Bunlar həyasızcasına bir xalqa deyirlər ki, əcnəbi hakimiyyəti əleyhinə etdiyiniz şanlı dirəniş üçün tövbə edin. Məgər belə bir şey mümkündür?! Məgər belə bir şeyi qəbul etmək, dərk etmək olar?! Bəllidir ki, düşmənin İranda istədiyi işə heç bir məmur dözmür və onu qəbul etmir; nə ona meyli var, nə də bacarığı. Lakin düşmənlərin yaratdığı bütün problem və maneələrə rəğmən, ölkəni idarə etməyə və düzgün yollara çəkməyə hökumət, prezident və məmurlar həm meyllidirlər, həm də bu bacarıqları var. Onlar iş başındadırlar, dayanmadan və yorulmadan çalışırlar. Məgər bir ölkəni idarə etmək və onun üçün məcburən yaradılan problemləri aradan qaldırmaq asandır?!

Düzdür, inqilabdan, İslamdan və bizim böyük imamımızın hərəkətindən narazı olan şəxslərin ürəyi istəyir ki, ölkənin quruculuq işlərində əngəl yaransın. Bəzi səs-küylərin və siyasi hərc-mərclik istəyənlərin əsas məqsədi budur ki, hökuməti və məmurları öhdələrinə düşən işlərdən uzaqlaşdırsınlar və cüzi məsələlərlə məşğul etsinlər.

Əlbəttə, bəzilərinin daha ağır və böyük məqsədləri var. Xalqın vəziyyəti də məlumdur. Bu xalqın inqilabın məqsədlərinə sevgisi, marağı, məlumatı və ayıqlığı dünyanı heyrətə salmışdır. Siz baxın, düşmənlərin istifadə edərək İslamı vurmaq istədikləri seçkilərdə xalq İslam məqsədləri ilə və inqilaba vəfadarlıqla səhnəyə çıxıb səs verdi. Bunu qorumaq lazımdır. Siz gənclər bu baxımdan rol oynamalısınız.

İndi qayıdaq birinci sözümüzə. Öyrəndiyiniz bilgilər saleh əməl sahəsində sizə yol göstərməli, kömək etməli, sizi iman, ümid və möhkəm iradə ehtiyatları ilə bu meydana daxil etməlidir.

**ABŞ-ın ümidləri**

Gənclər məsuliyyət hiss etməlidirlər. ABŞ prezidentinin son çıxışında iki məqam üzərində təkid vardı: biri universitet, biri mətbuat. Amerikalılar dedilər ki, biz işlərimizi bu iki sahədə aparmaq istəyirik. Onlar bu iki nöqtəyə ümid bağlayıblar. İndi mətbuatla işim yoxdur, o, başqa bir söhbətin mövzusudur. Lakin universitet, məktəb və lisey məsələsi çox əhəmiyyətlidir.

Əlbəttə, onların bizim gənc nəslə, tələbələrə və universitetlərimizə olan ümidi bu ilin 18 tirinə (9 iyula) olan ümidləri kimi puç olacaq və yenə zərbə görəcəklər. Bu il 18 tirdə İranda böyük bir qiyam və çevrilişə ümidli idilər. Onlar özlərini buna hazırlamış, bəzi işlər də görmüşdülər, lakin başları daşa dəydi. Onlar İran xalqını tanımamışlar. Bizim gənclərimizi və tələbələrimizi də tanımamışlar. 18 tirdən qabaq və sonra bəzi yerlərdə bir sıra işlər baş verdi. Onlar zahiri baxımdan bir-biri ilə əlaqəsiz idi, lakin dəqiq bir insan məsələlərin kökünü tapmaq istədikdə,

onların builki 18 tirə hansı ümid bağladıqlarını anlayanda, zahirən əlaqəsiz, lakin bir-biri ilə əlaqədar olan bu işlərin mənasını dərk edir. Onlar elə bilirdilər ki, bu il gördükləri bəzi işlərin nəticəsində 18 tirdə universitetdən başlayaraq xalqın dərinliyinə qədər tədricən böyük bir qiyam yaranacaq və İslam quruluşunun yaxasını tutub vəziyyəti tamamilə dəyişdirəcəklər.

Deyirlər bir münəccim proqnoz verib ki, filan gecə bir tufan baş verəcək, yer üzündə heç bir bina və tikili qalmayacaq. Birinci münəccimin hesablamasının səhv olduğunu bilən başqa bir münəccim dedi ki, onun tufan olacağını dediyi gecə bir şam yandırın və damın üstünə qoyun. Əgər səhərəcən sönsə, nə istəyirsiniz məndən alın. Bir şam yandırıb damın üstünə qoydular, şam səhərəcən yandı və onu söndürəcək bir yel də əsmədi. Onlar bu hadisədə özlərinin səviyyəsiz adamlarından bir neçə nəfəri toplayıb psixoloji müharibəyə vadar etmişlər. Təəssüf ki, bəzilərinin vasitəsilə mətbuat işlərini də aparmışlar. Ondan əvvəl və sonra da bəzi işlər görmüşlər, lakin zərbə özlərinə dəydi və səhv etdiklərini anladılar. Universitet barədə də belədir. Lakin siz yenə də fəal olmalısınız.

**Tələbə hərəkətlərinin meyarları**

Mən dəfələrlə universitetlərdə demişəm, tövsiyəm də budur ki, hərəkət məntiqli, mətanətli, alimcəsinə və elmi olsun. Mən xüsusən universitetlərdə sərt hərəkətlərlə müvafiq deyiləm. Belə hərəkətləri uğurlu da bilmirəm. Hərəkət məntiqdən qaynaqlanmalıdır, lakin onda fəallıq, inkişaf və hücum ruhiyyəsi olmalıdır, müdafiə ruhiyyəsi yox. Bu, bu gün bizim əziz gənclərimizin öhdəsinə düşən vəzifə budur. Mənim üçün aydındır ki, Allahın lütfü ilə gənclərimiz düşmənlərin bağladıqları ümidlərə, gördükləri hazırlıqlara və gənc nəsli yoldan çıxarmaq üçün çirkin mədəni işlərinə rəğmən, bu vəzifəni ən yaxşı şəkildə yerinə yetirəcəklər. Bizim gənc nəslimiz Allahın köməyi ilə öz vəzifəsinə yaxşı şəkildə əməl edəcək və inşallah, tarix hökm edəcək ki, bu nəsil inqilabın birinci nəslindən az iş görməmişdir.

Allah-Taaladan istəyirəm ki, dövrün imamının xeyir-dualarını sizə və bütün gənclərimizə şamil etsin! Böyük imamımızın pak ruhunu Öz rəhmət və razılığına qovuşdursun! Əziz şəhidlərimizin pak ruhlarını peyğəmbər və övliyaların ruhları ilə birgə və bizim hamımızın aqibətimizi xeyirli etsin!

Allahın salamı və rəhməti olsun sizə!

## Mədəni və milli kimliyin qorunması[2]

Bismillahir-Rəhmanir-Rəhim.

Çox xoş gəlmisiniz. Sizin kimi uğurlu və mömin gəncləri görməyə çox sevinirəm. Biz xaricə hər bir tələbə göndərdikdə əslində, ölkənin gələcəyinə ehtiyat ayırmış oluruq. Bu, İran xalqının öz övladlarını və ciyərparələrini təhsil üçün ölkədən xaricə göndərməkdə bəslədiyi ümiddir. Əlbəttə, bu arada İslam birliklərinin özəl yeri var. O da budur ki, özlərini gələcəyə hazırlamaq kimi mühüm bir xüsusəyyətdən əlavə, həm də bizim ölkəmizin, xalqımızın dəyər, etiqad və düşüncə səfiridirlər. İslam birliyi harada faəliyyət göstərsə, əslində, tələbələrdə müsəlman kimliyini və xalqımızın uca amallarını yaşatmaq məsuliyyətini hiss edir. Bu, çox əhəmiyyətli məsələdir.

**Tələbələr, milli kimlik və xaricdə təhsil**

Bir dönəmdə bizim ölkənin cavan nəslinin başına böyük bir bəla gəldi. O da bu idi ki, onlar elm öyrənmək üçün başqa ölkələrə getdilər; elm öyrəndilər, amma daha əhəmiyyətli bir şeyi unudub orada qoydular. Bu, onların mədəni və milli kimliyi idi. Onlar qayıtdıqları ölkədə dəyərli alim olmalarına baxmayaraq, bir əcnəbi kimi rəftar etdilər, öz ölkələrinin və xalqlarının köklü məqsədlərinə lazımi xidməti göstərə bilmədilər. Bir dönəmdə bizim ölkəmizdən gedib Avropada təhsil alanların çoxu asılılığa səbəb oldular. Çünki öz kimliklərini, milli mənliklərini itirmişdilər.

Bir xalq o zaman inkişaf və tərəqqiyə nail ola bilər ki, elmi öz milli iqtidarına vasitə etsin. Əgər bir ölkəni başucalığından və milli qürurundan ayırsalar, qlobal güclərin alətinə çevrilər. Bunun da dəyəri yoxdur. Düzdür, inqilabdan sonra bizim tələbələrimizin vəziyyəti tamamilə dəyişib, İslam birlikləri fəaliyyətə başlayan zamandan və dəyərlər sahəsində çalışanların fəallığı artandan, çox yaxşı işlər görülmüşdür. Mənim məlumatım qədərincə, Şərqi Avropanın İslam birliklərinin - yəni siz əziz qardaş və bacıların İslam dəyərləri, milli iqtidar və istiqlaliyyəti qorumaq sahələrində fəaliyyəti dəyərli olmuşdur. Bu, düzgündür. Bu gün kimlərinsə elm və texnologiya öyrənmək bəhanəsilə Qərbdən asılılığı təklif etmələri mürtəcelik, gerilikdir. Əcnəbi gücdən asılı olmaq xalqa başucalığı gətirmir, amma elm öyrənmək lazımdır.

**Elm şagirdliyi və elmin istehsalı**

---

[2] Şərqi Avropa İslam təşkilatları ittifaqının bir qrup tələbəsilə görüşdə çıxışı: 10 avqust 2002.

Təhsil məqsədilə ölkədən xaricə gedən tələbələrə həmişəki tövsiyəm budur ki, özünüz üçün bacardığınız qədər elmi ehtiyat toplayın və başqalarından öyrənin. İnsan lazım olduqda şagirdlik etməli və öyrənməlidir. Lakin mühüm məsələ budur: xalq və gənc nəsil bilsin ki, həmişə şagird qalmamalı, elm istehsalı üçün başqalarına əl açmamalı, özü istehsal etməlidir. Bu imkanlardan sözügedən məqsəd üçün istifadə edin. Əmin olun ki, Allah-Taala hər bir işdə olduğu kimi, elm öyrənmək sahəsində də çalışan bir ölkəyə və xalqa kömək edəcək. Bu, Allahın qanunudur. Kim hansı yolda çalışsa, Allah-Taala o yolda ona kömək edəcək. Bu, Quranın açıq ayəsidir: istər dünya üçün, istər özləri üçün, istər amalları üçün, istərsə də xalqları üçün çalışanlara. kömək edəcək. Buna görə də, dünyada elm sahəsində çalışanlar tərəqqiyə nail oldular. Elmi tərəqqi heç bir ölkənin ideya və təfəkkürünün haqq olmasına dəlil deyil, lakin düzgün planlaşdırmanın və ciddi fəaliyyətin göstəricisidir. Göstərir ki, bu xalqda ciddi iradə olmuş, çalışmış, yaxşı planlaşdırmış və uğur qazanmışdır.

Bəzən də elmin zirvəsinə çatmış bir ölkə onu digərlərinin alim olmasının və həyat mənbələrinə malik olmasının qarşısını almaq üçün işlədir. Qlobal güclərin yeni mürəkkəb müstəmləkə dövründə və bu günə qədər bu, baş vermişdir. Böyük güclər digərlərinin sərvətlərini talayıb özlərinin başından vurmaq, başqa xalqların inkişafına mane olmaq üçün elmdən istifadə etdilər. Hər halda, proqramla işlədilər, yaxşı iradə göstərdilər, yaxşı idarə etdilər və buraya çatdılar. Əlbəttə, indi ondan çirkin və yanlış yolda istifadə edirlər. Siz də çalışsanız, yaxşı planlaşdırsanız və yaxşı iradə göstərsəniz, bugünkü dünyada həmin dəyərli nailiyyəti - yəni hər bir ölkənin birinci dərəcəli inkişaf amili olan elmi əldə edəcəksiniz. Bunun üçün ölkə daxilindəki qurumlar plan hazırlamalıdırlar. Ölkədəki ali təhsil məmurlarının, xüsusən də iqtisadiyyat və sənaye sahələrinin rəhbərlərinin və tədqiqat üzrə məsul işçilərin üzərinə çox ağır vəzifələr düşür. Onlara çoxlu tövsiyələr verilmişdir. Bəzi işlərlə məşğuldurlar, yaxşı planlar hazırlayırlar. Biz ümidvarıq ki, məmurlar bu proqramları bizim xalqımızın istedadlı gəncinə yaraşan tərzdə hazırlasınlar. Hər halda, ölkədən xaricdəki gənclərimizin heç zaman unutmamalı olduqları budur ki, bütün səylərdən, imkan və istedadlardan öyrənmək üçün istifadə etsinlər. Lakin bu elmi öz milli kimlik və dəyərlərinin xidmətində işlətsinlər.

**Hegemonizmin İslam dünyasında əsas proqramı**

Biz İslamın sayəsində hərəkət etmək ruhiyyəsinə yiyələnmişik. İslam inqilabına görə İslam dünyasında bir oyanış yaranmışdır. Təsadüfi deyil ki, bu gün hegemonizmin və beynəlxalq istismarçılığın İslam dünyasında əsas proqramlarından biri xalqları İslamdan və Quran anlayışlarından ayırmaqdır. Hətta siyasi baxımdan amerikalılarla çox yaxşı münasibətləri olan ölkələrdə də məktəb və universitetlərdə İslam anlayışlarının və Quran ayələrinin tədrisindən narahatdırlar. Biz öyrəndik ki, onlardan bəzi Quran ayələrini tələbə və gənclər arasında yayılmasına mane olmalarını istəmişlər. Bu ona görədir ki, İslam

təfəkkürü bir xalqı canlı, fəal, ümidli və hərəkətli edir. Bu ruhiyyəyə görə bir gün İslam dünyası elmin zirvəsinə ucalmışdı.

**İslam dünyası dünya elminin zirvəsində**

Bilirsiniz ki, İslamın gəlişindən sonra, üçüncü-dördüncü hicri əsrlərində tədricən bütün İslam dünyasında elmi hərəkət başlandı. O zaman İslam dünyası elmin zirvəsində idi. O gün Avropada, Şərqi Asiyada, Çində və digər yerlərdə İslam dünyası qədər elm yox idi. İslam dünyası elmin zirvəsinə ucalmışdı və bu, İslamın insanlara aşıladığı ruhiyyəyə görə idi. Bu gün Allahın lütfü ilə ölkəmizdə yaranmış əhval-ruhiyyəni qorumağa ehtiyacımız var. Biz İslam məfhumları ilə düzgün tanış olmalıyıq. İslam dəyərlərini qorumaq və elmi, İslamın təsvir etdiyi dünyanı yaratmaq üçün işə salmaq lazımdır. İslamın müsəlmanlar üçün nəzərdə tutduğu dünyanı elmsiz əldə etmək mümkün deyil. Quranın bir neçə yerində təkrar olunan "Müşriklərin xoşuna gəlməsə də, onu (İslamı) bütün dinlərin fövqündə (bütün dinlərdən üstün) etmək üçün Öz peyğəmbərini doğru yolla və haqq dinlə göndərən Odur!"[3] ayəsi bütün dünyaya mədəni cəhətdən qələbə çalmaq, bütün xalqların hidayətini ələ almaq və onları nura, mənəviyyata və ilahi təkamülə yönəltmək deməkdir. Elm olmadan bu böyük məqsədə çatmaq mümkün deyil. Yəni cahil və savadsız qalmaqla, elmi cəhətdən yerində saymaqla və həmişə elm istehsalçılarının əlindəkilərə möhtac olmaqla bu məqsədlərə çatmaq mümkün deyil. Bunun üçün mütləq elm istehsal etmək lazımdır. Ona görə biz ölkə daxilindəki tələbələrə, müəllimlərə və ali təhsil məmurlarına həmişə tövsiyə edirik ki, gənclərimizi elm istehsalı və yaradıcılıq ruhiyyəsi ilə yetişdirsinlər. Və siz bacarırsınız. Biz gərək "bacarırıq" devizini heç zaman unutmayaq. Bir dəfə imam gənclərə və İran xalqına müraciətlə dedi ki, siz bacarırsınız. Bu, çox mühüm devizdir. Uzun illər bizim ölkəmizdə birbaşa və dolayısı ilə təbliğat aparılıb, xalqımıza və gənclərimizə bacarmadıqlarını təlqin eləyiblər. Sanki elmi inkişaf sarıdan bizim ölkəmizin və xalqımızın qisməti bacarıqsızlıq, Qərb dünyasının, Avropanın taleyi isə inkişafdır. Bu, çox səhv və təhlükəli bir təsəvvürdür. Xeyr, siz elm zirvələrini fəth etməyi bacarırsınız. Elmin əyri-üyrü yolları ilə gedin, elmi düyünləri açın. Bəşərin əldə etməli olduğu və hələ fəth olunmamış elm və bilik zonaları olduqca çoxdur. Bəşər çox şeyləri hələ bilmir, bunları kəşf etmək lazımdır və siz bu işdə öncül ola bilərsiniz.

**Milli kimlik və dəyərlər**

Əlbəttə, qeyd etdiyim kimi, bu ruhiyyə o zaman yaranacaq ki, bizim gənclərimiz öz milli kimlik və dəyərlərini - bunun əsas amili əsl İslamdır - uca tutsunlar. Özündən uzaqlaşmaq, boş bir qab kimi digərlərinin istifadəsinə keçmək heç bir şeyi həll etmir. İslam birliklərinin öhdəsində gənclərdə bu dəyər kimliyini qorumaq məsuliyyəti var. Siz ölkədən xaricdə çalışan İslam birlikləri olaraq,

---

[3] Tövbə/33.

əslində, əlavə bir iş görürsünüz; həm özünüz elm öyrənirsiniz, həm də elm öyrənənləri doğru və düzgün yolda qoruyursunuz. Bu, çox dəyərli bir şeydir.

Ümidvarıq Allah sizləri müvəffəq etsin! Mümkün olan qədər İslam mərkəzləri ilə əlaqənizi artırın ki, daha çox müqavimətlə dayanıb öz ətraf mihitinizə daha böyük təsir buraxa biləsiniz. Sizə dua edirik ki, inşallah, ölkənizə əlidolu qayıdasınız, sonrakı nəsillər üçün faydalı, ölkəniz üçün dəyərli xidmətçilər olasınız.

Allahın salamı və rəhməti olsun sizə!

## İslam dünyasının başucalığı[4]

Bismillahir-Rəhmanir-Rəhim.

Sözün həqiqi mənasında bu xalqın yaxşı övladları olan siz gənclərlə görüşə çox sevinirəm. Xoşbəxtlikdən, bu gün bizim böyük xalqımızın arasında mömin, savadlı, dərrakəli və inamlı gənclərdən ibarət böyük bir toplum var. Allah-Taaladan istəyirəm ki, bu dindar və məsuliyyətli tələbə təşkilatında çalışan siz əzizlərə, həmçinin digər universitetlərdə və müxtəlif yerlərdə işləyən, dəyərli fəaliyyətlər göstərən digər gənclərə kömək etsin, müvəffəqiyyət bəxş etsin, sizi hidayət, çəkdiyiniz zəhmətləri qəbul etsin!

**Gənc qüvvəsi**

Siz heç zaman öz qüvvənizə əhəmiyyətsiz yanaşmayın. Gənc tələbə toplumu potensial və aktual bir qüvvədir. Sizin istəyiniz, işiniz, iman və etiqadınız ölkənin indiki və gələcək vəziyyətində təsirlidir. Heç şübhəsiz, pis niyyətləri olan çoxlu insanlar var; istər bu xalqın açıq düşmənləri, istərsə çox da açıq olmayan, lakin düşmən olan şəxslər. Onlar tələbənin passivləşməsini, təsir altına düşməsini, həyat yolunda bir saman çöpü kimi haraya aparsalar, getməsini istəyirlər. Başqa bir işləri budur ki, tələbədə iş, fəaliyyət və hərəkət marağı olsa, ondan bu gün kölgəsi təkcə İrana yox, bütün İslam dünyasına düşən əsl İslam müqavimətinin mübarizə gücünə qarşı istifadə etsinlər. Yəni tələbənin gənc, dərrakəli və ayıq qüvvəsindən ağlın, dinin və siyasi mövqeyi dərkin tələb etdiyi istiqamətin tam əksinə istifadə etsinlər. Əgər düşmənlər tələbəni özləri istədikləri yola çəkə bilməsələr, mütləq işləyib təbliğat aparacaqlar ki, onu hərəkətsizliyə və fəaliyyətsizliyə sala bilsinlər. Siz hər iki plan qarşısında möhkəm dayanmalısınız.

**Müqavimət**

Əgər səsləri düşmənlərimizin onlarla radio və televiziya kanalından və digər informasiya vasitələrindən gələn beynəlxalq təbliğatı izləsəniz, qeyd etdiyim məqamı tam şəkildə müşahidə edərsiniz. Əlbəttə, mənim daxili qruplarla işim yoxdur. Daxildə də düşmənlərin məqsədlərini izləyənlər mövcuddur, lakin əhəmiyyətsizdirlər. Onların əhəmiyyətsiz olmasına dəlil budur ki, bəlli və aşkar olan xarici düşmənlərin təbliğatının himayə çətrinə söykəniblər. Buna görə də, onlara diqqət yetirmir və diqqətinizi tələbələr arasında və ölkənin ictimai mühitində kimin düşmən, kimin dost olması ilə maraqlanmağa yönəltmək istəmirəm.

---

[4] Tələbələrin İslam cəmiyyətinin üzvləri ilə görüşdə çıxışı: 7 sentyabr 2002.

**Qələbənin iki şərti**

Düzgün işi və yolu tapıb hərəkətə başladıqda istədiyiniz iş baş tutacaq. Əvvəla, bilməlisiniz ki, Allahın lütfü ilə bizim tələbə gənclərimizin böyük bir qisminin malik olduğu dindarlıq və mənəvi paklıq çox böyük bir dəyərdir. Bunu əldən verməyin. Siyasi problem və yanlışlıqların əsas hissəsi bu dəyərin sıradan çıxdığı andan başlayır; bütün problemləri demirəm, əsas hissəsi belədir. Özünüzdə olan dindarlığın, Allaha və mənəviyyata təmayülün qədrini bilin, onu qoruyun, Allah və Allah övliyaları ilə mənəvi əlaqənizi bacardığınız qədər artırın. Bu iş üçün ən mühüm vasitə haram və günahlardan çəkinməkdir. Haramlardan çəkinməyin özü insanı nurlu edir, bilmədiklərinin çoxunu ona öyrədir. Siz gənc, ürəklərinizin pak və nurlu olduğundan, sizdə bu imkan çoxdur. Bunun qədrini bilin. Biz də gənc olanda qocalar və bizim indiki yaşımızda olanlar həmişə bizə deyirdilər ki, bu fürsətin qədrini bilin. Biz onların nə dediklərini yaxşı anlamırdıq, amma insan sonra anlayır. Sizin kimi mömin, ibadətçi və dindar olan qız və oğlanda çox dəyərli amil var. Dəyəri dünyadan və dünyada olanlardan artıq olan bu amil qəlbin sağlamlığı, nəfsin, ruhun paklığı və təmizliyidir. Əlbəttə, demirəm ki, tamamilə təmiz olsun. Hər halda, hamının bir səhvi ola bilər. İnsanın bəzi günahları səhv və xəta üzündən baş verir. Bunlar mümkündür, lakin Allahın lütfü ilə ölkənin dini mühitində inkişaf etmiş o nuraniliyi, səmimiyyəti, fitri paklığı qoruyun. Nə zamansa bir xəta baş versə də, dərhal Allah-Taalaya üz tutun. Peşmanlıq, tövbə və günahı təkrarlamamaq qərarı bu xətaların əlacıdır. Bu, çox böyük dəyərdir.

Çox mühüm olan başqa bir dəyər də var. Tələbələr arasında bu dəyəri məhv etməyə çalışırlar. Bu dəyər ümiddən və gələcəyə inamdan ibarətdir. Bilmədiyimiz bir gələcəyə necə etimad edə bilərik? Gələcəyə etimad özünüzə etimada görədir. Gələcək yaxşı olmalıdır. Düşünməklə, qərar verməklə, əməl etməklə və müntəzəm işlərlə siz gələcəyə ümidvar ola bilərsiniz. Ümidvar olmaq istədiyimiz gələcəyin ümumi görüntüsü belədir ki, İslam quruluşu işləməməyin və pis işləməyin təsirindən yaranan bütün zəif cəhətləri, təsiri xalqın məişətində, mədəniyyətində və əxlaqında görünən nöqsanları aradan qaldırsın. Bu işi kim görməlidir? Sizlər görməlisiniz. Zaman da çox çəkməyəcək. İndi iş başında olanlar 10-15 il bundan əvvəl sizin kimi tələbə idilər.

**Həmrəylik və ümid**

Siz gələcəyi qurmaq üçün indidən özünüzdə dini və siyasi baxımdan həqiqi bünövrə, təhlil və qərar qabiliyyəti, məlumatı, düşmənin müxtəlif təzyiqləri qarşısında müqavimət - düşmən bacardığı qədər təzyiq göstərir, insan onun qarşısında qaya kimi möhkəm dayanmalıdır - yaratmalısınız. Bilin ki, bu ölkədə sizin kimilər, sizinlə həmrəy, yekdil və eyni arzuda olanlar çoxdur. Siz öz işinizi görün, başqaları da öz işlərini görməkdədirlər. Və mən sizə deyirəm ki, bu gün bu həmrəylik və yekdillik təkcə buraya aid deyil, bütün İslam dünyasında var. İslam dünyasının hər bir cəmiyyətində, hətta hökumətləri bizimlə çox pis olanların da universitet və ziyalıları arasında və gənc mühitində İslam Respublikasına sevgi və

tərəfdaşlıq duyğuları dərin formada mövcuddur. Mən bunları məlumat əsasında deyirəm. Bəzən görürsünüz ki, burada bir məmur, yaxud məmurabənzər və ya qeyri-məmur şəxs bir qəzetdə, yaxud başqa yerdə hər bir şeyin pozulduğunu, dağıldığını, bizim əldən getdiyimizi, öldüymüzü və kimlərinsə gəlib bizi nizama salmalı olduğunu göstərən sözlər deyir. Bəzən ölkədən xaricdə olanlara bu xəbərlər çatdıqda nigaran olurlar, elə bilirlər ki, İslam inqilabı və İslam quruluşu daxildə ciddi bir təhlükə qarşısındadır. Buna görə vahiməyə düşürlər.

**Dünyanın nifrət bəslədiyi ABŞ**

Siz dünyada İran kimi başqa heç bir ölkə tapa bilməzsiniz ki, ölkənin gəncləri və xalqı məsul şəxslərinin şəkillərini otaqlarına vursunlar, universitetlərdə və toplandıqları yerlərdə əllərində tutub qaldırsınlar. Dünyanın harasında toplantı zamanı ABŞ prezidentinin şəklini qaldırırlar?! Bəli, qaldırırlar desinlər ki, itil, uzaq ol, ya da yandırmaq üçün qaldırırlar. Lakin dünyanın bir çox ölkələrində - təkcə Livanda deyil, siz televiziyada Livan və Suriyanı görürsünüz - tələbə yataqxanalarında, elmi mühitlərdə və digər toplantılarda İranın dövlət başçılarının şəkillərini vururlar. Onların adını təbərrük üçün və sevimli bir şəxs kimi çəkirlər. İslam quruluşu əleyhinə aparılan güclü təbliğatlar bu həqiqətləri bizim gənc nəslin beynindən uzaqlaşdırmaq üçündür. Bizim gənc nəslimiz elə bilsin ki, hər şeyi əldən vermiş, uduzmuş və sərvəti əldən çıxmışdır. O eləcə özünü hadisələrin içinə atmalıdır. Xeyr, əsla belə deyil. Bu gün beynəlxaq məsələlərdə və xüsusən də bizim həssas regionumuzun məsələlərində elə bir vəziyyət yaranıb ki, böyük düşmənlərimiz günbəgün daha da mənfur olurlar. Bu gün dünyada ABŞ-a nifrət hər gün artır. 10-15 il əvvələ qədər az eşitmişdik ki, dünyada hansısa bir xalq ABŞ əleyhinə şüar versin. Lakin bu gün dünya ölkələrinin çoxunda ABŞ əleyhinə şüar verirlər, ABŞ-ı təcavüzkar, işğalçı, pis və şeytan hesab edirlər.

**İranın böyük sərvəti**

Belə hadisələrdə İslam inqilabının və İslam quruluşunun enerji mərkəzli rolunu həmişə diqqətdə saxlayın. Bizim ixtiyarımızda böyük bir sərvət vardır və o, İslam bilgisi, İslam baxışı, İslamın təklifidir. Bir quruluş və cəmiyyət qurmaq üçün İslamın təklifi insanların həqiqi, qanuni və məntiqli istəklərinə tam uyğundur. Hər bir xalq başucalığının qorunmasını istəyir. İslam müsəlman ölkələrinə və cəmiyyətlərinə bunu ciddi şəkildə tövsiyə edir: başucalığınızı əldən verməyin.

**İslamın dünyaya hədiyyəsi**

Özündə olan və düzgün düşünən hər bir ölkə və xalqın ürəyi istəyir ki, öz müstəqilliyini qorusun, heç kim onun işlərinə müdaxilə etməsin. İslamın müsəlman dövlət və xalqlara ciddi və təkidli əmri budur ki, digərlərinin müdaxiləsinin qarşısını qətiyyətlə alsınlar. “Allah heç vaxt kafirlərə möminlərin

əleyhinə olan bir yol göstərməz!”[5] və “Zülm edənlərə meyl etməyin”[6] ayələri bunu təsdiq edir. Bunlar İslam həqiqətləridir, lakin çoxları bunlara diqqət yetirmirlər. Bir hədisdə göstərilir ki, mömin öz işləri barədə istədiyini edə bilər, lakin özünü rəzil edə bilməz. Hətta şəxsi əlaqələrdə də sizin haqqınız yoxdur ki, özünüzü xar edəsiniz. Buna görə, mömininin şərəfi elə bir sərvət deyil ki, nə zamansa lazım olsa, onu hər kəsin ayağı altına atmağa haqqı olsun. Bu, mömin fərd barədədir, İslam ümmətinin şərəfi isə öz yerində. Hər bir xalq istəyir ki, yaşayışı yaxşı və ali səviyyədə olsun, başqalarına əl uzatmasın. İslam da bunu tövsiyə edir: “Zülm edənlərə meyl etməyin”. Yəni əsla söykənməyin. Mübadilə belə deyil. Mübadilə və alış-veriş qüdrət, əl açmaq isə rəzalət mövqeyindəndir. İslam quruluşu belə bir təməllər üzərində qurulur və bunu təmin etmək istəyir. Elə bu gün İslam quruluşunun ən inadkar düşmənləri də bu istiqlaliyyət və başucalığı istəyinə qarşı çıxırlar, hakim olub istədiklərini etməyi, hər bir ölkədə öz maraqlarını istədikləri formada təmin etməyi arzulayırlar. Hansı xalq onlara qarşı çıxsa, düşmən olurlar. Hansı bir dövlət onların qarşısında dayansa, hansı bir quruluş müqavimət göstərsə, düşmənliyə başlayırlar. Bu gün düşmənlərimizlə mübarizəmizdə və düşmənlərimizin bizimlə mübarizəsində əsas məsələ budur.

### ABŞ-ın əlavə imtiyazlar istəyi

Bu gün ABŞ-ın bizimlə böyük problemi budur ki, niyə işlərinizə müdaxilə etməyə qoymursunuz? Nə üçün bizim silah, texnologiya və elm gücünə əldə edib bütün dünyada icra etmək istədiyimiz ağalığı qəbul etmir və ona qarşı çıxırsınız? İndi bölgədə İraqa və digər ölkələrə aid gördükləri işlərin hamısı region ölkələrinə öz hökmranlıqlarını daha da artırmaqdan ötrüdür. Bunun son həddi yoxdur. Gördüyünüz kimi, regionumuzun bəzi ölkələri qapılarını ABŞ-ın üzünə tam açmışlar. İndi burada bəzi sadəlövh adamlar elə bilirlər ki, qapıları ABŞ-ın üzünə açılsa, qapı-pəncərədən naz-nemət, xeyir-bərəkət yağacaq. Yoxsulluq, problem, kredit və iqtisadi uğursuzluq mərkəzi olan ölkələr qapılarını ABŞ-ın üzünə həmişə açıq qoyan ölkələrdir. Məgər ABŞ hansı ölkəyə kömək edir, yaxud kömək icazəsi verir? O, bacardıqca sorur və əmr verir. Lakin bu hədlə də qane deyillər, günbəgün artıq şeylər istəyirlər. Qapıları ABŞ-ın üzünə açıq olan ölkələr indi vahiməyə düşmüşlər. İsraillə əlaqədə və digər məsələlərdə 100 faiz ABŞ-ın istəyinə uyğun hərəkət edən Misir rejimi də indi ABŞ-ın daha artıq təsirindən və artıqtamahlığından çox qorxuya düşmüşdür. Təkcə ABŞ yox, rəftarına dinin və əxlaqın hakim olmadığı hər hansı bir hegemon dövlət meydana çıxsa, belə olacaq. Bir gün bu işləri İngiltərə görürdü, indi isə ABŞ görür. Ölkələrini ikiəlli amerikalılara verənlər indi nigarandırlar və qorxuya düşmüşlər. Əlbəttə, bunlardan gözləmək olmaz ki, bu məsələləri ümumi söhbətlərində desinlər.

---

[5] Nisa/141.

[6] Hud/113.

**Dövlətlərin gücü**

Hər bir dövlətin ilk gücü onun xalqıdır. Bunlar öz xalqlarına etinasızlıq etdilər, onları saymadılar və xalqdan uzaq hökumətlərə çevrildilər. Bəllidir ki, hökumət xalqından ayrılsa, harasa arxalanmağa məcburdur. Ora da sözügedən güclərdir. Bunların əldən verdikləri ilk güc xalqları idi. Əldən verilən çox böyük ehtiyatlardan biri İslam təfəkkürü, İslam imanı və İslama etiqaddır. Onlar düşmənin ölkə daxilində xalqlarının imanının başına istədiyi bəlanı açmasına icazə verdilər. Xalqın imanı tədricən əridi. Bu onların günahıdır. Siz də bundan ehtiyatlı olmalısınız.

**Universitetdə əsaslı işlər**

Mənim əzizlərim! Universitetdə dərs oxumaq, universiteti İslama uyğun fəaliyyət üçün qorumaq, İslama uyğun saxlamaq və bacardıqca İslama daha çox uyğunlaşdırmaq üçün fəaliyyət göstərmək, aktiv tələbə ruhiyyəsini qorumaq, düşüncə, iman və elm təməllərini gücləndirmək çox əsaslı işlərdəndir. Çalışın özünüz kimi digər tələbələrlə, istər başqa birliklərdə olan, istər heç bir birlikdə olmayan, lakin yaxşı istedadları olan tələbələrlə yaxşı münasibətlər qurun. Hansısa bir birliyin bir çox məsələlər baxımından sizinlə həmfikir olması da mümkündür, olmaması da. Lakin çalışın bütün tələbələrlə bu təsirli, mənəvi əlaqələri davam etdirin. Allah-Taalaya təvəkkül edin. Allah sizinlədir, inşallah, mömin olsanız, Allah sizləri sevir. Allah Onun yolunda çalışan hər kəsə kömək vədi vermişdir: "Şübhəsiz, Allah Ona kömək edənlərə mütləq kömək edəcək!" Bundan daha təkidli bir ifadə yoxdur. Quranın aşkar ayəsidir, hədis deyil ki, sənədində problem olsun. Məzmununda qaranlıq bir şey yoxdur. Bu ayədə iki təkid əlaməti işlədilmişdir. Şübhəsiz, Allah-Taala Ona kömək edənlərə mütləq kömək edəcək. Ona kömək etmək də bu şərəfli yolla getməkdir.

Allahın salamı və rəhməti olsun sizə!

## Universitet müəllimlərinə tövsiyələr[7]

Bismillahir-Rəhmanir-Rəhim.

Bu il də xalqın və ölkənin alimləri olan universitet müəllimlərinin və alimlərin toplantısında iştirakı etməyə, mübarək ramazan ayının bir saatını birgə keçirməyə nail olduğumuz üçün çox şadam. Bu məclis mənim üçün bir neçə cəhətdən faydalıdır. Biri budur ki, elm adamları, elm, təhsil, məktəb və tələbə ilə işləyən şəxslərin məclisində iştirak etməyin özü bizim üçün gözəl və zövqlü bir işdir.

**Ən yaxşı istirahət saatları**

Bizim adi yaşayışımızda, siyasət və idarəçiliyin bu macəralı və daş-qayalı yolunda bu bir fürsət və istirahətdir. Mənim üçün sutka ərzində vəzifəmlə bağlı olmayan ən yaxşı istirahət saatları elmi işlərimlə məşğul olduğum saatlardır. Əvvəla, bu baxımdan, elm adamları ilə bir yerdə oturmaq mənim üçün faydalı və ləzzətlidir. İkincisi isə sizin toplantınızda mən dinləyiciyəm. Bu məclislərdə adətən, universitet müəllimlərinin və alimlərin dilindən elmə, universitetə və ölkənin elmi məsələlərinə dair əsas məsələlər bəyan olunur. Bu da mənim üçün faydalıdır. Çünki məmurlarda elm, tədqiqat və universitetlə bağlı düzgün təsəvvür yaradır. Bundan əlavə, deyilən məsələlərin bəziləri təbii ki, həll olunur. Necə ki, ötən illərin məsələləri ilə maraqlanıldı və yaxşı nəticələr əldə edildi.

Buna əsasən, bu məclis mənim üçün gözəl və faydalı bir məclisdir. İnşallah, bu fürsətdə cənabların və xanımların sözlərindən bəhrələnərik. Bu məclis hamı üçün, xüsusən də universitet üçün faydalı olar.

**Dövlət qurumlarının universitetlərlə əlaqəsi**

Toxunduğunuz mövzu məndə bu inamı gücləndirdi ki, dövlət qurumları ilə universitetlər arasında əlaqə çox zəruridir. Bu əlaqəni nizamlı şəkildə və müəyyən qaydalarla bərqərar etmək lazımdır.

Düzdür, keçmişdə mənim təkidim daha çox sənaye və texnologiya sahəsinə aid idi, dövlətin uyğun sahələrinə tövsiyə edirdim ki, universitetlə əlaqələrini gücləndirsinlər. Lakin bu əlaqə demək olar ki, bütün sahələrdə gücləndirilməlidir.

Əgər dövlət qurumları siyasi, mədəni və tərbiyəvi sahələrdə, həmçinin hövzə və universitetin əlaqəsi sahəsində universitetlə nizamlı əlaqə yaratsalar, universitetin parlaq beyinlərinin quruluşun qərar mərkəzlərində fəaliyyəti, şübhəsiz, böyük müsbət təsirlər buraxa bilər. Mən buna inanıram. Bu inam dostların bugünkü söhbətlərilə gücləndi və güclənməsi də lazım idi.

---

[7] Ölkə universitetlərinin müəllimləri ilə görüşdə çıxışı: 13 noyabr 2002.

**Kəsə yollar**

Mənim əziz universitet mənsublarına demək istədiyim söz oxşar görüşlərdə dəfələrlə dediyimdir. Yenə də təkrar etmək istəyirəm ki, biz elmi baxımdan dünyadan geridəyik. Bu məsafəni keçmək üçün bir yol yoxdur?! Mənim qəti fikrim budur ki, biz qısa yollardan istifadə edib, ilk baxışda heç zaman mümkün görünməyən bu məsafəni keçə bilərik; çünki böyük məsafə ilə irəlidə hərəkət edən və günbəgün sürətini artıran şəxs dayanmadan uzaqlaşır. Mənim ciddi fikrim budur ki, bu məsafəni azaltmaq, ölkəmizdə və bizə bənzər ölkələrdə olan elmi nöqsanları və mövcud uçurumları həll etmək olar.

**İstedad - kafi yox, lazımi şərt**

Bizi buna cürətləndirən məsələ ölkə daxilindəki istedadlardır. Amma dostlar, istedad təklikdə kifayət etmir. Mənim təkidim budur ki, istedad lazımi şərtdir, amma kafi şərt deyil. İstedadın yanında alim, mütəfəkkir və müəllimlərin sürəkli səyləri də olmalıdır. Bu, dövlət qurumlarının işini inkar etmək deyil; müəllimlərin problemlərini görməzliyə vurmaq da deyil. Bunun özü bir həqiqət və yerli gözləntidir ki, elm adamları universitetdə elm istehsalı ilə, elm sahəsində yenilikçi və qurucu baxışla, mənim elmi mühitdə Proqramlaşdırma hərəkatı adlandırdığım məsələ ilə məşğul olsunlar. Bizim buna ehtiyacımız var. Düzdür, ən böyük məsuliyyət dövlət qurumlarının üzərinə düşür.

**Elm məsələsi - ölkənin birinci dərəcəli prioriteti**

Dostlar məndən tədqiqat büdcəsinə dair kömək etməyimi istədilər. Əmin olun ki, ölkənin büdcə bölgüsü və uyğun prioritetlərin təyini rəhbərin ixtiyarında olsaydı, mən elm və tədqiqatı birinci prioritetlərdən edərdim. İndinin özündə də müvafiq mərkəzdə çalışan dostlara, burada iştirak edən möhtərəm nazirin özünə və prezidentə ölkənin birinci dərəcəli 3, yaxud 4 prioritetini elan edərkən elm məsələsini dedim.

**Elm və tədqiqat - ölkə problemlərinin həlli**

Mənim ciddi fikrim budur ki, ölkə problemlərinin uzunmüddətli həlli bu yolla mümkündür, başqa yolla yox. Yəni biz elm və tədqiqat sahəsində inkişaf etməliyik. Elmin bəhrə verməsi, elm səviyyəsinin yüksəlməsi üçün də mütləq tədqiqat lazımdır. Tədqiqat olmadan mümkün deyil. Buna görə, mənim bu sahədə edə biləcəyim kömək budur ki, dövlət məmurlarına təkidlə tövsiyə etməliyəm və mütləq edəcəyəm. İnşallah, həm Təhsil nazirliyi, həm İdarəçilik və Planlaşdırma Komitəsi, həm də digər aidiyyətli orqanlar və prezident aparatının bəzi şöbələri mütləq bu məsələ barədə ciddi işlər görsünlər. İslami Şura Məclisi də bu ehtiyac üçün vəzifəsini yerinə yetirməlidir.

**Faydasız seminarlar**

Ölkədəki büdcələrin çoxu prioritetli büdcələr deyil. Bu seminarların, toplantıların bir çoxu faydasızdır. Fikrimcə, ötən il, yaxud iki il öncə burada dedim ki, bu məclis əsl seminardır. Heç bir xərci də yoxdur. Bəzi alimlər bir yerdə əyləşib ölkənin mühüm məsələlərindən biri - yəni ali təhsil barədə sözlərinin məğzini deyirlər. Əgər pul və zaman baxımından seminarlar üçün çəkilən xərclərin faydası olmasa, çox zaman da faydası olmur - kənara qoyulmalıdır. Nisbətən çoxlu büdcə alan bu mərkəzlərin çoxunda heç bir prioritet yoxdur. Bu büdcələr şübhəsiz, tədqiqat və digər sahələrə yönəlməlidir. Dövlət qurumları bu məsələ ilə maraqlanmalıdırlar. Mən də təkid edib, inşallah, yazılı şəkildə bildirəcəyəm.

**Universitet müəllimlərinə tövsiyələr**

İnsafla desək, universitetin özünə və daxilinə aid sahə də böyük əhəmiyyətə malikdir. Mənim təkidim budur ki, ölkədə elmin bayraqdarı olan möhtərəm müəllimlər indiki dövrdə özlərini doğrudan da məsuliyyətli bilsinlər. Mənimlə ayrı-ayrı vaxtlarda və müxtəlif münasibətlərdə görüşən gənclərin və tələbə qruplarının bəzisi narazıdırlar. Etirazlarının biri budur ki, bəzi müəllimlərin hazırladığı dərs vəsaitləri aktual deyil, tələbənin o fəndə ehtiyacı olan mövzuları ehtiva etmir. Onların başqa etirazı budur ki, müəllimlər tələbələrlə məşğul olmurlar, yalnız dərs deyib gedirlər. Bu məqamı mən müəllimlərlə görüşümdə 2-3 dəfə vurğulamışam. Düzdür, bilirəm ki, bəzi müəllimlər məişət problemləri və bəzi sıxıntılarla bağlı çox dərs götürməyə məcburdurlar. Bunu qəbul edirəm və bilirəm. Amma hamı belə deyil. Mən xahiş edirəm ki, tələbə ilə dərsdən artıq işləyin, əlaqə yaradın, onu işləməyə vadar edin, tədqiqat sahələrini onunla bölüşün. Müəllim və tələbə arasında elmi müzakirə də çox mühüm bir məsələdir.

**Qərar mərkəzlərinin əhəmiyyəti**

Əlbəttə, bunların bəzisi strateji formada qərar mərkəzlərində qəbul olunmalıdır; o cümlədən, cənab Doktor Şəriətmədarinin haqlı olaraq dediyi bəzi məsələlər, tərbiyə məsələsi və onun əhəmiyyəti, yaxud ali təhsilin Təlim və tərbiyə nazirliyi ilə əlaqəsi. Bunlar Mədəni İnqilab Ali Şurasında müzakirəyə çıxarılmalıdır. Çünki ora qərar mərkəzidir. Mədəni İniqlab Ali Şurası buna görə lazımlı bir mərkəzdir. Bəzən ətrafdan kimlərsə Mədəni İniqlab Ali Şurasına ehtiyac barədə şübhə salırlar. Xeyr, təsadüfən, bəzi dostların toxunduğu bu mövzular haqqında siyasət təyin edilməlidir. Bu iş qanunvericilik mərkəzi olmayan bir yerdə baş tutmalıdır. Qanun qurumun gündəlik xərc etdiyi bir şeydir; xərcləmək üçün xırda pul kimi. Bu şura isə siyasət təyin edən mərkəzdir. Siyasət təyin etmə mərkəzi qanunverici mərkəzlərin fövqündə durur, strateji proqramlarla məşğuldur. Mədəni İniqlab Ali Şurası bu iş üçün münasib mərkəzdir. Mənim fikrimcə, bu məsələlər orada araşdırılmalıdır.

Mən dostların toxunduğu məsələlərin başlıqlarını qeyd etdim. Möhtərəm müəllimlərin çıxışları eynilə yazılıb. Onlar kompüterdə yığılacaq, onlardan əsas təklif və məqamları çıxaracağıq. İnşallah, bizim özümüzə, yəni siyasət təyin

edənlərə aid olanları Quruluşun Məsləhətini Müəyyənləşdirən Quruma, yaxud Mədəni İniqlab Ali Şurasına çatdıracağıq. Üç hakimiyyətin başçılarına deyilməli olanları da onlara deyəcək və tövsiyə edəcəyik. Digər qurumlara aid olanları da özlərinə ötürəcəyik ki, məşğul olsunlar.

Ölkənin ali təhsili və universitet məsələləri üçün düşünməyi və çarə fikirləşməyi faydalı hesab edirəm. Dostlardan da xahiş edirəm ki, bəyan olunan sahələrdə, yaxud bəzi dostların demək istədiyi, lakin vaxtın çatmadığı məsələlər üzərində düşünsünlər və bizimlə bir araya qoysunlar. Mən bunu yaxşı qarşılayıram və ölkənin strateji siyasətlərində yer tuta biləcək qədərincə, şübhəsiz, bizim tərəfimizdən işlər görüləcək.

Dostlara, qardaş və bacılara yenidən təşəkkür edirəm ki, bu dəvəti qəbul edib, bu yaxşı məclisi təşkil etdiniz, gözəl fikirlərinizi bölüşdünüz. İnşallah, deyib-eşitdiklərimiz Allahın razılığına səbəb olsun və Onun dərgahında qəbul olunsun!

Allahın salamı və rəhməti olsun sizə!

## Aydın fikirli müsəlman tələbə[8]

Bismillahir-Rəhmanir-Rəhim.

**Tələbə hərəkatının inkişafı**

Mənim üçün çox şirin və ürəkaçan bir məclisdir. Əlbəttə, bu məclis simvolikdir. Yəni bir neçə ildir ramazan ayının bir gününü tələbə oğlan və qızlarla bir yerdə otururuq, iftar edirik. Bunun özü simvolik bir işdir. Mən bu işlə tələbə təbəqəsinin dəyərini və bu təbəqənin ölkənin bu günü və gələcəyində olan çox əhəmiyyətli rolunu göstərmək istəyirəm. Həmçinin göstəririk ki, İslam quruluşu tələbə hərəkatının inkişafını və bu inkişafla bağlı bütün xüsusiyyətləri müsbət qarşılayır. Bu xüsusiyyətlər sizin özünüzün dedikləriniz və bildiklərinizdir: həvəs, istedad, gənclik duyğuları, amalçı istəklər, bəzən gənc olmayanlar üçün əlçatmaz görünən ideallara vurğunluq. Gənc bu ideallar uğrunda daim çalışır. Xalqları və ölkələri durğunluqdan qurtaran da bu çalışmalardır. Bugünkü məclisimizin əsas məqsədi budur.

**Universitetə və tələbələrə qarşı optimist**

Mən yalnız iki-üç məqamı xatırlatmaq istəyirəm. Biri budur ki, mən universitetə və tələbələrə qarşı optimistəm. Danışıqlardan isə göründü ki, bəzi tələbələr belə deyillər. Bu optimistlik xam xəyaldan qaynaqlanmır. Hər halda, biz ömrümüzü bu işlərdə keçirmişik. Bu yaşda və mənim vəziyyətimdə bir insan üçün xamxəyal olmaq çox da ehtimal olunmur. Mən universitetin vəziyyətindən - istər elmi, istər mədəni, istər əxlaqi və mənəvi vəziyyətindən ətraflı məlumat alıram. Bütün bu məlumatların nəticəsi dediyimdir: Mən nikbinəm.

Elmi sahədə dediyiniz çatışmazlıqlar var: müəllim problemi, müdiriyyət problemi, proqram problemi, büdcənin azlığı və sair. Bunları bilirəm, bunlar mənim son 10 ildə universitet mənsubları ilə - müəllim, tələbə və rektorlarla görüşdə daim təkrar etdiyim və maraqlandığım məsələlərdir. Bunların bir qədəri yaxşılaşmışdır. Lakin bütün bu problemlərə baxmayaraq, bizim universitetlərdə elmə həvəs və istedadların çiçəklənməsi duyulur. Bunu görməzdən gəlib həmişə məyusluq ayəsi oxuya bilmərik. Sonuncu çıxış edən əzizimiz də dedi ki, mən müjdə vermək istəyirəm, digərləri qorxutdular. Amma onun bir kəlmə müjdəsi də digərlərinin qorxutmaları arasında itdi; hərçənd o müjdə realdır.

**Həqiqi müjdə**

Mənim vermək istədiyim bu müjdə də realdır. Bizim universitetlərimizdə elmi hərəkət və istedad çiçəklənməsi inkişafa doğru gedir. Siz baxın, müxtəlif elmi

---

[8] Universitetlərin elmi nümunələri ilə görüşdə çıxışı: 28 noyabr 2002.

sahələrdə, daxili və xarici olimpiadalarda iştirak etmək istəyənlərin sayı artıb. Mənə bir məlumat verdilər, əgər səhv etməsəm, ötən il yüz min nəfər riyaziyyat olimpiadasında iştirak etmək istəmişdir. Bu, yüksək rəqəmdir. Məlumatlı ekspertlər dedilər ki, bu yüz min nəfərin ən azı qırx min nəfəri dərs və təhsil baxımından ideal vəziyyətdədirlər. Yaxud fundamental elmlərdə biz beynəlxalq olimpiadalarda həmişə dünyanın ilk on ölkəsindən oluruq. Hətta bütünlüklə idxal fənni olan, yəni heç bir uğurlu keçmişimiz olmayan kompüter sahəsində də dünya olimpiadalarında yüksək yerləri tuta bilmişik.

**Əlli il sonra**

Bir əzizimiz dedi ki, mən cümə namazında belə demişəm: "Ölkənin elm adamlarından gözləyirik ki, əlli ilə qədər dünyaya elm ixrac edək". Bu, qeyri-mümkün bir şey deyil. İndi siz özünüzə müraciət edin; əgər bu söz sizə imkansız və absurd görünürsə, bilin ki, hələ də "siz bacarmırsınız, bacarığınız yoxdur!" deyib, zorla yeritdikləri ənənə beyinlərinizdə mövcuddur. Bu yalançı ənənəni yox etməliyik. Bu tamamilə mümkündür. Biz mənfur rəhbərlərin, avtoritar rejimlərin, Qərbə və ABŞ-a bağlı hökumətlərin əlində qalmışdıq. Elmin doğuş və inkişaf dövrü olan bu 150-200 ildə harada öz istedadımızı çiçəkləndirmək istəmişiksə, başımızdan vurublar. Əgər Qərbdən gələn bu kiçik sənayeni - şüşəni, parçanı, fotoqrafiya şüşələrini düsəltmək istədiksə, mane oldular. Dünyada istehlakçılarının olmasını istəyən transmilli korporasiyalar da bunu istəmirdilər, buna görə qarşısını alırdılar. Bizim keçmiş hökumətlərimiz asılı, azğın, pis və ləyaqətsiz olmuşlar. İnqilabdan sonra bu sədlər sındı. Əgər məcburi müharibə və bəzi başqa məsələlər olmasaydı, inqilabçı hakimiyyət bundan yaxşı işlər görə bilərdi. Allahın lütfü ilə gələcəkdə İslam quruluşu və inqilabı sayəsində bu işlər görüləcək. Bu bizim ölkəmizin qəti taleyidir.

**Universitetin əxlaq problmelərinin şişirdilməsi**

Əxlaqi sahədə də belədir. Bəziləri universitetdəki əxlaqi problemləri çox şişirdirlər. Mən indi elə bir söz işlətmək istəmirəm ki, belə problemdə olanlar sözümdən həvəslənib onu kiçik və yüngül saysınlar. Lakin sizə demək istəyirəm ki, bizim gənc tələbə nəslimiz əxlaqi problemlərə düçar olan Qərb ölkələri arasında yox, hətta müsəlman ölkələri arasında da əxlaq, mənəviyyat və zərif insani duyğular baxımından misilsiz və böyük fərqlə yüksəkdədir. Bəlkə də çoxlarınız bilirsiniz, bir universitetdə tələbələr qərara gəlirlər ki, şəban ayının birinci gününü oruc tutsunlar və xörək jetonlarını toplayıb kasıblara versinlər. Məsələ yoxsula kömək deyil, oruc tutmaq, Allaha diqqət, ibadətdir. Bizim universitetlərdə belə məsələlər var və xoşbəxtlikdən, az və nadir də deyil. Hətta bəzən müşahidə olunan siyasi çəkişmələr, cinah ayrılıqları və əxlaqsızlıqlar da mənəvi təmayülün üstünlüyünü məhv edə bilmir.

**Aydın fikirli müsəlman tələbə**

Mənim və İslam quruluşunun qənaəti budur ki, ümumilikdə tələbə təbəqəsi müsəlman, dindar və aydın fikirli bir təbəqədir. Dünya səviyyəsində bəzi cərəyanlar mövcuddur, bəzilərinin İranda şöbəsi də var. Onlar tələbəni nə aydın fikirli kimi bəyənirlər, nə də müsəlman kimi. Aydın fikirli kimi bəyənmirlər, çünki onu partiya, siyasət və idxal edilmiş təəssübkeşlik və ehkamçılığa çəkirlər. Biz "ehkamçılıq" dedikdə təsəvvürümüzdə dini ehkamçılıq canlanır. Bəli, o da bir növ ehkamçılıqdır, amma ehkamçılıq təkcə bu deyil. Ondan da təhlükəli olan siyasi ehkamçılıqdır. Siyasi partiya və təşkilatların formalaşmasından doğan ehkamçılıq heç kəsə düşünmə imkanı vermir. Əgər bir məsələnin düzgün olması üçün on qaneedici dəlil göstərsək, qəbul edir, amma əməl zamanı ayrı cür əməl edir. Niyə? Çünki partiyası, yəni başının üstündə duran siyasi təşkilat mafiya atalığı kimi, ondan belə istəyir. İnsan bunun bəzi nümunələrini təəssüf ki, hətta univeristetdə də görür.

**Aydın fikirliliyin mahiyyəti**

Deməli, belə bir ehkamçılığa düçar olan toplum daha aydın fikirli deyil. Çünki aydın fikirlilik haqq istəyi ilə, açıq gözlə, məntiq və dəlillə yanaşı olmalıdır. Müsəlman olmaq istəməmələri də bundan ötrüdür ki, müsəlmançılığın təhlükəli olduğunu bilirlər. Bu gün hegemon düşərgənin, xüsusən də ABŞ və sionizmin düçar olduğu əsas problemlər - bu problemlər olduqca çoxdur - ona görədir ki, müsəlmanlar özünüdərkə yiyələnmişlər. Bu özünüdərkdə bizim böyük imamımızın, xalq, inqilab və quruluşumuzun böyük rolu olmuşdur. Onların əsas başağrısı bu cəhətdəndir. Ona görə bunu məhv etmək istəyirlər. Bu baxımdan, tələbənin müsəlman olmasından çox narazıdırlar.

**Birliklərin çoxluğunun zəruriliyi**

Mənim fikrim budur ki, qeyd olunan tələbə birlikləri ittifaqı yaxşı bir şeydir. Lakin o demək deyil ki, bütün birliklər buraxılsın və bir ittifaq olsun. Bu, düzgün təcrübə deyil. Çox keçməyəcək ki, həmin ittifaq da birliklərin çoxunun böyük problemlərini yaşayacaq. Düzgün yolu budur ki, mövcud tələbə birlikləri qarşılıqlı anlaşma ilə, haqqı görməklə və tələbənin xüsusiyyəti olan məsələlərlə özlərini bir-birinə yaxınlaşdırsınlar. Haqq sözü ortaya qoysunlar, tərəfdarlıqlar və müxalifətlər dəlil və məntiqdən qaynaqlansın.

**Siyasi ehkamçıların universitetə müdaxiləsi**

Mənim əzizlərim! Universitet elm mərkəzidir. Elmə maneçilik törədən heç bir şeyə orada yer yoxdur. Universitet əsas zərbəni siyasi ehkamçıların tələbələr arasındakı işlərindən görür. Universitet elm və tədqiqat yeri olmalıdır. Universitet elə bir yer olmalıdır ki, orada hiylə, saxtakarlıq və çaşdırıcı işlər ya olmasın, ya da az olsun. Qalmaqalla yaşayanlar, dava-dalaş olmadan yaşamağa çətinlik çəkənlər universitetdə iş görə bilməməlidirlər. Universitetdən, tələbə gənclərimizdən, müəllim və rektorlardan gözlənilən budur.

**Siyasi fikir ayrılıqlarının təbii olması**

Siyasi fikir ayrılıqları təbii bir şeydir. Bunun eybi yoxdur. Ümumiyyətlə, təkcə siyasi sahədə yox, hətta dini sahədə də fikir ayrılığı inkişafa kömək edir. Bunun eybi yoxdur. Mən özüm tələbəyəm, ömrümü tələbəlik dünyasında keçirmişəm, elm hövzələrində olmuşam, görmüşəm ki, hövzədə məşhur nəzərin ziddinə bir söz demək günah sayılmır, lakin şərti var. Şərti budur ki, irad və müzakirə elmi şəkildə olsun. Fərz edin, universitetdə fikir ayrılığına səbəb olan bir siyasi məsələ müzakirə olunur. Bunun nə eybi var?! Fikir və nəzər sahibi olan insanları dəvət etsinlər, gəlib sakit bir mühitdə bir-biri ilə müzakirə və söhbət etsinlər, onlardan elmi məsələyə baxmaları istənilsin. Dini sahələrdə də belə bir şey mümkündür. Bir tərəfdən də tələbələr üçün deyilən məsələlərin çoxu İslam və məzhəb məsələləri ilə yaxından əlaqədardır. Bu, hövzənin alim və mütəfəkkirlərinin meydana girmələrinə və nəticədə İslam təfəkkürünün inkişafına bais olur. Bunu istəməliyik, bunun ziddinə olan heç bir iş universitet və tələbə mühitinə münasib deyil. Dava-dalaş salmaq, yumruq düyünləmək, boş şey üstündə qalmaqal yaratmaq və bəzi dostların çox kədərlə dedikləri kimi, müqəddəslərə hörmətsizlik etmək yaxşı deyil. Əlbəttə, mən bu qardaşlarımız qədər kədərlənmirəm. Çünki bir qədəri sizin gənc olduğunuza görədir. Siz gəncsiniz, bu məsələləri görməmisiniz, ona görə tez əl-ayağınızı itirirsiniz. Biz bir ömür yaşamışıq və bu hadisələrdən çox görmüşük. Bilirik ki, bunlar bir şey deyil.

**Hegemonizmlə mübarizənin yeganə səngəri**

Anarxizm təmayülləri universitetə yaraşanın tam əksinədir. Qayda-qanuna qarşı çıxmaq və özbaşınalıq istəmək - bəziləri belədirlər - universitetə yaraşmaz. Əlbəttə, hamının - tələbə və qeyri-tələbənin əsas vəzifəsi ilk növbədə İslam quruluşunu müdafiə etməkdir. Sizə deyim ki, mən bu sözü özüm quruluşun rəhbəri olduğum üçün demirəm. Xeyr, mən də tələbəyəm, bunu sizə deyim. Mənim hisslərim və ruhiyyəm yaşayıb mübarizə apardığım qaranlıq illərindəkindən heç fərqlənməyib. İndi də həmin insanam; lakin fəallığı daha az, təcrübəsi isə daha çox. Bunu ona görə deyirəm ki, bu gün bu İslam quruluşu dünyadakı zülm və hegemonizmlə mübarizənin yeganə səngəridir. Başqa heç bir yerdə belə bir səngər yoxdur. Bu gün dövlətlərin çoxu öz xalqlarının, ziyalılarının iradəsinin əksinə olaraq, ABŞ-ın və hətta sionizmin qapısını öpmüşlər. Avropa parlamentlərinin çoxu da sionizmin qapısını öpüb pullarına qul olanlardır. Dünyada 60 milyonluq bir xalqa arxalanan, azadlıqsevərliyin, ədalətin, bəşərin və beynəlxalq amalların müdafiə səngəri sayılan mərkəz və qüvvə bugünkü İslam İranıdır. Bu quruluşu müdafiə etmək hamının borcudur. Bu, dövlət təşkilatlarına bağlı şəxslərə məxsus deyil. Hamımız müdafiə etməliyik. Əgər kimsə bunun əksini etsə, onun dünyanın filan casus şəbəkəsinə bağlı olması barədə sənəd göstərməyə ehtiyac yoxdur. Rəsmən bağlı olması lazım deyil, onsuz da həmin sözü danışır və həmin işi görür. Əgər onlardan pul da almırsa, əslində, onların muzdsuz və

məvacibsiz nökəridir. Bu gün ABŞ CİA-sının və İsrail Mossadının ən mühüm məqsədi budur ki, İslam quruluşunun daxilinə bir baca açıb zərbə vura bilsinlər, bu gün bu quruluşun dünyada səngər kimi malik olduğu möhkəmliyini və qüdrətini azaltsınlar. İndi bu işi bir nəfər daxildə universitet səngərindən, rəsmi bir tribuna arxasından olsa belə, bir yumruq düyünləməklə fəryad etsə, bu, hünər deyil, fəxr deyil. Dünyanın ən pis quldurları ilə bir olmaq, ən ədalətli dövlətin və güc mərkəzinin əleyhinə çıxmaq fəxrdirmi?! Biz tağut quruluşu ilə vuruşan zaman hər bir mübarizin hərəkəti fəxrli idi. O mübarizələr fəxrli idi. Bu gün bəzi təbəqələr dünyadakı tağut rejimləri ilə, asılı və mənfur rejimlərlə vuruşurlar. Bu, fəxrdir. Lakin hegemon güc mərkəzləri qarşısında möhkəm dayanan bir quruluşa qarşı çıxmaq heç kəs üçün fəxr deyil. Mən inanıram ki, bu qruplar universitetə sırınmadır. Bu qruplar universitetlərdə elm və məlumata əngəl törədir. Universitetlər bunları geri qaytaracaqlar. Bunların rəftarı və siyasətbazlıqları işi o yerə çatdırıb ki, bizim tələbələrimizin çoxunu hətta siyasətdən küsdürüb, onlar siyasi işə həvəssiz olublar. Bu sahədə universitetlərin bəzi rəhbərləri də təqsirsiz deyillər.

### Ədalət

Qardaşlarımızdan birinin ədalət barədə sual olaraq bəyan etdiyi məqamlar çox yaxşı məqamlar idi. Bu suallara cavab verilməlidir. Əlbəttə, dedim ki, yeri bu məclis deyil. Cavablarını özünüz düşünməlisiniz. Müəllimlərlə, cəmiyyətin düşüncə və İslam öncülləri ilə yaxşı toplantı və görüşlərdə bu sualların cavabını tapın. Bu sahələrdə hətta bizə də kömək edin və fikrinizi bildirin. Bu fikirlər bizə çox kömək edir. Əlbəttə, fəsad əleyhinə, onun kökünü kəsmək üçün və ədalət naminə hərəkət Allahın lütfü ilə davam edəcəkdir. Çətin işdir, amma bu çətin iş İslam quruluşunda davam etdiriləcək. Quruluşun mənası və ruhu budur. Bu quruluşun düşməni çox olacaq, bunu da bilin. Əmirəlmöminin nəql olunan rəvayətdə buyurub ki, ədalət şüarda və sözdə çox şirin və gözəldir. Hamı deyir, hamının xoşu gəlir, lakin əməl və insaf zamanı çatdıqda çox çətin olur. Çoxlu şəxslər görürsünüz ki, bəzən ədalət şüarı verirlər, lakin əməl zamanı çatanda axsayırlar, bəlkə də şüar verməlorinə peşman olurlar.

Hər halda, siz öz mühitlərinizdə həm söz, həm qərar, həm də mühakimələrinizdə ədalətə riayət edin. İnşallah, Allah-Taala lütfünü sizin və bizim hamımıza şamil edəcək.

Allahın salamı və rəhməti olsun sizə!

## Müəllim, tələbə və dindarlıq[9]

Bismillahir-Rəhmanir-Rəhim.

Bəzi dostlar öz sözlərini deyə bilmədilər. Mən də onlar kimi təəssüf edirəm. Əgər hamının söhbət etməsi mümkün olsaydı, mənim üçün daha faydalı olardı. Hər halda, söhbət vaxtı almış qardaşlar bəzi mətləbləri buyurdular. Mən də onlardan bəhrələndim. Çox yaxşı və faydalı sözlər deyildi. Mən təəccüb etdim ki, nə üçün xanımlardan heç kim çıxış etmədi. Adətən, belə məclislərdə qadınlardan da bir neçə nəfər çıxış edir. Deyəsən, qadınlar qabaqcadan vaxt almamışdılar. Cənab Doktor Nədiminin və əməkdaşlarının tərtib etdiyi proqram belə idi ki, qabaqcadan vaxt alsınlar və çıxış etsinlər.

**Elm və tədqiqata diqqət və onların idarəsi**

Mənim fikrimcə, mühüm olan bəzi dostların da toxunduğu bir məqamdır. O məqam ölkədə elmə, tədqiqata, elm və tədqiqatın vəziyyətinin idarəsinə baxışdır. Bu barədə ciddi işlərin vacibliyi strateji bir məsələdir. Şübhəsiz ki, bu sahədə mənim də üzərimə məsuliyyət düşür və onunla məşğul olacağam.

Elm dəyərlidir. Onun dəyərini artıran amillərdən biri də budur ki, elm ehtiyaclara uyğun olaraq tənzimlənmiş müəyyən məqsədlərlə inkişafa doğru getsin. Cənab Rəfipurun haqlı olaraq toxunduğu fikir mexanizmi elm istehsal edən qurumlardan, alimdən, alim yetişdirən sinifdən və alimin fəaliyyət göstərdiyi mərkəzdən istifadə proqramı hazırlayıb, onların hamısından yaxşı bəhrələndirə bilər. Bunlar lazımi işlərdir, mütləq görülməlidir. Mən də Allahın lütfü ilə bu sahədə mümkün səyimi mütləq göstərəcəyəm.

**Ölkənin elmi toplumundan gözləntilər**

Qarşılıqlı olaraq ölkənin elmi toplumundan gözləntilər də var. Bu söz hansısa bir şəxsə, universitetə və ya mərkəzə müraciət deyil, ölkənin elmi arenasına, elm və tədqiqat sahiblərinə müraciətdir. Biz müəyyən tarixi səbəblərə görə dünyanın elm karvanından geri qalmışıq. Bunu inkar edə bilmərik. Bu bizim üz-üzə qaldığımız reallıqdır. Halbuki bizim xalqımızda alim olmaq, elmi istehsal etmək və onun sərhədlərini yeniləmək bacarığı həmişə olmuşdur. Bizə belə tarixi zülm olunmuşdur. Bu gün sizin cəmiyyətdə elmin inkişafına, həvəsə, elmin əsaslı bir məsələ kimi ortaya qoyulmasına aid müşahidə etdikləriniz inqilabdan sonrakı dövrə aiddir. İnqilabdan əvvəl elm yaddan çıxmışdı. Universitet vardı, alimlər vardılar, amma elm sözün həqiqi mənasında mühüm məsələ sayılmırdı. Uzun illər belə oldu və xalqımız elm karvanından geri qaldı.

---

[9] Şəhid Behişti Unversitetinin müəllimlərilə görüşdə çıxışı: 12 may 2003.

**Elmi geriliyin həlli**

Biz indi bu tarixi geriliyi bir yolla düzəltmək istəyirik. Nə etməliyik? Əgər adi baxışla baxsaq, görərik ki, məsafə çoxdur. Təsadüfən, onların nəqliyyat vasitəsi də sizinkindən daha sürətlidir. Buna görə də məsafə günbəgün çoxalır. Biz buna məhkumuq. Bu doğrudurmu?! Onların getdiyi yolu biz də davam etdiririk və düşünürük ki, davam etdirməliyik; deyirik hər halda, onlar bu yolla getmişlər, gərək biz də gedək. Bu, gedilmiş yoldur, lakin onlarla bizim məsafəmiz çoxdur. Mən bir dəfə belə məclislərin birində universitetdən gəlmiş dostlara dedim ki, biz gedirdik, o, velosiped tapdı və bizimlə məsafəsini çoxaltdı. Sonra avtomobil tapdı və ondan istifadə etdi. Amma mən velosipedə indi çatmışam. Beləliklə, məsafə daha da artdı. O indi daha sürətli maşınlar əldə etmişdir. İndi mən oturub onun hərəkət tozuna tamaşa etməliyəm, yaxud bu inkişafın həsrəti ilə yanmalıyam?! Biz nə etməliyik?

**Kəsə yolların kəşfi**

Mənim 2-3 ildir universitetlərdə təkrar etdiyim Elm istehsalı hərəkatı bunun üçündür. Elm istehsalı - gedilməmiş yollarla getməkdir. Əlbəttə, bu o demək deyil ki, biz digərlərinin getdiyi yolu öyrənməyək və digərlərinin təcrübələrinə etinasız yanaşaq. Əslində, mənası budur ki, fikirləşək. Bu möhtəşəm dünyada və böyük təbiətdə bugünkü mütərəqqi elmin əldə etmədiyi çoxlu bilgilər var. Təbiətin hələ elmə məlum olmayan məsələləri olduqca çoxdur və böyük ehtimalla, bəşərin bu günə qədər əldə etdiklərindən qat-qat artıqdır. Diqqət etməli, düşünməli və məchul məqamların kəşfinə çalışmalıyıq. Burada deyildiyi kimi, istedadları işə salmalıyıq. Mən bilirəm ki, iranlı beyninin və düşüncəsinin belə istedadı var. Qısa yollar tapmalı, elmdə bidət və yenilikdən qorxmamalıyıq. Bu hərəkət bizim universitetlərimizdə, elmi-tədqiqat müəssisələrimizdə kütləvi şəkildə müqəddəs iş və ibadət hesab olunmalıdır. Elmin bütün sahələri belə şəkil almalıdır. Bizim düşünmək və elmi yeniliklərə nail olmaq cürətimiz olmalıdır.

**Məchul yolların kəşfi**

Əlbəttə, bu sözün qarşısında tam ümidsizliklə demək olar ki, digərlərinin görmədiyi hansı işi görək, hansı yolla gedək?! Amma mən düşünürəm ki, gedilməyən yolları getməyin mümkünlüyünü düşünmək, ona ümid bəsləmək olar. Bu gün dünyanın və bəşəriyyətin tanıdıqlarının çoxu bir zaman məchul idi, lakin kimlərsə cürətlə bu məchulları kəşf etdilər. Hansı səbəbə görə biz başqa bir məchulu kəşf edə bilmərik?! Bu gün hər bir yeni kəşf ən üstün elmlərdən və ən inkişaf etmiş texnologiyalardan asılı deyil. Ölkəmizin elm adamlarından bu gözlənti var. Bu hesabla universitetlərdə və universitetlərdən xaricdə tədqiqat mərkəzləri nə qədər çox olsa, bir o qədər yaxşıdır.

Əlbəttə, mən əziz dostumuzun bildirdiyi iradı tamamilə qəbul edirəm. Yəni bəzi əbəs yerlərdə pullar xərclənir, doğrudan da hədər gedir. Bu, çox düzgün

fikirdir. Yersiz və mənasız əliaçıqlıqlar edilir, amma əvəzində, lazım olan yerlərdə çoxlu maddi problemlər yaranır. Bu nizamsızlıq mütləq aradan qaldırılmalıdır. Əlbəttə, bu, hökumətin işlərindəndir. Tövsiyə və təkid etmək lazımdır. Mən də inşallah, təkid edəcəyəm. Buna əsasən, bizim siz möhtərəm müəllimlərə və elmi cəmiyyətimizin, istər Tibb universitetinin, istər digər universitetlərin bütün nümayəndələrinə birinci və əsas sözümüz budur: Siz yaxşı istedad və bacarıqlara malik şəxslər kimi elm karvanından gerisiniz. Bir yol tapın. Bilinməyən məsələlərin tədqiqatçısı və araşdıranı olun. Bu ruhiyyəni universitetlərdə dirçəldin. Çoxlu məsələlər hələ kəşf olunmayıb, lakin birdən bir nəfər onları kəşf edir. Dedim ki, yeni kəşf və yeni yol tapmaq zəruri olaraq dünyada ən inkişaf etmiş texnologiyalara malik olmaqdan asılı deyil. Xeyr, müxtəlif sahələrdə özümüzdən və elmi toplumdan bunu gözləmək olar.

**Müəllimin tələbəyə güclü təsirləri**

Başqa bir məqam tələbələr barədədir. Mən müəllimlə tələbə arasındakı əlaqədə bir boşluq müşahidə edirəm. Bu boşluq sizin vasitənizlə doldurulmalıdır. Bizim tələbəmiz elmlə yanaşı, müəllimdən çoxlu dərslər də öyrənə bilər. Bu dərslərə misal olaraq milli qüruru, vətənə sevgini, ölkənin gələcəyinə vurğunluğu, ölkənin tarixi və keçmişi ilə fəxr etməyi göstərmək olar. Bunlar bir tələbə gəncdə çox dərin və müsbət təsirlər buraxan amillərdir.

Əlbəttə, mən bir gənci soyudub məyus edən müxtəlif amilləri inkar etmək fikrində deyiləm. Bunlar da öz yerində mövcuddur. Lakin bu da görməzliyə vurulmamalıdır ki, müəllim sinifdə tələbəsini dindar və dinə etiqadlı yetişdirə bilər. Necə ki, onu ateist və bütün müqəddəsləri inkar edən kimi də yetişdirə bilər; sinif elm və din sinfi olmasa da, fizika, biologiya, tarix və hər hansı başqa bir sinif olsa da.

Müəllim tələbəni ölkəyə bağlı və onunla fəxr edən bir insan kimi də yetişdirə bilər, laqeyd, həvəssiz, vətəninə, keçmişinə və gələcəyinə maraqsız da.

Mənim fikrim budur ki, tələbəni din əsaslarına yönəldən ən təsirli vasitə bir müəllimin sinifdə öz şagirdləri ilə paylaşdığı belə məqamlar, işarə və sözlərdir. Sizin alim etmək istədiyiniz, elm və tədqiqat ruhunu üfürmək və bir elmi şəxsiyyət kimi yetişdirmək istədiyiniz gəncə - hər bir müəllimin öz şagirdləri üçün belə arzusu var - din və iman ruhu da aşılamaq lazımdır; həm dünya və axirəti üçün faydalı olan Allaha, dinə və müqəddəslərə iman, həm də özünün milli və tarixi kimliyinə iman.

**Tələbə və milli təəssübkeşlik**

Tələbədə milli təəssübkeşlik oyatmalısınız. Təəssübkeşlik həmişə mənfi və pis deyil. Bəzən təəssübkeşlik olmasa, insan yüngül və çəkisiz tozlar kimi havada uçar. İnsanın şəxsiyyəti və kimliyi üçün bəzi bağlılıqlar lazımdır. Bu insan kim olursa-olsun; alim olsun, sənətkar olsun, ya başqa biri.

**Allaha və müqəddəslərə imanın təsiri**

Allaha, dinə, müqəddəslərə, qeybə iman kiçik dəyərlər deyil. Bunlara əhəmiyyətsiz yanaşmaq olmaz. Bunların çox əhəmiyyəti var, səadət və qurtuluşun təminatçısıdırlar. Əgər qeybə iman olmasa, çoxlu problemlər qarşıya çıxar. Bildiyiniz kimi, elm sivilizasiyanın əsasıdır. Lakin düzgün mədəniyyət üçün kifayət edən şərt deyil. Qeybə iman olmadan elmin nəticəsi bu gün dünyada gördükləriniz olur. Görün bütün dəyərinə baxmayaraq, bu gün elm dünyagirlərin və beynəlxalq dəlilərin əlində nəyə çevrilmişdir. Nə insana, nə xalqlara, nə həqiqətə bir haqq tanıyırlar, nə də doğruluğa bir dəyər. İman gəncin ürəyinə üfürülməlidir; həm dinə, qeyb aləminə, mənəviyyata iman, həm də öz milli kimliyinə, tarixi şəxsiyyətinə, keşmişinə iman.

Allah sizin hamınızı müvəffəq etsin! Mənim üçün yaxşı və xeyirli məclis idi. Ümidvaram universitet üçün, bizim və sizin müştərək istəklərimiz üçün də faydalı olsun.

Allahın salamı və rəhməti olsun sizə!

## İslam inqilabı - yeni mədəniyyətin yaranması[10]

Bismillahir-Rəhmanir-Rəhim.

**Şübhə yaratmaq - düşmənlərin siyasəti**

İstəyirdim məclisi əziz tələbələrin sualları ilə başlayım. Çünki insan üçün ən gözəl işlərdən biri budur ki, öyrənmək, soruşmaq və bilmək tərənnümü olan gənclər bir şey soruşsunlar və insan öz məlumatları daxilində cavab versin, inkişafa həvəskar olan gəncin zehnindəki sual və şübhələrin bir qədər aradan qaldırılmasına kömək etsin. Xüsusən də bilirik ki, şübhə yaratmaq İslam Respublikası ilə mübarizə aparan mərkəzlərin əsas siyasətlərindən biridir. Şübhə yaratmağın və beyinlər üçün kor nöqtə icad etməyin özü bir siyasətdir. Buna görə mən əsas vaxtı yenə də suallara cavab verməyə ayıracağam. Vaxt sarıdan da məhdudiyyət yoxdur. Bacardıqca, sizin və mənim çox yorulmamıza qədər bunu davam etdirməyə hazıram. Lakin əsas məsələlərdən bir-ikisi var. Əminəm ki, siz əziz gənclər də bunlarla maraqlanırsınız. Buna görə əvvəl bu iki məsələ barədə söhbət edirəm və sonra suallara cavab verəcəyəm.

**Tələbə və mənəviyyat**

Sizin məclisinizin ab-havası bizim üçün çox xoşagələn olduğundan, burada paklıq, mənəviyyat və gənclik işığı duyulduğundan, əsl sözümü başlamazdan qabaq mənəvi məsələlərə təmayül haqqında bir qədər danışmaq istəyirəm. Mən ən təqvalı və ən nurlu gəncləri bəzi vaxtlarda tələbələrin arasında görmüşəm. On doqquz, yaxud iyirmi yaşlı bir gəncin xatirəsini yaddan çıxarmıram. Mən şəhadətindən sonra onun vəsiyyətnaməsini gördüm. O öz dövrünün tanınmış alimlərindən və təqlid müctəhidlərindən birinin nəvəsi idi. Həmin təqlid müctəhidi və məşhur alim irfan, mənəviyyat və tövhid adamı sayılırdı. Gəncin vəsiyyətnaməsini oxuyanda anladım ki, bu on doqquz-iyirmi yaşlı tələbə gənc hər bir arifin və həqiqət axtarışında olanın arzu etdiyi hüzur, irfan, mənəvi və ruhi pərvaz halətinə çatmaqda özünün 60-70 il bu yolda zəhmət çəkmiş müctəhid və arif babasından irəli olmasa da, geridə deyil. Düzdür, bu halət həmişə və hamı üçün qarşıya çıxmır. İnsanın mücahidlik etdiyi, yüksəldiyi hərəkətə maneçilik törədən "mən"i ayaq altında tapdayıb öz heyvani xüsusiyyətlərindən imtina etdiyi bir şəraitdə qəflətən bir gənc üçün belə bir pərvaz qarşıya çıxır. Hər halda, biz tələbə gənclər arasında belə nümunələr görmüşük. Bu bir nümunədir. Digər nümunələri də mən uzaqdan-yaxından müşahidə etmişəm.

**Maddi və mənəvi sahələrdə gəncin qüvvəsi və həvəsi**

---

[10] Şəhid Behişti universitetinin tələbələri ilə görüşdə çıxışı: 12 may 2003.

Demək istəyirəm ki, idman yarışlarında siz gənclərin qüvvəsi və həvəsi bir qocadan artıq olduğu kimi, mənəviyyat rəqabətində də bacarığınız bir qocadan artıqdır. Yəni mənim və sizin indi qaçış yarışı keçirdiyimiz təqdirdə, şübhəsiz, sizin məndən irəlidə olacağınız kimi, əgər vahid bir nöqtədən mənəvi dərəcələrə yüksəlmək üçün hərəkət etsək, yenə məndən qabağa keçəcəksiniz. Yəni gəncin qüvvəsi və həvəsi həm maddi, həm də mənəvi sahədə gəncdir. Siz fiziki bir idmanda qocadan güclü, istedadlı olduğunuz kimi mənəvi sahədə də beləsiniz və öndə gedə bilərsiniz. Bunu dəyərləndirin.

**Gəncliyin dəyərləndirmənin ən mühüm üsulu**

Bəzən "gəncliyi dəyərləndirin" deyəndə başqa yollar təsəvvür olunur. Gəncliyi dəyərləndirmənin ən mühüm üsulu budur ki, gənclikdə olan bu paklıqdan, nuranilikdən və təbii təmizlikdən istifadə edin, nəfsin saflaşdırılması və əxlaq sahəsində irəliyə gedin. Bu inşallah, sizin bütün həyatınızın ehtiyatı olacaq. Yolu da iki məsələyə riayət etməkdir: zikr və tövbə. Zikr – xatırlamaq deməkdir; Allahı, vəzifə və məsuliyyəti, mələkut aləmində Allahın məmurları ilə qarşılaşacağı həssas zamanı və qiyamət gunu Allah qarşısındakı böyük hesabatı yaddan çıxarmamaq. Bu xatırlama çox mühüm məsələdir. Bunun bizim həyatımıza, hərəkətimizə və qərarlarımıza böyük təsiri var.

Kimsə deyə bilər ki, biz cavanıq, hələ ömrümüzdən bir şey keçməyib ki, sizin kimi çoxlu günahlar etmiş olaq və tövbəyə ehtiyacımız olsun. Xeyr, bu, düzgün deyil. Tövbə insanın həmişəlik vəzifəsidir. Ən pak insanlar da tövbə etməlidirlər.

Tövbə Allaha qayıdış deməkdir: səhv yoldan qayıdış, ürəyi Allaha sarı yönəltmək və üzü tamamilə Allah səmtinə tutmaq. İmam Səccaddan (ə) pak olan bir kəs varmı?! Siz, Səhifeyi-Səccadiyyənin əvvəlindən axırına qədər baxın, görün onda necə hal, necə yanğı və necə tövbə gizlənib. İmam Səccad (ə) Allaha-Taalaya belə deyir: "Ey mənim Rəbbim, mən bəzi vaxtlar Sənin fərmanından boyun qaçıran nəfsimə qarşı qəzəbliyəm. Səndən raziyam və nəfsimin Sənə qarşı itaətsizliyinə görə xəcalət çəkirəm". Bu, İmam Səccadın (ə) raz-niyazıdır.

Mənim əzizlərim! Gənclər! Gəncliyin qədrini bilin. Sizdə mövcud olan bu pak qəlbləri, bu nurluluğu və səmimiyyəti qoruyun. Hətta bəzən bir gəncdən bir xəta baş versə də, günahlar toplanmayana qədər o nurluluq qorunur. Əlbəttə, hər bir günah onun bir hissəsini azaldır. Bunun əlacı tövbədir. Bizim qayıtmağımız və tövbə etməyimiz Allahın məhəbbətini bizə yönəldəcək. Bu məqamları sizin diqqət yetirməniz üçün dedim.

**ABŞ-ın inhisarçı böyük güc məziyyətlərindən istifadə etməsi**

Mən iki məsələyə toxunmağı münasib bilirəm. Bir məsələ ABŞ-ın və İslam Respublikasının indiki məsələsidir. Bu məsələ çoxlarını düşündürür. Mən bu barədə qısaca danışacağam və sonra siz gənclərlə daha çox əlaqədar olan ikinci məsələni söyləyəcəyəm; yəni bu bir neçə ildə verilmiş və hər yerdən artıq universitetlərlə əlaqəli olan əsaslı şüarlar barədə. Hər yerdən daha artıq

universitetlərlə əlaqədar olan məsələ Elm istehsalı və proqramlaşdırma hərəkatıdır; yaxud ümumi şəkildə tələbələrə müraciət olan ədalətsevərlik, yaxud fəsadla mübarizə hərəkatı. Bu bir neçə ildə bir neçə belə şüar verilmişdir. Mən bunlar barədə bir qədər söhbət etmək istəyirəm.

**İran və ABŞ**

Birinci məsələ barədə qeyd edim ki, ABŞ və onun qarşısında İslam Respublikasının mövqeyi bir strategiya kimi geniş söhbətin mövzusudur. Ümidvaram bu imkanı əldə edim və yenə də bir gənc və daha yaxşı olar ki, tələbə toplantısında bu mövzu barədə danışım. Bu haqda sözüm çoxdur. Lakin bu məclisdə sizlərə demək istədiyim ABŞ-ın indiki vəziyyəti və xüsusən İraq hadisəsindən sonra beynəlxalq səhnədə qarşılaşdığı problem barədədir; həmçinin bəzən birbaşa, yaxud dolayısı ilə onlardan bəzi xalqlara, həmçinin bizə yönələn təhdidlər barədə.

Artıq 10-12 ildir ki, ABŞ dünyanın yeganə böyük gücü kimi tanınmaqdadır. Amerikalılar Sovetlərin süqutundan sonra dünyanın yeganə böyük gücü olduqlarını və dünyanın təkqütblü olduğunu təsbit etməkdə israr etdilər. Onlar bu məntiq əsasında bir mövqe seçdilər. O mövqe budur ki, inhisarçı böyük güc məziyyətlərindən istifadə etsinlər. Düzdür, bu fikir köhnə fikirdir, yeni deyil. Bu, əldə olan siyasi çıxış və sənədlərin məcmusundan və hətta ABŞ-ın siyasi mərkəzlərindən çıxan bəzi məqalələrdən başa düşülür. İnsan görür ki, bu fikir köklü və köhnə bir fikirdir. Lakin dünyanın hər yerində belə avantüralar üçün münasib insanlara ehtiyacları var. Buldozerlə bir binanı uçurmaq istəyəndə də, hər halda, ağılsız və cəsur bir sürücü lazımdır ki, bu buldozeri idarə etsin. Baxmayaraq ki, binanı o yox, buldozer uçurur, amma o da lazımdır. Yaxud filmdə cəsur bir kaskadyor lazımdır. ABŞ-ın indiki prezidentinin seçilməsindən sonra bu şərt həyata keçdi. O təbii şəkildə belə təcavüzkar və avantürist ruhiyyəyə malik adamdır. Onlar dünyada hamıya - həm düşmənlərinə, həm də dostlarına başa salmaq istəyirlər ki, onların beynəlxalq miqyasda özünəməxsus hüquq və tələbləri və bu tələbləri hər hansı yolla həyata keçirmək istəyən inhisarçı böyük gücləri var.

**İranın ABŞ üçün əhəmiyyəti**

Bu növ baxışın bir hissəsi təbii ki, İrana aiddir. Biz elə ölkələrdənik ki, bu ekstremist baxış bir sahədə bizə də yönəlmişdir. Çünki bu baxışda və siyasi hərəkətdə ABŞ-ın əsas baxışı Orta Şərqədir. Bildiyiniz kimi, Orta Şərq sərvətin və mühüm coğrafiyanın mərkəzidir. Təbii ki, biz də ölkəmizin malik olduğu üstün xüsusiyyətlərlə bu regionda yerləşirik. Nə üçün bu problemdə İran təcavüzkar qüvvənin, mərkəzin, yəni ABŞ-ın diqqət mərkəzindədir? Qeyd etdiyimiz kimi, əvvəla, buna görə ki, İran böyük, sərvətli, çox əhəmiyyətli yeraltı mənbələrə malik böyük bir ölkədir. Dünya səviyyəsində ikinci ən böyük qaz ehtiyatı bizim ölkəmizə aiddir. Çox dəyərli neft ehtiyatı və çoxlu digər yeraltı sərvətlər İrana aiddir. İran çoxlu əhalisi olan həssas coğrafi mövqeyə, Fars körfəzində və Oman dənizində

uzun sərhədlərə malik bir ölkədir. Bunların hamısı bir ölkə üçün üstünlüklərdir. Qərbin Orta Asiyaya təxminən yeganə yolu da buradan keçir. Belə təbii dəlillərə görə, təbii ki, bizim ölkəmiz ABŞ-ın diqqət mərkəzindədir. Başqa bir dəlil də İslam Respublikası kimliyidir. Dünyanın bir nöqtəsində elə bir dövlət qurulub ki, zülm və diktaturanın inkarına, beynəlxalq qütblərin iqtisadi, mədəni və siyasi asılılığının inkarına çağırır, demokratiyaya arxalanır, yəni öz xalqı tərəfindən qurulmuşdur. O bütün bu anlayışları da dini, etiqadi və iman təməllərindən alıb, ictimai razılaşmalardan yox. Qərb demokratiyası ilə bizim demokratiya arasında fərq budur. Bu barədə də geniş söhbətə və xüsusi mövzuya ehtiyac var. Dini demokratiya bir dini etiqada əsaslandığından pozulmazdır. Yəni əgər kimsə seçkilərdə saxtakarlıqla, yaxud hansısa bir yolla xalqın nəzərini cəlb edib haqsız olaraq diqqətlərini özünə yönəldə bilsə, misal üçün, yalandan hansısa bir dəyərə malik olduğunu göstərib səs qazansa, dini demokratiya məntiqində heç bir haqqa sahib deyil. Bu üsullar Qərb demokratiyasının təməli olan liberalizm məntiqində isə tamamilə məqbul sayılır. Dini demokratiya din və iman təməllərinə söykəndiyinə görə bu baxımdan daha sərtdir.

**Bizimlə ABŞ arasında zəruri təzad**

Deməli, zülmü, istismarı, avtoritorizmi, asılılığı və fəsadı inkar etmək dini etiqadlardan qaynaqlanır. Bəllidir ki, dünyanın hər hansı bir yerində beynəlxalq zülmə, avtoritorizmə, xalqların və ölkələrin hüququnun inkarına, müstəqil ölkələrin sərhədlərinə etinasızlığa inanan hər bir kəs bu xüsusiyyətlərə malik bir quruluşa düşmən olar. Təbii olaraq belədir. ABŞ kimi beynəlxalq istismarçılığın və böyük gücün siyasəti və strategiyası öz maraqlarını təmin etməkdir. Digər ölkələrin maraqlarının təhlükəyə düşməsi onun üçün əhəmiyyət kəsb etmir. Dünyada belə müsbət xüsusiyyətlərə malik bir quruluş xüsusən də maraq baxımından ABŞ-ın diqqət mərkəzində olan bir regionda qurulduqda, bəllidir ki, bunların arasında təzad və problemin olması zəruri, mütləq və qaçılmaz bir məsələ olacaq.

**İslam inqilabı və yeni mədəniyyətin yaradılması**

İslam inqilabı təkcə ölkə daxilində dəyişiklik yaratmadı, bir mədəniyyət yaratdı. Bu mədəniyyət bütün İslam ölkələrində beyinlərdə, xüsusən də gənclərin, ziyalıların və universitet mənsublarının beyinlərində fərqli şəkildə öz təsirini buraxdı. Şübhəsiz, siz İslam ölkələrinin gənc təbəqəsinin inqilaba, imama, İran xalqının dəyərlərinə və müqavimətinə sevgiləri barədə eşitmisiniz. Əmin olun ki, eşitdikləriniz həqiqətdə mövcud olanlardan qat-qat azdır. Bu 21-22 ildə tədricən İslam təfəkkürü, İslam oyanışı və İslama qayıdış düşüncəsi zehinlərdə silinməz bir düşüncə kimi formalaşmışdır.

**Dünyada İslam oyanışı**

Bir neçə ay bundan əvvəl bir Amerika politoloqu öz tövsiyələrində demişdi ki, İslam ölkələrində demokratiya yaratmaq üçün əsla tələsmək lazım deyil. Çünki əgər bu gün hər hansı bir İslam ölkəsində azad seçkilər keçirilsə, İslam hərəkatları hakimiyyətə gələcəklər. Xalq bunları istəyir. Bu, çox maraqlı etiraf və çox əhəmiyyətli bir sözdür. Deyir ki, İslam ölkələri üçün demokratiya tezdir. Bu söz və bu iddia göstərir ki, İslam oyanışı və İslama qayıdış təfəkkürü - bunun mərkəzi İslam Respublikasında və siz xalqın arasında olmuşdur - bütün dünyaya yayılmışdır. Bu, kiçik dəyər deyil. Bu toxum artıq səpilmişdir. Əgər qlobal güc mərkəzləri və hegemon qüvvələr bu toxumun bitməməsini istəsələr, nə etməlidirlər? Onun ən təbii yolu budur ki, bu toxumu suvaran coşqun bulaqlarla mübarizə aparsınlar. Bu da hegemonizmin İslam Respublikası ilə və bizim ölkəmizlə düşmənçiliyinin səbəblərindən biridir. Bunun izahı sonraya qalsın, çünki hələlik söhbətimiz ABŞ barədədir.

**Amerikanın İranla düşmənçiliyi yeni məsələ deyil.**

Bu qarşıdurma inqilabdan əvvəl də olmuşdur. Kimsə düşünməsin ki, Amerikanın İranla qarşıdurması yeni bir məsələdir. Xeyr, inqilabın əvvəlindən bu qarşıdurma başlandı. İnqilabın qələbəsindən hələ 3-4 ay ötməmişdi ki, ABŞ Senatı inqilab əleyhinə çox kəskin bir qətnamə qəbul etdi. Düzdür, burada xalq toplandı, mitink keçirdi və dedilər ki, nə üçün müdaxilə edirsiniz? Qısası, inqilabın əvvəlindən bu qarşıdurma mövcud olmuşdur. Lakin nisbətən uzun bir dövrdə Amerikanın İslam Respublikası ilə qarşıdurması daha çox praktik qarşıdurma idi. Praktik qarşıdurma nəzəri qarşıdurmanın əksidir. Sonra bunu izah edəcəyəm.

**Amerikanın İranla praktik qarşıdurması**

Praktik qarşıdurma - müxtəlif yollarla İslam Respublikasına zərbə vurmağa qalxmaqdır. Praktik qarşıdurma ABŞ Senatının bu qətnaməsindən başlandı. Burada hərbi çevriliş törətdilər. Şəhid Noje bazasının çevrilişi məşhurdur. Mütləq eşitmisiniz və bəlkə məlumatınız da var. Biz bu hadisələrin içində idik. Çox təhlükəli bir hərbi çevriliş idi. Bəzi hazırlıqlar görmüşdülər, amma nəticə əldə edə bilmədilər. Ölkəmizin bank hesablarının dondurulması başqa bir praktik qarşıdurma idi. ABŞ banklarında İran xalqına məxsus olan, o cümlədən İran dövlətinin ticarət dövriyyəsindən və digər çoxlu pullar var idi. Lakin onlar bütün hesabları dondurdular. İnqilab düşmənlərini müxtəlif yollarla təhrik etdilər. Təkcə sağçı inqilab düşmənlərini, yəni şahlıq istəyənləri yox, hətta dolayı yollarla o zamanın solçu cərəyanına aid inqilab düşmənlərini və qrupları da təhrik edirdilər. Bu barədə bizdə sənədlər mövcuddur. Təbəsə hərbi hücum, iqtisadi embarqo, əlaqəni kəsmək, neft alışını dayandırmaq, İraqı mühribəyə həvəsləndirmək ABŞ-ın digər praktik qarşıdurmalarındandır. Biz bir dəfə təhlil edərək deyirdik ki, amerikalılar mütləq iraqlılara yaşıl işıq göstərmiş, sonra da özləri kömək edib demişlər ki, hücum edin. Bir neçə ildən sonra əldə etdiyimiz sənədlərdən məlum oldu ki, təhlillərimiz tamamilə doğru olmuşdur. Sənədlər mövcuddur. ABŞ-ın digər

əməli işi Fars körfəzində bizim sərnişin təyyarəmizi vurmaq idi. O hadisədə bizim 300-ə yaxın həmvətənimiz öldürüldü. Onlar həmçinin bizim gəmimizi quldurcasına suda saxladılar. Bunlar ABŞ-ın elə həssas bir mövqedə praktik tədbirləri idi. Prezident olduğum dövrdə mən Birləşmiş Millətlər Təşkilatına getdim, Baş Məclisdə çox güclü çıxış etdim. Bir neçə Avropa telekanalı bu çıxışı canlı yayımladı. Bu çıxışın çoxlu təsir buraxması mümkün idi. Buna görə, həmin gün, yaxud ertəsi günü Fars körfəzində "İran Əcr" gəmisini saxladılar. Biz Nyu-Yorkda idik. Hansı televiziya kanalını açırdıqsa, bu gəmidən və guya onun Fars körfəzində mina qoymaq istəməsindən danışırdılar. Bu həmin çıxışı kölgədə qoymaq üçün idi. Neft platformalarına hücum və digər bu kimi işlər ABŞ-ın növbəti praktik qarşıdurması idi. Bütün bu illərdə daha çox praktik qarşıdurma üzərində dayandılar, siyasi, iqtisadi, yarımhərbi və hətta hərbi işlər gördülər.

**ABŞ-ın İranla nəzəri mübarizəsi**

ABŞ İslam Respublikasına və İran xalqına qarşı illərlə belə rəftar etdikdən sonra bu nəticəyə gəldi ki, praktik mübarizə kifayət etmir. Onun yanında nəzəri mübarizə və düşməçilik də başlanmalıdır. Nəzəri mübarizə nə deməkdir? Yəni İslam Respublikası ilə etiqadi, mədəni və əxlaqi sahələrdə mübarizə aparmaq. Düzdür, əvvəllər də onların mübarizəsi ciddi idi, lakin onda belə qənaətə gəldilər ki, əsas iş bu olmalıdır. Düşündülər ki, etiqadi mübarizə ilə böyük bir hissəni iflic edib bir maneəni aradan qaldıra, əxlaqi mübarizə ilə İslam Respublikasının əlində olan imkan və silahların bir hissəsini ala bilərlər.

**Düşmənin planı haqda məlumat**

Düşmənin bizim barəmizdə ümumi planını bilməyimiz bizim müdafiə gücümüzün bir hissəsidir. Bu məsələyə diqqət yetirin. Düşmənin nə düşündüyünü və nə etmək istədiyini bilməmək bizi tədbir görmək və müdafiə olunmaq imkanından məhrum edə bilər. Biz bunu yaxşı bilməliyik. 1994-95-ci illərdən tədricən və artan sürətlə etiqadi-əxlaqi mübarizə başlandı. Mən o zaman bu mübarizənin başlandığını hiss etdim. Ortaya atdığımız "Mədəni-ideoloji hücum" mövzusu bundan irəli gəlirdi. Siyasi, iqtisadi və digər praktik hərəkətlərin yanında mədəni məsələlər sahəsində və mədəni vasitələrlə doğrudan da bir hücum başlandı.

**Nəzəri mübarizə və etiqadi hücumda məqsəd**

Bu nəzəri mübarizədə və etiqadi hücumda məqsəd aydındır. İslam Respublikası quruluşu isə xalqa arxalanır. Xalq özünün imanı, ruhiyyəsi və etiqadı ilə bu quruluşu sevir və müdafiə edir. Bu amilin İslam quruluşundan alınması, təbii ki, bu ölkə və bu quruluş üçün başında planı olan hər kəsə çox əhəmiyyətlidir. Buna görə gördük ki, 94-95-ci illərdən bu mübarizə günbəgün sərtləşdi. Müxtəlif səviyyələrdə quruluşun etiqad və dəyər təməllərinə zərbə vurmağa başlandı. Hətta inqilabın özünə və onun daha dərin köklərinə, misal üçün, İslama, Aşuraya,

Şiəliyə, dinin siyasətdən ayrı olmamasına - bunlar inqilabı idarə edənlərin, ölkə ziyalılarının və bu böyük hərəkətin öncüllərinin qəti düşüncə əsaslarıdır - hərtərəfli və güclü şübhə yağdırmağa başlandı. Seminar və konfranslar təşkil etdilər. Ölkədən xaricdə ixtisaslı jurnallar nəşr etdirdilər və ölkə daxilindəki bazalarından bacardıqları qədər istifadə etdilər. Bəziləri nə etdiklərini anlamırdılar, bəziləri isə anlayırdılar. Bəzi daxili ünsürlər düşmənə necə böyük kömək etdiklərini bilmirdilər. Təəssüf ki, həmin köməklər bu günə qədər də davam edir və düşmənin seçdiyi yol kimi davam edəcəkdir.

**Düşmənin əsas planı**

Düşməndən gözləmək olmaz ki, özünün qarşı cəbhəsi ilə mübarizə aparmaq üçün seçdiyi yolunu buraxsın. O yalnız ümidsiz olanda, oxu daşa dəyəndə və faydasız olduğunu anlayanda belə edər. Bütün məsələlərdə - istər siyasi, istər etiqadi, istər elmi, istər Fələstin və Hizbullah məsələlərində düşmən şübhə yağdırır. Düşmənin əsas planı nədir? İranı ələ keçirmək və istismar etmək üçün İslam Respublilkası ilə mübarizə. Bildiyimiz və qeyd etdiyimiz kimi, İran bəzi xüsusiyyətlərinə görə hegemon düşərgə və ABŞ üçün olduqca əhəmiyyətlidir.

Digər tərəfdən, daxildə quruluşun xalqa bağlılığını qırmaq vasitəsilə şərait hazırlayırlar. Onların əsas siyasəti budur ki, İslam Respublikası quruluşu ilə xalq arasında əlaqələri qırsınlar, sonra da beynəlxalq miqyasda ictimai rəy formalaşdırsınlar. Nə üçün buna ehtiyacları var? Çünki ABŞ bilir ki, hərbi üstünlüklərinə rəğmən, bu şərait olmadan onun İslam Respublikasına qələbəsi mümkün deyil. Bu, bir həqiqətdir. Hərbi üstünlük hər yerdə son sözü demir. ABŞ hərbi zəfər üçün bu daxili şəraitə ehtiyaclıdır.

**ABŞ-ın strategiyası**

ABŞ özünün böyük güc olduğunu təsbit etmək və bunun inhisarçı imtiyazından bəhrələnmək istəyir. Bu, strategiyadır. Şübhəsiz, bu strategiya onlardan macəraçılıq və böhran yaratmaq tələb edir. Lakin bunun bir mühüm şərti var. Əgər o olmasa, böhran yaratmağa qalxmırlar. O şərt budur ki, böhrandan uğurla çıxa bilsinlər. Macəraçılıqdan uğurla çıxacaqlarına əmin olmasalar, işə girişmirlər. Çünki öz zərərlərinə bitəcək.

**ABŞ-ın məqsədi: qüdrətini artırmaq**

Onların məqsədlərindən biri qüdrətini artırmaqdır. Uğursuz macəraçılıq buna ziyandır. İraq müharibəsinin, misal üçün, altı ay, yaxud daha çox çəkəcəyi bilinsəydi, ora hücum baş tutmayacaqdı. Yəni İraqı tutmaq üçün altı ay vaxt itirmək amerikalılara əsla sərf etməzdi. Təbii ki, çoxlu canlı itki verəcəkdilər. Bu işə girişməyin şərti o idi ki, qısa müddətdə bitirə bilsinlər. Bu, İraqda onlar üçün mümkün idi. Əvvəla, xalq bütünlüklə hakim rejimdən küsmüşdü, onu müdafiə etmirdi. Düzdür, amerikalıların tərəfdarı deyildilər. Amerikalılar səhvən elə bildilər ki, İraqa girəndə xalq onların lehinə şüar verəcək. Halbuki belə bir şey yox idi və

olmadı. Sonra da İraq rejiminin başçıları ilə ən azı son mərhələlərdə razılaşdılar ki, Bağdad müqavimətsiz təslim olsun. İndiyə qədər dünyanın müxtəlif mənbələrindən bizə çatmış etimadlı xəbərlərin hamısı bunu təsdiqləyir. Buna görə, ABŞ-ın böhran yaratmaq şərti, öz nəzərlərinə əsasən, uğur ehtimalının çox olmasıdır. Uğur ehtimalı az olsa, işə başlamırlar. Əfqanıstanda amerikalılara kömək edən şimal cəbhəsi idi. Əfqanıstanın şimalında çox güclü şəkildə silahlanmış bir təşkilat vardı. Onlar Taliban rejiminə qarşı çıxırdılar. İraqda da, qeyd etdiyim kimi, xalqın rejimlə düşmənlikləri amerikalılara kömək etdi. Amerikalılar harada macəraçılıq etmək istəsələr, bu şəraitə ehtiyaclıdırlar. Ya xalq o quruluşla düşmən olmalıdır, ya arxalanmaq üçün o ölkənin daxilində nizam-intizamlı bir təşkilatları olmalıdır. Bəlkə də hər ikisi onlar üçün lazımdır. Əgər belə olsa, daha sərfəli olacaq. Əks təqdirdə, qələbə ehtimalı yoxdur.

**Strateji əhəmiyyətli nəzəri mübarizə**

Bunlara əsasən, görün ABŞ-ın İslam Respublikasına qarşı təbliğat fəaliyyətinin və nəzəri mübarizəsi onlar üçün nə qədər əhəmiyyətlidir. Onların buna ehtiyacları var. Xalqı quruluşun əsaslarından ayırmağa ehtiyacları var. Necə ki, xalqı əxlaqi fəzilətlərə etiqadsız etməyə ehtiyaclıdırlar. Bunlar xalqı İslam quruluşundan ayıran, quruluşla xalq arasındakı möhkəm əlaqəni qıran amillərdir. Bu gün bizim düşmənlərimiz bütün qüvvələrini buna səfərbər etmişlər. Əlbəttə, İranda bu işi görmək asan deyil. Bunu amerikalıların özləri də bilirlər. Onlar bilirlər ki, İran nə İraqdır, nə Əfqanıstan və nə də hətta ABŞ-ın dostu olan və özləri də təhdid olunan bəzi ərəb ölkələri. İran əsla bu ölkələrlə müqayisəediləsi deyil. İslam Respublikası çevrilişlə iş başına gəlməmişdir və təkpartiyalı quruluşun məhsulu deyil. İslam Respublikasını xalqın özü qurmuşdur və özü də qoruyur. İslam Respublikasının ən çox tərəfdarları ölkədə böyük əksəriyyəti təşkil edən gənclərdir. İslam Respublikasını müdafiə edən və onun uğrunda dayanan onlardır. Bizim düşmənlərimiz bundan xəbərdardırlar, bunu görürlər və bu onların təhlillərinə təsir edir.

**Əsl demokratik quruluş**

İslam Respublikası sözün həqiqi mənasında demokratik və xalqa arxalanan bir quruluşdur. 60-70 milyon əhalisi olan bir ölkədə hər il bir seçki keçirilir. Quruluşun rəhbərinin seçkilərindən tutmuş, prezident, parlament və bələdiyyə seçkilərinə qədər hamısı xalqın səsi ilə baş tutur. Düşmən bunun qarşısında gücsüz qalmışdır. Quruluş demokratik və xalqın imanına arxalanan quruluşdur. Təbii ki, xalqla belə bir quruluş və hakimiyyət arasında ayrılıq yaratmaq asan deyil. Xalq məmurların qayğıkeşliyinə inanır. Bilirlər ki, quruluşun yüksək rütbəli məmurları ürəkdən işləyirlər. Düzdür, bəzi yerlərdə bacarırlar, bəzi yerlərdə bacarmırlar. Deməli, İran xalqı ilə problemdə düşmənin uğrunun şərti budur ki, müxtəlif təbliğat vasitələri ilə İslam Respublikası quruluşu haqda yanlış təsəvvür yaratsın. Burada təbliğatın rolu aydın olur; qəzetin, kitabın, dünyada bu şəkildə İrana

yönəlmiş və fars dilində proqram yayımlayan radio və televiziya kanallarının rolu. Təbliğatın onlar üçün nə qədər əhəmiyyət kəsb etdiyi bəlli olur. İran əleyhinə diktator və mürtəce bir dövlət təsəvvürü yaratmaq və sivilizasiya düşməni olduğunu göstərmək istəyirlər. ABŞ prezidenti çıxış edir və deyir ki, biz sivil dünyanı müdafiə edirik. Bunlar sivilizasiyanı necə tərif edirlər? Neftdən ötrü İraqa hücum edib bu qədər faciə törətməyin adını sivilizasiyanı müdafiə qoyurlar. Yəni özlərini sivil dünya hesab edirlər və qeyriləri, kim olursa-olsun, qeyri-sivildirlər. Onlar İslam ölkələri, o cümlədən, bizim ölkəmiz barədə həm dünyanın ictimai rəyində, həm də bacardıqları qədər bu ölkələrin öz ümumi fikirlərində belə təsəvvür yaratmağa çalışırlar.

**Düşmənin məqsədi: xalqın etimadını qırmaq**

Onların ciddi şəkildə izlədikləri məsələlərdən biri xalqın quruluşa etimadını qırmaqdır. Eşitdiyiniz bəzi sözlər təsadüfi deyil. Təsadüfu deyil ki, bəzi şəxslər gəlib İslam quruluşu barədə danışır və quruluşun legitimlik böhranını ortaya atırlar. Xalqın səsi, istəyi və zəhməti ilə, bu qədər səmimi hiss və duyğularla qurulmuş, bu qədər problemlərlə əlbəyaxa olmuş, bütün bu düşmənlik və mübarizələrdən başıuca çıxmış - bunların hamısı xalqın köməyi ilə olmuşdur - bir quruluşu sual altına salmaq və qeyri-legitim olduğunu demək istəyirlər. Bunlar təsadüfi deyil. Bəzi tribunalardan səslənən bu fikirlərin bəzisi xalqın beynində İslam quruluşuna dair mənfi təsəvvür yaratmaq və onların etimadını qırmaq üçündür. Onlar öz məqsədlərinə çatmaq, yəni xalqla quruluş arasında əlaqəni qırmaq üçün bunu edirlər.

**ABŞ-ın qəti ehtiyacları**

Prinsipial dəyərlərdə tərəddüdə salmaq, problemləri böyütmək, uğurları inkar etmək ABŞ-ın qəti ehtiyaclarındandır. ABŞ İslam Respublikası ilə mübarizədə öz uğruna zəmanət vermək üçün bu amillərə ehtiyaclıdır. Kim bu sahələrdə ABŞ-ın xeyrinə çalışırsa, əslində, ABŞ-ın İran xalqına qarşı məqsədlərini həyata keçirməsinə şərait yaradır. Əlbəttə, bəzi yerlərdə bu təsəvvürə çox qol-qanad verir, ABŞ-ı inkişaf və qələbə halında olan uğurlu bir qüvvə kimi, qarşısındakı cəbhəni isə zəif göstərmək istəyirlər. Bu tamamilə yanlış və yalandır. Bu, ABŞ mediasının təbliğatının məhsuludur. Əsla belə deyil. Səddam rejimi üzərində hərbi qələbə ABŞ-ın İraq və hətta Əfqanıstan məsələsində məqsədinə çatması demək deyil. Düzdür, İraq Əfqanıstandan çox mühümdür. ABŞ-ın İraqdakı problemləri də Əfqanıstandakı problemlərindən qat-qat artıq olacaq. Məsələnin bitdiyini və ABŞ-ın öz məqsədlərinə çatdığını göstərmək istəyirlər. Halbuki əsla belə deyil. Məsələ bitməmişdir və onların çoxlu problemləri mövcuddur.

**Macəraçı və təcavüzkar Amerika qarşısında çıxış yolu**

Macəraçı və təcavüzkar Amerika qarşısında çıxış yolu nədir? Bəziləri təslimçiliyi münasib görürlər. Amma bu, uğurlu deyil. Əlbəttə, siz gənclər bilirsiniz,

müstəqil insani heysiyyəti olan hər bir kəs bilir ki, düşmən qarşısında təslim əlamətlərini göstərmək əsla keçərli deyil. Təslimçilik və qorxmaq düşməni gücləndirir, əhval-ruhiyyəsini yüksəldir, öz təcavüzkar yolunu davam etdirməsinə kömək edir. Bu baxımdan, əsla təslim olmaq lazım deyil.

Bəzi şəxslər deyirlər ki, fürsətləri əldən verməyək. Mən bilmirəm onların məqsədi nədir? İndi hədər gedən fürsət hansı fürsətdir? Amerika qarşısında təslim olmaq fürsəti? Bu, fürsətdir?! Yoğun və quldurcasına səsi ilə öz hökmranlığını yeritmək istəyən bir düşmənə təslim olmaq, onun qarşısından geri çəkilmək bizim xalqımız üçün fürsətdir?! Bu fürsətdirmi kimsə onu əldən verməsin?! Bir zaman insan özü öz məsuliyyətini öhdəsinə götürüb, ya dayanır, ya təslim olur. Əgər təslim olsa, bədbəxtlik və qaragünlük də özünə aid olacaq, başqa bir yerə zərər yetirməyəcək. Lakin insan mühüm bir sahənin başçısı olanda, təslim olması bir ölkəni və xalqı təslim etmək, düşməni bir xalqın taleyinə hakim etmək deməkdir. Məgər bu işə kiminsə haqqı varmı?! Mən bir dəfə başqa bir münasibətlə dedim ki, Şah Sultan Hüseyn əfqanların qarşısında bu bəhanə ilə təslim oldu. Dedi ki, əgər təslim olmasaq, İsfahanın darvazalarını açmasaq, kimlərsə öldürülə bilər. Əgər o bunu etməsəydi, o zaman İsfahanda olan hərbçilərə və digər qeyrətli insanlara arxalanıb desəydi ki, biz düşmənə təslim olmarıq, şübhəsiz, İran xalqından, İsfahan əhalisindən və əfqanların hücumu zamanı tələf olan insanlardan daha az adam öldürülərdi, xalq da o rəzilliyə düşməzdi. Əlbəttə, bu gün şərait başqadır, düşmən də başqa düşməndir. Lakin düşmənin hegemonluğuna təslim olmamaq və hər bir yumşaqlığın onu həvəsləndirdiyini bilmək lazımdır. Bu, dəyişməz qaydadır.

**ABŞ və region ölkələrinə hökmranlıq**

Amerikalılar yalandan öz devizlərini dəyişdirirlər. Həqiqət budur ki, onlar region ölkələrinə hökmranlıq etmək istəyirlər. Deyirlər ki, Orta Şərqin siyasi xəritəsi dəyişilməlidir. Dünən çıxışı yayımlanan ərəb rəsmilərdən biri dedi ki, onlar Ərəb Liqasını buraxıb, sionizm rejiminin də daxil olduğu başqa bir birlik yaratmaq istəyirlər; yəni bölgədə öz qüvvələri və bölgə dövlətlərinə daimi təzyiq vasitələri olsun. Bundan aza qane olmurlar. Dost və düşmən də tanımırlar. Bu gün bəzi bölgə ölkələri ABŞ-ın ənənəvi dostlarıdır. Əgər bu təcavüzkar və yırtıcı heyvana, yəni sionizm rejiminə imkan yaradılsa və qarşısındakı yollar açılsa, şübhəsiz, onların növbəsi də çatacaq. Özləri də bilirlər. Bölgənin bəzi ölkələri hətta bizim yanımızda da qorxduqlarını bildiriblər. Onlar özlərinin qaranlıq gələcəklərindən qorxurlar, çünki xalqlarına arxalanmırlar. Deməli, təslimçilik yolu düzgün yol deyil.

**Quruluşun daxili strukturunu möhkəmləndirmək**

ABŞ təcavüzünə qarşı çıxış yolu quruluşun daxili strukturunu möhkəmlətməkdir. Həqiqətən xalqa söykənən, xalqın müdafiə etdiyi bir quruluş öz daxilində möhkəm olar, bir dövlətə zərbə vuran müxtəlif yollar bağlanar və heç bir qüvvə onu məhv edə bilməz. Biz daxili strukturu möhkəmlədə bilərik. Necə ki, bu gün Allaha şükür olsun ki, möhkəmdir. Amerikalılar bunu bilirlər, bunu onların

sözlərindən tam anlamaq olur. Onlar bilirlər ki, bu xalqın birliyi, İslamla əlaqəsi, dini əsaslara və dini dəyərlərin bu sahədə roluna görə quruluşla xalq arasında olan əlaqənin möhkəmliyi necədir. Bunları məhv etmək istəyirlər. Biz oturub bunların bir-bir bu möhkəm telləri qırmasına tamaşa edək?! Onlar əslində, İran xalqının, İslam quruluşunun səngərlərini bir-bir sıradan çıxarmaq və sonra asanlıqla hücum etmək istəyirlər. Bu gün hər bir adam bacardığı qədər, xalqın birliyindən, dövlət məmurları ilə həmrəyliyindən və quruluşun bütün sahələrində söz birliyindən asılı olan daxili möhkəmliyi qorumağa borcludur.

**Günün əsas şüarları**

İndi növbəti mövzuya keçmək istəyirəm. Qabaqkı mövzu uzandığından bunu qısaltmağa məcburam. Son 2-3 ildə bizim verdiyimiz bir neçə şüarın hamısı fəsadla mübarizə istiqamətində olmuşdur. Çünki fəsad cəmiyyətdə uçurum yaradır. Digər şüarlar ədalətsevərlik, elm istehsalı və proqramlaşdırma hərəkatlarıdır. Əlbəttə, elm istehsalı elmi inkişafsız mümkün deyil. Elm inkişaf etmədən bu çeşidli dünyada rəqabət aparmaq, irəliləmək olmaz. Elmi inkişaf vacib şərtdir. Bu, universitetlərin, tələbələrin və müəllimlərin vəzifəsini çox ağırlaşdırır. Bir neçə ay bundan əvvəl ortaya atılan azadfikirlilik hərəkatı, son 2-3 ildə çoxlu işlər görülmüş işsizlik problemlərinin həlli, milli valyutanın gücləndirilməsi - bizim bu bir neçə ildə üzərində təkid göstərdiyimiz, hər biri üçün xüsusi plan hazırlanan, Allahın lütfü ilə aidiyyətli orqanlarda xüsusi hərəkət başlanan şüarlardandır. İnsan düşmənin nə etmək istədiyini gördükdə daxildə nə etməli olduğunu anlayır. Düzdür, 2-3 il bundan qabaq yoxsulluğun, fəsadın və ayrıseçkiliyin aradan qaldırılması formatında bu sözlərin çoxu deyilirdi. Rəhbərin hökumətə elan etdiyi və parlamentin əsaslanaraq qanunlar qəbul etməli olduğu ümumi siyasətlərdə bunların hamısı əks olunmuşdur. Lakin ictimai rəyin, xüsusən də gənclərin bu məsələlərin bəzisinin əhəmiyyətinə səfərbər edilməsi bunların hər birinin ayrılıqda diqqət mərkəzində olmasını tələb edir. Əlbəttə, bu şüarların çoxu irəli sürüldükdə cəmiyyətin bəzi sahələrində diqqətdən kənarda qaldı. Lakin pak vicdanlar, xüsusən gənclər bu şüarların onların sevdiyi şüarlar olduğunu duydular. Tələbələr arasında elmə, ədalətə və azadlığa həvəs var. Bunlar elmi mühitlərdə əsas istəklərdir. Mən bunların hər biri barədə qısa şərh vermək istəyirdim, amma imkan yoxdur.

**Fəsadın - inkaredilməz fakt**

Bunu da mötərizə arasında deyim ki, iki qarşı tərəfdən bəzən bizim fikrimizcə doğru olmayan sözlər deyilir. Misal üçün, fəsadla mübarizə mövzusu ortaya qoyulduqda bəziləri deyirlər ki, siz ümumiyyətlə, nə üçün fəsadı cəmiyyətdə bir problem kimi ortaya qoyursunuz. Bizim fikrimizcə, bu, düzgün söz deyil, çünki fəsad mövcuddur. Düzdür, burada fəsad bəzi ölkələrdə və quruluşlarda olan mafiyalar kimi geniş və təşkilati şəkildə deyil. Allahın lütfü ilə İslam Respublikası quruluşunda, ən azı, dövlət təşkilatlarında təşkilatlanmış fəsad yoxdur. Amma fəsad müəyyən həddə mövcuddur. Hər yerdə və hər bir zamanda

onun peyda olmasına imkan var. Onunla mübarizə aparmaq lazımdır. Dünyada bəzi qüvvələr ümumiyyətlə, fəsadla, ayrıseçkiliklə və ədalətsizliklə mübarizəni qəbul etmir, heç adını da çəkmirlər. Bəzi ölkələrin nümayişkaranə olaraq belə işlər görmələri mümkündür, bəzi yerlərdə isə nümayişkaranə də deyil, çarəsizlik üzündəndir, təhlükəsizlik üçün bu işləri görürlər. Lakin bizim ölkəmizdə bu hərəkət və təfəkkür bizim etiqadlarımızdan qaynaqlanır, varlığımızın fəlsəfəsidir. Nəyi etməsək, bizim bacarmadığımızdandır. Bu bizim yolumuz və hərəkətimizdir.

**Düşmən və fəsadla mübarizə**

"Nə üçün fəsadla mübarizə mövzusunu önə çəkirsiniz?" etirazı isə yersiz etirazdır. Fəsadı inkar etmək olmaz. Fəsadla mübarizəni qəbul etmək lazımdır. Lakin fəsad məsələsini şişirtmək də olmaz.

Bəziləri də digər tərəfdən, qarşı çıxır, hamını fəsadlı, əliəyri və natəmiz hesab edirlər. Düşmən ictimai rəydə təşviş və şübhə yaratmağa ehtiyaclıdır. Düşmən hər iki müxalif dalğadan bəhrələnir. Bir tərəfdən, o sözləri fəsadın olmasına dəlil hesab edir və fəsadı şişirdir, bir tərəfdən də deyir ki, bu iş nümayişkaranədir. Beləliklə, bizi hər tərəfdən təbliğat blokadasına salır. Biz doğru yolu tanımalı və o yolla getməliyik. Həmçinin mənim tələbələrə müraciətlə dediyim ədalətsevərlik hərəkatı da belədir. Mən bilirəm ki, tələbələr və ümumiyyətlə, gənclər arasında belə ictimai işlərə maraq çoxdur və bu sahədə sualları da var.

**Quruluş rəhbərinin işi - inqilabın idarəçiliyi**

İki-üç həftə bundan əvvəl bir tələbə məndən soruşdu ki, ədalət məsələsində nə üçün özünüz işə qoşulmursunuz? Bu, düzgün gözlənti deyil. İnqilabın idarəçiliyi ölkənin idarəçiliyindən başqa bir şeydir. Rəhbər üçün işə qoşulmaq əvvəla, problemi ortaya qoymaq və ictimai rəyi səfərbər etmək, ikinci növbədə isə icraçı qurumlardan istəmək formasındadır. Bəzi icraçı orqanlar bu iş üçündürlər. Fəsadla mübarizə sahəsində həm icraçı hakimiyyət, həm də məhkəmə hakimiyyəti məşğuldur. Mən hər iki hakimyyətdən ayrı-ayrılıqda istəmişəm və onlar bununla məşğul olurlar. Rəhbərin işə qarışması belədir. Bəli, əgər bir gün icraçı və məhkəmə hakimiyyətlərinin işi görmək istəmədikləri bəlli olsa, rəhbərin çarəsi qalmayacaq və özü həll etməli olacaq, bu iş üçün şəxsi bir nümayəndə təyin edəcək. Lakin Allaha şükür olsun ki, belə deyil. İcraçı qurumlar hazırdırlar, çünki icraçı hakimiyyətə aid bir sahə fəsadın hülqumunu tutmaqdır. Maliyyə, valyuta, ticarət və gömrük sahələrində maliyyə fəsadının hülqumları mövcuddur. Bu mərkəzlərə diqqətsizlik fəsadın yaranmasına səbəb olur. Qurumlar öz nəzarətlərini gücləndirsələr, fəsadın qarşısı alınar. Bunu qabaqlayıcı tədbir də adlandırmaq olar. Məhkəmə sahəsində nəzarətdən çıxmış və cinayət sayılan belə əməllərə qarşı tədbir görülür. Bu günə qədər 100-dən artıq mühüm və geniş məsələni araşdırmışlar. Bu baxımdan, ajiotaj yaratmaq lazım deyil. Mən səkkizmaddəlik məktubda da tövsiyə etmişdim ki, işi qalmaqalsız aparın. Biz doğrudan da fəsadla

mübarizə aparılmasını istəyirik, səs-küy lazım deyil. Bəli, xalqa informasiya çatdırmaq lazımdır. İş bitəndə lazım olan qədər hesabat yayılsın.

**Universitet, elm və tədqiqat**

Hər halda, mənim əzizlərim! Sizin ölkənizi quldurluq, inhisarçılıq, təcavüz, macəraçılıq və hər hansı böhran qarşısında qoruya biləcək amil quruluşun daxili strukturunu möhkəmlətməkdir. Həmçinin xalqın müxtəlif təbəqələri ilə dövlət məmurları arasındakı əlaqə, gənclərin gələcəyə ümidi və tədricən quruluşun zəifləməsinə səbəb olan amillərin qarşısının alınması da belədir. Qeyd etdiyim kimi, bu işlər cidd səylə görülməkdədir və siz universitetdə elm və tədqiqat məsələsinə ciddi yanaşmalısınız. Mən sevinirəm ki, əziz bir tələbə öz söhbətində tədqiqat büdcəsinə toxundu, az olduğunu dedi, onu tələbələrin istəyi və tələbi kimi ortaya qoydu. Müəllimlərin iclasında da bunu bildirdilər. Gəncin tədqiqat, elmi iş və inkişaf haqda düşünməsi çox yaxşıdır. Elmi inkişaf olmadan ölkəni inkişaf etdirmək olmaz. Bu gün bəşəriyyətin düşmənləri də elmdən istifadə edirlər. Biz uca ideallar, həqiqi dəyərlər, insani fəzilətlər və onların yayılması üçün elmdən istifadə etməliyik. Vəhdət və əlaqələr qorunmalı, başladığımız əsaslı işlər davam etdirilməlidir.

**Düşmənin İran xalqı ilə mübarizəni bacarmadığını bilməsi**

Siz bilin, bu gün qlobal istismarçılarda olan İran xalqına dair məlumat onlara İranda böhran yaratmalarını və macəraçılıq etmələrinin diktə etmir. Onlar yaxşı bilirlər ki, bomba ilə iş düzəlmir. Bomba və raket işin bir tərəfidir. Nə qədər ki, millət ayaqdadır, xalq ayaqdadır, nə qədər ki, cəmiyyətin əksəriyyəti 35 yaşdan aşağıdır, yəni böyük gənc təbəqə mövcuddur, nə qədər ki, xalq dini dəyərlərə sadiqdir, belə bir xalqla mübarizə aparmaq və vuruşmaq olmaz. Onlar bunu bilirlər. Bəli, səs-küy salmaq və əgər xalq qorxsa, bundan istifadə etmək, təhdid etmək, kimlərisə xəyanətə vadar etmək olar. Əgər xalq qorxsa, təhdidi və xəyanəti qəbul etsə və təslim olmaq istəsə, o zaman düşmən qələbə çalar və ümidlənər. Amma nə qədər ki, xalq ayaq üstədir, gənci ayaqdadır, məmurları dayanmışlar, təhdid və qorxutmalar qarşısında vahiməyə düşüb əl-ayaqlarını itirmirlər, insanlar məsələləri yanlış anlamırlar, heysiyyətlərini, ölkənin və xalqın şərəfini əhəmiyyətli sayırlar, öz ölkələrini müdafiə etməyə hazır olduqlarını göstərirlər - xalqın ümumi tədbirlərdə iştirakından bu anlaşılır - düşmən də işini bilir və bu ölkəyə qalib gəlməyin asan olmadığını anlayır.

## Universitetdə İslam idarəçiliyi[11]

Bismillahir-Rəhmanir-Rəhim.

**Sual**: Sənayenin modern texnologiyaya ehtiyacına, həmçinin müxtəlif sahələrdə ölkənin ehtiyaclarının aradan qaldırılmasının lazımlığına baxmayaraq, təəssüf ki, hələ də sənaye ilə universitet arasında təşkilatlı və planlı əlaqənin bərqərar olmadığını müşahidə edirik. Sənaye və universitet arasında düzgün əlaqənin yaradılması işsizlik probleminin həllindən əlavə, valyuta qənaətinə və sənayenin müstəqilliyinə də səbəb olacaq. Ümidvarıq sizin qayğıkeş rəhbərliyinizlə ölkənin bu problemi həll olunsun.

**Cavab**: Bəli, mən də yazılanları təsdiqləyirəm.

**Sual**: Neçə vaxtdır bəzi universitetlərdə elmi cihad və məhrum bölgələrə yardım adlı çox gözəl və bəyənilmiş bir iş başlanmışdır. Bu məsələ şübhəsiz, məhrum bölgələrə köməkdən əlavə, gənclər arasında cihad ruhiyyəsinin yaranmasına da bais olur. Ümidvarıq sizin tövsiyələrinizlə universitetlərdə bu iş daha da genişlənsin.

**Cavab**: Bu da düzgündür.

**İnternet və filtr**

**Sual**: Xahiş edirəm deyin ki, nə üçün kommunist Çində interneti ciddi senzura edirlər, amma müsəlman İranda bu iş görülmür?

**Cavab**: Bu təkcə Çinə məxsus deyil. Dünyanın hər hansı yerinə böyük və əhatəli internet sistemi daxil olduqda, adətən, filtrlər də qoyulur. Hər bir ölkə özünün təmayül, təfəkkür və maraqlarına uyğun olaraq bunu tətbiq edir. Bu təbii bir şeydir. Burada da əvvəldə bir qədər diqqətsizlik edildi, lakin sonra işlər görüldü və görülməlidir. Əlbəttə ki, gərək münasib və lazımi filtrlər qoyulsun.

**Sual**: Nə üçün icazəsi olmadığına görə mağazalar bağlanır, lakin bayağı şəkillərin satışına və hətta nümayişinə görə cərimə olunmurlar? Nə üçün beynəlxalq sərgilərdə şirkətlərin din əleyhinə olan hər bir şəkli və yaxud musiqini yaymağa hüquqları çatır.

**Cavab**: Allah onlara lənət eləsin!

**Universitetlərin passivlik**

**Sual:** Mən hiss edirəm ki, universitet mühitini qəribə bir passivlik bürümüşdür. Sizin fikrinizcə, bundan qurtulmaq üçün münasib yol nədir?

**Cavab**: Məndə olan məlumata əsasən, mən universitetlərdə passivlik hiss etmirəm, hətta əksinə, aktivlik mövcuddur; həm siyasi, həm də elmi aktivlik. Əgər

---

[11] Şəhid Behişti Universitetinin tələbələri ilə sual-cavablar: 12 may 2003.

doğrudan da haradasa passivlik hiss olunsa, gənclər buna mane olsunlar. Doğrudan da gənc tələbə mühitində passivlik əsla məsləhət deyil.

**Ədalətsevərlik**

**Sual:** Ədalətsevərlik hərəkatında bizim qırmızı xətlərimiz hansılardır? Çünki aşağı səviyyəli bəzi məmurlar öz çıxışlarında bizim rəftarımızın təxribatçı və quruluşun maraqlarına zidd olduğunu deyirlər. Sizin fikriniz nədir?

**Cavab**: Kaş təxribatçı rəftar kimi tərif olunan bu əməlin nə olduğunu deyəydilər! Mən o zaman onun təxribat olub-olmadığını söyləyərdim. Mən bilmirəm necə rəftar olub ki, onlar onu təxribat biliblər. Hər halda, ədalətsevərlik hərəkatı tələbələrə müraciətlə deyilirsə, məqsəd budur ki, bu tələb, xahiş və istək əsas bir istək kimi deyilməlidir. Bu mühüm tələbin yaddan çıxmasına qoymayın, yəni ədalət xalq, müxtəlif təbəqələr, xüsusən gənclər tərəfindən tələb olunmalıdır. Hər bir vəzifəli şəxs, istər mən, istər haradasa məmur olan başqa bir şəxs öz istəyinin əksinə olsa da, məcbur qalıb ədalət məsələsi ilə maraqlansın. Biri var biz, misal üçün, İqtisadiyyat və maliyyə nazirliyinə deyək ki, ədalətə riayət et. Yaxud Ali Məhkəməyə deyək ki, ədalətə riayət et. Amma biri var gənclərə deyək ki, siz ədaləti tələb edin. Hər birinin xüsusi mənası var. Ədaləti tələb etməyin mənası budur ki, ədalət gənc və tələbə mühitlərində əsas mövzulardan olsun; ədaləti tələb etsinlər, onu hər bir məmurdan istəsinlər. Əgər bundan başqa bir iş baş tutsa, düzgün, yaxud səhv ola bilər. Mən bilmədiyimdən fikir bildirmirəm.

**Mədəni qurumlar**

**Sual:** Ölkənin mədəni qurumlarına ayrılan büdcələr nəticəsiz qalır. Əgər bu mədəni büdcələr infrastruktur layihələrinə sərf olunsa, daha yaxşı nəticələr əldə olunar.

**Cavab**: Mədəni qurumlar eyni deyillər. Bəzi mədəni qurumların işi doğrudan da çox faydalıdır. Bunu inkar etmək olmaz. Mən bilmirəm “infrastruktur” dedikdə məqsəd nədir? Təbii ki, mədəni iş də infrastruktura aid ola bilər; düşüncə və etiqad infrastrukturları. Düzdür, mən bunu qəbul edirəm ki, mədəni işlərin çoxu dayaz, bəsit və lazımi səviyyədən aşağıdır. Bu bizim işlərimizin nöqsanlarındandır. Lakin bir çox mədəni qurumlar doğrudan da yaxşı işləyirlər.

**Cəmiyyətdə fəsad və pozğunluq**

**Sual**: Cəmiyyətin fəsada və pozğunluğa üz tutduğuna görə, yenə də demək olarmı bu cəmiyyətdə din və İslam düşüncəsi var?! Bir də təkidlə xahiş edirəm ki, möhtərəm müəllimləri elmi kafedralarda tərəfbazlıqdan çəkindirəsiniz.

**Cavab**: Bu iki məsələ oldu. Deyildi ki, cəmiyyət fəsada və pozğunluğa üz tutduğundan onda din və İslam düşüncəsi yoxdur. Mənim fikrimcə, bu, əsla düzgün dəyərləndirmə deyil. Fəsada və pozğunluğa təmayül əlbəttə, çox pis və mənfi haldır. Lakin onun cəmiyyətin bir sahəsində mövcud olduğuna görə bütün cəmiyyəti dinsizlikdə ittiham etmək olmaz. Siz əziz gənclər inqilabdan qabaqkı

dövrü görməmisiniz, indiki vəziyyəti görürsünüz. Gözləntiləriniz yüksəkdir, haqqınız da var. Bilirsiniz iniqlabdan öncə bu məmləkət necə idi?! Əlli il boyunca necə əxlaqi bünövrələr bu məmləkətdə qəsdən və planlı şəkildə dağıdıldı?! Qadınları, qızları və gəncləri hansı vəziyyətə saldılar?! Əgər bilsəydiniz, bizim təmiz və işıqlı gənclərimizin, cəmiyyətin müxtəlif sahələrində çalışan qız və oğlanların nə qədər dəyəri olduğunu anlayardınız.

Universitetlərdə və bu Şəhid Behişti universitetində inqilabdan öncə bir neçə dindar gənc vardı. Əgər adlarını çəksəm, bəzilərini tanıyarsınız. Onların bəzisi mənimlə dost və qohum idilər. O zaman buranın adı Milli Universitet idi. Bura haqqında mənə bəzi sözlər danışırdılar. Əvvəla, dini mərasimlər və hətta namaz qılmaq üçün belə kiçik bir yer də yox idi. Özləri toplanıb şəxsi pulları hesabına namazxana üçün kiçik bir yer düzəltdilər. Məgər rejim icazə verərdi?! O zaman əsasən, oliqarxların və pulluların uşaqlarının təhsil aldığı bu universitet belə idi, böyük faciə və fəsadların mərkəzi idi. Digər universitetlər də belə idi. Dindar müəllim və tələbə doğrudan da universitetdə təzyiqə məruz qalırdı. Cəmiyyət səviyyəsində də həmin məsələlər vardı. Çadra atıb üzünü tutmaq istəyən yox, sadə bir hicabını qorumaq istəyən bir qadın məgər cəmiyyətdə yol yeriyə bilərdi?! Biz macəralar görmüşük, eşitmişik və xəbərimiz var. İndi buna nə vaxt var, nə də danışmaq üçün münasibdir. Siz o hadisələri görməmisiniz. Bu gün bizim cəmiyyətimiz dindar və əxlaqlı cəmiyyətdir. Düzdür, fəsad da var. Əmirəlmömininin dövründə də fəsad vardı. Siz elə bilirsiniz ki, o zaman fəsad və pis işlər yox idi?! O zaman fəsadçı və pozğun insanlar yox idi?! Bəli, o zaman da vardı. Əsas odur ki, hər bir quruluşda vəziyyətin yaxşı olmasını istəyirlərsə, fəsad amilləri ilə mübarizəyə çalışmalıdırlar. Fəsadla mübarizə üçün ciddi çalışmaq lazımdır; istər məsələlərlə, istərsə də kökləri ilə. Bu olsa, cəmiyyət inkişaf edəcək, irəliləyəcək və gördüyünüz bu qədər fəsad da tədricən aradan qalxacaq.

**Quruluşun vəzifəli şəxsləri və iqtisadi fəsadlar**

**Sual**: Nə üçün iqtisadi fəsadlarla mübarizədə növbə quruluşun vəzifəli şəxslərinə çatanda iş dayanır?

**Cavab**: Əlbəttə, sizin düşündüyünüz kimi deyil. Sözügedən süni şübhələrə bir ümunə də budur. Belə deyil ki, məmurlara çatanda mübarizə aparılmasın. Xeyr, bəzi yerlərdə məmurlara qarşı daha kəskin tədbirlər görülür. Siz bilin ki, indi Ali Məhkəmə bəzi yaxşı adamlar tərəfindən ittiham olunur ki, dövlət məmurlarına qarşı çox sərt davranır. İndi bu dostumuz, qardaşımız, yaxud bacımız yazır ki, məmurlara göz yumurlar. Xeyr, əsla belə deyil. Cinayəti tanımaq, cinayətin miqdarını anlamaq, sonra cinayətə uyğun cəza gözləmək lazımdır. Bunlar və adlarını çəkdiyiniz digər işlər araşdırılmışdır. Əgər mən nümayəndələrimdə fəsadların olduğunu bilsəm, mütləq tədbir görərəm və heç kəsi nəzərə almaram. Lakin şayiələrə etimad etmək olmaz. Şayiə yayırlar ki, filankəs yeyib-dağıdır, filankəs fəsad törədir. Xeyr, belə deyil. Bizim xəbərimiz var və bilirik. Mənim informasiya kanallarım çox genişdir və bəzilərinin təbliğ etdiklərinin əksinə olaraq,

əsla 1-2 kanalla məhdudlaşmır. Mən müxtəlif yollarla xəbər alır və çox şeyləri bilirəm. Belə deyil ki, doğrudan da cinayət və fəsad baş vermiş və ona göz yumulmuşdur.

**Mədəni-ideoloji hücum**

**Sual**: Sizin fikrinizcə, mədəni hücuma qarşı həlledici praktik yol nədir?

**Cavab**: Mədəni-ideoloji hücum bəsit bir məsələ deyil. Düşmənin müxtəlif təbəqələrin etiqad, əxlaq və dəyərlərini hədəfə almaq üçün işlətdiyi plan və proqramların hər biri müxtəlif mədəni vasitələrlədir və təbii ki, onlara qarşı tədbirlər də müxtəlifdir. Hər yerdə vahid proqramdan istifadə etmək olmaz. Mənim fikrimcə, universitetlərdəki təşkilatlar, birliklər yaxşı işləyirlər. İndi universitetlərdə yaxşı işlər görülür. Bunu da deyim ki, bu sahələrin çoxunda siz məndən nə etməli olduğunuzu soruşmamalısınız. Siz özünüz gəncsiniz, düşüncəli və tələbəsiniz. Baxın, görün nə etmək lazımdır. Yaxşı mədəni sahələrdə çox işlər görmək olar. Siz ehtiyatlı olun, dərin düşünün. Dayaz mədəni iş faydalı deyil, bəzən də zərərlidir.

**Sual**: İstər daxildə, istərsə də ölkə xaricində quruluş barədə mənfi təbliğat çox artmışdır. Bu təbliğatın mənfi təsirlərini cəmiyyətdə aydın şəkildə müşahidə edirik. Ölkənin gənc və yeniyetmələri arasında İslamın və müsəlmanların çox gözdən düşdüyünü düşünmürsünzmü? Bu təbliğatla mübarizədə tələbələrə nə tövsiyə edirsiniz?

**Cavab**: Düşünürəm ki, İslamı və müsəlmanları gənclərin gözündən salmaq istəyirlər. Bu, söhbət etdiyim mövzudur. Bəli, doğrudan da buna çalışırlar. Buna qarşı mübarizə aparmaq lazımdır. Söhbət əsnasında bu mübarizənin yolları müəyyən qədər deyildi.

**İraqın gələcəyi**

**Sual**: Siz İraqın gələcəyini necə proqnoz verirsiniz?

**Cavab**: Mən qəti proqnoz verə bilmərəm. Hesablamalara uyğun olaraq böyük ehtimalla anladığım budur ki, amerikalıların İraq üçün cızdıqları plan həyata keçməyəcək. İndiyə qədər reallaşanlar onların planlarına girişdir. Amerikalılar çox problemlərlə üzləşəcəklər. İraqda baş verənləri və baş verməkdə olanları qabaqcadan düşünməmişdilər. Bəzi alimləri və böyük şəxsiyyətləri İraqda çox yaxşı qarşıladılar. Biz bilirik və xəbərimiz var ki, ümumiyyətlə, amerikalılar başlarını itiriblər. İnsan nə zaman başını itirir? Qəfil hadisələrlə üzləşəndə. Amerikalılar şiə qruplarının birliyini, şiə və sünni qruplarının əməkdaşlığını, İraq xalqının şüarlarını, açıq xalq hakimiyyətini, onların işləri, məsələn, hərbi hakimiyyət istəkləri qarşısında xalqın yerli hökumət tələblərini düşünməmişdilər. Düşünmədiklərinə görə də ziyana uğradılar. Düşünülməmiş hər bir iş belədir. Bu mənim qısa proqnozumdur.

**Sual**: Lütfən, biz gənclərin iradəsinin güclənməsi üçün bir qədər nəsihət edin.

**Cavab**: Allah siz əziz gəncləri qorusun!

**Sual**: Mədəni inqilabdan 20 ildən artıq ötdükdən sonra nə üçün universitetlər hələ də İslama uyğunlaşmamışdır? Bunun məsuliyyəti kimin üzərinə düşür?

**Cavab**: Əlbəttə, çox yaxşı işlər görülmüşdür. Amma bəli, siz doğru deyirsiniz, universitetlər İslama tam uyğunlaşmamışdır. İslama uyğunlaşmaq da təkcə hicaba riaəyət etmək və digər bu kimi işlər mənasında deyil. Elm və tədqiqatın həyata keçməsi İslama uyğunlaşmaqdır. Əgər universitetin İslama tam uyğunlaşmasını istəyiriksə, onda bütün cəhətlərə riayət olunmalıdır, lakin olunmur. Siz çalışmalısınız, iş siz tələbələrdən asılıdır.

**Universitetdə İslam idarəçiliyi**

**Sual**: Sizin fikrinizcə, universitetdə İslam idarəçiliyinin rolu və onun tələbələrin İslam fəaliyyətlərinə təsiri nədir?

**Cavab**: Əgər sözün həqiqi mənasında idarəçiliyin İslam meyarlarına diqqət yetirilsə, şübhəsiz, universitetin bütün elmi və mədəni hərəkətlərində təsirli olar, bütün sahələri yaxşılaşar. Bizim fikrimizcə, belədir. Mən istər universitetdə, istər universitet xaricində mühüm uğurların mövcud olduğu sahələrdə mömin, müsəlman və etiqadlı kadrların izini görürəm. Sizin universitetinizdə də dəyərli işlər müşahidə etdim. Bu da həmin mömin, dindar və etiqadlı uşaqların işidir. Yaxşı işlər mömin insanlardan baş verir. Prinsipcə, İslam idarəçiliyi tələbələrin İslam fəaliyyətinə müsbət təsir buraxacaq. Həm bu hərəkətlərə kömək edəcək, həm də onların düz yollarını davam etdirmələrinə, səhvə yol verməmələrinə.

**Elm istehsalı**

**Sual**: Çox geniş bir məsələ, çox geniş zehni, fərdi, həmçinin təcrübi bacarıqlara ehtiyaclı olan elm istehsalını hər bir tələbədən gözləmək olar, yoxsa bu, uyğun istedadlara malik şəxslərin inhisarındadır və şəraiti hazırlamaq vəzifəsini onlar daşıyırlar?

**Cavab**: Hamının vəzifəsidir. Biz elm istehsalı məsələsini dəfələrlə universitetdə irəli sürmüşük, indi və gələcəkdə də inşallah, irəli sürəcəyik. Bunun mənası o deyil ki, hər bir tərəf-müqabilimizdən elmi istehsal etməsini istəyirik. Mənası budur ki, bu dəyər, məqsəd və ardınca fərdi maraqlar duran ümumi hərəkət olsun. Sırf tərcümə elmi yaxşı deyil, bir vasitə ola bilər. Tərcümə elmi, mədəniyyəti, tərcümə sistemləri və üsulları düzgün deyil. Bu mövzular müəllimlərin iclasında da deyildi. Mən deyirəm ki, biz istedadlı bir xalq kimi elm yaratmalıyıq və bunu bacarırıq. Elm yaradan şəxslər nə istedad, nə də tarixi elmi nailiyyətlər baxımından bizdən irəlidə olublar. Buna görə, bizim xalqımız bacarar. Bu, universitetlərdən ümumi bir istəkdir, inşallah, hamı buna diqqət yetirsin.

**Sual**: Bu zəmanədə öz dinimizi qorumaq üçün nə edək?

**Cavab**: İndi gördüyünüz bu işlər yaxşıdır: dinə, namaza, siyasətə diqqət, quruluşa sadiqlik, böyük toplantılarda və quruluşun səhnələrində iştirak etmək.

**Sual**: Bir neçə ildir İslam Repsublikasının mərhum rəhbəri və banisi olan həzrət imam haqqında televiziya və radio kanallarının ən pis saatlarında bir qədər görüntü və söhbətlərdən başqa bir şey görmürük. Nə üçün tamaşaçısı çox olan kanallar öz proqramlarında həzrət imam və onun sözləri üçün ən az vaxtı ayırırlar?

**Cavab**: Əgər doğrudan da belə olsa, etiraz haqlıdır. Onlara xəbərdarlıq etmək lazımdır.

**Sual**: Rəhbərimdən istəyirəm ki, biz tələbələrin vəzifəsi haqda söhbət etsin və desin ki, ölkəmizin gələcəyi necə olacaq.

**Cavab**: Düşünürəm ki, söhbət əsnasında bu sualın cavabı müəyyən həddə verildi.

**Məmurların azğınlığına qarşı çıxmaq**

**Sual**: İmam buyurdu ki, tələbələr əyriliklər qarşısında cəsarətlə dayansınlar. Əgər tələbələrin dayanması məmurların düzəlməsinə səbəb olmasa, vəzifə nədir?

**Cavab**: Xeyr, islahata səbəb olacaq. Əlbəttə, tələbənin qarşı çıxmasının mənası bu deyil ki, silahlı mübarizə aparsın. İnsan məmura deməli, xəbərdarlıq etməli və ondan istəməlidir. Bu istəmək onun seçdiyi üsulda, rəftarda və seçimində şübhəsiz ki, təsir buraxır. Təsir buraxmaması mümkün deyil. Mən bunu qəti şəkildə deyirəm. Əgər bu məqam üzərində diqqətlə düşünsəniz, görəcəksiniz ki, bir toplumun bir şey istəməsi və bizim kimi demokratik bir quruluşda onun həyata keçməməsi imkansızdır. Nəhayət, həyata keçəcəkdir.

**Tələbələrlə söhbətin səbəbi**

**Sual**: Söhbət üçün universiteti və tələbələri seçməkdə sizin meyarınız nədir? Lütfən universitet seçiminin əsasını bəyan edin.

**Cavab**: Mən uzun illərdir universitetlərlə əlaqədəyəm. Bütün universitetlərə getmişəm. Sizin universitetinizə də bir neçə dəfə gəlmişəm. O zaman siz tələbə deyildiniz. Universitetlərlə əlaqədə olan dostlarla məsləhətləşirik, hansı universitetə getməmişik, oraya gedirik. Mən Tehran universitetinə, Pedaqogi universitetə, Şərif sənaye universitetinə, Əmir Kəbir universitetinə və İmam Hüseyn (ə) universitetinə getmişəm. İndi növbə Şəhid Behişti universitetinin idi. Allah qəbul etsin! Mən istəyirəm nə qədər ki, sağam, gənc və tələbə toplumu ilə əlaqəm qırılmasın.

**Sual**: Bizə deyin ki, belə gərgin vəziyyətdə müxtəlif siyasi axınlar qarşısında məlumatlı və hazırlıqlı bir tələbənin vəzifəsi nədir?

**Cavab**: Düzgün düşünmək, düzgün təhlil etmək, düzgün təhlili digərlərinə demək və məlumatlı olmadığını düşündüyünüz hər bir şəxsi məlumatlandırmaq.

**Sual**: Xahiş edirəm tapşırın qızların hicabının vəziyyətinə və qızlarla oğlanlar arasındakı münasibətlərə diqqət yetirsinlər. İmza: Bir qrup tələbə.

**Cavab**: Cənab Doktor Nədimi buradadır. Biz də dedik. Qız və oğlanların özləri də buradadırlar. Hicaba doğrudan da yaxşı riayət etmək lazımdır.

**İqtisadi fəsadlarla mübarizə və yüksək rütbəli məmurlar**

**Sual**: Nə üçün iqtisadi sahədə fəsad törədən, yaxud iqtisadi fəsadlarla qətiyyətli mübarizə aparmayan yüksək rütbəli məmurlara qarşı lazımi tədbir görülmür və nə üçün bu sahədə xalq üçün lazımi şəffaflıq yaradılmır?

**Cavab**: Dediniz ki, fəsad törədən şəxslərlə qətiyyətli mübarizə aparılmır. Mən bunu qəbul etmirəm. Xeyr, tədbir görülür. Dediniz ki, qəti tədbir görməyənlərə qarşı nə üçün tədbir görülmür? Cavab budur ki, qəti tədbir görməyənlərə qarşı necə tədbir görək? Lazımi tədbir budur ki, onlara deyək, xəbərdarlıq edək və edirik. Lakin bu barədə xalq üçün lazımi şəffaflıq yaradılmır. Bir zaman gözlənilir ki, tez-tez bəyanat verilsin, desinlər ki, filankəsi tutduq, filankəsin evini yıxdıq, filankəs bu fəsadı törədib. Bu, düzgün deyil və bizim elan etdiyimiz siyasətlərin ziddinədir. Biz dedik ki, ümumiyyətlə, deməyin. Elan edilən və qalmaqal yaranan yerlərdə də mən müvafiq deyildim. Bu qərarı məqsədyönlü şəkildə qəbul etdik. Bunun səbəbi var, nəyisə ört-basdır edib gizlətmək üçün deyil. Əsla! Mən heç kimdən çəkinmirəm, lakin düşünmürəm ki, qəti olmayan, sübuta yetməmiş, böyük və əhəmiyyətli olması sübut olunmamış, mühakimə baş tutmamış və istintaqı bitməmiş bir məsələ dillərə düşsün. Kim bu işi görsə, mən razı deyiləm; istər mətbuat nümayəndələri, istər radio-televiziya və digərləri. Lakin işlərinin sayını desinlər; o da bu şərtlə ki, şəxslərin adı çəkilməsin. Baxın, bir nəfər bir cinayət törədir, həm də çox pis adamdır, cəzalandırılmalıdır. Amma əgər biz onun adını elan etsək, bununla neçə nəfər cəzalandırılacaq? Onun məktəbdə, yaxud universitetdə oxuyan, öz məhəlləsinə get-gəl edən oğlu və qızı da cəzalanacaq. Buna nə lüzum var?! Qoyun cinayətkar həbsxanaya düşsün və ümumi olaraq deyilsin ki, bu iş baş tutmuşdur. Daha nə lüzumu var ki, biz onun ibtidai və orta məktəb şagirdi, yaxud universitet tələbəsi olan uşağını da heç bir günahı olmadan cəzalandıraq?! Bu, yalnız məcburi hallarda ola bilər. Yəni bəzən vəziyyət elə olar ki, bundan başqa yol qalmaz. Bu zaman çarə yoxdur. Amma elan etməmək mükündürsə, belə işlərlə çox müvafiq deyiləm.

**Ədalətsevərlik**

**Sual**: Mənim sualım sizin 2002-ci ildəki Tələbə konqresinə göndərdiyiniz müraciət barədədir. Bəzi məmurlar, hətta ruhanilər, görkəmli və qayğıkeş insanlar bizə nəsihət edirlər ki, ədalətsizliyə qarşı etiraz bildirmək dövlətə və inqilaba zərbə vurur, bu işlər radikallıqdır. Bu şəxslərə nə demək lazımdır?

**Cavab**: Demək lazımdır ki, ədalət tələb etmək dövlətə nəinki zərbə vurmur, hətta onu gücləndirir də. Əlbəttə, mən bilmirəm siz onu necə tələb etmisiniz ki, onlar bunun zərbə vurduğunu demişlər. Tələb sərt, kobud, yaxud qeyri-münasib ola bilər. Mən bu barədə mühakimə yürütmürəm. Lakin ədalət tələb etməyin özü inqilaba heç bir zərbə vurmur, onu tamamilə gücləndirmək istiqamətindədir.

**Rəhbərin kadrları və maliyyə pozuntuları**

**Sual**: Sizin müraciətinizə doğru hərəkət zamanı özünüzün təyin etdiyiniz bəzi məmurların qanun pozuntusu ilə rastlaşırıq. Bəzi dostlar deyirlər ki, əgər rəhbər lazım bilsəydi, onlara xəbərdarlıq edərdi, yaxud işdən çıxarardı. Sizin fikriniz nədir?

**Cavab**: Əgər mən kimisə bir vəzifəyə təyin etsəm və sonra onda iqtisadi fəsadlar kimi bir eyib görsəm, şübhəsiz, göz yummaz və onu vəzifəsindən kənarlaşdıraram. Lakin bəlli deyil ki, o şəxs barədə deyilənlər həqiqətdir, yoxsa yox. Bəzi şəxslər barədə hansısa sözlər danışırlar, mən də eşitmişəm, amma dəqiq bilirəm ki, yanlışdır, doğru deyil. Bunun da elə olması mümkündür. Hər halda, mən təyin etdiyim bir şəxsdə fəsad görsəm, buna səbir etmərəm. Lakin dediniz ki, rəhbər lazım bilsəydi, onlara xəbərdarlıq edərdi. Bəli, xəbərdarlığın yeri olanda xəbərdarlıq veririk, lakin kiməsə xəbərdarlıq elə bir şey deyil ki, televiziyadan yayımlansın. Siz görürsünüz ki, mən çıxışlarımda, cümə namazlarında, Dövlət Şurası ilə görüşlərimdə xatırladıram, nəsihət edirəm. Bunlar xəbərlərdə yayımlanır. Onların bir neçə qat artığını, bəzən çox acı dillə xüsusi iclaslarda məmurlara deyirəm. Lakin xalqın, məmurlara verdiyimiz xəbərdarlıqları, dediyimiz sözləri, yaxud göstərdiyimiz acılıqların hamısını bilməsini istəmirik. Məqsəd budur ki, o şəxs yola gəlsin. Çox zaman təsir buraxır. Bəzən də təsirsiz olur və sonra görürsünüz ki, o şəxs gedir.

**Məmurların həyat tərzi**

**Sual**: Sizin təyin etdiyiniz bəzi məmurlar, həmçinin yaxın ətrafınızda çalışanlar elə də sadə həyat tərzi yaşamırlar. Siz onlara nə qədər xəbərdarlıq edirsiniz?

**Cavab**: Sadə həyat tərzi çox yaxşıdır, lakin mənim israrım yoxdur ki, bizimlə çalışan, yaxud mənim təyin etdiyim məmurlar mütləq zahid vəziyyətdə yaşasınlar. Yox, adi həyat. Bəli, dəbdəbəli yaşasalar, onlara deyirik. Zahid tərzlə lüks tərz arasında orta hədlər mövcuddur. Komfortlu və kübar olmayan, həmçinin elə zahid şəkildə də olmayan adi yaşayışları olsun. Əgər kimsə belə yaşasa, biz ona etiraz bildirmir, israr da etmirik ki, mütləq zahid həyat tərzi sürsünlər. Əlbəttə, əgər kimsə mənim təyin etdiyim adamların lüks həyat tərzi keçirdiyini bilsə, xəbər versin biz də bilək və lazım olsa, tədbir görək.

**Sual**: Ali Məhkəmənin qarşısında toplaşıb onlardan iqtisadi fəsadlara qarşı kəskin mübarizə tələb etmək quruluşu zəiflətməkdir?

**Cavab**: Fərqi yoxdur. Bəzən Ali Məhkəmə doğrudan da iş görmək istəyir. Əgər belə bir dayaq görsə, mütləq yerinə yetirər. Bəzi siyasi təzyiqlər Ali Məhkəməyə maneçilik törədir. Bu baxımdan, düşünmürəm ki, bu iş quruluşu zəiflətmək olsun. Düzdür, bəzən hansısa şəraitdə zəiflətmək ola bilər, amma bəzi şəraitlərdə də gücləndirməkdir. Yəni əslində, istədikləri işi görə bilmələri üçün və əngəl yaradan bəzi siyasi cərəyanların qarşısında daha güclü silaha malik olmaları üçün onlara dəstək sayılır.

**Təhsil nazirliyinin büdcəsi**

**Sual**: Nə üçün Təhsil nazirliyinə ayrılan büdcələr düzgün sərf olunmur? Nə üçün müəllimlərin tələbələrlə əlaqəsi bu qədər azdır? Nə üçün tələbələrin imkanı və elmi vaxtı siyasi məsələlərə sərf olunur və onların yalnız 60 faiz bacarığı elmə sərf olunur?

**Cavab**: Bu, çox söz oldu. İddiaları sübut etmək lazımdır. Əvvəla, müəllimlərlə tələbələrin əlaqəsinin az olması bir eyibdir. Mən müəllimlərlə digər görüşlərimdə həmişə tövsiyə və təkid etmişəm ki, tələbəyə vaxt ayırsınlar. Universitetlərdə müəllimlər üçün otaqlar ayrılırdı, yəqin ki, indi də belədir. Orada vaxt keçirir və mütaliə edirdilər. Tələbələr də nə vaxt istəsələr, onlara müraciət edirdilər. Bu, yaxşı bir ənənədir və bu əlaqə olmalıdır. Tələbələrin yalnız 60 faiz bacarığının elmə sərf olunmasından isə xəbərim yoxdur. Bizim gözlədiyimiz budur ki, tələbə və müəllimin daha artıq elmi bacarığından istifadə olunsun.

**Elm istehsalı**

**Sual**: Çox geniş bir məsələ, çox geniş zehni, fərdi, həmçinin təcrübi bacarıqlara ehtiyaclı olan elm istehsalını hər bir tələbədən gözləmək olar, yoxsa bu belə istedadlara malik olan şəxslərin inhisarındadır?

**Cavab**: Bu sualın cavabını verdim. Biz tələbələrin hər birindən elm istehsalı gözləmirik. Ümumiyyətlə, bu məsələ bu şəkildə fərdi məsələ deyil, bəlkə də hamının elm istehsalına gücü çatmır. Bu, ümumi bir tələb kimi ortaya qoyulmalı və universitetdə ənənəyə çevrilməlidir ki, biz həmişə başqalarının əldə etdiklərini öyrənmək fikrində olmayaq. Onların vasitəsilə əldə edilən nailiyyətləri artırmaq üçün də ciddi çalışmalıyıq.

**Sual**: Rastlaşdığım insanların əksəriyyəti sizin təqvanıza və sadə yaşayışınıza şübhə etmirlər. Sizin sözləriniz onların da ürək sözləridir. Lakin deyirlər ki, nə üçün ətrafdakıların belə işləməsinə qoyur? Nə üçün onların qarşısını almır? Nə üçün millət vəkillərinin milyonluq gəlirlərinin və bəzi ağa uşaqlarının gəlirlərinin qarşısını almır?

**Cavab**: Deputatlar mənim ətrafımdakılar deyillər. Qanun onların ixtiyarındadır, ona uyğun əməl edirlər. Əlbəttə, bunu sizə deyim, gözləməyin ki, biz dövlət qurumlarına baxaq, görək hansının gəliri çoxdur, yaxud sadə yaşayış tərzləri yoxdursa, tez işdən kənarlaşdıraq. Bu ümumiyyətlə, düzgün və mümkün üsul deyil. Gözlənilən odur ki, mənim ətrafımdakılar və mənə yaxın olanlar öz həyatlarında sadə olsunlar. Mənim bildiyim qədər elədir. Bizim dəftərxananın birinci dərəcəli şəxsləri peykan maşını ilə get-gəl edirlər, lüks həyat tərzi yaşamırlar. Əgər kimdəsə bundan fərqli məlumat varsa, bizə desin bilək.

Ağa övladları dedikdə məqsədin nə olduğunu bilmirəm. Ağa övladları ümumi bir sözdür: din alimlərinin övladları, məmurların övladları, hər hansı bir ağanın övladları. Hər halda, hər bir ağanın övladı ağa övladıdır. Ağa övladı, qeyri-ağa övladı yoxdur. Hamının qarşısını almaq lazımdır və alırlar. Belə deyil ki, kimsə

kimdənsə çəkinsin. Düzdür, bəzən şayiə və söz düzəldirlər. Onların hamısına inanmayın, çoxu düzgün deyil.

**Sual**: Bir təklif: Lütfən, universitetlərdə tələbələrin şübhələrinə cavab vermək məqsədilə bir mərkəz yaradın ki, tələbə əzizlər sizinlə daha faydalı və sürətli əlaqə qurub öz problemlərini həll edə bilsinlər.

**Cavab**: Hansı mərkəz?! Allaha şükür olsun ki, universitetlərdə bu qədər mərkəz var. İndi başqa bir mərkəz də biz düzəldək?! Düşünmürəm ki, bu, münasib olsun. Həmçinin siz bütün suallarınızı məndən soruşmayın. Mən sizin universitetinizə gəlmişəm. Nə soruşsanız, vaxtın imkan verdiyi həddə cavab verəcəyəm. Lakin bu qədər adam var, onlardan soruşa bilərsiniz. Onların fikirlərini öyrənin, sizə cavab verəcək və beyninizdəki şübhələri aradan qaldıracaqlar. Belə deyil ki, mütləq mən gəlib cavab verməliyəm. Xeyr, sizin istəyinizi yerinə yetirə biləcək çoxlu insanlar var.

**Sual**: Universitetin məsul şəxsləri öz qanun pozuntularını ört-basdır etmək üçün qanunları tələbədən gizlədirlər. Belə ki, bəzi tələbələr öz hüquqlarını əldə etmək üçün məhkəmə orqanlarına müraciət etməyə məcbur olurlar. Həmçinin Tibb universitetində dini vəziyyət çox pis və acınacaqlıdır. Nə üçün heç kim buna baxmır?

**Cavab**: Məgər qanunu gizlətmək olar?! İnsan qanunu oxuyur, qanun bir şəxsin əlində deyil. Qanun çap olunmuşdur, onu tapmaq olar. Tibb Universitetində dini vəziyyət barədə isə, əgər belə olsa, burada iştirak edən cənab rektorlar onunla maraqlanmalıdırlar. Bəli, İslamın həm məzmununa əməl olunmalıdır, həm də formasına.

**Sual**: Əsl vəzifələrindən qaçmaq, yoxsulluq, işsizlik, ayrıseçkilik və fəsad məsələləri ilə məşğul olmaqdan çəkinmək barədə parlamentə tövsiyəniz nədir?

**Cavab**: Biz bütün məmur dostlara tövsiyə edirik ki, xalqın əsaslı məsələləri ilə məşğul olsunlar. Mən söhbətlərimdə bunları demişəm. Hücum etmək üçün düşmənə ümid verən və onu həvəsləndirən vasitələrdən biri budur ki, cəmiyyətin problemləri ilə məşğul olmayaq. Hamı bu sahədə çalışmalıdır.

### Elmi əlaqə və ABŞ

**Sual**: Təslimçilik və böyunduruq altına düşməmək şərti ilə ABŞ-la məhdud elmi və iqtisadi əlaqələrə münasibətiniz necədir?

**Cavab**: Bizim fikrimizcə, dünyanın elmi təşkilatlarının hər hansı biri ilə elmi əlaqələr yaxşıdır. Əlbəttə, bu şərtlə ki, zərərli məsələlərə səbəb olmasın. Elmi əlaqə öz-özülyündə yaxşıdır. İqtisadi əlaqələr də belədir. Bizim neft mərkəzlərimizə və digər yerlərə müxtəlif şirkətlər gəlib-gedirdilər. Bir neçə il bundan əvvələ qədər ABŞ-ın iqtisadi şirkətləri də gəlirdilər, neft alırdılar, yaxud işləyirdilər. Nəhayət, özləri 6-7 il bundan əvvəl bu sanksiyaları tətbiq etdilər. Bizim fikrimizcə, elmi qurumlarla əlaqənin eybi yoxdur. Bizim həssas yanaşdığımız məsələ ABŞ dövlətidir. Bunun da tamamilə möhkəm və güclü bir məntiqi var. Bu barədə başqa zaman danışmaq istəyirəm. İndi vaxtı deyil.

**Sual**: Nə üçün bir müsəlman cəmiyyətində bəzi şəxslər günbəgün varlanır, bəzi şəxslər isə daha yoxsul olurlar?

**Cavab**: Bəli, bu etiraz düzgündür. Mənim özüm bu məsələyə etiraz edənlərdən biriyəm. Əlbəttə, kim düzgün yolla sərvət toplasa, heç kim ona etiraz etməz. Lakin bəzi şəxslərin sürətlə belə sərvətlərə malik olması, saxta, yasaq və haram üsullardan istifadə etmədən əsla mümkün deyil. Ölkənin sərvətləri məhduddur. Haram sərvətin bir yerdə yığılması onun yanında başqalarının kisəsinin boşalmasına səbəb olur. Əmirəlmöminin buyurub ki, harada sərvət toplansa, onun yanında kiminsə haqqı tapdanır. Bizim bütün səyimiz bunun qarşısını almaqdan ötrüdür. Bizim iqtisadi fəsadlarla və qaçaqmalçılıqla mübarizə üzərində təkidlərimiz bundan ötrüdür. Bunun üzərində çox təbliğat işi aparılmayıb və aparılmasını da istəmirdik. Mən son bir-iki ildə məhkəmə və icraçı qurumları qaçaqmalçılıqla mübarizəyə vadar etmək üçün çox iş başlamışam. Qaçaqmalçılıq mürəkkəb məsələdir. Bu fəsadlar da ondan törəyir.

**Pis hicablılıq**

**Sual**: Bir müddətdir pis hicablılıq və universitetlərdə yanlış mədəniyyətlərin təqdim edilməsi problemi bu universitetlərin Bəsic üzvlərinin nigaranlığına səbəb olmuşdur. Əgər işimizdə qətiyyətli olsaq, təcrid olunacağıq. Sizin təklifiniz nədir?

**Cavab**: Qətiyyət nə deməkdir? Yəni fiziki tədbir? Bu, düzgün deyil və biz əsla bunu tövsiyə etmirik. Lakin demək və yada salmaq yaxşıdır. Olmazmı, gözəl əxlaqla yada salsınlar?! Dünən bir qrup üçün bir hədis oxudum. Yaxşı işlərə dəvət və pis işlərdən çəkindirən insanın özü dəvət etdiyi və çəkindirdiyi işlərə həm elmli olmalıdır, həm də əməl edən. Yumşaq və mehriban şəkildə dəvət etmək və ya çəkindirmək lazımdır. Bu əslində, əmr etməkdir: et, yaxud etmə! Bu, xahiş deyil, amma həmin əmri yumşaq, mehriban və məhəbbətlə etmək lazımdır, kobudluqla yox. Fikrimcə, belə olmalıdır.

**Sual**: Biz sizinlə xüsusi görüşmək istəyirik. Xahiş edirik bu barədə kömək edəsiniz.

**Cavab**: Əgər vaxtım olsa, dostlarla xüsusi görüşə sevinərəm, lakin vaxt cəhətindən bir qədər problem var.

**Sual**: İslam ölkələri arasında birliyin əhəmiyyətini, həmçinin vəhdət həftəsinin yaxınlaşdığını nəzərə alaraq, İslam Respublikasının məqsədlərinə nail olmaq istiqamətində İslam Məzhəblərini Yaxınlaşdırma Assambleyasının rolunu nə qədər zəruri bilirsiniz?

**Cavab**: Yaxınlaşdırmanı lazım, vacib, zəruri və İslam quruluşunun məqsədləri istiqamətində bilirəm. İnanıram ki, vəhdəti pozmaq təkcə bizə yox, bütün İslam ümmətinə böyük zərbə vurur.

**Sual**: Sualım bəlkə də bu məclisdə iştirak edən bütün əzizlərin sualıdır. O da budur ki, hal-hazırda bütün sahələrdə bizim vəzifəmiz nədir?

**Cavab**: Bu elə sualdır ki, özü bir kəlmədir, cavabı isə çox uzundur. Lakin gözəlliyi budur ki, bugünkü söhbətlərim əsnasında onun mühüm hissələrinə işarə vurdum. Düşünürəm ki, daha təkrarlamağa ehtiyac yoxdur.

**Mədəni hücum**

**Sual**: Düşmənin hücumlarından biri mədəni hücum, gəncləri, xüsusən də qadınları fəsada çəkmək, xalqı ehtiraslara və nəfsi istəklərə yönəltməkdir. Müsəlman cəmiyyətlərinin çoxunda düşmənlər əvvəlcə xalqı bu yolla tərk-silah etmişlər. Cəmiyyətdə və hətta universitetlərdə hicabın indiki böhranına görə, xalqın, xüsusən də tələbələrin və İslam birliklərinin vəzifəsi nədir? Bunun çıxış yolu və bu barədə İslam birliklərinə hökm və tövsiyəniz nədən ibarətdir?

**Cavab**: Mənim tövsiyəm bəllidir. Hicaba riayət edin. Bu, lazım və vacibdir. Bu məktubu yazan qardaşa, yaxud bacıya demək istəyirəm ki, sizin dediyiniz kimi də deyil. Siz deyirsiniz ki, bizim qadınlar hicabsız olmuşlar. Ola bilsin, bəziləri mənə desinlər ki, siz yalnız hicablı bacıları görmüsünüz. Xeyr, mən bəzən məhz kişilərin və qadınların vəziyyətini görmək üçün şəhərə çıxıram; əlbəttə, halal baxışla, haramla yox. Mənə bəzilərinin təsvir etdikləri kimi görünmür. Düzdür, nöqsanlar var. Mən də bütün təfərrüatlarından xəbərdar deyiləm. Harada belə bir vəziyyət olsa, yolu pis işlərdən çəkindirməkdir.

**Cəsur sual**

**Sual**: Biz tələbələr İmam Hüseynin (ə) sözü ilə desək, namazı sevirik. Lakin təəssüf ki, Tibb universitetində namazxanamız yoxdur.

**Cavab**: Yaxşı olar ki, Tibb universitetinin möhtərəm rəhbərliyi namazxana barədə düşünsün və buna əhəmiyyətli yanaşsın.

**Sual**: Əgər cavabınız olsa, ümidvaram ki, mənim sualımın cavabını verəcəksiniz. Nə üçün universitetin məsul şəxsləri əvvəllər təmir, quruculuq və tələbələrə xidmət haqda düşünmürdülər, amma sizin gəlişinizi eşidən kimi bu fikirlərə düşdülər?

**Cavab**: Bu sözü yazan qardaşımıza və ya bacımıza təşəkkür etməliyəm. Çünki görürəm ki, təxminən hamının beynində bu fikir var. Bunu bilin, mən baxış üçün harasa gedəndə dostlarıma və əməkdaşlarıma deyirəm ki, tapşırın mənim gəlişimə görə heç bir iş görməsinlər. İndi buraya gəlişimdə yadımda deyil həmin söz deyilib, yoxsa yox. Mən qarnizonlara, universitetlərə və müxtəlif yerlərə gedirəm. Onlara deyirəm ki, mənim gəldiyimə görə bir iş görməyin. Əgər özünüz bir iş görmək istəyirsinizsə, təbii şəkildə görün. İndi belə bir iş görülmüşsə, mən razı deyiləm. Universitet üçün lazım olan hər bir iş görülməlidir. Mən qətiyyətlə belə düşünürəm.

**Sual**: Bütün problemləri xarici qüvvələrin və yazıq ABŞ-ın boynuna atmayın. Ölkənin rəhbərinin özü ölkənin problemlərinə cavabdeh olmalıdır, əcnəbi bir ölkə yox.

**Cavab**: Tamamilə düzgündür. Əvvəla, ABŞ çox da yazıq deyil və bəzilərinin düşündüyü qədər hər şeyi də o etmir. Bunların ortasında bir vəziyyət var. Biz bütün problemləri ABŞ-ın boynuna atmırıq. Bizim problemlərimiz özümüzdəndir, lakin düşmən bu problemlərdən maksimum istifadə edib ölkəni və xalqı bədbəxt etmək istəyir. Bunu da deməyək?! Biz demirik ki, inflyasiya varsa, ABŞ-ın təqsiridir. Xeyr, əgər inflyasiya, alıcılıq qüvvəsinin azalması və işsizlik varsa, kim deyir ki, ABŞ-ın təqsiridir. Bu bizim öz təqsirimizdir, məmurların təqsiridir. Amma əgər ABŞ-ın adını çəkiriksə, demək istəyirik ki, pusquda bir canavar dayanıb, belini əyib ki, sizə hücum etsin. Bunu yaddan çıxarmayın. Məmurlara deyirik ki, zəif cəhətləri aradan qaldırın. Sizə deyirik ki, bu düşməni yaddan çıxarmayın, sizə hücum edər. Əgər bir oğru, vəhşi bir heyvan, istismarçı bir düşmən pusquda durmuşsa, ölkə məmurlarının və rəhbərinin əsas vəzifələrindən biri xalqa bu haqda məlumat vermək və xalqdan yardım istəməkdir. Amma biz ölkənin daxili problemlərini ABŞ-ın boynuna atmırıq.

**Rəhbər: icraçı müdir, yoxsa inqilabın idarəçisi?**

Rəhbərin ölkə problemlərinə cavabdeh olmasına gəlincə isə, bəli, elədir və bunda şübhə yoxdur. Qanun da cavabdehlik miqdarını müəyyənləşdirmişdir. Hər kəs öz səlahiyyətləri çərçivəsində cavabdehlik daşıyır. Amma inqilabın idarəçiliyinin məsuliyyəti ölkənin icra idarəçiliyi ilə fərqlənir. Konstitusiyaya uyğun olaraq, rəhbər ölkədə icraçı məsul deyil. O yalnız silahlı qüvvələr sahələrində icraçı məsuldur. Digər sahələr isə üç hakimiyyət orqanının üzərinə düşür. İnqilabın idarəçisi, yəni rəhbər isə inqilabın və quruluşun ümumi məqsədlərinin qorunmasına məsuliyyət daşıyır. O, inqilabın və quruluşun ideallardan yayınmamasına, həmçinin düşmənə aldanıb yolu yalnış getməməsinə nəzarət etməlidir. Bunlar rəhbərin vəzifələridir. İcraçı məsuliyyət isə icraçı məmurların üzərinə düşür. Hər kəs öz vəzifəsini yerinə yetirməlidir. Rəhbər gəlib prezidentə, İqtisadiyyat, yaxud Ticarət nazirinə və ya hakimə demir ki, filan işi gör. Rəhbər bu işlərə müdaxilə etməməlidir; həm qanunun ziddinədir, həm də hüququn və məsləhətin. Məmləkət qanuni prosedur əsasında və müəyyən məsuliyyətlərlə hərəkət etməlidir. Kim məsuliyyətsizlik etsə, hər halda, nəticəsi olacaq. Onunla da qanuna uyğun rəftar etmək lazımdır. Buna əsasən, məsələ tamamilə aydındır.

**İşsizlik**

**Sual**: Dövlətin işsizlik problemini aradan qaldırmaq üçün proqramı varmı? Bu vəziyyət düzələcək, yoxsa yox?

**Cavab**: Bəli, işsizlik məsələsi şübhəsiz, cari işlərdən, dövlət qurumlarının diqqət yetirdiyi mühüm məsələlərdəndir. Mən bu işə məsuliyyətli məmurlarla dəfələrlə iclas keçirmişəm. Onlar gəlib hesabat veriblər; bəzi işlər görüblər, bəzi işlər görməlidirlər, bəzi nəticələr də əldə ediblər. Bəzi nöqsanlar barədə müzakirə aparılır. Əmin olun ki, bizim əhəmiyyətli mövzularımızdan bir bu məsələdir.

**Sual**: Xahiş edirəm ki, yataqxanaların vəziyyətinə daha yaxşı baxılsın. Kaş yataqxanalara da baş çəkməyə vaxtınız olaydı. Görəydiniz ki, bu universitetin tələbələrinin böyük bir hissəsi necə pis və qeyri-münasib şəraitdə təhsil alırlar.

**Cavab**: Yataqxana məsələsi haqda aidiyyətli məmurlarla söhbət edəcəyik ki, görək nə etmək olar.

**Sual**: Nə üçün bəzi məmurlar xalqın problemlərinə qarşı laqeyddirlər? Tələbələrin bu xüsusda vəzifəsinə dair fikriniz nədir? Tələbə ədalətsizlik, bərabərlik qarşısında sakit olub biganə qalmalıdır, yoxsa yox?

**Cavab**: Bu mövzu haqda danışdıq. Mən tələbələrin sükut edib heç nə deməməsinin tərəfdarı deyiləm. Həm də demirəm ki, tələbələr əməli bir iş görməlidirlər. Mənim istədiyim budur ki, tələbə ədalət sahəsində məsələnin məğzini tələb etsin, xalqda, ailələrdə - hər kəsdə ədalətsevərlik düşüncəsi formalaşdırsın.

## İslam hərəkatının düşüncə əsasları[12]

Bismillahir-Rəhmanir-Rəhim.

**Bəsic nədir? Bəsic üzvü kimdir?**

Bəsic üzvü olan müəllim və tələbələrin toplantısı çox gözəl və mənalı bir məclisdir. Bəsic - hazırlıqdır; hər bir cəmiyyətdə, o cümlədən, bizim cəmyyətimizdə düşüncəli insanların birliyi; ictimai arzu və amallarla aşıb-daşan bir təşkilatdır. Onların şəxsi arzuları bu məqamda çox da diqqət mərkəzində deyil. Siz hər bir gəncə, xüsusən tələbə, elm adamı, yaxud müəllim və universitet mənsubu olan bir gəncə baxsanız, görərsiniz ki, ölkənin gələcəyi, xalqının indiki vəziyyəti, maddi və mənəvi yaşayışı üçün arzuları, amalları var. Bu amallar üçün işləmək və onları həyata keçirmək üçün çalışmağa hazır olan hər bir şəxsin adı Bəsic üzvüdür. Çoxlarının böyük arzuları var, lakin onların barəsində yalnız düşünməklə kifayətlənirlər. Uca və dəyərli insan isə bununla kifayətlənmir, bu amalları həyata keçirmək üçün addım atır. Belə bir şəxsin adı Bəsic üzvüdür. Bəsic universitet üçün işləndikdə, yəni universitet, müəllim və tələbə Bəsici deyildikdə, daha dərin məna kəsb edir. Nə üçün? Çünki universitet gələcəyin təməlidir. Digərləri indiki vəziyyətdən, mövcud olanlardan bəhrələnirlər. Məsələn, məhsulunu toplayan bir əkinci buğdalarından istifadə edir. Lakin buğdalarının ən yaxşısını, ən sağlamını sonrakı əkin üçün ayırmasa, bu gün süfrəsində çörəyi ola bilər, lakin sabah olmayacaq. Universitet sabahı hazırlamaqda olan bir qurumdur. Belə olduğu üçün öhdəlik ruhu, fəaliyyətə və amalçılığa təmayül, amalları görmək, onlara əhəmiyyət və könül vermək, onlar üçün hərəkət etmək və çalışmaq istəyi tələbə və universitet müəllimi üçün çox əhəmiyyətlidir. Bu olmasa, cəmiyyət çox ziyan çəkər. Bu baxımdan, tələbə və müəllim Bəsicinin mənası çox genişdir.

**Bəsic, universitet və tələbə**

Universitetdə Bəsicin bir gözü universitetə baxır, bir gözü dünyaya. Universitetə baxmaq - yəni elm, tədqiqat, iş, dərs, universitet münasibətləri, əxlaq, siyasi məqsədlər və sair işlər üçündür. Dünyaya baxış isə bunun üçündür ki, görsün bu qədər söz, söhbət, elm, siyasət və fəaliyyət olan bu toplum, yəni universitet dünyanın harasında yerləşir, onun rolu nə ola bilər, onun üçün hansı mövqe seçilmişdir. Tarixin, dünyanın və siyasətin harasında yerləşdiyini bilməyincə özünün universitet daxilindəki rolunu da düzgün anlaya bilməz. Fərz edin, biz bu gün deyirik elm istehsalı. Əgər elmi işlə məşğul olan bir tədqiqat mərkəzi bu gün elmin hansı mərhələdə olduğunu və bizim elm karvanının harasında yerləşdiyimizi bilməsə, heç şübhəsiz, dövrümüzdə ehtiyac olmayan bir elmi işlə məşğul olacaq.

---

[12] Bəsic üzvü olan müəllim və tələbələrlə görüşdə çıxışı: 8 iyun 2003.

Bu, bir misal idi. Bütün məsələlərdə belədir. Mümkündür universitet daxilində tələbə, yaxud müəllim siyasi, yaxud ictimai sahədə bir mövzunun universitetə baxışla yaxşı olduğunu təyin etsin. Lakin dünyaya və dünyanın indi həmin mövzu, onun mövqeyi və gələcəyi barədə nə qərar verdiyinə baxmasa, o zaman bu ehtimal var ki, universitet daxilinə baxış olan həmin işdə də səhv etsin. Buna əsasən, canlı, ayıq, fəal olmaq, yerində və ehtiyaca uyğun hərəkət etmək üçün Bəsicin bir gözü universitetin daxilində, öz çevrəsində, bir gözü isə dünyada olmalıdır. Yəni görsün ki, dünyada nə baş verir, biz haradayıq, bizim üçün nə fikirləşirlər, bizim qarşımızda və yanımızda kimlər var. Bunları bilmək lazımdır. Bunlar zəruri məsələlərdir.

**İranda diktatura**

Bizim ölkəmiz uzun müddət mütləq diktatura, qeyd-şərtsiz monarxiya rejimində yaşadı. Bunun təfsilatını tarixdə oxumusunuz. Oxumamısınızsa, oxuyun, görün ki, uzun əslər boyu həmin padşahlar bu ölkədə necə hökmranlıq ediblər, İran xalqını nə sayıblar. Sizə deyim ki, diktatura dövründə çox nadir istisnalardan başqa bütün padşahlar ölkəni və xalqı öz mülkləri bilirdilər. Ona görə fikirləşmirdilər ki, bu məmləkətdə bir xalq da yaşayır və onunla razılaşmalıdırlar. Uzun diktatura boyunca bu ölkənin əsl sahibi olan İran xalqına baxış belə idi.

**Müstəmləkə amili**

Təxminən iki əsr bundan öncə dünyada müstəmləkə amili meydana çıxdı. Müstəmləkə sözünü çox eşidiblər, lakin onun ümumiyyətlə, nə olduğu barədə az adam maraqlanıb. Bu barədə qısa şəkildə deyə bilərik ki, əvvəldə bir-iki Avropa ölkəsi dünyanın şərqində böyük sərvət qaynaqlarının olduğunu kəşf etdilər. Əlbəttə, onda nefti kəşf etməmişdilər, lakin digər sərvət qaynaqları vardı. Misal üçün, Hindistanda müxtəlif sərvət mənbələri, bitkilərdən düzəldilmiş dərmanlar, müxtəlif ədviyyatlar, qızıl və digər əşyalar vardı. Bu dövlətlər əllərində olan imkanlardan istifadə etdilər, dünyanın o tərəfindən qalxıb bu torpaqları tutmaq üçün yola düşdülər. Bu hadisə təxminən 200, yaxud 250 il bundan əvvəl baş verdi. Düzdür, bu işlər qabaqca da görülürdü. Lakin normal bir ənənə formasına düşməsi, onun üçün fəlsəfənin meydana çıxması 200-250 il əvvələ aiddir. Bu fəlsəfəni ələ keçirmək istədikləri xalqlara öyrədirdilər. Həmin fəlsəfə bu idi ki, siz geriqalmış bir xalqsınız, biz gəlib sizin ölkənizi abadlaşdırmaq istəyirik. “İstemar” (müstəmləkəçilik) sözünün leksik mənası “abadlaşdırmaq” deməkdir. Avropalıların işlətdiyi ifadənin ərəb və farsca tərcüməsi “istemar”dır, abadlaşdırmaq deməkdir. Bu məsələ bəzi ölkələrdə, misal üçün, Hindistanda, Əlcəzairdə, Afrikada və bir çox Asiya ölkələrində birbaşa icra olundu. Lakin bəzi yerlərdə belə deyildi; ya sərf etmirdi, ya məsləhət və ya mümkün deyildi. Buna görə müstəmləkəçiliyi dolayı yolla həyata keçirdilər, yəni gəlib diktatorlardan ibarət yerli hakimləri pulla, vəd və təhdidlərlə aldatdılar, öz alətlərinə çevirdilər. Müstəmləkəçilik bizim ölkəmizdə belə etdi. Bizim ölkəmizdəki dolayı müstəmləkəçilik təəssüf ki, Qacarlar dövrünün

sonlarından, əslində, Nasirəddin şah hakimiyyətinin ortalarından başladı. Bunlar bizim ölkəmizin başına gələn müdhiş və taleyüklü hadisələrdəndir.

**Müasir İran tarixi; diktatura və müstəmləkəçilik**

Ölkədə müstəmləkəçilik yarananda hakimiyyətin bəlası artdı. Diktatura vardı, müstəmləkəçilik də əlavə olundu; yəni həm diktatura oldu, həm asılılıq. Nadir şah Əfşar da diktator, xəbis və zalım idi, amma başqa qüvvədən asılı deyildi, hər halda, iranlı idi, İran üçün çalışırdı. Lakin Nasirəddin şahın dövründən sonra həmin qatil, rəhmsiz, insan hüququna etinasız diktator başqa bir dərd də tapdı. O da bu idi ki, ölkəni əcnəbilərin ixtiyarına buraxdı, onlara imtiyaz verdi, istədiklərini etdi. Bu, ölkə üçün ən təhlükəli hadisə idi. Bəllidir ki, siz hegemon və müdaxiləçi bir xarici gücə nə qədər iltifat göstərib kömək etsəniz, daha üzlü olacaq və daha çox istəyəcək. Elə də oldu. Qacar şahlarının yumşaqlığı işi o yerə çatdırdı ki, Qacarların sonlarında ölkənin əsas müstəmləkəçisi olan ingilislər dolayı müstəmləkənin çətin olduğunu düşündülər, birbaş öz adamlarını gətirməyə həvəsləndilər. Rza xanı tapdılar, Pəhləvi hakimiyyəti başlandı. Pəhləvilərin təxminən 50, yaxud 57 illik hakimiyyəti çox qaranlıq və zülmət diktatura ilə yadda qaldı. Diktatura haqqında eşitdiklərinizin, oxuduqlarınızın və düşündüklərinizin hamısı bu dövrdə yaşandı. Bundan əlavə, xarici təsir və hökmranlıq da vardı.

**İran və yeni müstəmləkəçilik**

Dünyanın siyasi terminologiyasında adı yeni müstəmləkəçilik (neo-kolonializm) olan dolayı xarici müstəmləkəçilik İranda eynilə mövcud idi. İran xalqı və bu torpağın sahibləri olan milyonlarla insan, bu qədər gənc, mütəfəkkir və istedadlı nəsillər avtoritorizmə və xarici müstəmləkəyə məruz qaldılar. Bu gün avropalıların və amerikalıların iddialarının əksinə olaraq, xarici müstəmləkə heç zaman ölkədə azadlığın və insan hüquqlarının xeyrinə bir addım belə atmadı, hətta onun ziddinə işlər gördü. Bu gün bu Qərb dövlətləri öz ifadə, söz və iddialarında həmişə insan hüquqlarından dəm vururlar. Bir dini həqiqətə könül vermiş dindar kimi elə danışırlar ki, elə bil, insan hüquqları bunlardır. Əlbəttə, yalan danışırlar. İstər İranda, istər dünyanın digər yerlərində müstəmləkəçilər insan hüquqları, azadlıq və təbəqələrarası bərabərliyin xeyrinə bir addım belə atmadılar, hətta əksinə, öz adamlarını gücləndirdilər, onları müdafiə etdilər ki, daha sərt diktatura yaratsınlar və istədiklərini etsinlər. Bizim inqilab dövrünə qədərki tariximiz belə keçmişdir.

**İran xalqı və müstəmləkə əleyhinə müqavimət**

İranda xarici istismarçılığın başlandığı dövrdən əksər hallarda böyük din alimlərinin rəhbərliyi və din bayrağı altında xalq müqavimətləri də başlandı: oxuduğunuz, yaxud eşitdiyiniz hərəkatlar - tənbəki imtiyazına qarşı mübarizə, Məşrutə hərəkatı, Mirzə Kiçik xan Cəngəli, Xiyabani hərəkatı, Neft sənayesinin azad edilməsi hərəkatı - bu, mərhum Ayətullah Kaşaninin hesabına xalq hərəkatı

oldu, əvvəldə bir partiya səviyyəsində idi və nəticə əldə olunmurdu - və sonra da İslam hərəkatı. Xalqların, o cümlədən, İran xalqının əleyhinə bu böyük hərəkətlə mübarizədə hansı düşüncə təsirli ola bilərdi? Şübhəsiz, böyük bir hərəkat lazım idi. Xalq arasında yer tutmaq, cəmiyyətin görkəmli şəxslərinin və din alimlərinin dəstəyini qazanmaq istəyən böyük bir hərəkat səhnəyə yeni söz çıxarmalıdır. Şüarla xalqı üç-dörd gün səhnədə saxlamaq olar, amma fundamental mübarizəni bəzilərinin ağızlarından eşitdiyiniz bəsit və puç şüarlarla idarə etmək olmaz. Belə mübarizə və xalqı səhnədə saxlamaq üçün düşüncə lazımdır. Xalqın böyük dəstəyini cəlb etmək üçün möhkəm bir düşüncə dayağı lazımdır. Bizim hərəkatımızın böyük imamı bu möhkəm düşüncəni İslamdan çıxara bildi.

**İslam hərəkatının inqilab təfəkkürünün əsasları**

Bu təfəkkürün əsasları yenidən araşdırılan və dərk edilən İslam prinsipləri idi. Misal üçün, tövhid İslam hərəkatının prinsip təməllərindən biri idi. Ümumi avam baxışla onu "Allah birdir, iki deyil" kimi məna etmişlər. Düzdür, bəllidir ki, Allah birdir, iki deyil. Lakin tövhid təkcə bu deyil. O, insan həyatına hakim olan gücün birliyi mənasınadır. Bu nə deməkdir? Yəni insanlara hökm sürən bütün güclərin inkarı. Görün birdən-birə necə böyük məna kəsb etdi. Yəni müstəmləkəçiliyin və hər bir zalım hakimiyyətin inkarı; bütün çevriliş və sülalə hakimiyyətlərinin inkarı, eqoistliklə, şəxsi istək, hiss və maraqlarına söykənərək topluma hakim olmaq istəyən bütün hakimiyyətlərin inkarı - siyasi və ya iqtisadi hakimiyyətlərin. Bu böyük hərəkatın əsas təməllərindən olan tövhidin mənası budur.

**İkinci əsas: İnsan məqamının ucalığı**

Bu hərəkatın əsaslarından başqa birisi insan məqamının ucalığı idi. İnsanı uca tutmaq nə deməkdir? Yəni insan üçün dəyər tanımaq. Təkcə dildə demək yox, ona qərar vermək, seçmək, öz taleyini müəyyənləşdimək və məqsədləri uğrunda fəaliyyət imkanı yaratmaq. İnsanı uca tutmağın mənası budur. Başqa bir cəhətdən, insanı uca tutmaq onu Allahın məxluqlarının seçilmişi bilməkdir. Onun üçün elə bir yol təsvir etmək ki, o yol onu təkamülə və mütləq gözəlliyə, Rəbbin müqəddəs zatına çatdırsın. Bunlar insanın məqamını uca tutmaqdır. İnsanı fiziki, cinsi və maddi istəklərdə məhdudlaşdırmaq insanı kiçiltməkdir. Necə ki, insanı məişətdən məhrum etmək, onu həyatın təzyiqinə, ailə xəcalətinə tuş gətirmək də insan məqamının ziddinədir. Buna əsasən, insan məqamını uca tutmaq hər iki cəhətdən olmalıdır. Bunlar, insanı öz gələcəyinin idarəsində heçə sayan müxtəlif diktatura və fəlsəfələrin hamısını inkar edir. Bunlar böyük İslam hərəkatının əsaslarından idi. Dünyada bu gün də yeni sözlərdir. Bu gün də səhnə arxasında dayanıb dünyanın hegemon dövlətlərini idarə edən kompaniyalar insanlar üçün onlara dollar istehsal etməkdən, pul və qazanc gətirməkdən başqa bir dəyər tanımırlar. Dünyanın bütün bu qalmaqallarını nəhəng kompaniya və oliqarxlar idarə edirlər. Kapitalist

ölkələrində yalnız onların istədiyi partiya və namizəd hakimiyyətə gələ bilər. Birinci sözü pul deyir. İnsan məqamını uca tutmaq isə bu qeyri-insani üsulun əksinədir.

**Ədalət**

Ədalət İslam hərəkatının başqa biri əsası idi. Bu gün ölkələrin sərvətli olmasını ümumi daxili məhsul və adambaşına gəlirlə müəyyənləşdirirlər. Bu nə deməkdir? Yəni sərvət bütün xalqa eyni və bir-birinə yaxın həddə çatır? Əsla. Bir ölkənin sərvətliliyinin mənası bu deyil ki, o ölkədə yoxsul, məhrum, bədbəxt, ilkin həyat ehtiyaclarından uzaq insanlar yoxdur. Elə ABŞ-da və dünyanın digər sərvətli ölkələrində elə insanlar var ki, onların yoxsulluq vəziyyəti kasıb bir ölkədə, məsələn, Hindistanda, yaxud Əfqanıstanda yaşayan bir insanın vəziyyətindən fərqlənmir. İslam sərvət qaynaqlarının istehsalını və istixracını lazım bilir, lakin deyir ki, sərvət ədalətli bölünməlidir. İslamda olan ədalət kommunistlərin dediyi və heç zaman əməl etmədiyi bərabərlik mənasında da deyil. Ədalətlilik budur ki, təbəqələr arasındakı dərin uçurum əsla mövcud olmamalıdır. Öz cəmiyyətinizə baxın, bu prinsiplərin ziddinə olan hər bir şey bizim mənfi cəhətlərimiz, yanlışa yol verdiyimiz yerlərdir. Problemlərimiz də həmin yanlışlardan irəli gəlir. Bəsic quruluşun qərarı, iradəsi və ümidi olan fədakar toplumdur. O, məqsədsiz insan deyil, özü üçün təsvir etdiyi arzularını həyata keçirmək, əyrilikləri və yanlışları düzəltmək istəyir.

**İmam, İslam hərəkatı və ikiqütblü dünya**

İmam və İslam hərəkatı belə təfəkkürlə mübarizəyə girdi. Düzdür, xalq birdən-birə və əvvəldən səhnəyə çıxmır. Qabaqcıl bir təbəqənin bir xalqı yavaş-yavaş mübarizəyə sövq etməsi üçün çox zəhmət çəkmək lazımdır. İmam bu işi gördü, bu təbəqəni yaratdı, bu hərəkata rəhbərlik etdi. Nəhayət, məsələ bu böyük okean üçün aşkarlandı və okean təlatümə gəldi. İmamın bu böyük İslam inqilabı ilə nəticələnən hərəkatı dünyada bütün zalım zirvə və hakimiyyətlərə qarşı problem idi. Bilirsiniz ki, o zaman dünyada iki güc qütbü mövcud idi. Biri kapitalist qütbü, həm liberalı, həm də demokratiyası yalan olan kapitalizm liberal-demokratiyası idi. Onun kapitalizmi düzgündür. Liberalizm demokratiya kimi, onların nəzərində müəyyən mənaya malikdir. İkinci qütb, yaxud cəbhə isə marksizm cəbhəsi idi. Onlar da sosial-demokratiyaya etiqad bəsləyirdilər, iqtisadiyyatları ümumi mülkiyyət əsasında idarə olunurdu, sərvət bütün xalqa aid idi. İddiaları bu idi. Onlar da demokratiya iddiası edirdilər, halbuki ən pis diktatura və repressiya sosializm iddiasında olan keçmiş Sovet ölkələrində vardı. Sovetin süqutundan sonra kitablar yazılıb. Onlardan biri Arbat uşaqlarıdır. Onu oxusanız, görərsiniz ki, diktatura tərəfindən bütün ictimai təbəqələrə düşüncə və əməl baxımından necə güclü təzyiqlər göstərilirdi. Halbuki onlar, Stalin və canişinləri özlərini demokrat adlandırırdılar. Hər halda, hər biri dünyanın bir hissəsinə hakim olan bu iki böyük rejim meydana atılan bu hərəkatla və onun prinsipləri ilə düşmənçilik etdilər, onunla vuruşmağa qalxdılar. Nə üçün? Çünki bu təfəkkür bir xalqı və potensial

olaraq o zaman 800-900 milyonluq müsəlman dünyasını arxasınca aparırdı. Ona görə təhlükə hiss etdilər. Öz İslam inqilabınıza və İslam quruluşunuza bu aspektdən baxın. Məsələ bu deyil ki, ABŞ bu ölkədə hakim siyasətinin məğlubiyyətə uğrayıb getdiyinə görə intiqam almaq istəyir. Bəli, doğrudur ki, İslam inqilabı amerikalıların istismarına son qoydu, ölkədə onları hər şeydən məhrum etdi, ABŞ-da xalqa və İslam quruluşuna qarşı dərin düşmənlik yaratdı. Lakin əsas məsələ budur ki, o təfəkkür, inqilabın ortaya qoyduğu üsul və ideya potensial olaraq İslam dünyasının hər yerində reallaşmağa qabiliyyətlidir. Necə ki, indiyədək ötən iyirmi ildən artıq dövrdə İslam ümmətinin bu inqilaba və onun düşüncələrinə cəlb olunduğunu görürsünüz. Əgər bir qədər bacalar açılsa, xalq öz fəaliyyətini göstərər. Bunun nümunələri mövcuddur və mən müəyyən səbəblərə görə ad çəkmək istəmirəm. Əlbəttə, İslam inqilabının qələbəsi müstəmləkəçilərin diqqətlərini toplamalarına, bu böyük hərəkətin İranda qələbə çaldığı kimi, digər ölkələrdə də qələbə çalmasından ehtiyatlanmalarına səbəb oldu. Lakin bunun qarşısını bir müddətə qədər ala bilərlər, həmişə bacarmazlar. Şərti budur ki, bu yolun öncülləri olan İran xalqı və İslam quruluşu öz bayraqlarını yüksəkdə saxlasınlar. Nə qədər ki, bu bayraq dalğalanır, ona qoşulma da mümkündür. Əgər bu bayraq olmasa, demirik ki, dünyada İslam hərəkatı yatacaq, lakin onların yenidən gedəcəyi yol çox uzun və bəzilərinin məyusluğuna bais olacaq. Çünki bu bayraq və İslam quruluşu göstərmişdir ki, bu təfəkkürləri bir əməl və quruluş formasında təqdim etmək, cəmiyyəti onun əsasında formalaşdırmaq olar. Bu, bəzi ideyalar kimi yalnız sözdən ibarət deyil deyil. Nə qədər ki, xaricdə bunun real nümunəsi möcuddur, İslam xalqlarının buna sarı hərəkət ehtimalı güclüdür və hegemonizm üçün təhlükə çox böyükdür.

### Kapitalizm və marksizm əleyhinə əngəl

İslam quruluşu və inqilabı bir tərəfdən dünyanın kapitalizm və digər tərəfdən ateist-marksist quruluşuna qarşı bir cərəyan idi. Heç biri ilə razılaşmadı, çünki özünün müstəqil yolu hər ikisinə müxalif idi. Əgər üç, yaxud dörd cəbhə də olsaydı, yenə də İslam quruluşu heç birinə əyilməyəcəkdi. Çünki yol müstəqil, məqsəd müəyyəndir. Buna görə də onların hamısının düşmənliyini qazandı.

Bu gün bəziləri zahirdə xeyirxahlıqdan, əslində isə qorxudan, inamsızlıqdan deyirlər ki, gəlin bir söz deyək və bunlara tərəf bir addım ataq. O zaman da bu sözlərdən deyilirdi. Bəziləri deyirdilər ki, gəlin Sovet və marksizm cinahına bir qədər yaxınlaşaq ki, o biri cinah qarşısında dayanıb müqavimət göstərə bilək, yaxud əksinə. Onlar bilmirdilər ki, bir hərəkatın qüvvəsi və iqtidarı öz daxilindən çağlamasında, tərəfdarlarına sadiqliyini göstərməsindədir. O, öz düşüncəsinə, təfəkkür və ideyalarına uyğun çıxış yolları axtarıb tapmalıdır.

### Qlobal hegemonizmin əsas üsulu

Siz elə bilməyin ki, bu gün yaradılmış bu ajiotaj keçmişdə yox idi. Bunlar inqilabın əvvəlindən olmuşdur. İmamın dövründə, xüsusən də onun vəfatından

sonra dəfələrlə müxtəlif ölkələrdən bəzi şəxslər dost və yoldaş kimi, mühüm sirri açan tərzdə bizə deyirdilər ki, Amerika və İsrailin raketləri İran daxilindəki mühüm obyektləri nişan almışdır, İranı dağıtmaq an məsələsidir. Məqsədləri məmurları qorxudub tərk-silah etmək idi. Sanki güclü və peşəkar bir quldur sizin evinizə gəlib deyir ki, qapını aç, yoxsa belə edərəm, elə edərəm. Əgər evin qapısını açsanız, o sizin evinizə daxil olsa, öz məqsədinə bir addım yaxınlaşmış olacaq. Əgər evin koridoruna daxil olub desə ki, icazə verin otaqlara baxım, öz məqsədinə - yəni sizin evinizi qarət etmək, ələ keçirmək və məhəllənin digər evlərinin başına gətirdiyi bəlanı sizin evinizin başına da gətirmək məqsədinə bir addım da yaxınlaşmış olacaq. Əgər siz qapını açmasanız, nə edər? Hədələyər ki, vuracağam. Bəs qapını açsanız, vurmayacaq?! Əgər qapını açsanız, onun üçün daha asan olacaq, daha yaxşı vura biləcək. Bu təhdidlər İran xalqını və onun məsul şəxslərini geri itələməkdən ötrü idi. Bu zaman ilk ziyan kimi, İslam dünyasının ictimai rəyi onun əleyhinə yönələcəkdi. Onlar bunu istəyirlər. Bizim xəbərimiz var ki, İslam dünyasında pullar xərcləyirlər. Mətbuata, kanallara, internetə pul xərcləyirlər ki, İslam dünyasının ictimai rəyinə İslam Respublikasının ikiüzlü olduğunu bildirsinlər. Göstərsinlər ki, əməldə bir iş görür, sözdə isə başqa cür danışır. Bunu sübuta yetirmək istəyirlər ki, İslam ümmətinin imanını və ictimai rəyini uzaqlaşdırsınlar, İslam Respublikasını güclü strateji dayağından məhrum etsinlər. Məqsədləri budur. Təəssüf ki, bəziləri də söz və çıxışları ilə onlara kömək edirlər.

**İran xalqının məzlumluğu**

Mömin gənclər, bilin ki, İran xalqının mübarizədən doğmuş quruluşu belə bir şəraitdə dünyanın ən qəddar zalımları əleyhinə ayağa qalxa və onların maraqlarını təhdid edə bilmişdir. Amma eyni zamanda xalqımız öz hərəkətində məzlumdur. Nə üçün? Ona görə ki, İran xalqı bu mübarizəyə kiməsə təcavüz, yaxud təhdiddən ötrü başlamadı. O bu böyük işləri öz haqqını müdafiə, duktatura və xarici müstəmləkəçiliklə mübarizə üçün gördü. Hər bir xalqın və insanın öz azadlığını müdafiə etməyə və həyatını qurmağa haqqı var. Buna əsasən, İran xalqına müxtəlif siyasi və və qeyri-siyasi yollarla hücum edənlər, əslində, ona zülm edirlər. Çünki İran xalqı onların işğalçı və istismarçı maraqlarını təhdid etmişdir, onlar da xalqdan intiqam almaq istəyirlər. Bu baxımdan, haqq xalqımızladır. İlk gündən düşmənin bu böyük hərəkətə qarşı planları olmuşdur, bu gün də var. Bu gün eşidirsiniz ki, vəziyyət həssasdır, təhlükə var. Bu təhlükə bütün bu illər boyu həmişə olmuşdur. Düşmənin təhlükəsi məğlubedilməz bir şey deyil. Dünyanın hegemon siyasətinin bir xalq əleyhinə çalışması ilahi bəla deyil ki, əlacı mümkün olmasın. Xeyr, bunun əlacı mümkündür. Düşmənin nə iş görmək istədiyini bilmək və çıxış yolunu tapmaq lazımdır. Bu bir həqiqətdir və düşmən də anlamışdır ki, bir xalqla mübarizə apara bilməz; xüsusən də böyük ölkəsi, çoxlu gənci olan, cihada, şəhadətə və canfəşanlığa həvəsləndirən İslamın səmərəli etiqadlarına malik 60-70 milyonluq böyük bir xalqla. Onlar anlamışlar ki, belə bir xalqla vuruşmaq faydasızdır. Bunu öz təhlillərində də deyirlər, hamıya da aydındır. Digər tərəfdən,

belə bir xalqla mübarizə aparmaq üçün heç bir modern vasitə yetərli deyil. Çünki modern vasitələr ordunu geri oturtmaqdan və hökumətləri təslimə vadar etməkdən ötrüdür.

**Düşmənin siyasətlərini öyrənməyin zəruriliyi**

Düşmənin siyasətlərini öyrənmək və onlara qarşı mümkün tədbirləri nəzərə almaq lazımdır. Düşmən ona tamamilə əlverişsiz olan bu şəraiti dəyişdirmək üçün müxtəlif ictimai təbəqələri və məmurları qorxutmaq məqsədilə planlar cızır. Məmurları qorxaq qərarlar çıxarmağa vadar etmək istəyir və bu işi müxtəlif yollarla görür; radiolar vasitəsilə, ümumi xəbərlər və xüsusi müraciətlərlə.

**Təhdid siyasəti**

Bu gün ölkənin məsul şəxslərini qorxutmaq siyasəti ABŞ-ın ciddi siyasətlərindən biridir. Mən bu mövzu barədə məsul şəxslərlə söhbətlər etmişəm. Onların bir hissəsi yayımlanıb, siz də eşitmisiniz. Sizinlə bu barədə danışmaq istəmirəm. Demişəm ki, əgər məsul şəxslər qorxsalar, səhv və qorxaq qərarlar verəcəklər. Qorxu üzündən olan hər bir qərar isə mütləq zərərimizə olacaq. Məmurlar səviyyəsində belə işləyirlər, xalq səviyyəsində də müxtəlif formalarda.

**İctimai rəyi təşvişə salmaq siyasəti**

Başqa bir iş budur ki, ictimai rəydə təşviş yaratmaq istəyirlər. Yəni belə bir ümumi təsəvvür yaransın ki, hakimiyyətdə gərginlik mövcuddur, vahid fikir, yol və qərar yoxdur. Bunu yeritmək istəyirlər. Bu gün bu işləri görmək üçün milyardlarla pul xərcləyirlər. Bu təbliğatlar təkcə əcnəbi radiolarda aparılmır, açıq asılılığı olmayan qrup və komandaları müxtəlif adlarla, polis və təhlükəsizlik orqanlarından gizli şəkildə ölkənin içinə göndərirlər ki, bu sahədə kömək edə bilənlərlə təmasa girsinlər və nəhayət, şayiələrlə, yazmaqla, deməklə, ümumxalq tribunalarından qanunsuz istifadə etməklə təşviş hissini beyinlərə yeritsinlər.

**Gərginlik yaratma siyasəti**

Başqa bir sahədə özləri həmin təşvişi tələbələr və xalqın müxtəlif təbəqələri arasında yaratmağa çalışırlar. Universitetdə gərginlik yaratmaq üçün nə qədər çalışdılar. Tələbələr arasında iğtişaş və qalmaqalla məşğul olan şəxslər sağlam adamlar deyillər. Ya siyasi baxımdan qeyri-sağlamdırlar, ya da düşüncə baxımından. Ya asılıdırlar, ya aldanmış və sadəlövhdürlər. Siz özünüz tələbəsiniz, bu bir neçə ildə görmüsünüz ki, universitetdə iğtişaş yaratmaq üçün əllərindən gələni ediblər. Bu səylər yenə də davam edəcək. Lakin Allahın lütfü ilə uğursuzluqla nəticələnəcək.

**Əngəl törətmə siyasəti**

Başqa bir sahə budur ki, ölkədəki əsaslı işlərin qarşısını müxtəlif yollarla alsınlar. Mane törətməyin də geniş bir macərası var. Bəzən insan dayanmış bir işin

və fəaliyyətin ipucunu izləyərkən elə yerlərə çatır ki, düşmənin bəzi işlərdə belə sərmayə qoymasına heyrətlənir. Əlbəttə, xoşbəxtlikdən, bizim ölkəmizin icra orqanlarında mömin insanlar və sədaqətli kadrlar var, düşmənin təxribatı, bədxahlığı və pis niyyəti qarşısında dayanırlar. Bunda şübhə yoxdur. Düşməni rüsvay edirlər, o, nakam olur, amma hər halda, bir çox yerlərdə iş ləngiyir və zəifləyir.

**Səhvlərdən sui-istifadə siyasəti**

Düşmənin işlərinin başqa bir sahəsi məmurların səhvlərindən istifadədir. Allaha sığınırıq, əgər bir məmurda səhv bir fikir, səhv hərəkət, səhv söz, səhv bir addım görünsə, düşmən bundan maksimum istifadə edir. Mən bir dəfə məsul şəxslərə dedim ki, bizim hətta bircə səhv etməyə belə haqqımız yoxdur. O sözü buna görə dedim. Səhv insanın öz əlində deyil, lakin insan səhv etməyin müqəddimələrini aradan qaldırmalı, buna imkan yaratmamalıdır. Çünki düşmən bu səhvdən maksimum istifadə edəcək.

**Düşmənin siyasəti**

Universitetlərdə elmi iş, ölkənin müxtəlif sahələrində quruculuq, istər sənaye, istər əkinçilik və xidmətlər sahəsində uğurlu fəaliyyət düşmən siyasətlərinin əleyhinə olan işlərdəndir. Dini, əxlaqı və mənəviyyatı yaymağa çalışmaq, ümumi mühitlərdə və hamısından mühümü, bəzi mühitlərdə, o cümlədən, universitetdə iğtişaş və çəkişmələrin qarşısını almaq düşmənin və onun məqsədlərinin ziddinə olan, planlarının qarşısını alan amillərdən biridir. Mömin insanlar harada olsalar, bu məsələlərə diqqət yetirməlidirlər. Təhsil və tədqiqat işi ilə məşğul olduğunuz emalatxana və laboratoriyalarda, dərs oxuduğunuz siniflərdə, tədqiqat apardığınız yerlərdə, elm sahələrində, yeni bir yol axtardığınız yerlərdə düşmən əleyhinə çalışırsınız. Bir qrupa ixtilafdan çəkinmək üçün nəsihət verdikdə, bir qrupa dinə və əxlaqa bağlılığı tövsiyə etdikdə düşmən əleyhinə iş görməkdəsiniz. Geniş xidmət və düşmənlə mübarizə işləri bir ayıq insanın gözü önündə olmalıdır. O, düşmənin məqsəd və siyasətləri ilə mübarizədə birbaşa xidmət olan hansı işi görməyin mümkünlüyünü bilməlidir.

**Quruluşun daxili strukturunun möhkəmləndirilməsi**

Mənim bu gün ölkənin bütün problemlərinin əlacı bildiyim iş quruluşun daxili strukturunun möhkəmləndirilməsidir. Əlbəttə, bu iş ümumi iradə ilə mümkün ola bilər. Bu bütün tərəqqilərin, xidmətlərin və bütün düyünlərin açılmasının səbəbi və şərtidir; yəni vəhdəti qorumaq, hər bir insanın və ölkənin qanuni sahələrindən hər birinin öz vəzifələrinə əməl etməsi, cəmiyyətdə sabitliyin qorunması, işləmək, ixlaslı və mömin fəaliyyət, xüsusən də tələbələr arasında və universitetdə əvvəldə dediyim iki baxışla universitetə məxsus maarifləndirmə işi görmək; universitetə və beynəlxalq aləmə, dünyanın vəziyyətinə baxışla.

**Düşmənin hədəfi: Bəsic**

Siz əziz gənclər bilin ki, düşmənin hədəflərindən biri Bəsicin özüdür. Düşmən Bəsicin varlığından əsəbiləşmişdir, bu təşkilata kəskin qəzəblidir. Çünki onun işinin təsirini bilir. Bəsic - fəaliyyətə hazırlıq deməkdir; ölkənin inkişafı, inqilabın və quruluşun qalması üçün lazım olan böyük işlərin planlaşdırılmasında geniş addım, fəaliyyət. Bu, kiçik bir şey deyil: mömin, alim, dərs və düşüncə adamı, həmçinin işə və fəaliyyətə hazır olan gənc təbəqə. Bu hazırlıq düşmənin əl-ayağını itirməsinə səbəb olur. Bu hazırlıq hər bir sahədə faydalıdır; elm sahəsində bir cür, iş və quruculuq sahəsində bir cür, siyasət və müdafiə sahəsində başqa cür.

**Bəsicin şəhadət istəyi və beynəlxalq qaydalar**

Bu hazırlıq insanlarda şəhadət istəyi və ölümdən qorxmamaq hissi yaradır və beynəlxalq qaydaları qüvvədən salır. Çünki bütün beynəlxalq qaydalar insanların ölüm qorxusuna hesablanır. Ölüm hədəsi ölümdən qorxan şəxsə qarşı keçərlidir. Ölümdən qorxmayan, məqsəd və amalları uğrunda şəhidliyə hazır olan cəsarətli insanlar olduqda isə bu qaydaların hamısı qüvvəsini itirir. Buna görə çox qəzəblənmişlər. Bəsicin, universitetin qədrini bilin. Universiteti elmi, siyasi, mental və etik Bəsic mühiti edin. Bəsic üzvü olmayan çoxlu mömin tələbələr də var. Mütləq üzərlərində Bəsic adının olmasına israr etmək olmaz. Möminlər çoxdur. Bu təşkilatda olmasalar da, Bəsic üçün verdiyimiz tərifə görə, onlar da Bəsicdəndirlər. Onlarda bu hazırlıq varsa, Bəsicdəndirlər. Laqeydlər də çoxdur. Onlar Bəsic üzvü olan bir gəncdən, müəllim və tələbədən gözəl əməl, əxlaq, keyfiyyətdə və işdə mətinlik müşahidə etsələr, təbii şəkildə Bəsici uca tutacaq, qəbul edəcəklər.

**Vuruşma və dartışma**

Bəziləri Bəsici vuruşma və dartışmaya çəkmək istəyirlər. Vuruşma və dartışmanın özü universitetin və cəmiyyətin zərərinədir. Qeyd etdim ki, düşmənin siyasətlərindən biri cəmiyyəti gərgin və təşvişli göstərmək və gərginlik yaratmaqdır. Çaxnaşma olan bir cəmiyyətdə heç bir müsbət iş görmək olmaz. Onlar bunu istəyirlər. Çaxnaşma tərəfinin kim olmasının da onlar üçün fərqi yoxdur. Bəsicin bu işlərə çəkilməsinə qoymayın. Bəsic məntiqli və siyasidir. Siyasəti məntiqlə, hikmətlə və düşüncə ilə yanaşı edir. Bir mütəfəkkir və nəzər sahibi kimi sözünü ağıllı şəkildə danışır, sözü olmadığından yumruğunu düyünləyən adam kimi yox.

Bəziləri də Bəsici ittiham edirlər. Tələbəyə bənzəyən üç-dörd nəfəri bir yerdə bir iğtişaşa vadar edir, sonra Bəsici günahlandırırlar. Bunlar çox əskik adamlardır, çünki ən şərəfli gəncləri və insanları ittiham altına salırlar. Siz ehtiyatlı olun və yaxşı rəftar edin. Siz özünüzün və yolunuzun qədrini bilin və bilin ki, ölkədə belə mömin qüvvələr, mömin gənclər, ixlaslı Bəsic üzvləri, bu yola imanlı, inamlı və onu sevən böyük toplumlar olunca, heç bir düşmən bu ölkədə özünün bədxah məqsədlərini həyata keçirə bilməyəcək.

Bu ölkənin, siz əziz xalqın, xüsusən də siz gənclərin gələcəyi parlaqdır. Ümidvarıq Allah-Taala bu gələcəyi yaxınlaşdırsın və dövrün imamının xeyir-dualarını sizin hamınıza şamil etsin!

Allahın salamı və rəhməti olsun sizə!

## Gəncliyə tövsiyələr[13]

Bismillahir-Rəhmanir-Rəhim.

Gənclik həvəsi, şövqü və istedadı ilə aşıb-daşan bu məclisdə birinci növbədə möhtərəm müəllimlərə və çox gözəl olan bu tələbə layihəsinin təşkilatçılarına təşəkkür edirəm. Ümidvarıq Allah-Taala bu qayğıkeş, ayıq, dövrün ehtiyaclarından məlumatlı qardaşlara uğur bəxş etsin ki, bizim dəyərli gənc nəslimizə xidmətlərini davam etdirə bilsinlər.

**Gənclər və fürsətlər**

İkinci sözüm siz mömin gənclərə - gənclik nemətindən bəhrələnən insanlaradır. Bu gün bizim ölkəmizin gənc nəsli fəaliyyət üçün öz qarşısında əlverişli şərait görür. Dünyanın hər bir gənci belə şəraiti sevir. İslam İranında yaşayan siz gənclər üçün Allaha şükür olsun ki, fəaliyyət imkanı vardır. Bu fəaliyyət ölkənin və cəmiyyətin gələcəyini qurmaq üçün məqsədli qurucu hərəkətdən ibarətdir. Bu təbii ki, sizin özünüzün və bu ölkənin hər bir gəncinin də gələcəyi deməkdir. Dünyanın bir çox yerlərində gənclər ölkələrinin gələcəyini qurmaq imkanı əldə edə bilmirlər; ya diktatorlar gənc nəslin fəaliyyətinə imkan yaratmırlar, ya da avtoritorizmin başqa növü, yəni gözəgörünməz və duyulmaz diktatura hakimdir. Təəssüf ki, dünyanın, dırnaqarası demokrat ölkələrinin çoxunda ikinci vəziyyət mövcuddur. Onlar mürəkkəb təbliğat üsullarından və kommunikasiya texnologiyasından istifadə edərək zehinləri elə formalaşdırırlar ki, böyük bir toplumu, gənclərin əksəriyyətini, yaxud böyük bir hissəsini laqeydliyə və ölkələrinin ümumi gələcəyinə əhəmiyyətsiz yanaşmağa sövq edirlər. Ötəri, dəyərsiz və kiçik ehtiyac və həvəslərlərlə kifayətlənmək, gələcəyə qarşı etinasız və laqeyd etmək sionistlərin dünyada işlətdikləri siyasətdir. Qərbin inkişaf etmiş ölkələrində, misal üçün, ABŞ-da və bəzi Avropa ölkələrində bu siyasət indi də icra olunur.

**İslam ölkələrində gənclər**

Bizim ölkəmizdə xoşbəxtlikdən, gənclərin sayı olduqca çoxdur. Ölkə əhalisinin böyük bir hissəsini gənclər təşkil edirlər. Digər tərəfdən, bu gün bizim ölkəmizdə inqilabçı, dinamik, aktiv mövqeli və bəşəriyyətin ümumi məsələlərində məqsədli bir İslam amili mövcuddur. Əgər bu ölkədə mövcud olan İslam bəzi müsəlman ölkələrindəki kimi olsaydı, yəni İslam təmayülü və bəzi İslam təəssübləri olsaydı, lakin İslamın əsas məqsədləri olmasaydı, İslamın adı olsaydı, lakin ölkə İslamın ziddinə olaraq müstəmləkəçilərin, istismarçıların, nəhəng

---

[13] "Vilayət layihəsi"nin tələbələri ilə görüşdə çıxışı: 4 sentyabr 2003.

oliqarxların və xalqın sərvətlərindən sui-istifadə edənlərin əlində olsaydı, bu, əsl və həqiqi İslam yox, formal İslam olardı. Əgər hansısa bir ölkədə belə bir İslam hakim olsa, o ölkənin gənci yenə də bir yol tapa bilməz. Bu gün bəzi İslam ölkələrindən bizə müraciətlər olunur, onların gəncləri İranda inqilabın qələbəsindən yaranan İslam oyanışına görə bəzi hiss, tələb və maraqlar əldə etmişlər. Digər tərəfdən, onların yaşadığı mühit bu istəklərin arxasınca getmələri üçün münasib deyil. Bəzi yerlərdə polis, bəzi yerlərdə isə başqa amillər mane olur.

**Ədalət, azadlıq və müstəqillik - mütləq dəyərlər**

Ədalət mütləq bir dəyərdir, istisnası yoxdur. Bəlkə də İslamda mövcud olan azsaylı mütləq dəyərlərdən biri də ədalətdir. Ədalətin dairəsi heç yerdə məhdudlaşdırılmamışdır. Bir hökumət və bir ölkə ədalətin əhatəsini nə qədər genişləndirib, onu cəmiyyətdə nə qədər çox tətbiq edə bilsə, İslam baxımından yol açıqdır və bəyənilir. Lakin belə xüsusiyyətlərə malik olan ədaləti əsla göz qarşısında və diqqət mərkəzində saxlamırlar. Halbuki bəşərin ən mühüm ehtiyacı ədalətdir. Bu günün özündə də dünyada bəşərin ən əhəmiyyətli ehtiyacı ədalətdir. Bu gün bəşəriyyətə göstərilən ən çox təzyiq ayrıseçkilikdən və ədalətsizlikdən irəli gəlir. Azadlığın və ədalətin yanında istiqlaliyyət var. Bu da çox böyük bir istəkdir. Müsəlman xalqın bədbəxtliyi əsasən, o zamandan şiddətləndi ki, onların müstəqilliyi təhdidə məruz qaldı, qərblilər əvvəldəki elmi inkişaflarından qeyri-insani siyasi məqsədlər üçün istifadə etdilər. Siz gənclər bunu bilməlisiniz.

**Qərb, elm və müstəmləkəçilik**

Qərblilər ilk olaraq elmdən müstəmləkəçilik sahəsində istifadə etdilər. Yəni Avropada Qərblilər elmdən ilk olaraq müstəmləkə işlərində istifadə etdilər. Onlar Avropada elmi hərəkətin başlandığı 17-18-ci əsrlərdən müstəmləkəyə başladılar. Qərblilərin Asiya və Afrikanın sərvətli bölgələrində müstəmləkəçi hərəkətinin başlanması da həmin dövrə aiddir. Onlar həmin məhdud elmdən digər ölkə və torpaqlarda yaşayan insanları daha çox istismar etmək üçün bəhrələndilər. Hər halda, tüfəng xəncər və nizə qarşısında mühüm silah sayılır. Onlar əldə etdikləri elm və texnologiyanın ilkin mərhələləri ilə tüfəngdən, paroxoddan və ucqar ölkələri istismar etmək digər vasitələrindən istifadə etdilər. O ölkələrin bəziləri, misal üçün, Hindistan, Afrika və digər yerlər çox qədim mədəniyyətə malik idilər. O xalqın sərvətindən istifadə edib öz elmi bünövrələrini gücləndirdilər və sonra yenə elmdən dünyanın müxtəlif bölgələrində yerlərini bərkitmək üçün istifadə etdilər; yəni elmdən hakimiyyət üçün, hakimiyyətdən də elm üçün istifadə etdilər. Nəticədə müsəlman ölkələrinə həm siyasi, həm də mədəni və elmi hökmranlığı ələ keçirdilər.

**Müsəlman ölkələri və müstəmləkəçilik**

Müsəlman ölkələr özlərinin ən pis dövrlərini müəyyən etmək istəsələr, onu müstəmləkəçiliyin başlanması bilməlidirlər. Onlar müsəlmanların istiqlaliyyətini

aldılar. Bacardıqları yerlərdə özləri birbaşa hökmranlıq etdilər, mümkün olmayanda isə dolayısı ilə bu işi gördülər. Bu gün də dünyanın müxtəlif yerlərində müxtəlif üsullarla həmin işi görməkdədirlər. Bu baxımdan, iradəli gəncləri olan bir ölkə üçün üç böyük amal ədalət, azadlıq və müstəqillikdir. Burada həm kəmiyyət əhəmiyyətlidir, həm də gəncin iradəsi və marağı. Bunların hər ikisi bizim ölkədə mövcuddur. Çoxlu sayda gənc və gənclərdə iman hissləri, İslam və din duyğuları; bunlar gənci müntəzəm surətdə ədalətə, azadlığa və istiqlaliyyətə sövq edən amillərdir.

İnqilabın qələbəsindən sonrakı 25 il ərzində kinli və ədavətli düşmənlərin təxribatları qarşısında ölkəmizi qoruyan ən mühüm amil imanlı gənclər olmuşdur. Onlar istər müqəddəs müdafiə dövründə, istərsə də digər dövrlərdə möhkəm sədd kimi düşmənin təsirinə mane oldular. Düşüncə və əməl adamları lal və məchul duyğularına yox, ayıq müqavimət və hisslərinə görə aktiv və imanlı gənc təbəqəsinə arxayın olmalıdırlar. Xoşbəxtlikdən, bizim gənclərimiz nə istədiklərini bilirlər. Ölkədə bunun üzərində təkid göstərilməlidir.

**Vilayət layihəsi**

Siz gənclərin iştirak etdiyiniz bu layihələrin müəllifi cənab Misbahdır. O bir neçə il bundan qabaq bu faydalı işə başladı. Bu işin bənzərləri universitetlərdə, elm və tədqiqat mərkəzlərində və ölkənin digər yerlərində görülür. Bu iş gəncləri doğruçu və dərin imanla yetişdirən və onların imanına ayıqlıq və aydınlıq bəxş edən ən dəyərli işlərdəndir.

**Gəncliyə tövsiyələr**

Siz əziz gənclər hansı mühitdə olsanız, təsirli olmalı, mühiti öz iman və düşüncənizin təsiri altına salmalı, bunun əksinin baş tutmasına qoymamalısınız. Bu gün bizim ölkəmizin istiqlaliyyətinin, qüdrət və başucalığının düşmənləri çox nəhəng və böyük xərc tələb edən bütün vasitələrlə gəncləri duyğusuz, imansız və ümidsiz edib, amal və ideallardan uzaqlaşdıran həvəs və istəklərə yönəltmək istəyirlər. Düşmənin səyi qarşısında səmimiyyət, sədaqət, əzmkarlıq, iradə və elmi işlərlə məşğul olan şəxslərin elmi fəaliyyəti gözlənilir. Günün təsirli üsullarından istifadə etmək lazımdır. Siz gənclər hansı mühitdə olsanız, təsir buraxmağa çalışın ki, onların təsirini də zərərsizləşdirəsiniz. Lakin təəssüf ki, bəzi gənclər üzərində təsir buraxırlar. Elə işlər görürlər ki, gənc həm dərsindən geri qalır, həm şərəfli və uca məqsədlərindən uzaqlaşır. Sizin gənc çevrəniz isə iş, fəaliyyət və böyük missiya mərkəzidir.

**Düşmənin təbliğatının məqsədi**

Onlar özlərini bacarıqlı göstərmək istəyirlər. Biz bunu əsla qəbul etmir və əksini düşünürük. Biz düşünürük ki, İslam quruluşunun, inqilabın və İslam bayrağının düşmənlərinin təhdidləri bu günə aid deyil, 25 ildir bu işi görürlər. Əgər siz 80, 81, 82, ondan qabaqkı və sonrakı illərin hadisələrini oxusanız, yaxud

görmüsünüzsə, yaddaşınıza müraciət etsəniz, görərsiniz ki, düşmənin təhdidləri və əks təbliğatı həmişə olub. Onların üsulları dəyişməmişdir. Düzdür, bəzən zərbə görüb geri çəkilmiş, bəzən də həvəslənib inqilab əleyhinə, imanlı və ixlaslı qüvvələr və uca məqsədlər əleyhinə yenidən hücuma keçmişlər. Düşmən bir iş görə, bu təhdidləri həyata keçirə, hegemon istəkləri qarşısında ən böyük sədd olan İslam inqilabını və İslam Respublikasını ortadan götürə bilsəydi, 10 il, 15 il, 20 il qabaq bu işi görərdi. Bacarmayıb, indi də bacarmır.

Əlbəttə, zəif və iradəsiz insan həmişə var. Onlar öz zəifliklərini, özləri demiş, teorizə edirlər. Üzərinə bir fikir, yaxud fikirdən bir örtük çəkirlər ki, zəifliklərini ört-basdır etsinlər. Quranın ifadəsi ilə desək, onlar mürcifdirlər - xalqın ürəyində tərəddüd, lərzə və iztirab yaradanlar, cəmiyyətdə sabitliyi və hüzuru pozmağa çalışanlar. Müxtəlif tribunalardan müxtəlif sözlər danışırlar; çox zaman yanlış və düşünülməmiş sözlər. Bizim mömin gəncimiz belə sözlərə əhəmiyyət verməməlidir.

**ABŞ-ın başağrıları**

Deyirlər ki, ABŞ gəlib ölkəmizin şərqini tutub, qərbini tutub, Əfqanıstanda və İraqdadır. Bəli, ABŞ Əfqanıstana və İraqa girmişdir, lakin bilmirlər ki, hər iki yerdə bataqlığa batmışdır. Bu gün ABŞ problemdədir. Əgər amerikalılar özlərini İraqdan xilas edə bilsəydilər, sabahı gözləməzdilər. Onlar qazanc götürməyə, İraqın həyat sərvətlərini, neft mənbələrini ələ keçirməyə gəlmişdilər. Gəlmişdilər ki, burada regional maraqlarını təmin edəcək bir güc mərkəzi yaratsınlar. Bu qədər başağrısından ötrü gəlməmişdilər. ABŞ əsgərinin İraqdan qaçması doğrudur, bizdə hətta onların sayı barədə məlumat var. Say çoxdur. Bunlar ABŞ dövlətinin böyük problemləridir. Onlar İraqda ilişib-qalmışlar. Bəllidir ki, bunların mediaya çıxmasına, bu problemlərin dünya xalqlarına və ABŞ-ın öz xalqına göstərilməsinə heç zaman imkan vermirlər.

**Ayətullah Həkimin şəhadəti barədə**

Ötən günlərdə əziz və məzlum Ayətullah Həkimin şəhadəti terrorçu qruplaşmaların işi olsa da, – bu terrorçuların nə qədər müstəqil olmaları da dəqiq bilinmir – bu, ABŞ və İsrailin casus şəbəkələrinə bəraət qazandırmır. ABŞ və İsrailin təhlükəsizlik orqanlarının ən çox gördükləri işlərdən biri budur ki, hiyləgər və şeytan üsulları ilə gedib başqa bir qrupu hansısa bir hərəkətə vadar etsinlər. Özləri onlarla tanışdırlar; ümumiyyətlə, belə şeytanlıqlar və xəbisliklər üçün dərs keçirlər. Tutaq ki, filan terror qrupunun üzvü olan bir nəfər bu işi görmüşsə də, yenə də böyük ehtimalla ipucu həmin təhlükəsizlik orqanlarının əlindədir. Düzdür, biz bu sahədə tam və yetərli təhqiqat aparmamışıq, lakin əlimizdə olan dəlillərə görə deyirik ki, bunların işidir. İraqda fitnə törətmək, xalqı bir-birinə vuruşdurmaq, onları din alimlərinə, dini liderlərə, İraqda İslam hakimiyyətini istəyən şəxslərə qarşı qoymaq bunların marağındadır. Bəllidir ki, belə şəxslərin düşmənləri birinci

növbədə ABŞ, İsrail və onlar kimi olanlardır. Əgər başqa bir şəxs də düşmənçilik etsə, bunların təhriki ilədir.

Lakin bu kobud üsullarla və deyilən məsələlərlə bir şey alınmayacaq. Gördünüz ki, bəzilərini İraqda şəhid etdilər, amma İraqın özündə və digər müsəlman ölkələrində ABŞ əleyhinə, ABŞ-ın müdaxilələri əleyhinə və İslam hakimiyyətinin xeyrinə böyük etiraz dalğaları yarandı. Kobud vasitələrdən, müharibədən, bombadan və digər bu kimi işlərdən nə qədər çox istifadə etsələr və bu sahədə nə qədər şiddət göstərsələr, öz məqsədlərindən bir o qədər uzaqlaşacaqlar və müsəlman ölkələrində onların istədiklərinin əksi həyata keçəcək. Bunlar zamanın və bizim dövrümüzün reallığıdır.

**Ümidli gələcək**

Siz mömin gənclər bilməlisiniz ki, bu gün gənc nəsil üçün gələcək çox ümidvericidir; Pəhləvi diktaturasını bu ölkədə yıxmağı bacaran gənc nəsildən daha çox. Bu gün sizin böyük İslam gələcəyinə açıq yolunuz, ümidiniz və aydın təsəvvürünüz ozamankı gənclərdən daha çox ola bilər. Bu gün sizin vəzifəniz ağırdır; onlar bacardılar, siz də bacararsınız. Onlar bu ölkədə hegemonizmdən asılı rejimi məğlub edə bildilər, siz hegemonizmin özünü məğlub edə bilərsiniz. Onlar elmi nailiyyətlər və böyük tərəqqilər üçün yol aça bildilər, siz də bu yolda özünüzü, ölkənizi məqsədlərə çatdıra bilərsiniz. Bizim bugünkü gənc nəslimiz hətta o dövrdəkindən daha çox ümidvar ola bilər.

Mənim əzizlərim! Mömin gənclər! Oğlan və qızlar! Bacardığınız qədər özünüzü iman, elm və ayıqlıq sarıdan islah edin, gücləndirin. Sizin imanınızın dərin ayıqlığı da olmalıdır, elmi də. Siz ayıqlıq, bilgi və aydınlıqla silahlanmalısınız. Bu tamamilə mümkündür. Bacardığınız qədər özünüzü bu sahələrdə gücləndirin və sonra harada olsanız, ətrafınız üzərində təsir buraxın, mömin gənc hərəkətini gücləndirin.

Allah-Taaladan istəyirik ki, siz möhtərəm müəllimləri, məsul şəxsləri, təşkilatçıları və Tələbə Bəsicini müvəffəq və dövrün imamının xeyir-dualarını sizə aid etsin!

Allahın salamı və rəhməti olsun sizə!

## Demokratiyanın gizli qatları[14]

Bismillahir-Rəhmanir-Rəhim.

Mənim üçün bu gün və bu saat çox şirin və ürəkaçandır. Əvvəla, ona görə ki, siz tələbə əzizlərin, möhtərəm müəllimlərin və əziz universitet mənsublarının yanındayam. İkincisi ona görə ki, burada deyilənlər doğrudan da mənim Allah-Taalaya səmimi şükür etməyimə səbəb oldu. Bizim universitet mühitində ümumi təfəkkür halına gəlməsini arzuladığımız məsələlər bu gün görürük ki, universitetimizin zehnində, dilində və təfəkküründə tamamilə mövcuddur. Bu bizi həmin arzuların həyata keçməsinə yaxınlaşdıracaq. Siz əziz övladlarımın hər birinə, həmçinin əziz müəllimlərə və məsul şəxslərə səmimi təşəkkürümü bildirirəm. İnsanın müşahidə etdiyi bütün gözəlliklərin arxasında Allahın lütf və yardımının gözəlliyi dayanır. Nə qədər şükür etsək, yenə də azdır.

Bu gün mənim üçün bu səadət nəsib oldu ki, möhtərəm Təhsil naziri də bu məslicdə iştirak edir. Mən məclisə gəlməzdən bir saat öncə ilk dəfə olaraq onunla görüşdüm. Onun dediyi sözlərdən mən universitetin gələcəyinə daha ümidvar oldum. Düzdür, Allahın lütfü ilə ümid çeşməsi mənim qəlbimdə heç zaman qurumayıb, həmişə çağlayır və məni daha artıq ümidlərə həvəsləndirir.

### Diktatura və asılılıq əleyhinə inqilab

Bizim xalqımız bir-birinin ardınca gəlib-gedən diktator və şah sülalələrinin uzun dövründən sonra yeni qlobal dönəmə elə bir halda başladı ki, bir tərəfdən diktatura dövrü bitməmişdi, digər tərəfdən asılılıq dövrü başlanmışdı. İnqilabdan qabaqkı dövrün tarixinə baxsanız, bizim hansı vəziyyətdə olduğumuzu görər və indiki mövqeyimizi düzgün anlayarsınız. O zaman bu ölkədə diktatura dövrü asılılıq dövrünə çevrildi. Əlbəttə, ölkənin asılılığı birdən-birə yaranmadı. Qacarlar dövrünün sonlarından xaricilərə İran xalqının ziyanına olan ardıcıl imtiyazlar verməklə tədricən əcnəbi dövlətlərin iqtisadiyyatına və siyasətinə asılılıq başlandı. Diktatura dövrü Məşrutə hərəkatı və digər amillərlə zəifləyəndən sonra birdən-birə Pəhləvi rejimində rüsvayçı asılılıq bayrağı ucaldı; yəni qeyri-müstəqil siyasətlər, kontraktlar, xarici fərmanlara qulaq asan, onlar tərəfindən oturdulmuş siyasi şəxslərin hakimiyyəti. Əlbəttə, onda da diktatorluq vardı, günbəgün daha təhlükəli, daha modern və daha ağır olurdu. İnqilab belə bir şəraitdə qələbə çaldı, İran xalqı bir anda möhtəşəm hərəkətə başladı. Bu hərəkət həm uzun əsrlər boyu ölkəyə hakim olan diktaturalar, eqoist hökumətlər, həm də asılılıq, qeyri-müstəqillik, boyunduruq və qlobal güclərə tabelik əleyhinə idi. İnqilab ölkəmiz

---

[14] Zəncan vilayəti universitetlərinin müəllim və tələbələri ilə görüşdə çıxışı: 14 oktyabr 2003.

üçün çox dərin, qədim və təhlükəli olan bu iki faktorla əlbəyaxa oldu. Bu baxımdan, inqilabın işi çətin idi.

**İslam inqilabının əsas mesajı**

Əgər inqilab dini inanca və İslam imanına söykənməsəydi, qələbə çala bilməzdi. Bu hərəkəti başladan, davam etdirən amil xalqın hər bir fərdinin imanı idi. İslam inqilabından qabaq son 150 ildəki bütün hərəkatlar bu məqsədlə çalışdılar, amma uğursuzluqla üzləşdilər. Lakin inqilab bu yolda qüdrətlə irəliləyib qələbə çala bildi. Nə üçün? Çünki İslam inqilabı yeni söz ortaya qoydu. Bu söz beynəlxalq, xüsusən də İslam ictimai rəyində özünə yer aça bilərdi. Bu yeni sözün ən böyük hissəsi Tövhid idi; dərin, dəqiq və hərtərəfli mənada. Tövhid - cəmiyyətə ilahi dəyərlərin hakimiyyəti, tağut, avtoritorizm, azğın və fəsadçı hökumətlərin əsl insani dəyərlərə hakimiyyətinin inkarıdır. Bu baxımdan, tövhid İslam şüarının və inqilab mesajının fəqərə sütunu, əsas təməli oldu.

**İslam inqilabında insan ucalığına diqqət**

İslam inqilabının başqa bir təməli insan ucalığına diqqətdir. Müəyyən bir coğrafi və siyasi toplumda yaşayan cəmiyyətin ucalığı tələb edir ki, azad və müstəqil olsun, istedadı çiçəklənsin, öz taleyinə hakim olsun, təhqirə və hörmətsizliyə məruz qalmasın, şəxsiyyəti ucalsın. Avtoritar rejimlər dövründə və sonra asılı Pəhləvi hakimiyyətində bunlar görməzliyə vurulmuşdu. Avtoritar rejimlər bəzən fəthlər və abadlıq işləri kimi xidmətlər də göstərmişlər, lakin hər bir insanın ən böyük dəyəri olan azadlıq, müstəqillik, öz taleyini müəyyənləşdirmək haqqını İran xalqından almışdılar. Bu, bütün diktaturaların xarakterik cəhətidir.

**Demokratiyanın gizli qatları**

Təəssüf ki, azadlıq, liberalizm və demokratiya iddiasında olan ölkələrin çoxunda elə diktatura mövcuddur. Şüarları və siyasi üsulları demokratiya olan ölkələrin çoxunda bu gün əslində, xalqın düşüncə və seçim azadlığı yoxdur. Bu azadlıqlar müxtəlif təbliğat qatları altında gizlədilir. Bu gün istər ABŞ-da, istər Avropada olan görkəmli Qərb ziyalıları açıq şəkildə bunu deyirlər. İnsan məqamının ucalığı bu vəziyyətin əksidir.

**Demokratiyanın ən azad növü**

Bu gün düşmənlər təbliğatlarında deyirlər ki, İran demokratiyaya doğru getməlidir. İnqilab İrana demokratiyanın ən azad növünü bəxş etmişdir, İran haraya getməlidir?! Demokratiya xalq hakimiyyəti deməkdir, yəni siyasi hakimiyyətdə və ölkənin idarəsində xalqın istəyinin hakim və meyar olması. İnqilab bunu möcüzə kimi İranda həyata keçirdi. Məşrutə dövründən İslam inqilabına qədərki on illər boyunca bunu təsəvvür etmək belə mümkün deyildi. Düzdür, azad seçkilərin mövcud olduğu milli hərəkat dövründə bu, həyata keçdi, amma təəssüf ki, başçıların ardıcıl səhvləri ucbatından təxminən iki ildən artıq

sürmədi. Hər halda, məqsəd budur ki, o qısa dövrdən sonra İran xalqı bu ölkədə öz taleyini seçmək üçün bir gün də azad olmayıb.

**Din təfəkkürləri əsasında demokratiya**

İran xalqı inqilab vasitəsi ilə öz ucalığını dərk etdi, düşünüb qərar verə, addım ata və seçə bildi. Xoşbəxtlikdən, İran xalqının İslam əsaslarına dərin imanı demokratiyanı təbii formada dini təfəkkürlər üzərində ucaltdı. Demokratiyanın ən gözəl forması da budur. İslam və din dəyərləri çərçivəsində demokratiyanı mütləq şəkildə müdafiə etmək olar və bu bizim ölkəmizdə təbii formada həyata keçdi. Çünki xalqımız mömindir və imanı dayaz deyil.

**Din-imanın gözəlliklərinin inkarı**

Siz bu gün təşkilatların, universitetlərin, elm hövzəsinin, iş və fəhlənin, gəncin, qocanın və alimin alnında din və İslam dəyərlərini görürsünüz. Mən tələbə və universitetlərlə münasibətdə bəzən çox qəribə gözəlliklər müşahidə edirəm. Bəzi şəxslər gənclərin arasında və universitetdə insanın bütün fəaliyyətlərinin dayağı ola biləcək bu gözəllikləri - eşq, duyğu və din-iman təzahürlərini inkar etməyə təkid göstərirlər. Nə üçün? Bunun çox zaman mənasız siyasi cinahbazlıqlara aidiyyəti də olmur.

**Tələbələrin arifcəsinə etikafı**

Mənə bir məlumat verdilər. Dünən onu din alimlərinin məclisində dedim ki, bizim əziz qardaşlarımız universitetlərdə nə baş verdiyini bilsinlər. Məlumat Tehran universitetlərindəki etikaf günləri, bizim əziz gənclərimizin arifcəsinə şövqü, mənəviyyatı və müxtəlif tələbə birliklərinin əməkdaşlığı barədə idi. Tələbə birlikləri zahirdə bir-biri ilə divara və sərhədə malik olmalarına baxmayaraq, özlərini din günəşi ilə müqayisə etdikdə heç zaman aralarında sərhəd və fasilə görmür, hamısı əl-ələ verirlər. Buna görə bizim tələbə gəncimizin dini dəyərlərdən üz çevirdiyini təbliğ edənlər, yaxud buna çalışanlar səhvə yol verirlər və şübhəsiz ki, nakam qalacaqlar.

**İslam quruluşu qarşısında böyük və qlobal problem**

Xalqın möhkəm imanı əsasında qurulan İslam quruluşundan sonra onun qarşısında böyük qlobal problem peyda oldu. Nə üçün? Çünki bu quruluş təbii surətdə dünya hegemonizminin təhlükəli caynaqları ilə vuruşurdu. Bu vuruşmanın mənası bu deyildi ki, biz ABŞ, İngiltərə, yaxud başqa bir ölkə ilə müharibə etmək istəyirdik. Siz gənclər bilin ki, İslam inqilabının 25 illik dövründə inqilab rəhbərlərinin beyninə hətta bir dəfə də hansısa bir ölkə ilə müharibə fikri gəlməyib. Qeyd etdiyim problem inqilabın mahiyyətindən qaynaqlanır. Həssas coğrafi mövqeyə və dərin mədəniyyətə malik bir İslam ölkəsi meydana çıxdıqda, bir ideyanı ortaya qoyub onu canlandırmaq üçün özünün bütün səyini göstərirsə və bəzi uğurlara nail olursa, təbii surətdə bütün regionda hegemon maraqları

təhlükəyə salır. Buna görə də o günün hegemon qurumları – bir tərəfdən, kapitalizm və liberalizm düşərgəsi və digər tərəfdən, sosializm iddiasında olan ateist diktatura düşərgəsi İslam inqilabı ilə qarşı-qarşıya dayandı. Qəribə bu idi ki, bunlar 90 faiz məsələlərdə bir-biri ilə ixtilafda idilər, lakin bu işığı söndürmək və bu yeni ağacı qoparmaq üçün əlbir oldular. Siz əziz gənclər bu məsələlər üzərində düşünün. Bunlar təkrar sözlər deyil, bizim gələcəyə olan yolumuzu işıqlandıran sözlərdir.

**Hegemonluğun son həddi varmı?!**

İslam quruluşu Şərq və Qərb düşərgəsi qarşısında möhkəm dayandı. Lakin o zamandan bir təklif bu idi ki, biz hegemonizmlə yola gedək. Bu təklifi irəli sürənlər pis adamlar deyildilər, sadəlövh idilər, deyirdilər ki, onların zərərini uzaqlaşdırmaq üçün yola gedək. Amma bu sualın cavabını vermirdilər ki, güzəşt haraya qədər davam etməlidir. İran xalqı ABŞ-ın razı qalması üçün nə etməlidir? Öz dəyərlərindən nə qədər imtina etməlidir ki, Amerikanın daha bizimlə işi olmasın? Bəlkə də onların bəziləri düşünmürdülər ki, hegemonizm heç bir hədlə qane olmayacaq. İranın nüvə fəaliyyətlərinə dair son qalmaqalda gördük ki, addım-addım irəliləməyə başladılar. Əvvəl dedilər ki, İran əlavə protokolu qəbul etməlidir. Sonra dedilər ki, filan məlumatları bizə verməlidir. Sonra daha da irəliləyib dedilər ki, ümumiyyətlə, İranda nüvə texnologiyası olmamalıdır. Maddi gücü olan, amma əsla əxlaqı olmayan və nəticədə gücündən zülmkar məqsədlə istifadə edən birisinin qarşısında geri çəkilmək çıxış yolu deyil. Çıxış yolu yalnız müqavimətdən ibarət idi. Bizim böyük imamımız - o müqavimətli, dözümlü və möhkəm insan dirəniş tərənnümü idi. Dirəniş İran xalqı qarşısında mövcud olan yeganə yol idi. Məhz buna görə hətta hərbi hücumları da ona təsir etmədi.

**Məcburi müharibənin qeyri-adiliyi**

Səkkiz il bizi cihad və müharibənin problemlərinə məcbur edən Səddam rejiminin hərbi hücumu qeyri-adi deyildi. Bu, hegemonizmin müstəqil və azadlıqsevər xalqlar əleyhinə həmişəlik üsulu idi. Mənim prezidentlik dövrümün ilk illərində Qvineya respublikasının prezidenti, görkəmli inqilabçı şəxsiyyət, Afrikanın möhtərəm elmi və siyasi simalarından, bütün dünyada və Avropada da çox hörmətli insanlardan olan Əhməd Seku Ture İrana gəldi. Mənimlə müzakirələri zamanı dedi ki, biz inqilabdan sonra Bağdadın sizə hücumuna təəccüb etmədik. Çünki təcrübəyə əsasən, hegemonizmin əksər müstəqil ölkələr əleyhinə gördüyü işlərdən biri budur ki, sərhədlərdən onlara hərbi təzyiq göstərsin və onların başını qatmaqla, maddi və insani sərvətlərini almaqla o ölkələrin özləri üçün tərif etdikləri ideallara çatmasına mane olsunlar. Bu, düşmənin bizim əleyhimizə hazırladığı plan idi. Amerikalılar və neçə gündən bir İslam Respublikası quruluşu əleyhinə boş-boş sözlər danışan Müdafiə nazirləri indi axtardıqları Səddam Hüseynlə yaxından əməkdaşlıq edirdilər. Elm, sursat və kəşfiyyat işlərində onlara kömək edirdilər ki, İranı məğlub etsinlər, amma bacarmadılar. Sizə deyim, nə

qədər ki, sizlər ayıqsınız, nə qədər ki, məsul şəxslər sözün həqiqi mənasında məsuliyyət hissi keçirirlər, ABŞ və digər qüvvələr bu xalqın və bu quruluşun əleyhinə heç bir iş görə bilməyəcəklər.

**Geriliklərin düzəldilməsi**

Mənim əzizlərim! Bu yeni sözlər - tövhid, insan məqamının ucalığı və ictimai ədalət dünyada özünə yer açdı. Bunlar üç mühüm əsasdır. Biz bu üç əsasda olan bütün geriliklərimizi ciddi gerilik bilməliyik. Biz məsul şəxslərin şəxsiyyəti və rəftarı tövhid rəftarından nə qədər uzaqlaşsa, xalqın həyatına, şəxsiyyətinə, kimliyinə və izzətinə hörmətimiz az olsa, təbəqələrarası uçurumlara çarə qılınmasa, ictimai ədalət sözün həqiqi mənasında bərpa olunmasa, bu, gerilikdir. Biz bütün səyimizi bu gerilikləri düzəltməyə yönəltməliyik. Cəmiyyətdə ab-hava belə olmalıdır. Bəzən müəyyən şəxslərə, məmur və qeyri-məmurlara verdiyim xəbərdarlıqlar bundan ötrüdür.

**Elmə əhəmiyyət vermək**

Bizim dostlarımız - həm bu universitetin möhtərəm rektoru, həm də cənab Doktor Sübuti buraya gəldilər. Mən gördüm ki, o, yuxarıya çıxanda sizlər hörmətinizi ifadə etdiniz. Mən doğrudan da ürəkdən sevindim. Gənclərin bir elmi şəxsiyyətə hörməti məni sevindirir. Bu onu göstərir ki, bizim gəncimiz elmə əhəmiyyət verir. Onların dedikləri, yaxud bu iki əziz gəncimizin və birliklərin nümayəndəsinin dediyi istəklər vacib və düzgün ideyalardır. Xoşbəxtlikdən, həm Təhsil naziri buradadır, həm vali, həm də deputatlar. Mən öz ofisimizə deyəcəyəm ki, deyilənlərlə maraqlansınlar. Əlbəttə, məmurlardan təkidlə praktik iş istəyəcəyəm.

**İnsanların məqamının pulla ölçülməsi**

Cənab Doktor Sübuti dedi ki, Zəncan əhalisi 200 milyarddan artığına dəyər. Mən sizin özünüz üçün 200 milyarddan artıq dəyər tanıyıram. Parlaq gələcəyi olan bu gənclərin hər birinin 200 milyarddan artıq dəyəri var. Məgər insanların dəyərini və məqamını pulla ölçmək olar?! Söhbət bundan gedir ki, bizim ölkəmizin İdarəçilik və Planlaşdırma Komitəsinin büdcəsinin təkcə Zəncan şəhərinə gedən yollara 200 milyard ayırmaq imkanı var, yoxsa yox? Çünki hər halda, İranda başqa şəhərlər də mövcuddur. Zəncana təkcə yol lazım deyil, universitet də lazımdır, əkinçilik də. Hər halda, mən deyəcəyəm ki, bu işlə maraqlansınlar və ona əhəmiyyətli yanaşsınlar.

**Gənclərin öz məqamlarına və indiki vəzifələrinə diqqət yetirmələri**

Tələbə birliklərinə də tövsiyə edirəm ki, mənim əzizlərim, adınızın, siyasi cinah və təmayülünüz, sağ və solun mənim üçün əhəmiyyəti yoxdur. Mənim üçün əhəmiyyəti olan budur ki, bizim gəncimiz və fəal siyasi qüvvəmiz bu gün ölkəsinin və xalqının harada dayandığına, nə iş görməli olduğuna, nə ilə ciddi çalışmalı

olduğuna diqqət yetirsin, qüvvəsini ona sərf etsin. Bizim üçün çoxlu xəyallar quran düşmənin ağızına baxmasın.

**Böyük sərvətin qədrini bilmək**

Düşmənin işlərindən biri əlimizdə olanları təhqir etməkdir, eynilə bəzi köhnə dəllallar kimi. Onlar xoşladıqları malı pisləyib əhəmiyyətsiz göstərirlər ki, sahibi ucuz qiymətə satsın. Sizin İslam quruluşunuz çox mühüm, dəyərli və böyükdür. İran xalqının istedadı da çox parlaqdır, lakin düşmən həmişə bizim dəyərli malımızı pisləyir. İmam Sadiq (ə) öz səhabəsinə buyurdu: "Əgər sənin əlində dəyərini bildiyin qiymətli bir gövhər varsa, bütün dünya toplaşıb onun qum olduğunu desə, inanmazsan. Əgər əlində bir qum olsa və bütün dünya onun almaz olduğunu təsdiqləsə, yenə də inanmaszan". Mühüm olan budur ki, əlində nə olduğunu biləsən. Mən istəyirəm ki, İran xalqı necə böyük sərvətə malik olduğunu və İslam dünyasında necə qiymətli yer tutduğunu bilsin.

**İran xalqının müqaviməti**

Mən dünən dedim ki, bizim prezidentimiz Malayziyaya gedir və inşallah, hər yerə səs salacaq. Bəziləri dedilər ki, necə? Mən dedim dünyanın hansı prezidenti başqa bir ölkəyə gedəndə oranın xalqı onu elə qarşılayır ki, o ölkələrin öz rəsmiləri də təəccüb edirlər?! Mən prezident olarkən Pakistana getdim. Lahurda və İslamabadda məni elə qarşıladılar ki, bütün dünyanın diqqətini çəkdi. Xəbər dünyanın bütün kanallarına çıxdı. Bu hadisənin oxşarı cənab Xatəminin prezidentlik dövründə Pakistanda, Livanda və cənab Rəfsəncaninin prezidentliyi dövründə Sudanda da baş verdi. Bu gün bizim ölkəmizin yüksək rütbəli şəxsləri müsəlman ölkələrindən hansına səfər etsələr, xalqın belə rəğbəti və həyəcanı ilə qarşılaşırlar. Bu hala hansı müsəlman və ya qeyri-müsəlman ölkəsində rast gəlinir?! ABŞ prezidenti İtaliyaya, yaxud başqa bir ölkəyə getmək istəyəndə xalq bir ay öncədən mitinq keçirir ki, gəlmə. Çünki ABŞ mütləq şərdir. Həkim Hidəci bu bölgənin məşhur və görkəmli şəxsiyyətlərindən biridir. Mən dünənki çıxışımda onun şeirlərindən bir beyti oxudum. Onun başqa bir beyti də var. Mən azca dəyişikliklə onu oxuyuram:

*Xalqa bu gün, ey şəqi, ey nakəs,*
*Aləmdə sitəm sən eyliyərən, bəs.*

Bu gün də İran xalqının çıxış yolu müqavimətdir.

**Müqavimətin mənası tədbir görməmək deyil!**

Əlbəttə, müqavimətin mənası tədbir görməmək deyil. Mən əziz peyğəmbərdən bir hədis qeyd etmişəm, onu söhbətimin əvvəlində oxumaq istəyirdim, lakin indi oxuyuram. O həzrət məşhur səhabəsi olan Abdullah ibn Məsuda buyurur: "Ey Məsud oğlu! Bir iş görmək istəsən, onu elm və ağılla gör". Bunun istisnası yoxdur, bütün işlərə aiddir. Bunlar İslam şüarlarıdır. İndi bəziləri bunu 1400 illik uyğun mədəniyyətə malik olan müsəlmanlara öyrətmək istəyirlər

ki, elmin və ağlın dalınca getsinlər. Bu sözlər köhnələn deyil, həmişə yenidir: "Heç bir işi tədbirsiz və elmsiz görmə!" Bütün işlər ölçülüb-biçilmiş və elmi surətdə görülməlidir. Əgər işi məntiqsiz, elmsiz və tədbirsiz görsəniz, Allahın sizə verdiyi qüvvəni zay etmiş, elm və ağıl ehtiyatını tükətmiş olarsınız.

**Ali təhsil sahəsində mühüm nailiyyətlər**

Mənim əzizlərim! İnqilabın əvvəllərində bizdə həkim, alim, müəllim və tədqiqatçı az idi. Əvvəla, ölkənin özündə az idi, ikincisi isə, bəziləri də öz xalqlarına arxa çevirib xalqa və inqilaba yardım əllərini uzatmadılar. Lakin quruluş müqavimət göstərmək qərarına gəldi. Bu gün bu müqavimətin nəticəsi budur ki, universitet rektorunun dediyi və mənim də bildiyim məlumata əsasən, sizin vilayətinizdə tələbə inqilabdan qabaqkı dövrə nisbətən 250 dəfə artmışdır. Burada açılan ixtisaslı təhsil mərkəzləri, burada çıxış edən bu gənc tədqiqatçılar, bir yerə toplaşmış bu elmi nümunələr qiymətsiz nailiyyətlərdir. Bunların hamısı inqilabın sayəsində baş vermişdir. İndi gəlib quruluşun bütün fəaliyyətlərindən qara və zülmət təsəvvür yaratmaq düzgündürmü?

**Zəncan vilayətində inkişaf göstəriciləri**

Mən dünən ümumi çıxışımda dedim ki, bu vilayətdə inkişaf göstəricisi 500-1200 faiz arasındadır. Buna əsasən, demək olar ki, bu vilayətin bütün inkişaf göstəriciləri çoxlu yüksəlişə malikdir. Zəncan vilayəti bir zaman xanların, mülkədarların at oynatdığı, yeyib-dağıtdığı yer idi. Xan nəsilləri bu vilayətin bütün nemətlərini özlərinə götürürdülər, xalq isə bədbəxt vəziyyətdə yaşayırdı. Bu xanlar Qacarlar dövründə idi. Pəhləvilər dövründə onlar qalstuk bağladılar, odekolon vurdular, sərvəti mənimsəmək üçün şah ailəsi ilə qohum oldular, başlarına şlyapa qoydular və modern şəklə düşdülər. Bunlar xalqın İslam inqilabı ilə məhv oldular. Bu gün Zəncan vilayəti bu zəhmətlərin hesabına elə bir yerə çatıb ki, bəzi göstəricilərdə digər bölgələrdən də yüksəkdir. Bu səbəbə görə bizim qəlblərimizdə ümid bulaqları günbəgün daha artıq çağlamalıdır.

**Düşmənin üsulları**

Düşmən bəzilərini qorxudur, bəzilərinə ölkənin vəziyyətindən yanlış təhlil verir, bəzilərini öz adamına çevirir və bunların düşmənin işinin yerinə yetirməkdən, sözünü danışmaqdan başqa çarələri qalmır. Bəzilərini həvəsləndirir ki, laqeydlik təbli çalsınlar, ehtiras və kef dalınca düşsünlər; xüsusən də onlara daha çox ümidli yerlərdə. Amalların ardınca getməmək, ürəkdə islahat iradəsini məhv etmək və intizamsızlıq da düşmənin işlərindəndir.

**Mömin və dindar hərəkətlər**

Mən mömin hərəkətlərin tərəfdarıyam. Mən dini hisslərlə siyasət, elm və iqtisadiyyat sahəsinə girən gəncin tərəfdarıyam. Şüarı dini dəyərlər olan bir gənc mənim üçün müqəddəs və sevimli bir varlıq kimidir. Düzdür, mən bütün gəncləri

sevirəm, lakin dini dəyərlərə əhəmiyyətli yanaşan gənclər mənim üçün çox əzizdirlər. Bəziləri dini dəyərlərə sədaqət bildirməklə intizamsızlıq yaradırlar, mən bu işlə müvafiq deyiləm. Zəncan universitetlərinin bəyəndiyim xüsusiyyətlərindən biri budur ki, bu universitetlərdə müxtəlif tələbə birliklərinin bir-biri ilə ədəbsiz, hörmətsiz və pis rəftar etmədiklərini, yaxalaşmadıqlarını dedilər. Bu, çox yaxşı haldır, tövsiyə edirəm ki, belə də qalsın. Birliklərin hər biri öz işlərini görsünlər, amma bir-biri ilə dost olsunlar, bir-birinə qarşı hörmətsizlik etməsinlər. Düzdür, inkişaf etmək üçün elmi iradlar bildirmək yaxşıdır. Siyasi və ictimai təfəkkürə malik bir təşkilatın üzvləri bir tərəfə toplaşıb əsaslandırma və danışmaqla məşğul olsunlar. İşləri qurtaranda bunların sözünü qəbul etməyən başqa bir təşkilat başqa bir yerdə cəm olub, onlar da əsaslandırmaya və danışmağa başlasınlar. Əgər belə olsa, çox yaxşıdır. Mən bunu sevirəm. Lakin düşmən qarşısında intizamsızlıq yaratmaq zərərlidir. Təəssüf ki, bir neçə ay bundan əvvəl Tehranda və xoşbəxtlikdən, kiçik bir dairədə buna şahid olduq.

Ümidvarıq bizim hamımız öz vəzifələrimizə əməl edək. İnşallah tələbə toplumu da öz vəzifələrini əvvəlkindən daha artıq və daha aydın surətdə təsvir və tərif etsin və israrla həyata keçirsin. Siz əzizlərin hamısını Allaha tapşırıram. Sizin pak və işıqlı qəlblərinizi nəzərə alıb bir neçə dua edirəm:

İlahi! Bu əziz gəncləri İslam və müsəlmanların gələcəyinin dəyərli ehtiyatları et!

İlahi! Bu xalqın əziz övladlarını bu xalqa bağışla!

İlahi! Xalqımızı bütün sahələrdə qalib et! Bilgi və bəndəlik nurunu bizim qəlblərimizdə artır! Bütün xalqımızı, xüsusən də məmurları bir-birinə daha da mehriban et!

Allahın salamı və rəhməti olsun sizə!

## Nümunəvi tələbələr və elm istehsalı[15]

Bismillahir-Rəhmanir-Rəhim.

Əvvəla, bizim əziz gənclərimizin müxtəlif elmi sahələrdə öz istedad və bacarıqlarını göstərməsi ölkə üçün çox dəyərlidir. Bu bizim üçün də çox sevindirici haldır. Dostların burada bəyan etdiyi sözlərin çoxu yaxşı mətləblər idi. Gənclərin öz məsələləri, universitet və ölkə işləri barədə düşündüyünü görmək insanı sevindirir. Bizim fikrimizcə, bu, çox əhəmiyyətli olan məsuliyyət hissindən xəbər verir. Bəzi problemləri də dediniz, mən qeyd etdim. Yəqin ki, dostlar da qeyd ediblər, bunlarla məşğul olmaq lazımdır. Əlbəttə, dediyiniz problemlər mühüm problemlər deyil; həm həlli çətin deyil, əksəriyyəti asandır, həm də bu problemləri həll etmək üçün iradə var. Söhbət edən gənclərin bəzilərinin sözlərində gəncliyə lazım olan ümid və həvəs zəif idi. Bir-iki nəfər belə idi, amma digərləri Allaha şükür olsun ki, çox həvəslə söhbət etdilər.

**Gənc – ümid və həvəsin tərənnümü**

Mənim fikrimcə, siz ümid və həvəsin tərənnümü olmalısınız. Sizin söhbətlərinizdə qeyd olunan problemlərin hamısı həll olunasıdır və şübhəsiz ki, olunacaq. Siz görürsünüz ki, nümunəvi tələbələrin və ümumi olaraq istedadlı gənclərin beynəlxalq nailiyyətləri yeni yaranmışdır, əvvəllər yox idi. Bunlar 10 il, 12 il, 15 il öncədən tədricən başlanmış və bu gün yaxşı mərhələyə çatmışdır. Bundan sonra da daha çox, daha yaxşı yerlərə çatacaqdır. Başqa sözlə desək, cəmiyyət miqyasında inkişaf hərəkəti tədricən baş tutur. Hər bir mərhələdə də problemlərin olması mümkündür. Mənim təkidli tövsiyəm budur ki, siz gənclər problemlərlə əlbəyaxa olub onların sizi məğlub etməməsinə qərar verin və ciddi çalışın. Problemlər qarşısında məğlub olmaq insanın ümidsizliyə uğraması, həvəsdən düşməsi və “bu vəziyyətlə nə iş görmək olar?!” deməsidir. Xeyr, bu hissi özünüzə yaxın buraxmayın. Problemləri aradan qaldırmaq olar.

**Elm**

Mənim ümumi olaraq, gənc nəslə ümidli baxışım budur ki, bu ölkə onlarındır. Bu ölkədə həm insani, həm təbii baxımdan istedad, inkişaf, yüksəliş və tərəqqi var. Bizim tariximiz elmi inkişaf baxımından parlaqdır. Müsəlman cəmiyyətlərində, o cümlədən bizim ölkəmizdə elm məsələsi çox qədim və köklü bir məsələdir. Biz bəzi dövrlərdə dünyanın ən parlaq elmi şəxslərinə malik olmuşuq. Düzdür, bu gün müxtəlif amillər səbəbindən müsəlman ölkələr, o cümlədən bizim ölkəmiz elmi baxımdan geri qalmışdır, öz öncüllüklərini, tarixi və

---

[15] Nümunəvi tələbələrlə görüşdə çıxışı: 22 oktyabr 2003.

mədəni üstünlüklərini qoruya bilməmişdir. Lakin bu, əbədi bir tale deyil. Bunu bilmək lazımdır. Müsəlman ölkələrinin, o cümlədən bizim ölkəmizin hicri tarixi ilə 4-5-ci əsrlərdəki, yəni Avropa renessansından öncəki elmi zirvəsi daimi və əbədi olmadığı, diqqətsizlik üzündən məhv olduğu və digərlərinin zirəklik göstərib inkişaf etdiyi kimi, bu gün də Avropanın, Qərbin və ABŞ-ın elmi inkişafının əbədi bir tale olduğunu, elmi baxımdan geriqalmış ölkələrin - bu gün onların bir hissəsi müsəlman ölkələridir - həmişə geridə qalmağa məhkum olduğunu düşünmək də olmaz. Əsla belə deyil. Tərəzinin bu gözünün bir gün ağırlaşması tamamilə mümkündür; yəni siz elmi baxımdan ən inkişaf etmişlər olasınız və Qərbin sizə ehtiyacı olsun. Əgər siz çalışıb iradə göstərsəniz, hamı – həm siz gənclər, həm məsul şəxslər, həm müəllim və tədqiqatçılar ölkənin imkanlarından gözəl şəkildə istifadə etsələr və yaxşı bir iş baş tutsa, - bunun əlamətləri ölkədə görünür - 30, 40, 50 ildən sonra ölkəmizi dünyanın ən qabaqcıl elmi xəttində müşahidə etməyimiz tamamilə mümkündür. Bu ön xətdə İranın yanında hansı ölkələrin durmasının bizə dəxli yoxdur. Lakin çoxları geri qalacaqlar və biz ön xətdə olacağıq. Bunun üçün iradə, zəhmət və istedad lazımdır. Bizdə bu istedad var və bu zəhməti də çəkməliyik.

**Elmə kapital qoyuluşu**

Biz öz növbəmizdə düşünürük ki, ölkənin ən çox kapital qoyuluşu elmi inkişaf sahəsi üçün olmalıdır. Mən dedim ki, universitetlər və ölkənin elm mərkəzləri elm istehsalına çalışmalıdırlar və ölkədə sözün əsl mənasında Proqramlaşdırma hərəkatı yaranmalıdır. Çünki hələlik elmi baxımdan güclü olan tərəf indiki vəziyyətin əsla öz zərərinə bitməsinə razı olmaz, öz ziyanına olacağını bilir. Buna görə də, mövcud vəziyyəti saxlamaq istəyir; yəni o, istehsal edib istədiyi qədər başqalarına versin, digərləri də tərcümə edib onun məhsulundan bəhrələnsinlər; istehsalat, elm istehsalı və tədqiqat sahəsində isə heç bir fəaliyyətləri olmasın. Onlar bununla xalqları asılı saxlamaq istəyirlər. Görürsünüz ki, bizim elmi inkişaflarımıza görə əsəbiləşirlər.

**Nüvə məsələsi**

Bu gün olduqca çox yaxşı və dəyərli işlər görülmüş nüvə enerjisinə dair sözləri budur ki, İranda nüvə silahı olmasın. Lakin əsas məsələ başqa şeydir. Onlar istəyirlər ki, İranda nüvə elmi və nüvə texnologiyası olmasın. Onlar deyirlər siz nüvə enerjisi istəyirsinizsə, biz sizin üçün stansiya tikər, yanacağını da satarıq və özünüzün stansiya qurub yanacaq istehsal etməyinizə gərək qalmaz. İndi əsas problem budur. Onlar bu elmin burada inkişaf etməsini istəmirlər. Bizim məmurlarımız onlara nə qədər "biz nüvə silahı istehsal etmək istəmirik" deyirlərsə də, onlar öz mövqe və sözləri üzərində təkidlə dayanırlar. Halbuki onların əsl məqsədi bu deyil.

**Nüvə silahı həyatın və qüdrətin qarantıdırmı?**

Həqiqət budur ki, bizə nüvə silahı lazım deyil. Nüvə silahı ölkə üçün inkişaf və səadət amili deyil, qüdrət amili də deyil. Qüdrəti nüvə silahında görənlər əslində, onu pis tərif etmişlər. Qüdrət həm elm, həm də iman və dəyərlərə sədaqət baxımından güclü bir insan toplumuna malik olmaqdadır. Bunlara malik olmayan, daxildən dağılmaya məruz qalan, lazım olan iradə və imanın görünmədiyi bir toplum nüvə silahına malik olsa da, məğlubiyyətə məhkumdur. İran xalqı ABŞ-ı öz ölkəsindən qovanda nə nüvə silahı, nə də digər silahları vardı. Livan xalqı ABŞ-ı öz ölkəsindən qovdu. Fələstin xalqı indi nüvə silahına malik olan İsraili təngə gətirmişdir. Hansı ki, bunların heç birinin nüvə silahı yoxdur. Biz müqavimət, yüksək ruhiyyə, dərin, möhkəm və ayıq imanla çox uca elm mərhələlərini keçə bilərik. Bir ölkə üçün əsl qüdrət budur. Biz bunu istəyirik. Deyilir ki, bu gün elm və texnologiyaya malik olanlar onun başqa ölkələrin ixtiyarında olmasını sevmirlər. Bu, bir həqiqətdir. Onlar mane olmağa çalışırlar.

**Kök hüceyrələr**

Kök hüceyrələrin istehsalı və çoxaldılması barədə tədqiqat aparılmışdır. Bu gün həmin işlə məşğul olan tədqiqatçı qardaşların biri bu məclisdə iştirak edir. Bu mövzuda çox yüksək elmi toplantı təşkil olundu, müxtəlif ölkələrdən insanlar dəvət edildilər və hamı İranın bu sahədəki nailiyyətlərini təsdiqləyib təriflədi. Bu yaxınlarda bu barədə mənə verilən bir hesabatda yazılmışdı ki, bəziləri bundan ötrü çox qəzəblənmiş və narahatlıq hissi keçirmişlər. Onlar İranın çox inkişaf etmiş bu yüksək elmə nail olmasından narahat olmuşlar.

**Müəllimlərə təşəkkür**

Bəzi dostlar dedilər ki, müəllimlərə təşəkkür etmək lazımdır. Bəli, məlumdur. Bu sizə təşəkkür hissəsidir. Müəllimlərə təşəkkür də ayrı bir hissədir. Məsul şəxslər və dövlət orqanları bununla məşğul olacaqlar. Bu gün bizim ölkəmizdə yaxşı müəllimlər 15-20 il qabaqkı və inqilabdan öncəki dövrə nisbətən çox fərqlənmiş və çoxalmışdır. Bu gün mənə ölkənin bir sıra universitetlərində bizim müəllim və tədqiqatçılarımızın səviyyəsinin çox yüksək olmasına dair məlumat verdilər. Onlar bu baxımdan dünyanın yaxşı universitetlərindən sayılırlar. Bu, İslamın və inqilabın nailiyyətidir. İnqilabdan qabaq nə bizim universitetlərimiz, nə də tələbə və müəllimlərimiz bu vəziyyətdə və bu hazırlıqda idilər. Allaha şükür olsun ki, işə əlverişli şərait var. Ölkənin məsul şəxsləri gənclərin problemlərini aradan qaldırmağa çalışmalıdırlar. Bu problemlər təkcə universitetə aid deyil, orta məktəblərdə də belədir. Orada da işlər görülməlidir.

**Parlaq gələcək**

Mənim şübhəm yoxdur ki, bizim ölkəmiz Allahın lütfü ilə 40-50 ildən sonra elm və texnologiya baxımından çox inkişaf etmiş ölkələrdən olacaq. Bu mənim üçün qətidir. Əlbəttə, düzgün iş budur ki, indidən məsul şəxslər əsas istiqamətləri müəyyən etsinlər və bizim hansı texnologiyanı istədiyimizi görsünlər. Çünki hər bir

texnologiya yaxşı deyil. Texnologiya mütləq bir dəyər deyil. Təbiətdə mövcud olan qüvvə və imkanları əldə etmək üçün bir vasitədir. Biz görməliyik ki, hansı mərkəz və hansı məqsədlə bunu əldə edir. İslam düşüncələrindən ilham almış düzgün və insani məqsədləri nəzərə alaq, bəşərin - birinici növbədə ölkəmizin, cəmiyyətimizin, ikinci növbədə isə bütün dünyanın məişət səviyyəsinin inkişafı üçün doğrudan da faydalı və təsirli olan texnologiyanı seçək və üzərində işləyək.

**Qərb texnologiyasının eyibləri**

Bu gün Qərb texnologiyasının inkişaflarlarının böyük eybi budur ki, bunlar texnologiyanı bəşəriyyət üçün zərərli olan sahələrə yönəltmişlər. Atom bombasını və kimyəvi silahları bunlar düzəltmişlər. İnsan üçün ölümcül maddələri bunlar hazırlamış və özləri də istifadə etmişlər. Atom bombası istehsalının heç bir yaxşı cəhəti yoxdur, bir anda milyonlarla insanı məhv edən silahdır. Buna görə də istehsalı və çoxaldılması düzgün deyil, istifadə edilməsi isə hamısından böyük səhvdir. Bu silahları istehsal edən, çoxaldan, işlədən, digərlərinin işlətməsinə kömək edən, öz ölkəsinin və bizim ölkəmizin xalqından minlərlə insanı məhv və əlil edən Səddam Hüseynə kimyəvi silahları verənlərin özləri indi iddia edirlər ki, biz nüvə silahının yayılmasının qarşısını almaq istəyirik. Sanki böyük bir qaçaqçını qaçaqmalçılıqla mübarizə idarəsinə rəis qoymuşlar. Nüvə və kimyəvi məsələlər sahəsində ən pis cinayətkarlar indi dünyada bu sahələrə nəzarət edən məmur və rəis olmuşlar. Hər halda, texnologiya dünyada müxtəlif sahələrdə əyri və səhv yol keçmişdir. Düzdür, müsbət və yaxşı yerlərdə də işlədilmişdir. Şübhəsiz ki, bu yerlər Allahın və xalqın məmnun olduğu yerlərdir. Lakin əyri yollarda da istifadə olunmuşdur. Biz əvvəldən müəyyən etməliyik ki, ölkə texnologiyasını hansı sahələrdə və hansı yolda inkişaf etdirmək istəyirik.

Allah-Taala sizlərə kömək etsin! Bizim məsul şəxslərimizə də kömək etsin ki, istedadlı və düşüncəli gənc nəslin həqiqi tələblərini ən yaxşı şəkildə təmin edə bilsinlər!

Allahın salamı və rəhməti olsun sizə!

## Tələbə amalları[16]

Bismillahir-Rəhmanir-Rəhim.

**Tələbə və özünəinam**

Kaş vaxt çox olaydı və mən danışmaq istəyən digər əziz gənclərin çıxışlarını da dinləyəydim! Əvvəla, ona görə ki, çox az yerlər istisna olmaqla, sizin dediklərinizin hamısı mənim qəbul etdiyim sözlər idi. Güman ki, digərləri də çıxış etsəydilər, quruluşa, xüsusən də tələbə təbəqəsinə yaraşan məqsəd və ideallar haqda danışacaqdılar. İkincisi də buna görə ki, bu məclis mənim danışmağım üçün deyil. Mən həmişə söhbət edirəm, tələbələrlə çoxlu məclislərim olur, siz xəbərlərini eşidirsiniz. Ümumi camaatla da söhbət edirəm. Bu məclis daha çox ondan ötrü idi ki, dialoq qurulsun, tələbə özünəinam hiss etsin. Bilsin ki, ölkənin ümumi məsələlərində, yaxud ən azı tələbəyə aid ümumi məsələlərdə fikir bildirə bilər. Bu gün ölkənin buna, yəni özünəinama ehtiyacı var.

Siz əziz gənclərin bəzisi dedilər ki, hansı işlər görülmüşdür. Yaxşı sualdır, bunun cavabını axtarmaq lazımdır. Siz deyirsinizsə, heç şübhəsiz, bəziləri fikirləşəcək, istər ədalət, istər elm və yaxud digər sahələrdə bunun cavabını tapmağa çalışacaqlar.

Mən demək istəyirəm ki, sizin buraya gəlib ölkə və cəmiyyətdə belə bir fikri ortaya atmanız və onun yayılması ən əhəmiyyətli məsələdir. Bizim buna ehtiyacımız var. Biz istəyirik ki, gəncimiz düşünməli, düşüncəsini ortaya qoyub tələb etməli olduğunu duysun. Biz nümayişkaranə iş görmək istəmirik, buna ehtiyacımız da yoxdur. Bizim ehtiyacımız var ki, bizim gəncimiz, xüsusən də ölkə miqyasında çoxlu sayda olan tələbə təbəqəsi özündə bu hissi gücləndirsin ki, ölkənin gələcəyində rolu və məsuliyyəti var. Bu sahədə öz üzərində vəzifə hiss etsin və bunun üçün çalışsın.

**Gənc və siyasi məsələlərdə ciddilik**

Mənim beynimdə bir əsas məsələ var idi, imkan tapanda onu sizə demək istəyirdim. O məsələ budur ki, biz əziz gənclərimizdən, qız və oğlanlardan ölkənin əsaslı məsələlərində ciddi olmalarını və ciddi rəftar etmələrini gözləyirik. Təklif edirəm ki, bu ciddilik üzərində düşünəsiniz. Sonra görəcəksiniz ki, ətrafda baş verən işlərin çoxu ciddi olmamaqdan qaynaqlanır.

Kumeyl duasında oxuyuruq ki, İlahi, Sənə xidmət üçün mənim bədən üzvlərimi gücləndir, sümüklərimi bərkit və Sənin qorxunda mənə ciddilik bəxş et. Elə bilməyin ki, bu dualar təkcə tövbə və yalvarmadır. Düzdür, bunların böyük

---

[16] Tələbə təşkilatları, mərkəzləri, jurnalları, dini heyətləri və nümunəvi tələbələrlə görüşdə çıxışı: 6 noyabr 2003.

dəyəri var. Lakin bu tövbə və münacatlara həyat üçün vacib bilgilər yerləşdirilmişdir. Bu dualar İslam maarifi bulağıdır.

Öhdəmə düşən xidmətləri yerinə yetirmək üçün məni fiziki baxımdan gücləndir, mənim iradəmi möhkəm et, mənə ciddilik ver ki, əhəmiyyətsiz saymayım və oyuncaq hesab etməyim.

**Gənclər və ədalət məsələsi**

Mənim ədalət məsələsini sizinlə və gənclərlə bölüşməyimin mənası bu deyil ki, qeyri-gənclərə bunu deməmişəm. Dostların birinin toxunduğu və 2-3 il bundan əvvəl bir tələbə təşkilatına yazdığım məktubdan qabaq ədalət məsələsini on dəfələrlə icra vəzifəsi olan məmurlarla bölüşmüşəm. Bəzi işlər də görülüb, lakin bütün bu işlərin güclənməsi üçün dəstək lazımdır. Bu tələb və istək dəstəyini siz təmin edirsiniz. İstək və tələbdə məqsəd bu deyil ki, insan yumruğunu düyünləyib bir şey istəsin. Xeyr, bilin ki, bu tələb lazımdır, buna cəmiyyətin ciddi və həyati ehtiyacı var. Buna inanmanızın özü ən mühüm tələbdir. Bu sizin danışığınızda, işinizdə, rəftarınızda, siyasi, dini və ictimai hərəkətinizdə özünü göstərəcək.

**Gənclər və Proqramlaşdırma hərəkatı**

Mən mənası elmin təqlid və tərcümə vəziyyətindən çıxması olan elm istehsalı, yaxud Proqramlaşdırma hərəkatını irəli sürəndə məsələ bu qədər aktual deyildi. İndi hansı universitetə gedirəmsə, görürəm müəllim, tələbə və tədqiqatçı Proqramlaşdırma hərəkatından danışır. Bu, yaxşı haldır. Bir toplumda yaranan inam güclü və müntəzəm hərəkətin dayağıdır. Biz bunu istəyirik. Mən deyirəm ki, siz bu məsələlərdə ciddi olmalısınız. Ölkə məsələlərini və gələcəyi oyuncaq hesab etmək olmaz.

Buraya təşrif buyurmuş sizlər, mənim əziz övladlarım olan tələbə oğlan və qızlar hamınız dindar, dini təməllərə və İslam maarifinə etiqadlı tələbələrdənsiniz. Tələbə zümrəsi əksərən etiqadlı insanlardır, amma mən istəyirəm ki, ölkə tələbələrinin çoxu tələbə amallarına qarşı məsuliyyət hissinə malik olsunlar. Bu amallardan birincisi elm, ikincisi ədalətsevərlik, üçüncüsü isə azadfikirlilik və azadlıqsevərlikdir.

**Azadlıqsevərliyin mənası və istiqaməti**

Azadlıqsevərlik təkcə məhdud siyasi mənada başa düşülməməlidir. Siyasi və ictimai azadlıqlar da bəşərin mühüm azadlıqlarındandırlar. Biz özümüz bu azadlıq uğrunda döyülmüşlər və həbsxanaya düşmüşlərik. Siyasi azadlığın mənasını anlayırıq, amma deyirik ki, bəzi şəxslər siyasi azadlıq şüarı ilə dünyanın siyasi güclərinin - ABŞ-ın hakim rejiminin, dünyanın hər bir faşistdən pis olan, amma zahiri baxımdan demokrat görünən faşistlərinin, siyasətə yeni qoşulmuş təəssübkeş və neo-mühafizəkar qurumların İran barədə ən qatı antiazadlıq şüarlarının həyata keçməsini istəyirlər. Bunlar azadlıqsevərdirlər?! Bu azadlıqsevərlik və siyasi azadlıq üçün çalışmaqdır?! Mənası və xülasəsi ABŞ-ın bu

ölkədə öz əlaltısını hakim etmək olan azadlıqsevərlik şüarı, ona yüz növ azadlıqsevərlik bəzəyi, rəngi və yağı vursalar da, azadlıqsevərlik deyil. Bu şüar yalançı, əsarət və xəyanət şüarıdır. Mənim dediyim məntiqlə azadfikirliliyi daha dərin mənalandıraq ki, burada da öz təsirini göstərsin. Azadfikirlilik azad düşünmək, azad qərar qəbul etməkdir, tərcümə və təqlid formasında və təlqinin təsirindən Qərb təbliğatının dalınca hərəkət etməməkdir. Bu baxımdan, elmə, məlumata, siyasi rəftara, normal siyasi və ictimai şüarlara, söz və istəklərə də şamil olur. Bu gün Qərb "demokratiya" deyirsə, biz fikirləşməliyik, azadfikirlilik budur; görək onun dediyi doğrudurmu; görək demokratiya mütləq surətdə dəyərdir, yoxsa yox?

**Məsləhəti düşünmək, yoxsa amalı istəmək?**

Əziz tələbələrin biri dedi ki, siz tələbələrin məsləhət fikirləşən olmasını istəmirsiniz. İndi biz olduq amalçı, bəs nə üçün bəzən icra qurumları məsləhət düşünürlər. Bunları necə başa düşmək olar? Mən bir məsələni deyim ki, məsləhəti düşünmək pis, mənfi bir şey deyil. Məsləhəti düşünmək - məsləhət olan işi görməkdir. Bu, pis bir iş deyil. Bunu bilin ki, ölkənin icraçı qurumu özünün dünyadakı çox çətin münasibətlərində bəzən iki yolayrıcında qalır, bəzi məsləhətləri nəzərə almağa məcbur olur, çünki ölkənin idarəsi və icra işi çox çətindir. Sanki bir nəfər çətinliklə və addım-addım dağa qalxan bir alpinistə televizorda baxır, öz-özünə deyir ki, ey tənbəl, bir qədər tez ol, bir qədər cəld addım at. O, televizor qarşısında oturub, bir neçə min metrlik hündürlükdə və o vəziyyətdə deyil ki, işin nə qədər mümkün olduğunu bilsin. Bu misal güləş, yaxud futbol yarışını televizordan seyr edən insana da aiddir. Mütləq görmüsünüz ki, bəzi futbol tamaşaçıları dayanmadan pərəstiş etdikləri oyunçulara göstəriş verirlər: "Tənbəl, vur, zərbə vur!" Hər halda, ölkənin idarəsi çətin bir işdir və bunun üçün məsləhətin heç bir eybi yoxdur. Biz onlara irad bildirmirik, amma çalışırıq ki, həmişə məsləhətdə qərq olmasınlar. Mən öz məsuliyyətimə uyğun olaraq bu məsələni diqqətdə saxlayıram.

Əgər siz gənclər ideal zirvələrə baxışı kənara qoysanız, pis hal yaranar. Sizin amalçı təsəvvürünüz və məmurların çıxılmaz vəziyyətdə məsləhətə üz tutması mötədil və yaxşı bir şey əmələ gətirəcək. Lakin siz də məsləhət dalınca düşsəniz və məsləhətçilik təmayülü, yəni reallaqlarla yüz faiz barışmaq tələbənin və gəncin beyninə və ruhuna daxil olsa, o zaman hər şey məhv olacaq. Bəzi amallar kökündən itəcək. Tələbələr amalçılığı buraxmamalıdırlar. Mənim siz əzizlərdən gözlədiyim budur ki, bütün sahələrdə məlumatınızı dərinləşdirin və gücləndirin.

**Universitetin əsas qüvvəsi**

Mənim universitetlər barədə fikrim budur ki, bizim universitetlərimiz tələbə və müəllim baxımından çox yaxşıdır. Bu o demək deyil ki, universitetlərdə yaramaz adam yoxdur. Harada yaramaz və pis adam yoxdur ki?! Demək istəyirəm ki,

müəllim və tələbələr təbii və fitri olaraq yaxşı, mömin və pakdırlar. Bu müsbət cəhətləri gücləndirmək lazımdır.

**Yaxşı istedadlar**

Universitetlərdə çox yaxşı istedadlar var. Ümumilikdə tələbələrin vəziyyəti yaxşıdır, ölkənin son iyirmi ilə nisbətən elm və təhsil imkanları on qat artıb; halbuki dünyada orta inkişaf göstəricisi son qırx ildə altı dəfə artmışdır. Bu baxımdan, inkişafımız yaxşı olmuşdur. Lakin düşmənlər mane olmaq istəyirlər. Diqqətinizi toplamalısınız. Buna imkan verməyin, bilin ki, bütün bu amalları həyata keçirmək mümkündür; bu şərtlə ki, sizlər səhnədə olasınız. Allaha şükür olsun ki, səhnədəsiniz. Allah-Taala hamınızı qorusun!

Dostların etimad, əməkdaşlıq və digər məsələlər barədə dedikləri yaxşı məqamlardır. Ümidvarıq ofisimizdən gəlmiş dostlarımız bunları toplasınlar ki, istifadə olunsun.

Allahın salamı və rəhməti olsun sizə!

## Quruluşun İslam legitimliyi[17]

Bismillahir-Rəhmanir-Rəhim.

Çox şirin, mənalı və məzmunlu bir məclisdir. Harada mömin və şövqlü gənclər toplaşsalar, qəti ümidvar olmaq olar ki, orada Allahın rəhmət və hidayət qapıları açılmışdır.

**Universitet inamları**

Mən görürəm ki, gənclər arasında yayılmasını və inam halına düşməsini arzu etdiyimiz anlayışların çoxu bu gün onların özləri tərəfindən deyilir. Siz gənclər, həmçinin müəllimlər və möhtərəm rektorlar elm istehsalından, Proqramlaşdırma hərəkatından, universitetlə sənayenin birləşdirilməsindən və ölkəmizin izdihamlı gənc təbəqəsində yatmış çoxlu ümidlərdən danışırsınız. Bunlar mənim ümid və arzularımdır. Bunları universitetlərdə deyəndə özüm də ümidvar idim. Lakin çoxları deyirdilər ki, faydası yoxdur. Mən üç-dörd il bundan qabaq Tehran universitetlərinin birində dedim ki, ölkənin elm və tədqiqat büdcəsini tənzimləmək mənim əlimdə olsaydı, məsləhət olduğu kimi edərdim, lakin bu imkan mövcud deyil. Müxtəlif sahələrdə məsuliyyət daşıyan şəxslərin qanuna müvafiq səlahiyyətləri var, onları yerinə yetirməlidirlər. Dedim ki, universitetdə ənənəyə çevrilməsi üçün çox əhəmiyyətli olan elm istehsalı və Proqramlaşdırma hərəkatı cəbhəsində sərhədi keçmək məsələlərini ortaya qoyuram. Bu, baş tutsa, daha narahatlıq olmayacaq; çünki on minlərlə, yüz minlərlə etiqadlı və müştaq qəlb, gənc və yorulmaz beyin və cisim bu işə qoşulacaq. Mən ölkənin bu ümid və müjdə carçılarını bu gün görürəm. Həmişə özümə və dinləyicilərimə demişəm ki, üfüq aydındır. Bu gün də təkidlə bildirirəm ki, üfüq çox aydın və parlaqdır və iş siz gənclərin əlindədir.

Sizin burada dedikləriniz kompüterdə yığılacaq, bir-bir baxılacaq, lazım olanı tövsiyə edəcək, tapşırmalı olanı tapşıracağıq. İnşallah, bu məsələlər ölkənin imkanı həddində həyata keçəcək.

**Əlillər - cihad universitetinin dəyərli ehtiyatları**

"Mən şəhidlik universitetindən kəsilmişəm" - deyən bu əziz qardaşımıza, müharibə əlilinə bir cümlə deyirəm. Siz əsla kəsilməmisiniz. Siz əlillər Cihad universitetlərinin dəyərli məzunlarısınız. Cihad zəruri olaraq şəhadətlə yanaşı olmur, lakin onda mücahidlik və Allaha yaxınlıq dərəcəsi mütləq olur. Cihad da hər yerdə var; ölkənin həm hərbi müdafiəsində, həm siyasi və heysiyyət müdafiəsində, həm ölkəni və xalqı inkişaf etdirmək üçün çalışmaqda. Siz bu gün bu səngərdə

---

[17] Qəzvinli müəllim və tələbələrlə görüşdə çıxışı: 17 dekabr 2003.

çalışırsınız. Bunların hamısı mübarizədir, hamımız mübarizə aparmalıyıq. Sizin bir elmi məqaləniz, fəaliyyətiniz, yaxud düzgün siyasi hərəkətiniz mübarizədir.

**Böyük və qlobal fəsad cəbhəsi ilə mübarizə**

Mən dəfələrlə dostlarıma demişəm ki, bu gün böyük və qlobal fəsad cəbhəsi qarşısında keçirdiyim hiss zalım şah rejiminin repressiya dövründəki hissimlə əsla fərqlənməmişdir. O zaman da mübarizə aparmalı olduğumuzu düşünürdük, bu gün də. Biz mübarizə üçünük, lakin bu mübarizənin forması, yeri və cəhətləri fərqlənmiş, mübarizə daha mürəkkəb və daha çətin olmuşdur. Bu mübarizə zalım şah dövründəki mübarizədən daha şətindir. İndi bizim tərəf-müqabilimiz müstəmləkə və zülm quruluşu, yolunu azmış bir insanda mövcud olan ən çirkin xislətlərin təbəssümlü, odekolonlu və qalstuk taxmış görkəm altında gizlənmiş sahibləridir. Biz indi belə bir düşmənlə mübarizə aparmaqdayıq. Əgər bir xalq öz amalı yolunda mübarizədən əl çəksə və doğru bildiyini bir an unutsa, əsrlər boyu İslam dünyasının, İslam ümmətinin və bu regionun xalqlarının başına gələn bəla onun da başına gələcək. Ən çox təbii sərvət burada, bizdə idi. Dünyanın ən mühüm strateji zonaları bizim əlimizdə idi. Modern, mütərəqqi və sənaye dünyasının həyat amili olan neft İslam ümmətinin ixtiyarında idi. Amma bu gün onun siyasi və elmi vəziyyətinə baxın. Bu, yuxuya getməkdən və mübarizəni unutmaqdan yarandı. Mübarizənin çətinliklərinə dözmək lazımdır ki, şərəfli və əziz olan insan məqamına çatmaq, həm də özündən sonrakı gələcək nəsilləri çatdırmaq mümkün olsun. Bu mübarizədə Allaha arxalanmaq lazımdır.

**Əli ibn Əbu Talibin gənclərə müraciəti**

Mən söhbətimin əvvəlində iki qısa hədis demək istəyirəm. Biri Əmirəlmömininin sizə ünvanladığı sözdür. Əli ibn Əbu Talibin gənclərə müraciəti siysətbaz bir müraciət deyil. Həkimcəsinə və ata kimi bir baxış və müraciətdir. O özünün iqtisadi, yaxud siyasi bazarını rövnəqləndirmək üçün gəncdən istifadə etmir. O istəyir ki, gənci, tərənnümü onun özü olan tərəqqi, hidayət və islah yoluna yönəltsin. O, gənclərə müraciətlə bu iki cümləni buyurur: "Ey gənclər! Öz heysiyyətinizi ədəblə və dininizi elmlə qoruyun".[18] Özünüzün insani şərəfinizi və heysiyyətinizi ədəb-ərkanla, öz dininizi isə elmlə qoruyun. Çox əhəmiyyətli bir sözdür. Elm dini qoruyur. Bu, İslamın məntiqidir. Qoy İslamla düşmən olan boşboğazlar həmişə İslamın elmlə uyğun olmaması barədə danışmaqlarında olsunlar.

**Ağıllılığın dəyəri**

O biri hədis İslamın əziz elçisi həzrət Peyğəmbərdəndir: "Allah bəndələrinə ağıldan daha üstün bir şey paylamamışdır". Allah-Taala Öz bəndələrinə ağıllılıqdan daha dəyərli bir şey verməmişdir. Allah öz bəndələri arasında ruzini bölmüşdür:

---

[18] Yəqubi tarixi, c. 2, səh: 210.

hava, su, ömür və ləzzətləri. Bütün nemətlər Allahdandır. İslam peyğəmbərinin sözünə əsasən, bütün bu müxtəlif və rəngarəng nemətlər arasında ağıl qədər dəyərli bir nemət bölünməmişdir. Sonra bəzi cümlələr buyurur, uzun olduğundan onları oxumuram. Sonda belə deyir: "Allah bütün peyğəmbər və elçiləri yalnız ağlı təkmilləşdirməkdən ötrü göndərmişdir".[19] Allah-Taala tarix boyu xalqın arasına göndərdiyi hər bir peyğəmbəri onlardakı ağlı kamilləşdirməkdən ötrü göndərmişdir. Nəhcül-bəlağənin bir xütbəsində də var ki, Allah-Taala peyğəmbəri, ağıl xəzinələrini xalqda oyatmaq üçün göndərdi.[20] Bu ağıl nə üçündür? Bu ağıl həyat yolunu tapmaq üçündür. Fikirləşmək və ağılla həyatın yolunu tapmaq lazımdır. Mənim siz əziz övladlarıma ən mühüm tövsiyəm budur və mən bir neçə ildir təkrarlayıram ki, təcrübə və tərcümə sahəsində, tərcümə elmində, hətta tərcümə fikrində, tərcümə ideyasında, məktəbində, ideologiyasında, iqtisadiyyatında və siyasətində həmişəlik qalmamalıyıq. Bu şüar ondan ötrüdür ki, insanın öz ağlından, düşüncəsindən, təhlilindən istifadə etməməsi, gözünü yumması və ona sırınan təbliğat dalğalarından qorxub bir sözü qəbul etməsi ayıbdır.

**Şərq və İslam xalqlarının ən böyük bəlası**

Müstəmləkəçilik dövrünün 200 ilində birbaşa, yaxud dolayısı ilə Şərq xalqlarının, xüsusən də müsəlman xalqların başına gələn ən böyük bəla bu idi ki, Qərbin təbliğatı qarşısında qorxdular və geri çəkildilər. Bu qanlı və çox ağır hücumu Qərbin hegemon başçıları mədəni yollarla onlara etdilər. Onlar da dözə bilməyib geri çəkilməyə və əllərini qaldırmağa məcbur oldular. Həyatın bütün sahələrində qərblilər və avropalılar bir fikir irəli sürürdülər; kim ona qarşı çıxsaydı, onu ələ salmağa, məsxərə etməyə və aşağılamağa başlayırdılar, öz mədəniyyətlərini hakim etmək üçün təzyiq göstərirdilər. Bu mədəniyyətin yeganə üstünlüyü Avropa mədəniyyəti olması idi, başqa heç bir üstünlüyü yox idi. Düzdür, xalqların hamısının mədəniyyətləri var. Onlar bir-birindən istifadə etməklə, digərlərindən təcrübə və dərs öyrənməklə öz mədəniyyətlərini təkmilləşdirə bilərlər. Biz buna qarşı çıxmırıq, bununla müvafiqik. Lakin dünyada baş tutan bu deyildi.

**Mədəni mübadilə və mədəni hücum**

Mədəni hücumla mədəniyyət mübadiləsinin fərqi budur ki, mədəni mübadilədə siz sanki meyvə, yaxud yemək süfrəsinə və ya bazara gedir, ürəyiniz istədiyini, məzacınıza uyğun olanı seçir və yeyirsiniz. Mədəniyyət sahəsində də görüb bəyəndiyinizi, özünüzə uyğun bildiyinizi və nöqsan görmədiyinizi başqa bir toplumdan və xalqdan alırsınız. Bunun heç bir eybi yoxdur: "Elmi öyrənin, hətta Çində olsa da". Bunu 1400 il bundan əvvəl bizə öyrətmişlər. Lakin mədəni

---

[19] "Əl-Kafi", c. 1, səh: 12.

[20] Nəhcül-bəlağə, xütbə 1.

hücumda sizə demirlər ki, seçin. Onlar sizi yatızdırırlar, əl-ayağınızı tuturlar, nə olduğunu, sizin üçün faydalı olub-olmadığını bilmədiyiniz maddəni iynə ilə bədəninizə vururlar. Əlbəttə, Qərb dünyası bizim əl-qolumuzu bağlayıb iynə vurmasını hiss etməyimizə imkan vermədi. Məsələni elə göstərdi ki, biz elə bildik özümüz seçirik, halbuki seçmirdik, bizə sırıyırdılar. Digər tərəfdən, bunlar elə insanlardır ki, əgər özlərinin qəbul etdikləri mədəniyyətə azca irad tutulsa, səs-küy salırlar. Siz görün azadlığın beşiyi adlandırdıqları Fransada üç-dörd hicablı müsəlman qızdan ötrü nə qədər səs-küy saldılar. Buna görə deyirik ki, fikirləşməli, təhlil etməliyik. Tərcümə düşüncəsi bir xalq üçün çox pis tale yazır. Bu mənim siz əziz gənclərə həmişəlik tövsiyəmdir.

İndi seçkilərin yaxınlaşdığına görə, bununla münasib olan və əlbəttə, bizim gənc nəslimizi düşündürən iki-üç mövzü haqqında danışmaq istəyirəm.

**Seçkilər və İslam demokratiyası**

Bir məsələ seçkilər məsələsi və onun İslam baxımından demokratiya ilə əlaqəsidir. Qərb demokratiyasının, yəni liberal-demokratiyanın özü üçün bir məntiqi var. Bu məntiqə görə, hökumət və quruluşların legitimlik şərti xalqın səs verməsindən ibarətdir. Bu təfəkkürün əsası da liberalizm düşüncəsidir: heç bir əxlaq sərhədi olmayan, yalnız digərlərinin azadlığına zərər yetirməklə sərhədlənən fərdi azadlıq düşüncəsi. Qərbin liberalizm təfəkkürü budur: bütün sahələrdə insanın mütləq şəkildə fərdi azadlığı. Bu, ölkənin siyasi quruluşunda da özünü göstərir. Çünki cəmiyyətdə azlıq və çoxluq var. Çıxış yolu budur ki, azlıq çoxluğun iradəsinə tabe olsun. Qərb demokratiyasının təməli budur. Hansı quruluşda bu olsa, liberal-demokratiya baxımından legitimdir, hansında olmasa, legitim deyil. Bu, liberal-demokratiya nəzəriyyəsidir. Halbuki Qərb demokratlarının işi bununla tamamilə fərqlidir və bu gün Qərb demokratiyalarında olan bu deyil.

**ABŞ-ın qeyri-legitim hökuməti**

Əgər legitimliyin meyarı xalqın əksəriyyətinin səsindən, yəni səs sahiblərinin əksəriyyətinin iradəsindən ibarətdirsə, deməli, ABŞ hökuməti və onun indiki prezidenti legitim deyil. Çünki əksəriyyət yoxdur. Səsvermə hüququ olanların 35, 38, yaxud 40 faizi seçkilərdə iştirak edib, onların da, misal üçün, 21 faizi ona səs verib. Heç belə də olmayıb. Bilirsiniz ki, o, Ağ evə Napoleon kimi getdi. Hakimin hökmü ilə və zorla onu Ağ evə itələdilər, yəqin ki, yadınızdadır. Bu qədər səsin onun legitimliyinə kifayət etdiyini fərz etsək də, buna əsasən, ABŞ-ın indiki hökuməti legitim deyil. Bizim ABŞ hökumətinin qeyri-legitim olmasına dair çoxlu dəlillərimiz var. İndi onların öz məntiqi ilə söhbət edirik. Qərb demokratiyasının sinəsini qabağa vermiş nümayəndələrinin çoxunda sizin İran İslam Respublikasında müşahidə etdiyiniz 60-65, 70 faizlik seçki keçirilmir, bundan çox azdır. Düzdür, bəzən 60 faiz və ondan bir qədər artıq olur, lakin çox zaman 40-dan bir qədər artıq, 50, 38 və sair belə rəqəmlərdir.

### Hegemon düşərgənin sözündə və əməlində paradoks

Qərbin hegemon düşərgəsinin, xüsusən də ABŞ-ın - bu gün işimiz ABŞ-ladir - söz və əməlindəki paradoks daha böyükdür. Bunlar qeyri-demokratik olan, ölkələrində bir dəfə də seçki qutusu qoymayan, heç kimdən səs almayan nə qədər hökuməti qəbul etmiş, onlarla demokratik bir hökumət kimi rəftar etmişlər və nə qədər demokratik quruluşları hərbi çevrilişlə devirmişlər. İnşallah, ömrünüz o qədər uzun olar ki, 10 ildən sonra ABŞ Dövlət Departamentinin arxivindən Latın Amerikasındakı 20-30 il qabaqkı çevrilişlər barədə üzə çıxan sənədləri görərsiniz. Onların bəzisi indi də üzə çıxmışdır, bəzisini də biz özümüz bilirik. Bəlkə də bütün Latın Amerikasında elə bir ölkə yoxdur ki, orada azad seçki keçirilib xalqın istədiyi prezident seçilsin, amma ABŞ-ın CİA təşkilatı işə girişib çevriliş etməsin, əngəl törətməsin, xalqın demokratiyasını viran qoymasın. İndi Çili məşhurdur və o ölkənin macərasını hamı bilir. Afrikada, Asiyada və digər müxtəlif yerlərdə də bu işi gördülər. ABŞ-ın köməyilə nə qədər avtoritar rejimlər quruldu. Bir ölkədə bir rejimi qeyd-şərtsiz olaraq müdafiə etdilər, onlar da ürəklənib öldürdülər, vurdular, apardılar və iyirmi il hökmranlıq etdilər. Bizim öz ölkəmizdə, tariximizdə bənzəri az görünən Rza xan dövrünün qara diktaturasını və tağut rejimini ingilislər iş başına gətirdilər. Sonra Məhəmmədrzanı gətirdilər. Doktor Müsəddiqin milli hərəkatla iş başına gəldiyi qısa müddətdən sonra bir-ikiillik birtəhər dözdülər. Sonra səbirləri tükəndi, ABŞ və İngiltərə birləşib 28 mordad (19 avqust) çevrilişini etdilər, General Zahidinin çevrilişi əsasında İranda iyirmi beşillik qara diktatura hökm sürdü.

### İslamda legitimlik

İslamda xalq legitimliyin bir şərtidir, bütün şərti deyil. İslamda siyasi quruluş xalqın səsindən əlavə, təqva və ədalətdən ibarət başqa bir əsaslı amillə də şərtlənmişdir. Əgər seçilmiş şəxsdə təqva və ədalət olmasa, bütün xalq onu istəsə də, İslam baxımından legitim deyil; hələ xalqın əksəriyyəti bir yana qalsın. İmam Hüseyni (ə) tarixin ölməz sənədlərindən olan məktublarla Küfəyə dəvət etdikdə belə yazırdılar: "İmam yalnız ədalətli hakim olandır". Yəni İslam cəmiyyətində hakim və hökumət yalnız ədalətlə çalışan, hökm verən ola bilər. Əgər ədalətlə hökm verməsə, onu kim təyin etsə və kim seçsə də, qeyri-legitimdir. Bu məsələ bütün hakimiyyət iyerarxiyasına aiddir, təkcə quruluşun rəhbərinə məxsus deyil. Təbii ki, rəhbərin vəzifəsi daha ağırdır. Rəhbərdə lazım olan ədalət və təqva, misal üçün, deputatda lazım deyil, amma bu da o demək deyil ki, deputat təqva və ədalət olmadan parlamentə gedə bilər. Xeyr, onun üçün də təqva və ədalət lazımdır. Nə üçün? Çünki o da hakimdir və hakimiyyət orqanındandır. Necə ki, hökumət və Ali Məhkəmə də hakimdir. Bunlar öz hakimiyyətləri altında olanların can və mallarına hakimiyyət edirlər.

### “İmam” sözünün mənası

İmam Allah dininin yolu ilə getməlidir. Quranda Allah-Taalanın İbrahimə (ə) müraciətində çox əhəmiyyətli olan bu məqam gəlmişdir. Allah İbarhimi (ə) çoxlu

imtahanlara çəkdikdən və o, müxtəlif sınaqlardan çıxıb daha da saflaşdıqdan sonra buyurdu: "Mən səni insanlara imam təyin edirəm". İmam təkcə dini rəhbərlik, pak-murdar, qüsl, dəstəmaz və namaz məsələlərində deyil. İmam xalqı islaha və yaxşılığa tərəf aparan din və dünya rəhbərliyi mənasındadır. Bu, əvvəldən bu günə qədər din məntiqində imamın mənasıdır. Sonra İbrahim (ə) dedi: "Və mənim övladlarımdan?" Mənim övladlarımın və zürriyyələrimin də bu imamətdə payları varmı? Allah buyurmadı ki, var, yoxsa yox. Söhbət övlad söhbəti deyil, O, ümumi qayda göstərdi: Mənim tərəfimdən imamət fərmanı, əmri və hökmü zalımlara çatmaz; yəni imam mütləq ədalətli olmalıdır.

**Hakimiyyət nə üçündür?**

Osmanın qətlindən sonra dünya ədalətlilərinin imamı, təqva və ədalət tərənnümü olan Əmirəlmömininі xilafət başına gətirmək üçün onun evinə toplaşdılar. O həzrət qəbul etmirdi, bunun üçün bəzi dəlilləri var idi. Bu, çox mühüm bir mövzudur. O, qəbul etdikdən sonra bu məzmunda bir cümlə buyurdu: "Əgər xalqın diqqəti, beyəti və istəyi ilə mənim vəzifəm zülmün qarşısında dayanmaq, ayrıseçkiliklə mübarizə aparmaq və məzlumu müdafiə etmək olmasaydı, yenə qəbul etməyəcəkdim". Yəni mən hakimiyyəti hakimiyyətdən ötrü istəmirəm. İndi bəziləri fəxrlə deyirlər ki, biz gərək hakimiyyəti ələ keçirək. Hakimiyyəti nə üçün istəyirik? Əgər hakimiyyət onun özü üçün olsa, əlavə yük, zalımla mübarizə üçün olsa, yaxşıdır. Buna əsasən, hökumətin legitimliyinin meyarı təkcə xalqın səsi deyil, əsas şərt təqva və ədalətdir. Lakin xalqın səsi və istəyi olmasa, təqva və ədalət də işə yaramaz. Bu baxımdan, xalqın səsi də lazımdır. İslam xalqın səsinə də əhəmiyyət vermişdir. Qərb demokratiyası ilə bizim dediyimiz dini demokratiya arasında fərq budur.

**Qərb demokratiyası və dini demokratiya**

Qərb demokratiyasının etimadlı və güclü düşüncə əsası yoxdur, lakin dini demokratiyada var. Dini demokratiyada və ilahi şəriətdə məsələ belə qoyulur ki, xalq hakimi istəməli, nəticədə o, qəbul olunmalı və hakimiyyətə haqlı olmalıdır. Ey müsəlman! Nə üçün xalqın səsi mötəbərdir? Deyir ona görə ki, müsəlmanam, İslama etiqadlıyam və İslam məntiqində insanın Allah-Taala yanındakı məqamına görə xalqın rəyi mötəbərdir. İslamda Allah-Taalanın müəyyən etmədiyi insanlara heç bir vilayət və hakimiyyət məqbul deyil.

**Dini demokratiya məntiqi**

Biz çoxlu fiqh məsələlərində harada hakimin, qazinin, yaxud bir möminin vilayətinə, hakimiyyət və ya qəyyumluğuna şəkk etsək, buna icazə verən şəriət dəlilinin olub-olmadığını bilməsək, deyirik ki, vilayəti yoxdur. Nə üçün? Çünki ilkin qayda hakimiyyətin olmamasıdır. Bu, İslamın məntiqidir. Hakimiyyət o zaman məqbuldur ki, şəriətlə təsbit olunsun. Şəriət isə bu səlahiyyət üçün ədalət və təqvanın olmasını və xalqın da istəməsini şərt göstərmişdir. Bu, çox möhkəm və

əsaslı dini demokratiya məntiqidir. Bir mömin tam etiqadla bu məntiqi qəbul və buna əməl edə bilər, heç bir şübhəyə də yer yoxdur.

**İslam Respublikası və qanun məsələsi**

İslam Respublikası demokratiyanın yaxşı formalarından biri olan parlament üsulunu qəbul etmişdir. Bu qanunverici hakimiyyət xalq tərəfindən seçilən icra hakimiyyətindən və rəhbərdən başqa bir şeydir. Bu hakimiyyət birbaşa xalqın səsi ilə, bizim konstitusiyamızda və digər qanunlarda müəyyən olunmuş qaydalar əsasında və lazımi qanunların qəbul olunması məqsədilə qurulur. Qanun nədir? Qanun bir ölkənin, bir xalqın taleyi deməkdir. Çünki hamı qanuna tabe olmağa məcburdur. Hökumət də qanuna tabe olmalıdır, rəhbər də.

**Fəqihin mütləq vilayətinin mənası**

Bəzi insanlar elə bilirlər ki, konstitusiyada göstərilmiş "fəqihin mütləq vilayəti" o deməkdir ki, rəhbər ürəyi istəyən hər bir işi görə bilər. Xeyr, mütləq vilayətin mənası bu deyil. Rəhbər qanunların hər birini icra etməli və onlara hörmətlə yanaşmalıdır. Lakin bəzən elə olur ki, məsul şəxslər bir qanunu dəqiqliklə icra etmək istədikdə problemlə rastlaşırlar. İnsan qanunu belədir. Konstitusiya bir çıxış yolu göstərib deyir ki, müvafiq orqanlar filan vergi qanununda, xarici siyasətdə, ticarətdə, sənayedə və universitetdə çıxılmaz vəziyyətdə qalsalar və bir iş görə bilməsələr, rəhbərə müraciət etsinlər. İmam Xomeyninin vaxtında da belə idi. Çünki belə deyil ki, siz bu gün bir şeyi parlamentə aparasınız və sabah qərar çıxarıb cavab versinlər.

Mən İmam Xomeyninin vaxtında prezident idim. Çıxılmaz vəziyyətlərdə imama məktub yazırdıq və o, cavab verirdi. İmamdan sonra da qabaqkı və indiki iqtidarlar bəzən müxtəlif məsələlərlə bağlı məktub yazıb problem olduğunu bildirmiş və qanunun filan hissəsinin pozulmasına icazə istəmişlər. Rəhbər də diqqətlə araşdırıb bu işin görülməsinin labüd olduğunu duyduqda icazə verir. Ölkənin mühüm probleminə çevrilmiş məsələlər isə Quruluşun Məsləhətini Müəyyənləşdirən Quruma verilir. Mütləq vilayətin mənası budur. Rəhbər, prezident, nazirlər, deputatlar, bir sözlə, hamı qanuna tabedir və olmalıdır da.

**Qanun**

Qanun bizim əməllərimizə hakim olacaq qədər əhəmiyyətlidir. Bizim seçib parlamentə göndərdiyimiz şəxs üç-dörd il ölkənin taleyini müəyyən edəcək. Biz əvvəldə parlament sistemini qəbul edəndə regionun bəzi müsəlman dövlətləri etiraz etdilər ki, bu nədir. Mən indi adlarını çəkmək istəmirəm. Həmin iddiaçı dövlətlərin biri deyirdi ki, siz nə üçün parlament sistemini qəbul etdiniz? Biz dəlillə onlara sübut etdik ki, parlament sistemi düzgündür. Buna əsasən, ən mühüm əlamətlərindən biri İslami Şura Məclisinin seçkiləri olan bu dini demokratiya İslamın düşüncə və etiqad təməllərinə söykənir.

**Parlament və seçkilər**

İndiyədək İranda hamısı xalqın səsi ilə və güclü məntiqli əsaslara söykənən çoxlu parlamentlər olmuşdur. İndiki parlament altıncı parlamentdir. Onların hamısı legitim olmuşdur və qərarlarına hamı əməl etməlidir. Onları biz seçmişik. Mən izdihamlı seçkilər üzərində buna görə təkid göstərirəm. Bəziləri elə bilirlər ki, bizdə seçkilər izdihamlı keçsə, İslam Respublikası quruluşu legitim olacaq və əgər izdihamlı keçməsə, quruluş legitimliyini itirəcək. Bu, düzgün fikir deyil. Dünyanın demokratik sayılan quruluşları bizim seçkilərimizdəki səslərin yarısı ilə idarə olunur və qeyri-legitimlik hissi keçirmirlər. Mən xalqın iştirakına təkid göstərirəmsə, bunun bir şəriət, vicdan və ağıl vəzifəsi olduğundan ötrüdür. Çünki parlament bir qanun qəbul etdikdə hamılıqla ona tabe olmalıyıq. Deməli, siz bu qanunu qəbul edən parlamentin yaradılmasında rol ifa etməlisiniz. Əgər özünüzü kənara çəksəniz, bu, heç bir problemi həll etməyəcək, səhnəyə qoşulmaq lazımdır. Əgər səyinizi göstərsəniz, amma istədiyiniz olmasa, yenə də səyinizi göstərmiş və vəzifənizi yerinə yetirmisiniz.

**Seçkilər və düşmənin təbliğatı**

Mənim əzizlərim! Bunu da deyim ki, seçkilərdə iştiraka çağırmaq digərlərinin təbliğatına görə deyil. İnqilabdan qabaq kitablarda oxumuşduq, indiyə qədər də 25 ildir qlobal medianın və əsasən, sionistlərin təbliğatını təcrübə edirik. Bunlar İslam Respublikasına və dünyada razılaşmadıqları hər bir qüvvəyə qarşı danışmaqdan heç zaman əl çəkməyəcəklər. İran xalqı seçkidə izdihamlı iştirak edəndə bir formada danışırlar, etməyəndə başqa formada. Bizim sözümüz onların ağzını bağlamaqdan ötrü deyil. 1997-cı ilin 2 xordad seçkiləri çox izdihamlı keçdi. Düzdür, bu faiz əvvəllər də bəzi seçkilərdə görünmüşdü, amma hər halda, o seçkidə çox yüksək faiz iştirak etdi. Lakin əcnəbi radioları dedilər ki, İran xalqı səsvermədə iştirak edir ki, İslam Respublikasına “yox” desin. Siz Allah, baxın, xalq rəhbərin, quruluşun və məsul şəxslərin dəvəti ilə yüksək faizlə seçkilərə gedib İslam Respublikasına prezident seçir, məntəqələrdə qələbəlik yaranır, amma gör nə deyirər. Böyük şəhərlərdə, xüsusən Tehranda xalqın çox zəif iştirak etdiyi bələdiyyə seçkilərində də dedilər ki, xalq iştirak etmədi, yəni İslam Respiblikasına “yox” dedi. Yəni onların baxışına görə xalq seçkilərdə iştirak etsə də “yox” demişdir, etməsə də. Düşmənin təbliğatı belədir. Xalq nə qədər iştirak etsə, düşmənin təbliğatı yenə də olacaq. Mən o gün dedim, bu gün də deyirəm ki, xalq bələdiyyə seçkilərində iştirak etmədisə, bələdiyyənin işindən razı olmadığına görə idi. Əgər bələdiyyələr bu müddətdə yaxşı işləsələr, görəcəksiniz ki, gələn dəfə xalq bələdiyyə seçkilərində izdihamlı şəkildə iştirak edəcək. Xalq harada işin görülməsinə ümidvar olsa, gəlir. Amma bələdiyyələrin yaxşı işləmədiyini görsə, soyuyur və məyus olur. Mən təxminən ay yarım bundan əvəl Zəncanda vəzifəli şəxslərə dedim ki, xalqın seçkilərdə iştirak etməsini istəyirsinizsə, işlərinizi yaxşılaşdırın. Xalq işləri görsə, seçkilərdə iştirak etməyə həvəslənəcək. Buna

əsasən, seçkilərdə iştirak etmək məsələsi vəzifə baxımından bizim üçün əhəmiyyətlidir.

**Qərb demokratiyasında səlahiyyət**

Qərb demokratiyasında xüsusi səlahiyyətlər nəzərdə tutulmuşdur. Bunlarda əsasən partiya mənsubiyyətləri riayət olunur. Həm namizəd olanlar, həm namizəd edənlər və həm də namizədlərə səs verənlər əslində, bu partiyaya, yaxud o partiyaya səs verirlər. ABŞ və İngiltərə kimi ikipartiyalı ölkələrdə və yaxud çoxpartiyalı ölkələrdə bu iki partiyadan, yaxud bir neçə partiyadan birinə səs verirlər. İslam Respublikası quruluşunda elmdən və siyasi bacarıqdan əlavə, əxlaqi və etiqadi bacarıq da lazımdır. Bəziləri deməsinlər ki, əxlaq və əqidə insanların şəxsi məsələsidir. Bəli, əxlaq və əqidə insanların şəxsi məsələsidir, amma məsul şəxslərin yox. Mən əgər mühüm bir postdayamsa, pis əxlaqım olsa, cəmiyyətin məsələlərini pis dərk etsəm və öz cibimi doldurmalı olduğumu düşünsəm, xalqa deyə bilmərəm ki, bu mənim şəxsi etiqadım və əxlaqımdır və heç kəsə dəxli yoxdur.

**İslam Respublikasında səlahiyyət**

Məsul bir şəxs üçün əqidə və əxlaq şəxsi məsələ deyil, ictimai və ümumi bir məsələdir. Parlamentə gedən, yaxud İslam Respublikası quruluşunda başqa bir məsuliyyəti qəbul edən şəxs fəsad adamı, əcnəbiyə pərəstiş edən və cəmiyyətin imkanlı təbəqəsinin maraqlarının xidmətində duran şəxs olsa, daha xalqın və məhrum təbəqələrin istədiyi rolu ifa edə bilməz. Əgər o şəxs bazarlıq edən, rüşvəti və sifarişi qəbul edən və qorxaq olsa, təbliğat hücumu və xarici siyasətlər qarşısında geri çəkilsə, daha xalqın etimadını doğruldub, orada otura, xalqın və məmləkətin vəzifəsini müəyyənləşdirə bilməz. Bu şəxsin bacarıqdan və elmdən əlavə, əxlaqi qorxmazlığa, dini və siyasi təqvaya və düzgün əqidəyə də ehtiyacı var. Əlbəttə, mənim bu sözüm əqidə təftişinə başlanmasına və bir-bir məmurlardan müxtəlif mövzular barədə fikirlərinin soruşulmasına səbəb olmamalıdır. Mən təftişlə müvafiq deyiləm. Səksəninci illərdə bəzi radikal şəxslərin tələbələrin universitetə qəbul olunması üçün qəribə məsələlər soruşmalarına da qarşı idim. Dəfələrlə buna müxalif olduğumu elan etdim. Lakin quruluşun əsaslarına müxalif olduğunu əməli formada və açıq şəkildə göstərmiş, sübut etmiş və bunda israrlı olan şəxs millətin vəkili olub quruluşun dirəyi olan İslami Şura Məclisinə gedə bilməz. Bəziləri deyirlər ki, vətəndaşın seçilmək hüququnu almaq olmaz. Seçilmək haqqı adi vətəndaş hüququ, misal üçün, işləmək, qazanmaq, şəhərdə məskunlaşmaq, küçədə yol yerimək, avtomobil almaq və sair hüquqlar kimi deyil. Bu, bəzi səlahiyyətlər tələb edən bir hüquqdur. Bununla isə həm Daxili işlər nazirliyi, həm də Nəzarət Şurası məşğul olur. Namizədlərin səlahiyyətlərinin təyin edilməsində xalqın özü ən yaxşı amildir və ən çox məsuliyyət onun üzərinə düşür. Onlar bir şəxsdə bu səlahiyyətləri görsələr, bir-birinə tanıtdırsınlar və imkanı olan şəxslər onun seçilməsinə yardım etsinlər.

### Bizim parlamentimiz və Qərb parlamenti

Seçkilər barədə başqa bir məqam budur ki, bizim parlamentimizdəki demokratiya ilə Qərb demokratiyaları və parlamentləri arasında mühüm oxşarlıq var. O da budur ki, dünyanın hər bir yerində parlamentlər quruluşu qorumaq və gücləndirmək üçün yaranırlar, quruluşla mübarizə aparmaq üçün yox. Bu sözün sahibləri qulaqlarını açıb eşitsinlər, çünki parlament quruluşun bir hissəsi və onu təkmilləşdirmək üçündür. Parlament quruluşa qarşı çıxanların yeri deyil ki, bəziləri desinlər biz İslami Şura Məclisinə girib konstitusiya, yaxud İslam Respublikası quruluşu ilə mübarizə aparacağıq. Bu, dünyanın hər yerində tamamilə məntiqsiz və səhvdir. Siz dünyada elə bir yer görməzsiniz ki, parlamentdə quruluşa qarşı çıxsınlar. Düzdür, hökumətlərə qarşı çıxırlar, izah tələb edirlər, aşağı çəkirlər, yuxarı qaldırırlar. Lakin heç bir parlament siyasi quruluşa, dövlətə müxalifət etmir, çünki parlament dövlətin bir hissəsidir, müxalifət etməsinin mənası yoxdur. Düzdür, digər parlamentlər kimi İslami Şura Məclisinin daxilində də müxtəlif qruplar, öz sözləri ilə desək, fraksiyalar mövcuddur. Onların hər birinin müxtəlif proqramları vardır. Bu belə də olmalıdır və parlament dəlillə danışılan qızğın və peşəkar siyasi mübahisələr yeridir. Çox qızğın şəkildə müzakirə aparmalıdırlar, lakin öz proqramlarını tərəf-müqabillərinə dəlillə qəbul etdirməli və onları qane etməlidirlər. Mən sakit, başıaşağı və hər bir söz qarşısında başını tərpədən parlamentin tərəfdarı deyiləm. Düşünürəm ki, parlament durğun və passiv deyil, dinamik və aktiv olmalıdır. Mənim özüm də inqilabın əvvəlində, birinci çağırış parlamentin deputatı olmuşam. Parlamentin işləyən, düşünən, mübahisə edən, dəlil göstərən və məntiqli formada isbat, yaxud rədd edən fəal deputata ehtiyac var. İmam dəfələrlə bizə deyirdi ki, İslami Şura Məclisində sizin örnəyiniz hövzə tələbələrinin mübahisələri olmalıdır. Hövzə tələbələrinin mübahisəsində iki tələbə mübahisə edəndə bir-birinin sözünü rədd edirlər, bir-birinin başına çığırırlar, mübahisə bitdikdən sonra isə yenə də dostdurlar; birgə yeyirlər, dərsə gedirlər, çay hazırlayırlar. Parlament belə olmalıdır: dəlil əsasında mübahisə yeri, lakin quruluşun çərçivəsində. Parlament quruluşun daxilində fəaliyyət göstərmək, proqram hazırlamaq və inkişaf etmək yeridir, quruluş əleyhinə yox. Bu, hamının yadda saxlamalı olduğu bir məqamdır.

### Rəhbərin ən mühüm vəzifəsi

Rəhbərin ən mühüm vəzifəsi ümumi siyasətləri təyin etməkdir. Bu proses ən məntiqli və ən gözəl proseslərdən biridir. Bəzilərinin ürəyi istəyir ki, həmişə yalan və böhtan təbli çalsınlar. Biz bir söz demirik, onlar da istədiklərini deyirlər. Eybi yoxdur, amma siz gənclər bilmirsinizsə, bilin ki, ümumi siyasətlərin tənzimi çox güclü və möhkəm prosesdir. Bu siyasətlər əvvəlcə dövlətin komissiyalarında qəbul olunur və sonra hökumətə çıxarılır. Hökumət onu araşdırıb qəbul edir və rəhbərə təklif edir. Rəhbər də onu Quruluşun Məsləhətini Müəyyənləşdirən Quruma verir. Bu siyasətlər həmin qurumun komisiyyalarında daimi, yaxud dəvət

olunmuş müxtəlif ekspertlərin iştirakı ilə araşdırılır və təkmilləşdirilir, sonra yenidən rəhbərə verilir. Rəhbər də o siyasətləri İslam Respublikası quruluşunun dəyər təməlləri və prinsipləri ilə uyğunlaşdırır, qəbul edir, sonra o siyasətlər hökumətə qaytarılır və parlamentə göndərilir. Siyasətləri tənzim edərkən rəhbərin rolu budur ki, bu siyasətlər çərçivəsində görülməsi nəzərdə tutulan proqramların quruluşu yanlış və səhv yola aparmasından, məhrum təbəqələrin maraqlarının və xalqın hüququnun tapdanmasından, istismarçı və müdaxiləçi qüvvələrin maraqlarının təmin olunmasından ehtiyatlı olsun. Bu nəzarət rəhbərin vəzifələrindəndir. Əgər bu sahələrdə qüsur və nöqsan görünsə, rəhbərə aiddir. Bu siyasətlər göndərildikdən sonra parlament bu siyasətlər əsasında qanun qəbul etməli, hökumət də icra etməlidir. İcra, məhkəmə və qanunvericilik işləri bu çərçivədə hazırlanır. Bu orqanların hər birinin başçısı var. Rəhbər onların işlərinə müdaxilə etmir. Çox nadir hallarda və aşkar qanun pozuntusunun baş verdiyi duyulduqda bu, baş verə bilər. Parlamentin məsuliyyətləri də öz öhdəsinə düşür. Mən parlamentdə qəbul olunan qanunların çoxunu qəbul etmirəm, amma qanun olduqda mən də tabe oluram və qarşı çıxmıram. Bir çox yerlərdə hökumətin addımlarını qəbul etmirəm, amma bunu tənzim edən və qərar verən məsul şəxslər var, bu onların vəzifəsidir. Bu kimi halların xalqın ümumi yolunda çox təhlükəli əngəllər törədəcəyini duyduqda müdaxilə edirik. Təxminən iki il, iki il yarım bundan əvvəl indiki İslami Şura Məclisində Mətbuat haqqında qanun qəbul edilərkən belə bir şey qarşıya çıxdı. Hiss etdim ki, parlamentə xatırlatmaq mənim borcumdur. Ona görə bu işi gördüm. Parlament də çox razılıqla və gözəl şəkildə əməkdaşlıq etdi və komissiyada nəzərdə tutulmuş işi davam etdirmədi. Onlara təşəkkür edirik.

**İyirmiillik mənzərə**

Biz iyirmiillik mənzərə proqramını elan edən kimi dünyanın ziyanverici media qurumları onu ələ salmağa başladılar. Çünki bu proqram inkişaf üçün ümid, həvəs, əzmkarlıq və iradə deməkdir. Məlumdur ki, onlar bunu bəyənməzlər. Bu bəyənməmək də ən çox ABŞ-a və sionistlərə bağlı radiolar tərəfindən idi. Əlbəttə, onların daxildəki kiçik oxşarları və bala dərvişləri də ajiotaj yaratdılar. Bilmirəm dərviş şouları indi də var, yoxsa yox. Keçmişdə dərviş dayanırdı, bir bala dərviş də yanında olurdu. O deyirdi, bu təsdiq edirdi, bu deyirdi, o təsdiq edirdi. Bir-birinin ağzına söz qoyurdular. Doğrudan da insan əziyyət çəkir ki, bəziləri ölkə daxilində, İslam Respublikası quruluşunun sayəsi altında, xalqın böyük hərəkəti və fədakarlıqları hesabına tağut quruluşunun şərindən azad olub danışa bilirlər, amma danışdıqları söz xalqın düşmənlərinin dediklərinin həyasızcasına təkrarıdır. İnsan bu qədər nadanlıqdan əziyyət çəkir.

İyirmiillik mənzərə proqramı Allahın lütfü ilə hökumətin, İslami Şura Məclisinin və İran xalqının proqramlı hərəkət sənədidir. Mən siz gənclərə demək istəyirəm ki, sizlər bu mənzərənin reallaşmasında çox aktiv rol oynaya bilərsiniz. Bu əziz gənclərin dediyi sözlər, universitet müəllimlərinin və rektorlarının ortaya

qoyduğu istəklər iyirmiillik mənzərə proqramına hazırlığı təmin edən məsələlərdəndir. Biz bu proqramı həyata keçirməliyik. Mənzərə zirvənin başındadır, yol da asfalt deyil ki, insan ayağını qazın üstünə qoyub oraya çatsın. Xeyr, bunun üçün hərəkət etmək, iradə göstərmək, özünü əziyyətə salmaq, adı İran xalqı olan bu böyük bədənin damarlarında qanın sürətli və sağlam cərəyan etməsi, onun qidalanması və zirvəyə sarı hərəkət etməsi lazımdır. Oraya çatdıqda daha zirvənin başındayıq. Zirvənin başına çatmaq bir xalq üçün həm şərəf və heysiyyətdir, həm də mühafizə və təhlükəsizlik. O zaman daha heç kəs İran xalqına sataşıb güc göstərə və maraqlarının qarşısını ala bilməyəcək, həm də bu iş İslam dünyası, hətta İslam dünyasından da geniş bir dünya üçün model olacaq. Bunun üçün çalışmaq lazımdır.

**Amerika bir iş görə bilməyəcək!**

Gənclər, elm, düşüncə və ağıl sahibləri çalışmalıdırlar. Elə bilməyin ki, düşmən bunun qarşısını ala bilər. Xeyr, bu gün xalqların qarşısında olan bu düşmənin, yəni ABŞ-ın görə biləcəyi maksimum iş budur ki, hərbi və kəşfiyyat işi ilə bədbəxt Səddam kimi birisini viranədən və çaladan tapsın, yaxud KİV və mədəni işlər vasitəsilə fəsad və pozğunluğu yaymaqla məşğul olsun. Hətta iqtisadi təzyiqlərlə də istədiyini edə bilməz. Çünki iqtisadi münasibətlər sahəsində dünyada mürəkkəb məsələlər var və belə deyil ki, istədikləri bir xalqı iqtisadi baxımdan pis vəziyyətə sala bilsinlər. Müharibə zamanı Qərb dünyası, ABŞ, Avropa və onlara bağlı olanlar və o dövrün Şərq dünyası, yəni Sovetlər bizi blokadaya saldılar, sanksiya tətbiq etdilər, silahlarımızın, təyyarələrimizin, tanklarımızın sayını da bilirdilər. Fikirləşdilər ki, altı aydan sonra bunların hamısı bitəcək. Müharibəni səkkiz il uzatdılar, amma bu səkkiz ilin sonunda bizim imkanlarımız və sursatımız əvvəldə olduğundan daha yaxşı və daha çox idi. Səddamın həm özü xəyanətkar və zəbun idi, həm də ətrafı. O, xalqına xəyanət edirdi, ətrafı da ona. Səddam kimisinə qalib gəlmək gücü göstərmir. Heç kim elə bilməsin ki, indi dünyanın böyük gücü olan bu qütb ürəyi istədiyini edə bilər. Xeyr, belə deyil ki, istədikləri hər bir qələti edə bilsinlər. Hərbi qələbəni xalqlara hücum edən Çingiz, Teymur və bunlar kimilər etdilər. Gəldilər, sonra da getdilər, məhv oldular, amma xalqlar yenidən baş qaldırdılar.

**Böyük güclərin acizliyi**

Xalqlar istəyib dayansalar, heç bir düşmən onların qarşısında duruş gətirə, öz hücumunu, təcavüzunu və tamahkarlığını davam etdirə bilməz. Bir zərbə vurar, bir zərbə də vurular. Səfəvi dövrünün son padşahları, xüsusən də onların sonuncusu ləyaqətsizliyi və ətrafında qarınqulu insanların toplaşması üzündən Əşrəf Əfqana məğlub olduqda Səfəvi şahzadələrinin biri özünü göstərmək istədi, amma bacarmadı. O, Qəzvinə gəldi. Qəzvin xalqına xəbər göndərdilər ki, bu Səfəvi şahzadəsi onların arasında olsa, gəlib hamınızı qətliam edəcəyik. Səfəvi şahzadəsi Qəzvində qala bilməyib getdi. İşğalçılar gələndə qəzvinlilər dedilər ki, o burada

yoxdur, şəhərə girin. Qeyrətli qəzvinlilər isə xəlvətdə bir iş planlaşdırdılar, bir gecədə bu təcavüzkarların hamısını qətlə yetirdilər. Əgər qorxsaydılar, əlləri titrəsəydi, əgər “sonra nə olacaq” desəydilər, əmin olun ki, Qəzvin üçün əbədi rüsvayçılıq qalacaqdı. İran xalqının bu tip nümunələri çoxdur. Qəzvinlə bağlı bu hadisə yadıma düşdü və siz qəzvinlilərə demək istədim. Qəzvin üçün bu şərəf qaldı. Nə üçün? Çünki düşmənin təhqir və hücumuna nə dözdülər, nə də o bədbəxt fərari şahzadəyə arxalandılar. Əgər Qəzvin xalqı desəydi ki, fərari Səfəvi şahsadəzi nə desə, onu edəcəyik, yenə də rüsvayçılıq qalacaqdı. Harada xalq və onun iradəsi, əzmkarlığı və istəyi varsa, orada Allahın iradəsi, rəhməti, nəzəri və köməyi də var.

İlahi! Öz köməyini bu xalqa nazil et! Bu əziz gənclərin qəlblərini günbəgün daha şad, daha çiçəkli və daha təravətli et! İlahi! Bizim milli birliyimizi günbəgün artır! Bu xalqın düşmənlərini məğlub et! Öz lütfün və kəraminlə bütün müsəlman xalqları əcnəbilərin əlindən və müstəmləkəsindən xilas et! Bizi Öz razılığına səbəb olan işlərə yönəlt!

Allahın salamı və rəhməti olsun sizə!

## Elm cihadının yolları[21]

Bismillahir-Rəhmanir-Rəhim.

Əvvəla, çox sevinirəm ki, bu gün burada ölkənin elmi üçün, parlaq gələcəyə müjdə verən tədqiqatçılarla, gənc alim və elmi nümunələrlə görüşürəm. Əgər vaxt və imkan olsaydı və sizin hər biriniz cihad, elm, tədqiqat və məşğul olduğunuz işlər barədə danışsaydınız, əmin olun ki, mən çox məmnuniyyətlə dinləyib həzz alardım. Siz əziz bacı və qardaşların varlığına görə Allah-Taala dərgahına çox şükür edirəm və Allah şükür edən şəxslərin nemətlərini artırmağa söz verdiyindən, ümidvaram ki, sizdən ötrü Allaha etdiyim səmimi şükr və minnətdarlığa görə, Allah sizin vücudunuza bərəkət verəcək, kəmiyyətinizi və keyfiyyətinizi günbəgün artıracaq.

Bir cümlə universitet cihadı barədə deyəcəyəm, bir cümlə ölkədəki elm və tədqiqat məsələsi barədə, bir cümlə də İranın nüvə məsələləri və beynəlxalq ajiotaj barədə.

**"Universitet cihadı" – mənalı ifadə**

Mənim fikrim budur ki, bu söz birləşməsinin, mənəvi dəyər ifadə edən “cihad” sözünün elm, bilik və universtetlə birləşməsinin mesajı vardır. Bu onu göstərir ki, cihad elmi və həmçinin elm cihadı vardır. Bu sizin məşğul olduğunuz işdir. Sizin elminiz cihad elmidir, cihadla və ictihadla birgədir, dilənçilik və oturub elmin oradan-buradan hədiyyə olunmasını gözləmək deyil. Elmə sahib olmaq üçün onunla məşğul olursunuz. Bu, cihad elmi, mücahidlikdən, ictihaddan və fəaliyyətdən qaynaqlanan elmdir. Digər tərəfdən, siz həm də cihadla məşğulsunuz. Cihad - uca və müqəddəs bir məqsəd yolunda mübarizədir. Onun müxtəlif sahələri var. Bu sahələrdən biri adətən, başa düşülən silahlı müharibələrdir. Bunun siyasət sahəsi də var, elm sahəsi də, əxlaq sahəsi də. “Cihad” sözünün işlədilməsində meyar budur ki, bu hərəkət məqsədli və maneəli olsun. Bu olur mübarizə. Cihad belə bir mübarizədir; ilahi məqsədli olduqda, həm də müqəddəs olur. Siz elmi mübarizə aparırsınız. Bəllidir ki, bu işinizin çox qatı düşmənləri var. Onlar bu elm və tədqiqat işinin baş tutmasını istəmirlər. Buna görə düşünürəm ki, Universitet cihadı təkcə bir təşkilat deyil, həm də bir mədəniyyət, istiqamət və hərəkətdir. Biz cəmiyyətdə bu mədəniyyətə rəvac versək və onu möhkəmləndirsək, ölkəni başucalığına, iqtidara və həqiqi müstəqilliyə yaxınlaşdırmış olarıq.

**Cihad və istixana nümunəsi**

---

[21] Universitet cihadı təşkilatının ekspertləri və Elmi şura üzvləri ilə görüşdə çıxışı: 21 iyun 2004.

Xoşbəxtlikdən, Universitet cihadı təşkilatı gözlənənləri həyata keçirdi. Bəlkə də bir zaman düşünürdülər ki, bu təşkilat nümunə üçün düzəltdiyimiz bir istixanadır. Bu gün isə bu istixana cəmiyyəti gülüstana çevirir. Nəinki nümunə yetişdirməklə kifayətlənməyib, hətta öz səmərələrini də daşırır. Bu statistikalar - onları qabaqcadan mənə göndərmişdilər və baxmışdım - çox mənalıdır. Siz bəzi sahələrdə elmin ön sıralarında hərəkət etməkdəsiniz, ölkənin elm, sənaye və texnologiya baxımından inkişafına çalışır, tədqiqatı inkişaf etdirirsiniz. Mənası odur ki, bu daha istixana deyil, böyüməkdə olan açıq və ətirli bir bağdır. Mən bu böyümənin tərəfdarıyam. Bu, davamlı olmalıdır. Qeyd olunan birinci məlumatda kök hüceyrələrin istehsalı, çoxaldılması və dondurulması vardı. Mən bu dəyərli tədqiqat işindən çox sevindirici məlumatlar almışam. Yadımda olan budur ki, bunlar dünyada ilk dəfə olaraq, insulin düzəldən hüceyrələr istehsal etmişlər və bu yaxınlarda qəzetdə oxudum ki, ürəyi müalicə etmək üçün onun kök hüceyrələrini sınaq və əməliyyat mərhələsinə çıxarıb peyvənd ediblər. Digər məsələlərin hər biri də Universitet cihadının səmərəliliyinə bariz misallardır.

**Elm və ağıl - ikiüzlü alət**

Dünyada elmin sekulyar mahiyyətli olmasını və dəyərlərlə heç bir əlaqəsi olmadığını sübuta yetirmək üçün çox çalışdılar, onun üçün fəlsəfə düzəltdilər, dəlil göstərdilər. Bilik anlayışını dəyərlərdən uzaq bir anlayış kimi göstərməyə çalışdılar. Həqiqət budur ki, elm və ağıl ikitərəfli qüvvələrdir. Onlar dəyərlərə də xidmət edə bilərlər, heyvanlığa və yırtıcılığa da. Bu, elmin idarəsinin kimin əlində olmasından asılıdır.

**Qərb elmi**

Əgər elmin idarəsi dünyagir, pulpərəst və müstəmləkəçi insanların əlində olsa, bu gün dünyada müşahidə etdiyiniz olacaq; yəni elm müstəmləkə, istismarçılıq, xalqların təhqiri, işğalçılıq, pozğunluq, seks və heroini yaymağa vasitə olacaq. Elm olmasaydı, müstəmləkə də olmazdı. Avropalılar elmlərinin sayəsində dünyada ölkələri müstəmləkəyə çevirə, 100, 150, 200 il geridə saxlayıb öz maddi sərvətlərindən məhrum edə bildilər. Onların insani istedadlarını məhv etdilər, qırğınlar törətdilər. Elm həyatın heyvani cəhətlərindən başqa bir şey haqqında fikirləşməyən insanların idarəsində olanda belə olur.

**Düzgün insanların elmi**

Lakin elm mömin bəndələr tərəfindən idarə olunsa, o zaman xidmət göstərər və ziyanlı olmaz. Əgər nüvə enerjisini kəşf edənlər dəyər və təqva sahibləri, onu işlədənlər dəyərli və mömin bəndələr olsaydılar, heç zaman Hiroşima hadisəsi baş verməzdi. Siz görürsünüz ki, onlar hələ də bacardıqları qədər bu dağıdıcı amildən istifadə edirlər. Bu qüvvələr zəif atom silahlarını 10-12 il əvvəl İraq müharibəsində işlətdilər. Dünyanın başqa regionlarında da nəsillərin kəsilməsinə səbəb olan bu silahı işlətmişlər. Bu silah, Quran sözü ilə desək,

insanları sonsuz və yerləri məhv edir.[22] Allah bilir ki, həmin zəhərli və dağıdıcı şüaların təsirləri hələ neçə illər, neçə nəsillər davam edəcək. Əgər elm düzgün insanlar tərəfindən idarə olunsa, belə hallar qarşıya çıxmaz və elm bəşəriyyətin xidmətində durar. Onda bu qüdrət var. Buna görə də, elmi sekulyarizə etməyə, onun dəyərlə birgə olmadığını isbatlamağa çalışmaq çox böyük bir çaşdırma və hiylədir. Xeyr! Elm dəyərlə birgə ola bilər. İslam mənəviyyatının heyvanlıqla, fəsadla və elmdən sui-istifadələrlə problemi var, elm, texnologiya və tədqiqatla yox. Mənəviyyat elmlə birgə ola, elm və tədqiqatın nəticələri mənəviyyat istiqamətində hərəkət edə bilər.

**Elm cihadının yolu**

Sizin adınız Universitet cihadıdır. Bu ad üzərində dayanın. Bu ada uyğun olaraq həqiqətən, cihad edin. Cihad - yəni Allah üçün məqsədli fəaliyyət olanda, şübhəsiz, yanında uğur da olacaq. Bizim bütün sahələrdə elmi inkişaf sərhədlərinə sarı gedən yolumuz, əmin olun ki, müstəqillik, Allaha təvəkkül və iman uğrunda işləmək hissi olmadan keçilməyəcək. Bu yolu cəld keçməli, qısa yollar tapmalı və özümüzü çatdırmalıyıq. Elmin sərhədlərini yarıb yeni sərhədlər yaratmalıyıq. Bu iş mümkündür, çünki bura elm ölkəsidir və siz bunun mümkün olduğunu göstərdiniz. Bu elmlərin çoxunun qapıları bizim kimi ölkələrin üzünə bağlıdır. Elmin köçürülməsinə yalnız köhnəldikdən, işləndikdən və təravətini itirdikdən sonra icazə verirlər. Əlbəttə, bütün sahələrdə belədir. Humanitar elmlərdə də belədir. Mən ölkənin iqtisadiyyat və müxtəlif idarəçilikləri sahəsində işləyən dostlar buraya gələndə dedim ki, bəziləri bu gün qüvvədən düşmüş məsələlərlə məşğul olurlar. İndi daha üstün nəzəriyyələr meydana çıxmış, icra olunmuşdur, onların sözünə vurğun olan buradakıların bəziləri isə indi ortaya qoyurlar. Bəziləri deyirlər ki, Allah-Taala qarşısında bəndəliyiniz olmasın, amma özləri Qərbə, Avropaya, Amerikaya bəndəlik edirlər. Bu insanlar Allah qarşısında bəndəliyi qəbul etmirlər, amma Qərb kapitalizmi və ona bağlı siyasi güc mərkəzləri qarşısında can-dildən bəndəliyi qəbul edirlər.

**Universitet cihadı – inqilabçı bir qurum**

Bu, inqilabçı qurumdur. Çalışın nqilabçı da qalın; mənim təkidli tövsiyəm budur. Bəzi xəbis adamlar və muzdur qələm sahibləri təlqin və təbliğ edirlər ki, inqilab xaos, təşviş, puçluq və heçlikdir. Amma əslində, inqilab qanunları ən üstün və ən güclü qanunlardır. İnqilabın əvvəlində olan nizam-intizamsızlıq ona görə idi ki, yanlış, əyri və çürümüş bir binanı söküb yenisini tikmək lazım idi. İnqilabın əvvəlindəki qarışıqlıq buna görə idi. İnqilab qarışılıqlıq demək deyil, davamlı bir işdir. İnqilab - quruculuq, cücərmə və çiçəklənmədir. Məgər qayda-qanun, nizam-intizam olmadan çiçəklənmə mümkündür?! Ən yaxşı işləri inqilabçı ruhiyyəli insanlar görmüşlər; həm müharibədə, həm quruculuqda, həm də elmdə və

---

[22] "Bəqərə"/205.

mədəni məsələlərdə. Buna görə də, inqilabçı qalın. İnqilabçı ruhiyyəsi - yəni sırınanların əsiri olmamaq, damla-damla verilənlərə qane olmamaq, ümidlə məqsədə doğru hərəkət etmək, həvəslə, təkidlə və davamlı fəaliyyətlə onu əldə etmək. İnqilabçı hərəkət budur.

**Müstəmləkəçiliyin üç sahəsi**

Müstəmləkəçi qüvvələrin müstəmləkə əlaqəsini qorumaq üçün təkid göstərdikləri üç əsas məsələ vardır: mədəni istismar, iqtisadi istismar və elmi istismar. Bunun üçün istismar olunan, yaxud müstəmləkə altında olan tərəfi bu üç sahədə müstəqilliyə, özünəinama və inkişafa yaxın buraxmırlar; nə mədəni məsələlərdə, iman, əqidə, dəyər və məqsədlərdə, nə iqtisadi məsələlərdə, nə də elmi sahədə.

**Müstəmləkə ölkələr**

Müstəmləkə ölkələrin heç zaman düzgün iqtisadiyyatı olmamışdır. Bəzən zahiri baxımdan bir qədər rövnəqlənmişlər. Görürsünüz ki, onların bəzisində zahiri rövnəq var, amma iqtisadi struktur dağılmışdır. Yəni bir kranı bağlasalar, bir hesabı dondursalar və ya iqtisadi baxımdan ələ keçirsələr, hər şey dağılıb məhv olacaq. Siz gördünüz ki, bir kompaniya sahibi Cənub-Şərqi Asiyanın bir neçə ölkəsini iki-üç aylıq müflis etdi; özü də nisbətən yaxşı iqtisadi inkişafı olan iki-üç ölkəni. Həmin ölkələrin birinin prezidenti o günlərdə Tehrana gəlmişdi. Dedi bu qədər sizə deyim ki, biz bir gecədə bütünlüklə yoxsul olduq. Bir ipi dartan kimi oyuncaq bina necə uçursa, amerikalı yəhudi bir oliqarx bir ipi çəkdi və hər şeyi dağıtdı. Amerikalılara harada lazım olsa, 50-60 milyard köçürürlər; 50 miylard birinə, 30 milyard o birinə. Amma lazım olmasa, köçürmürlər və o ölkəni bədbəxt günə qoyurlar. Əlbəttə, köçürmək də belədir ki, oyuncaq quruluşu yenidən başqa bir formada bərpa edirlər. Hər halda, bu ölkələrin iqtisadiyyatının möhkəmlənməsinə qoymurlar.

**Müstəmləkə ölkələrin mədəniyyəti**

İstismarçıların müstəmləkə altında saxladıqları ölkələrin mədəniyyətlərinə qarşı gördükləri və qədimdən qayda halına çevrilmiş birinci işləri bu idi ki, bu ölkələrin mədəniyyətini, dilini, dəyərlərini, adət-ənənələrini və etiqadlarını aşağılayır, təzyiqlə, zorla, bəzən də qılınc gücü ilə və göz çıxarmaqla - tarixdə buna dair nümunələri görmüşük - məhv edirdilər. Xalqı öz dilində danışmağa qoymurdular. Özlərinin idxal etdikləri dili zorla qəbul etdirməyə çalışırdılar. İngilislər Hindistan yarımadasına gəldikdə, fars dili oranın rəsmi dili idi. Onlar bu dilin qarşısını aldılar, silah və təzyiqlə dedilər ki, fars dilində danışmağa haqqınız yoxdur. Fars dilini çıxarıb yerinə İngilis dilini saldılar. Pəhləvilər də qaranlıq hakimiyyətləri dövründə cəmiyyətə ilham verən məzhəb inanclarını, iman və etiqadları tədriclə xalqdan aldılar, qeyrətsizliyi və imansızlığı yaydılar.

**Müstəmləkə ölkələrdə elm**

Müstəmləkə altında olan ölkələrdə inkişaf etməyə qoymadıqları və ciddi maneə törətdikləri məsələrdən biri elmdir. Onlar bilirlər ki, elm qüdrət amilidir. Qərblilərin özləri elmlə gücləniblər. Bu, tarixi həqiqətlərdəndir. Əlbəttə, elm Şərqlə Qərb arasında hərəkət edib, gah onlarda, gah da bunlarda olub. Bir zaman onlar cəhalətdə idilər. Özlərinin təsvir etdikləri Orta əsrlər dövründə dünyanın bu tərəfində elmin zirvə çağı idi. Amma qərblilər elmə yiyələnən kimi ondan hökmranlıq, sərvətlənmək, siyasi güclərini artırmaq, xalqların sərvətini talamaq və özlərinə sərvət istehsal etmək üçün bir vasitə kimi istifadə etdilər. O sərvətlə yenidən elm istehsal etdilər, elmi inkişaf etdirdilər. Onlar elmin bir ölkəyə qüdrət bağışlamaqda nə qədər təsirli olduğunu bilirlər. Buna görədir ki, istismarçı sistemin, yəni istismarçı ilə istismar olunan arasındakı əlaqənin dünyaya hakim olmasını isətyirlərsə, istismar altında saxladıqları ölkələri savadlanmağa və elmi inkişafa qoymamalıdırlar. Bu, dəyişməz strategiyadır, oyan-buyanı yoxdur. Bu gün dünyada bu minvalla hərəkət edirlər. Buna əsasən, elm öyrənmək və tədqiqat aparmaq üçün zəhmət çəkmək, çalışmaq lazımdır.

**Elm inqilabdan öncə**

Biz inqilabdan qabaq uzun illər elmdən uzaq qalmışıq. Bir dövr yuxu və mütləq qəflət dövrü idi. Bir dövrdə isə təbii surətdə xalqlar arasında oyanış yarandı. Bu dövr də aldatma və hiylə dövrü oldu. Elmin ölkəyə daxil olmasına qoymur, xalqın başını qatır, tədqiqat yolunu açmır, istedadları yetişdirmir, həvəsləndirmirdirlər. İnqilab bu sərhəd və məhdudiyyətləri aradan qaldırdı, elmi oyanış yaratdı. Lakin bu hərəkat idarəsiz, iradəsiz və durğun olsa, bir yerə çata bilməyəcək. Bütün işlərin, o cümlədən, elm və araşdırmaların dəqiq təşkilatçılığa ehtiyacı var. Ona görə də, bu məsələni inkişaf etdirmək lazımdır. Düzdür, bu işin bir hissəsi dövlət məmurlarına aiddir, bir hissəsi universitetlərin, bir hissəsi də elm mərkəzlərinin məsul şəxslərinə. Siz universitet cihadı olaraq bu məsələ ilə məşğul olmaq və məsuliyyət hiss etmək üçün ən yaxşı mərkəzlərdənsiniz. Əlbəttə ki, bunu edirsiniz. Xoşbəxtlikdən, mən şahidəm və görürəm ki, sizin elmi inkişafınız çox yaxşı olmuşdur. Bunu davam etdirin.

Universitet cihadının möhtərəm sədri təklif etdi ki, bizim irəli sürdüyümüz elm istehsalı və Proqramlaşdırma hərəkatı Universitet cihadı tərəfindən idarə olunsun. Bu, yeni bir fikirdir, tam şəkildə araşdırılmalıdır. Elmi işinizə əhəmiyyətli yanaşın. Düzdür, mədəni iş də bu qədər əhəmiyyətlidir; iman, qorxmazlıq, başucalığı və ayıqlıq bəxş edən inamlar üzərində işləmək. İslam inancı bunların hamısını ehtiva edir. Bunun özü müstəqil bir söhbətin mövzusudur.

**Düşmənlərin ajiotajı**

Son məsələdə İslam Respublikasının düşmənləri və onların başında, hamısından xəbis olan Amerika Birləşmiş Ştatları dövləti İslam Respublikası əleyhinə ajiotaj yaratmış, İslam Respublikasına təzyiq göstərmək üçün bunu bayraq etmişlər. Bu, Bədr, Xeybər və Hüneyn kinləridir. Bu, İslam inqilabından və

ABŞ-ın əlinin bu ölkədən kəsilməsindən yığılıb-qalmış kinlərdir. Onlar bu yolla onun əvəzini çıxmaq istəyirlər. Onlar çirkin ağızlarını İran xalqı əleyhinə açıb, ağızlarına gələni dedilər. Hiylədə, yalanda və saxtakarlıqda dünyada məşhur olanlar İslam Respublikasını yalançılıqda ittiham etdilər. Bəşəriyyətlə xəbislikləri və düşmənliləri gündən aydın olan və hamının müxtəlif sahələrdə müşahidə etdiyi şəxslər İslam Respublikasını insan hüquqlarını pozmaqda ittiham etdilər və özləri insan hüquqlarının müdafiəçiləri kimi səhnəyə çıxdılar. Bütün dünyada, o cümlədən, İraq və Əfqanıstanda həbsxanaları olan, insan hüquqlarını pozan, faciələr törədən, bu gün dünyaya hakimiyyət iddiası və əsl vəhşiliyi tərənnüm edən rüsvayçı ABŞ insan hüquqlarının tərəfdarı olduğunu bildirir. Görün insan nə qədər rəzil olmalıdır! Doğrudan da bugünkü bəşəriyyət üçün daha böyük rüsvayçılıq ola bilməz. Belə insanlar, belə vəhşi, qaniçən və yırtıcı canavarlar insan hüquqlarının müdafiəçisi olduqlarını iddia edir və sonra İslam Respublikası əleyhinə ağızlarına gələni danışırlar.

**Düşmənlərin iki işi**

Onlar eyni zamanda iki iş görməkdədirlər: Bir tərəfdən boş-boş danışıb İslam Respublikasını atom bombası düzəltməkdə ittiham edir, atom bombası istehsalına çox az qaldığını bildirir, digər tərəfdən də inandırmaq istəyirlər ki, faydası yoxdur, nüvə elmi ilə məşğul olmayın. Onların kiçik tipləri və qulağısırğalı nökərləri də daxildə bu işləri yerinə yetirir və bu sözləri yazırlar. Təəssüf ki, bizim ölkəmizdə həmişə mövcud olmuş bu muzdur qələm sahibləri axtarıb öz qələmlərini, yazılarını, əllərini və əsərlərini eynilə xalqın düşməninin istədiyi mövzu üzərində qururlar. Bu yaramaz, səviyyəsiz, lakin iddialı yaltaqlar müxtəlif dillərlə deyirlər ki, nüvə elmi ilə məşğul olmayın, əgər onu istəyirsinizsə, gedin ABŞ-ın torpağını öpün. Onlar deyirlər, bunlar da işıqlandırır və təkrarlayırlar.

**Atom texnologiyası, yoxsa atom silahı?**

Bəzən atom texnologiyasını atom silahı ilə qarışdırırlar. Lakin əslində, belə deyil, onların bir-birinə aidiyyəti yoxdur, ayrı-ayrı şeylərdir. Atom bombası uranın 90 faizdən artıq zənginləşdirilməsinə və çox mürəkkəb texnologiyaya bağlıdır. Bunu yalnız o məqsədi güdənlər edirlər. Bizim belə məqsədimiz yoxdur, ona görə də bu işə can atmırıq, belə bir fikrimiz yoxdur. Bizim atom bombasına ehtiyacımız yoxdur. Biz bu günə qədər öz düşmənlərimizə qələbə çalmışıqsa, bunu atom bombası ilə etməmişik. İran xalqı 25 ildir Amerikanı məğlub edir. Məgər belə deyil?! Amerika 25 ildir İran xalqına məğlub olub. Nə ilə, nəyin hesabına? Biz Amerikanı atom bombası ilə məğlub etmişik, yoxsa iradə, iman, ayıqlıq və birliyimizlə?! Biz nə istədiyimizi başa düşdük, nəyə nail olmaq istədiyimizi anladıq, yolu tanıdıq, hərəkət etdik, onun-bunun çığır-bağırından qorxmadıq. Biz belə qələbə çaldıq. Biz atom bombası ilə qələbə çalmamışıq. Məgər keçmiş SSRİ-nin atom bombası yox idi?! Onun atom bombalarının sayı, güman ki, Amerikanın atom bombalarının sayından da artıq idi. Məğlub olmadı?! Dünyanın həlledici

səhnələrində qələbə və məğlubiyyət buna bağlı deyil. Biz bu gün İslam dünyasına bir model təqdim edirik: dini demokratiya, istiqlaliyyət və milli qürur modeli. İslam dünyası 25 ildir Amerika əleyhinə səfərbər olunub və xalqlar Amerikaya ölüm oxuyurlar. Amerikaya ölüm şüarını kim verirdi? İslam Respublikasından və İran xalqından başqa kim?! İndi isə hamı deyir.

Biz atom bombası ilə müvəffəqiyyət əldə etmədik. Əzəmətli, tarixi və unudulmaz səhnələrdə qələbə bu silahlarla əldə edilmir. Məgər bu gün sionist rejiminin atom bombası yoxdur?! Verilən məlumatlara görə, indi sionist rejiminin anbarlarında bəlkə də 360 atom başlığı mövcuddur. Amma bu rejim neçə ildir tüfəngi belə olmayan, təkcə daşla silahlanan tərəf-müqabilinin qarşısında aciz qalıb. Əlbəttə, bu, daş iradə ilə yanaşıdır və imana arxalanır. Bizim problemimiz atom bombası deyil, atom bombasını neyləyirik?! Atom bombasından istifadə etdikdə təkcə düşmən öldürülmür, düşmən olmayanlar da öldürülürlər. Bu, bizim əqidəmizə ziddir, tutduğumuz yol və metodlara uyğun deyil. Yaxşı və pisi, imanlını və günahkarı öldürən, qurunu və yaşı yandıran bomba İslam quruluşunun məqsədi deyil.

**Atom texnologiyası – İran xalqının haqqı**

Bizim can atdığımız atom texnologiyası başqa bir məsələdir. Onların ortaq nöqtələri təkcə urandır. Onun 90 faiz zənginləşmiş urana və mürəkkəb silah sənayesinə ehtiyacı var, bunun isə atom stansiyasının yanacağı üçün təkcə 3-4 faiz zənginləşmiş urana. Buşəhr şəhərində bizim belə bir stansiyamız var. 3-4 faiz zənginləşmiş uran hara, 90 faizdən artıq zənginləşmiş uran hara?! Bu, beynəlxalq qanunlara əsasən, hamıya icazəlidir. Urana ehtiyacı olan və hətta ehtiyacı olmayan bütün ölkələr onu 3-4 faiz həddində istehsal edə bilərlər. Hamının qəbul etdiyi beynəlxalq NPT konvensiyası var. Biz də ona qoşulmuşuq. Beynəlxalq qanunlar baxımından da heç bir problem yoxdur. Əgər biz bu texnologiyanı əldə etməsək, sabah Buşəhrin atom reaktoru işə salınanda onun yanacağı üçün kiminsə qapısını döyməli və yanacaq dilənməliyik. Sonra da bir gün hər hansı bir siyasi dəlilə görə, ikitərəfli, yaxud beynəlxalq münasibətlər səbəbindən bizə yanacaq vermək istəməsələr, biz stansiyasız qalacağıq. Onlar bunu istəyirlər. Onlar istəyirlər ki, bizim sobamız olsun, amma yanacağı onların əlində olsun. Yəni atom reaktoru ilə asılılığı artırsınlar, azaltmasınlar.

**İranın atom texnologiyası barədə Qərbin nigaranlığı**

Bu gün Amerikalıların İran əleyhinə ajiotajına səbəb olan və bunları əl-ayağa salan məsələ budur ki, onlar İranın atom stansiyasını işə saldığını, atom enerjisi istehsal etdiyini və yanacağının da ölkə daxilində istehsal olunduğunu görürlər. Bu, onların təşvişə düşmələrinin birinci səbəbidir. Mən bir dəfə demişəm ki, əgər neft mənbələri onların əlində olsaydı və biz neft istəsəydik, onun bir butulkasını bizə dədələrinin qiymətinə satardılar. Bizim kimi onun bir boçkasını 20, 30, yaxud 35 dollara satmazdılar. Amma görürsünüz ki, neft ölkələri özlərinin məhdud

sərvətlərini dəyərsiz pula çevirirlər. Atom yanacağı məsələsində də belə etmək istəyirlər. Yəni bizim atom stansiyamız varsa, yanacaq üçün onlara möhtac olmalıyıq.

**Düşmənin İranın elmi inkişafından nigaranlığı**

Onların təşvişə düşmələrinin ikinci səbəbi budur ki, bu elmin ölkə daxilində yaranıb inkişaf etdiyini görüb narahatlıq hissi keçirirlər. Əlbəttə, bu, o demək deyil ki, bu aparatı biz ixtira etmişik. Bu, o deməkdir ki, biz bunu öyrənmək üçün onların qapısına getməmişik. Öz cavan alimlərimiz, sizin kimi gənclər, yüzlərlə mütəfəkkir və aydın beyin bu mürəkkəb aparatı işlədib, nəticə əldə edə bilmiş, elmi inkişaf etdirmiş, texnologiyanı qurmuşlar, onun-bunun qapısına getməmişlər. Bu, onların qorxuya düşməsinə səbəb olub. Niyə? Çünki bu, onların müstəmləkəçi fəlsəfələrinin tam ziddinədir. Onların müstəmləkə altında saxlamaq istədikləri ölkələr elm və texnologiya əldə etməməlidirlər. Bu sahədə müstəqil olmayıb, başqalarına əl açmalı, möhtac olmalıdırlar. Onlar bilirlər ki, bu gün İran və onun xalqı bu texnologiyanı əldə etsə, onun İslam ümmətinin müstəqilliyi və müsəlman izzəti haqqındakı sözləri də müsəlmanlar arasında və İslam cəmiyyətlərində özünə daha artıq yer açacaq, daha tez qəbul ediləcək. Bundan narahatdırlar. Buna görə də, hay-küy salırlar.

**Əlavə zülm**

Bizim ölkəmizin məsul şəxsləri bu işin siyasi cəhətləri barədə lazım olanı dedilər. Cənab prezidentin, Atom Enerjisi Təşkilatının və Xarici işlər nazirliyimizin məsul şəxslərinin dedikləri düzgündür. Onlar digərlərinin mənasız və uzun danışıqlarının cavabını verdilər. Mən bu barədə bir söz demək istəmirəm. Mən istəyirəm ki, əsl həqiqət İran xalqına aydın olsun. İran xalqı əlavə bir zülmü qəbul etmək istəmir. Nigaranlıq bildirirlər ki, siz bu yolla atom silahı əldə edə bilərsiniz. Əgər avropalılar və digərləri doğru deyirlərsə və həqiqətən, nüvə silahından nigarandırlarsa, biz deyirik ki, əmin olun, dediyim dəlilə əsasən, biz nüvə silahı istəmirik. Amma əgər İran xalqının bu şanlı, dəyərli və yerli texnologiyaya malik olmasından narahatdırlarsa və buna mane olmaq istəyirlərsə, yenə də onlara deyirik: Əmin olun ki, İran xalqı boyunduruq altına girməyəcək. Bu gün dövlətin, tədqiqatçıların, alimlərin nüvə texnologiyası sahəsində gördükləri böyük iş onların vəzifəsidir. Bu iş əcnəbilərə asılılığın qarşısını almaq və milli istiqlaliyyətimizi qorumaq üçündür. Bizim buna ehtiyacımız var.

**Nüvə enerjisi – İran xalqının ehtiyacı**

Boş-boş çərənləyənlər əbəs yerə “bu işə nə ehtiyac var?” deməsinlər. Buna İran xalqının ehtiyacı var. Bu gün dünyanın inkişaf etmiş ölkələri öz elektrik enerjilərinin çoxunu, yaxud mühüm bir hissəsini atom stansiyaları vasitəsilə təmin edirlər, neftlə yox. Neft həm ekologiyaya zərərlidir, həm məhduddur, həm də yanacaq daha dəyərli işlərə sərf oluna bilər. Nefti olan xalqları bu nemətdən

məhrum etmək istəyənlər deyirlər ki, sizin neftiniz var, atom enerjisi nəyinizə lazımdır?! Məgər biz nefti tükətməli və sonra sizə əl açmalıyıq?! Millətlərin alnına yazılıbmı sizə ehtiyaclı qalmaq?! Onlar deyirlər neftinizi işlədin, əliniz boşaldıqda bizə möhtac olun, bizim yanımıza gəlin. Bizim xalqımız bunu qəbul etmək istəmir. Biz elektrik istehsalı üçün nüvə enerjisisinə nail olmalıyıq. Buna bizim ölkəmizin ehtiyacı var. Biz mütləq buna nail olmalıyıq, yoxsa son bir-iki əsrin geriliyi daha da artacaq, sonra bu xalq daha bir əsr geri qalacaq. Bu işi davam etdirmək milli vəzifədir. Bunu davam etdirərkən yerliləşdirməliyik. Yerliləşdirə bilməsək, yenə eyni asılılıq və eyni ehtiyac qarşıya çıxacaq. Əgər asılı olmaq istəmiriksə, işi yerliləşdirmək istəyiriksə, təbii ki, təzyiq də olacaq. Təzyiqlərin qarşısında müqavimət göstərmək lazımdır. Bu gün bizim milli vəzifəmiz budur ki, elmin zirvələrinə yaxınlaşana qədər bu texnologiyanı və oxşar texnologiyaları əldə edək. Bu məsələni təqib etmək bizim xalqımıza, bunu bacaran bütün insanlara vacibdir. Xalqı asılılıqdan xilas etmək onların borcudur.

Allah-Taaladan istəyirik ki, sizin hamınızı müvəffəq etsin! Ölkənin elmi müstəqilliyi yolunda çalışan şəxslərə Allah-Taala əcr, uğur versin! Bu gün gənclərimizin Allahın yardımı ilə başlatdıqları elm və tədqiqat işi günbəgün inkişaf etsin!

Allahın salamı və rəhməti olsun sizə!

## Gənclər və mənzərə sənədi[23]

Bismillahir-Rəhmanir-Rəhim.

**Əziz gənclər**

Bu məclis mənim üçün doğrudan da çox şirin və gözəl bir məclisdir. İranın ən qədim şəhərinin ən əziz gənclərinin - elm, siyasət, şərəf və şöhrətin tarixi silsiləsinin varislərinin toplantısı. Halbuki digər ümumi toplantılarda da gənclər iştirak edirlər. Mənim buraya gəldiyim birinci gün idman sarayına toplaşmış izdihamın əksəriyyəti gənclər idi. Bəlkə də sizin çoxunuz orada idiniz. Bəsic, şəhid ailələri və digərləri ilə olan görüşlərdə də çoxlu simalar, əksəriyyət gənc idi. Lakin istəyirdim ki, gənclərlə, xüsusən də tələbə gənclərlə, qız və oğlanlarla özəl görüşüm olsun. Allaha şükür olsun ki, bu gün bu görüş baş tutdu. Bu təkcə gənclərə deyiləsi sözlərdən ötrü deyil, həm də ona görədir ki, gənc nəslə diqqət göstərmək, gənclərlə söhbət etmək, bizim ölkəmizin ən üstün nəsli ilə - bu gün xoşbəxtlikdən, ölkəmizin əksəriyyəti gəncdir - üz-üzə dayanmaq hamı üçün bir ənənə, mədəniyyət və adi iş olsun.

Bizim məclisimizdə, xoşbəxtlikdən, möhtərəm müəllimlər, universitetlərin möhtərəm rektorları, təhsil işləri ilə məşğul olan məsul şəxslər və əziz müəllimlər də iştirak edirlər. Onların hamısına da sevgi və hörmətimi bildirirəm.

**Sizin sözləriniz elə bizim sözlərimizdir.**

Söhbətdən qabaq bir cümlə deyim. Bizim əzizlərimizin burada söylədiyi sözlərin əksəri həm də bizim ürək sözlərimiz, illərdir mənim zehnimi və fəaliyyətimi özünə aid edən fikirlərdir. İnkişaf etmiş və bəzi işlər də görmüşük, lakin çalışmaq lazımdır. Bunlar bizim sözlərimizdir və doğrudan da bu əzizlərin hamısına deməliyik ki, bizim dilimizdən danışırsınız. Tələbəyə əhəmiyyət, işsizlik, nikah, elmi tədqiqat, universitetlərin texnika və proqramları, istər tələbə, istər müəllim olan elm adamına qayğı kimi məsələlər bizim maraqlandığımız məsələlərdir. Mən çox sevinir və Allah şükür edirəm ki, bu sözlərin bu gün ümumi bir istəyə çevrildiyini görürəm. Bunları daha təkcə biz demirik, siz bizə deyirsiniz. Mən sevinirəm ki, bizim əziz gəncimiz burada qalxsın və ölkədəki istedadlara dair mənə tövsiyə versin. Əzizlərimin biri burada məndən üzr istədi ki, biz təkcə mənfi cəhətləri deyirik, müsbət cəhətlərə toxunmuruq. Mən bu əzizimizə, digər gənclərə və sizin əksəriyyətinizə demək istəyirəm ki, müsbət cəhət sizin özünüzsünüz, demək lazım deyil. Bizim gəncimiz bu qədər düşüncə ilə, belə təlim-tərbiyə əlamətləri ilə buraya gəlib bizimlə danışırsa, bu, ən müsbət cəhətdir. Allaha şükür

---

[23] Həmədan universitetlərinin müəllim və tələbələri və həmədanlı gənclərlə görüşdə çıxışı: 7 iyul 2004.

edirəm ki, məni belə bir zamanda, bu qədər yaxşı insanla, nurlu qəlblə, bu qədər xeyir aqibətli və mübarək gənclə bir zamanda yaşadır. Çiynim ağır bir məsuliyyət yükü altındadır. Təbii ki, bu, nigaranlıq yaradır, lakin Allah-Taala yanında şükrü də vardır.

**Həmədan səfərindən bir xatirə**

Bu gün buraya gəlməyə hazırlaşarkən bir xatirə yadıma düşdü. Mənim Həmədana ilk səfərim altmışıncı illərə və təsadüfən, gənclərə aid bir məclisə aiddir. Mən o vaxta qədər Həmədana gəlməmişdim. İndi burada iştirak edən bu cənab Məhəmmədi o zaman bəlkə də 20 yaşlı bir gənc idi. O, Tehrana gəlib məni tapdı. Mən də o zaman təsadüfən, Tehranda idim. Dedi ki, Həmədanda bir qrup gənc toplaşırıq, siz gəlin bizim üçün söhbət edin. İndi bilmirəm ki, məni ona kim tanıtdırmışdı. Soruşdum ki, Həmədana gələndə haraya gedim? Mənə bir ünvan verdi və dedi ki, buraya gəlin. Mən danışdığımız gün getdim, heç yol pulumu da vermədilər. Gedib avtobus bileti aldım, günortadan sonra yola düşdüm. Beş-altı saatdan sonra Həmədana çatdım. Gecə idi. Ünvanı götürüb soruşmağa başladım. Bizə bir xiyabanı göstərdilər. Cənab Seyid Kazım Əkrəminin evi olan bir küçəyə girdik; nazir və millət vəkili olmuş, indi də Allaha şükür olsun ki, Tehranda universitet müəllimi olan cənab Əkrəminin. O, Həmədanda sadə bir müəllim idi, məni gözləyirdi. Bəlli oldu ki, gecə bizim qalacaq yerimiz cənab Əkrəminin evidir. Ertəsi gün məni kiçik bir məscidə apardılar, oraya təxminən 20-30 gənc toplaşmışdı. Hamısı şagird idi. Bu əziz şagird burada çıxış edəndə mən o məclisi xatırladım, gözlərim qarşısında həmin səhnə canlandı. Onlar da bu yaşda idilər. Bir stul qoymuşdular, mən oturub onlarla səmimi və şirin-şirin söhbət etdim. Bir saatdan bir qədər artıq çəkdi. Qalxmaq istəyəndə buraxmadılar, dedilər yenə də oturub danışmalıyıq. Şəbistanda camaat namazı qılındığından, imam gəlməli idi. Onlar stolu və skamyaları tələm-tələsik yığışdırdılar. Məni şəbistanın yuxarısındakı kiçik bir otağa apardılar. Mən daha zaman bilmirdim. Başladım bu gənclərlə söhbət etməyə. Bu mənim Həmədanla ilk tanışlığım idi. O gənclərdən bir neçəsi bu gün bizim əziz ölkəmizin və İslam Respublikası quruluşunun görkəmli və fəal şəxsiyyətlərindəndirlər. Əlbəttə, o zaman Həmədanda indiki qədər gənc yox idi. Mənim o zaman gördüklərim Həmədanın bugünkü gənc əhalisinin mində biri olmazdı. Minlərlə gənc xiyabanda məqsədsiz hərəkət edirdilər, məqsədsiz dərs oxuyurdular, məqsədsiz fəaliyyət göstərirdilər, yeknəsəq işlərə düçar olmuşdular. Hələ Həmədan Darülmöminin idi. Digər şəhərlədə gənclər bəzi istisnaları çıxmaqla, mütləq surətdə laqeyd və məqsədsiz idilər, gələcək mənzərəni dərk etmirdilər; xammal tökülən və o tərəfindən bir məhsul çıxan maşın sayağı.

**Tağut dövründə gənclər**

Bizim ölkəmiz, böyük xalqımız və xüsusən gənc təbəqəmiz, bəzi istisnaları çıxmaq şərtilə, o zaman ümumi olaraq qəflət içində idi. Bu qafillər arasında dindar və təqvalı insanlar da vardı, dinsiz və laqeyd adamlar da. Elələri də vardı ki, günah

adamı deyildilər, pak gənclər idilər, lakin ümumi qəflətdə hamı eyni idi. İranda İslam hərəkatının gördüyü ən böyük iş bu idi ki, biz iranlıları tərpədib qəflət, laqeydlik və etinasızlıq yuxusundan çıxarıb gələcəyə sarı apardı. Sədi Gülüstanında birinci babın ikinci, yaxud üçüncü dastanında bir oğru qrupun hekayəsini danışır. Deyir ki, bunlar bəzi adamlara hücum etmək istəyirdilər, amma onlara qarşı hücuma keçən birinci düşmən yuxu idi. Xarici düşməndən qabaq onların daxilindən bir düşmən onlara qələbə çaldı. Həmin düşmən yuxudan ibarət idi. Biz yuxuda idik, inqilab bizi oyatdı. Mənim özüm Həmədanın 3100 illik tarixini yada salanda qürur duyuram. Həmədan həm də mənim evimdir. Bir şəhər 3100 il ayaqda qalmışdır! İnsan qürur hissi keçirir. Lakin bu, məsələnin bir tərəfidir. Məsələnin başqa bir tərəfi odur ki, simvolu Həmədan olan 3100 illik tarixdə biz İran xalqı ilahi peyğəmbərlərin, ilahi dinlərin insandan istədiyi formada taleyimizə hakim olmuşuqmu?! Özümüzü tanımışıqmı?! Öz gələcəyimiz üçün bir proqram cızmışıqmı?! Bu uzun və qədim tarixin ən yaxşı dövrləri bacarıqlı bir diktatorun hakimiyyətdə olduğu dövrlərdir. O bizim üçün qərar verib, gələcək müəyyənləşdirib, ölkəni böyüdüb. İran xalqı bir toplum olaraq İslam inqilabının qələbəsindən qabaq özünə bir mənzərə tərif etməyə, o mənzərəni seçməyə, onun üçün proqram hazırlamağa və ona doğru hərəkət etməyə macal və imkan tapmadı. Özümüz üçün bir mənzərə tərif etməyincə, heç bir düzgün iş baş tutmaz, hamısı gündəlik işlər olar. Tərif etdikdən sonra proqram hazırlamasaq, proqramsız iş nəticə verməz. Proqram hazırlayandan sonra iradə ilə çalışmasaq, beynimizi, əzələlərimizi və cismimizi əziyyətə salıb yola çıxmasaq, məqsədə çatmarıq. Bunlar vacibdir.

Bir zaman söhbət bir nəfərdən gedir. O, qərar verir və iradə edir ki, qalxsın, hərəkət etsin və qalxıb hərəkət edir. Lakin bir zaman söhbət bir xalqdan gedir. Bir xalq hərəkət etməli, yola çıxmalı, seçim etməlidir. Burada iş mürəkkəb və çətin olur. İnqilab bizə bu bacarığı verdi. Biz tarixin daş-divarını yarıb özümüzü bu çərçivədən və daş hasardan çıxara bildik. İnqilab bununla da kifayətlənməyib bizə bir örnək göstərdi. Bu örnək İslam Respublikasıdır: respublika və İslam.

**Dini demokratiya**

Bu gün bizim irəli sürdüyümüz dini demokratiya məsələsi “İslam Respublikası”nın tərcüməsindən başqa bir şey deyil. Bu gün bəziləri mübaliğəli şəkildə və bəzən də çox insafsızcasına demokratiyadan dəm vururlar. Demokratiya İranda tarixi keçmişə malik bir şey deyil, ümumiyyətlə, olmayıb. Bu həqiqət və bu anlayış İslam Respublikası ilə tərif olundu və həyata keçdi. Əlbəttə, demokratiyanın dairəsini genişləndirmək, keyfiyyətini artırmaq olar. Hər bir şeyi yaxşılaşdırmaq olar; buna şübhə yoxdur. Lakin İslam Respublikasına qarşı insafsızlıq etmək olmaz. İslam Respublikasını inqilab bizə təqdim etdi. Biz anladıq ki, iki məsələ şərtdir: Biri budur ki, xalq qərar verməli, seçməli və hərəkət etməlidir. Bu, respublikadır. Biri də budur ki, bu seçimin və bu hərəkətin məqsəd və amallarını bizim üçün İslam dini təsvir etməlidir. İslamın yerinə başqa bir şey də

ola bilərdi. Məgər dünyada necədir? Siz elə bilirsiniz ki, dünyanın liberal-demokrat respublikalarının məqsəd və amalları yoxdur?! Bəs bu məqsədləri kimlər tərif edirlər? Bunları tərif edənlər bəşəriyyətə ürək yandıran mütəfəkkirlər, humanist insanlardır?! Yoxsa dünya dövlətlərinə və güclərinə hakim olanlar: kartellər, trestlər, oliqarxlar və bu gün ilk növbədə sionistlər?! Əlbəttə, məlum məsələdir ki, bunlar xalqa həqiqi amalları izah etmirlər. Mən dünən, yaxud srağagün görüşlərin birində bir söz dedim, indi də sizə deyirəm. Bu gün beynəlxalq təbliğat bəşəriyyəti aldatmaqdadır. İnsan hüquqlarından dəm vururlar, halbuki bu gün dünyanı idarə edənlər üçün əhəmiyyətli olmayan məsələ elə insan haqlarıdır. Demokratiyadan dəm vururlar, halbuki dünyanın bugünkü liberal-demokrat quruluşlarının tərəfdarları əsla demokrat deyillər. İndi bir ölkədə xalq bir ümidlə onların ardıcıllarından olan bəzi şəxsləri 70, yaxud 80 faiz səslə seçirlər. Bu, başqa məsələdir. Lakin bu gün liberal-demokratiyanın oturuşduğu ölkələrdə, misal üçün, Avropa və ABŞ demokratiyalarında həqiqi demokratiya mövcud deyil. Eyni zamanda, demokratiyadan dəm vurur, bundan ötrü İraqa və Əfqanıstana ordu yeridirlər. Bunlar bu qədər həyasızdırlar. Bunlar bəşəriyyəti aldatmaqdadırlar.

**Bizim həssas mövqeyimiz**

Bu şəraitdə biz elə bir xalqıq ki, əvvəla, çox həssas bir nöqtədə yerləşmişik. Əgər Afrikanın qərbində, yaxud dünyanın ucqar bir küncündə olsaydıq və ya İslam dünyasının mərkəzində olmasaydıq, bizə bu qədər həssaslıq olmazdı. İkincisi də budur ki, biz təbii imkanlar baxımından çox zəngin bir ölkəyik. Neft və qaz məsələsində İranın rolu həlledicidir. Mən bir neçə ay bundan əvvəl quruluşun məsul şəxslərinin toplantısında bunu statistik rəqəmlərlə göstərdim. Neft və qazdan əlavə, biz bu gün dünyanın ən əsas filizlərində, dünyanın əhalisi və sahəsi baxımından öz payımıza nisbətən bir neçə dəfə artıq sərvətə sahibik. Bizdə təxminən dünya əhalisinin yüzdə biri və dünyanın yaşamağa yararlı hissəsinin yüzdə biri mövcuddur. Lakin dörd əsas filizdə iranlıların payı təxminən 3, 4, 5 faizdir, yəni dünya əhalisi və sahəsi baxımından payımızdan bir neçə dəfə artıq. Bizdə əkinçilik potensialları, yaxşı suyumuz var. Düzdür, ölkə ümumi şəkildə sudan bol deyil, lakin bəzi bölgələrdə su ehtiyatımız olduqca çoxdur. Bizim böyük istehlak bazarımız var. Bu gün dünya məhsulları gözlərini istehlak bazarına dikmişlər. Bu sahədə bizim böyük bir bazarımız var, təxminən 70 milyon əhalimiz var. Bizim parlaq istedadlarımız var. Bu da dünyanın istismarçı və hegemon cəbhəsinin diqqətini cəlb edir. İngilislər ilk dəfə neft üçün İrana gəldilər, lakin onlar bilmirdilər ki, neftdən başqa İranda bu qədər sərvət də var. Sonra da amerikalılar gəlib burada yerləşdilər.

**Mənzərə sənədi - xalqımızın istiqlaliyyət yolu**

Bu gün onların əli İrandan kəsilmişdir. Bundan əlavə, biz müstəqillik, özünəinam və böyük güclərin qeyzindən qorxmamaq yolunu davam etdirməyə qərar vermişik. Biz qətiyyətlə inanırıq ki, bacaracağıq. Mən düşmənin ən birinci

ədavətlərinin hədəfi olan bir məsul şəxs kimi, eləcə də ölkə haqqında geniş məlumatı olan, həm potensiallardan, həm təhdidlərdən, həm də düşmənlərin ədavətindən xəbərdar bir insan kimi baxanda deyirəm ki, bacaracağıq. Bu, emosiyalarardan irəli gəlmir, araşdırılmış və düşünülmüş sözdür. Biz bir neçə ay əvvəl qəbul olunub bütün qurumlara göndərilən iyirmiillik mənzərə sənədini bu müddət ərzində həyata keçirə bilərik. Bu da araşdırılıb və ekspert rəyilə təsdiqlənib.

Əziz gənclər, mənzərə sənədini mütaliə edin. Bilin ki, bu, inşa deyil. Mən təkidlə deyirəm ki, onun hər bir sözü düşünülmüş şəkildə yazılmışdır. Biz növbəti iyirmi ildə regionun bu xüsusiyyətlərdə və bu meyarlarda birinci ölkəsi olmaq istədiyimizi deyiriksə, bu dəqiq şəkildə araşdırılmışdır. Biz bacarırıq, lakin bu bacarmağın şərtləri var.

**Gənclər və mənzərə sənədinin həyata keçməsi**

Baxın, mənim əzizlərim! Sizin hamınız mənim övladlarım kimisiniz. Mən siz əziz gənclərin hər birini səmimi-qəlbdən sevirəm və düşünürəm ki, bu məmləkətdə görülməli olan və görülməsi mümkün olan hər bir iş sizin əlinizlə görülməlidir. Əlbəttə, hər bir işin yolu var. İstəyirəm ki, məsələ sizin üçün tam aydın olsun. Biz düşünürük ki, bu mənzərə həyata keçməlidir. Amma hərəkətin proqramını və yolunu tapmaq lazımdır. Bu işlə birbaşa məşğul olan da gənc nəsildir. Biz “bacarırıq” deyiriksə, bu, İslam və Qurana əsaslanan bir təhlildir. İslamda və dini təbirlərdə bir “təqdir” məsələs var və bir də “qəza”. Bunlara bir yerdə qəza və qədər deyirlər. Bizim qəza və qədərə etiqadımız var. Həm qədər haqdır və həm qəza. Bəzən düşünürlər ki, insan qəza və qədərə inansa, insan iradəsini və onun seçim ixtiyarını təsirli hesab edə bilməz. Bu, qəza və qədəri yanlış anlamaqdan doğur. Xeyr, biz həm qəza və qədərə, həm də insanın seçim haqqına etiqad bəsləyirik. Bunlar bir-birini tamamlayır. Mən bir neçə cümlədə bunu izah etmək istəyirəm.

**Qədər və təqdir**

Qədər, yaxud təqdir - ölçmək və təyin etmək deməkdir; yəni dünya qanunlarını müəyyən etmək, səbəb və nəticələri, qanunlar arasındakı əlaqəni anlamaq. Zəhər içən insanın təqdiri ölməkdir. Zəhərin mədədə, qan dövranında və insanın həyat amilləri üzərində təsiri budur ki, onu məhv edib öldürsün. Hündür bir yerdən özünü atan insanın təqdiri parçalanmaqdir. Buradan durub Əlvənd dağının zirvəsinə getməyi qərarlaşdıran bir insan hərəkət etdikdə, onun təqdiri Əlvəndin zirvəsinə çatmaqdır. Səbəb və amilləri Allah-Taala yaratmış, onlara nəticələr bəxş etmişdir.

**Qəza anlayışı**

Siz nəticəli bir amili seçərsiniz, yoxsa seçməzsiniz? Əgər seçsəniz, bu seçimin ardınca gələn təqdir qəza olacaq. Qəza hökm və mütləqlik deməkdir. Qəzanın

mənasında qətiyyət və labüdlük var. Bəzən elə olur ki, siz seçim etmirsiniz. Fərz edin, bir neçə yolayrıcına çatmısınız, meydanın ətrafında bir neçə küçə var. Birinci küçə ilə hərəkət edən insanın təqdiri bir yerə çatmadır, ikinci küçə ilə hərəkət edənin təqdiri isə başqa bir yerə. Üçüncü, dördüncü, beşinci və altıncı küçələrdən hərəkət edənlərin təqdiri bu küçələrin sona çatdığı yerlərə çatmaqdır. Əgər siz meydandan heç bir küçəyə keçmək istəməsəniz, bu təqdirlər reallaşa bilərmi?! Xeyr! Siz bu məqsədlərə çatmamağı seçmisiniz, buna görə də çatmırsınız. Əgər birinci küçəni seçsəniz, qərar versəniz və öz qüvvələrinizi işə salıb getsəniz, o nəticəyə çatarsınız. Sizin qəzanız, yəni labüd hökmünüz budur ki, o məqsədə çatasınız. Hər bir təqdiri qəzaya çevirən amil sizin iradənizdir. Təqdir cızılmışdır, amma bu təqdir labüd deyil. Siz öz iradəniz, zəhmətiniz və addımınızla onu qaçılmaz edirsiniz.

O zaman bu təqdirin nəticələrini də qəbul etmək, onlara qatlanmaq lazımdır. Misal üçün, biz iki yolayrıcına çatmışıq, yolun biri bizi mənzilə çatdırır, biri isə bataqlığa və qorxulu yerə. Bu iki təqdir sizin qarşınızdadır. Siz bu iki təqdirdən birini seçməlisiniz. Əgər birinci yolu seçsəniz və yolun ortasında yorulub fikrinizdən dönməsəniz, iradəniz qırılmasa, gücünüz tükənməsə, qəzanız budur ki, oraya çatasınız. Amma əgər əksinə, ikinci yolu seçsəniz, yolun ortasında da özünüzə gəlməsəniz, ayılmasanız, tövbə etməsəniz, bu yoldan qayıtmasanız və onu davam etdirsəniz, əlbəttə ki, həmin bataqlığa və qorxulu yerə çatacaqsınız. Seçən sizin özünüzsünüz. Əlbəttə, burada bir mənəvi amil də var, sonra ona toxunacaq və üzərində dayanacağam.

**Qarşımızda iki yol**

Bu gün bizim qarşımızda iki yol var: Biri budur ki, yorulaq; necə ki, indi bəzi qələm sahibləri - böyük ehtimalla onların bəzisi muzdlu qələm sahibidirlər, müəyyən fikirləri yazmaq üçün pul alırlar - elə yazır və danışırlar ki, elə bil İran xalqı, siz gənc nəsil avara-sərgərdansınız. Çünki dünyanın hegemon gücləri ilə mübarizə aparırsınız, müqavimət göstərirsiniz. Axı siz bacarmazsınız. Əgər nüvə enerjisinə sahib olmaq, sentrifuq aparatlarını işlətmək, elmi imkanlara malik olmaq, dünyanın casus şəbəkələrinin qəzet və radiolarının sizin əleyhinizə təxribat aparmamasını istəyirsinizsə, gedin ABŞ-a, yaxud daha düzgün desək, qlobal hegemonizmə təslim olun, onların torpaqlarını öpün. Düzdür, bunlar çox azdırlar, amma təəssüf ki, mövcuddurlar. Bunlar inandırmaq istəyirlər ki, iranlı üçün başağrısı və nigaranlığı azaltmağın yolu təslim olmaqdır. Təslim olmaq nə deməkdir? Yəni siz bu coğrafi mövqeyi, bu iqlimi, bu mədəni imkanları, bu qədim keçmişi və bu ölkədə olan böyük insan kapitalını dünyagirlikdə, hegemonluqda və ekspansionizmdə heç bir hədlə qane olmayan şəxslərə ikiəlli təqdim edin. Başqa bir yol da budur ki, xeyr, İran xalqı heç bir günah etməmişdir. O öz düşüncəsi, iradəsi, seçimi və kimliyi ilə yaşamaq istəyir. Amallarını özü təyin etmək, o amallara çatmaq üçün öz ayağı üstə və öz qüvvəsi ilə çalışmaq istəyir.

**Keçmiş padşahların günahı**

Nə üçün İran, necə deyərlər, inkişaf etməkdə olan, yəni inkişaf etməmiş ölkələrin sırasında olmalıdır? "İnkişaf etməkdə olan" ifadəsi kompliment xarakterli bir ifadədir, əslində, geriqalmış və inkişaf etməmiş deməkdir. Məgər bizim zehnimiz, istedadımız və düşüncə qüvvəmiz bu gün 200 ildir elm dünyasında öncül olanlardan azdır?! Görürsünüz ki, az deyil. Onlar elm baxımından bizdən 200 il irəlidədirlər. Bu, padşahların, diktatorların, bu ölkədə hökmranlıq etmiş mənfur sülalələrin, Pəhləvi xanədanının günahıdır. Bu gün mənim və sizin malik olduğumuz və bu ölkədə hakim olmalı hissi bir gün boğdular. Nə üçün boğdular? Çünki ölkənin başçıları onun belə hərəkət və inkişaf etməsini istəməyən güclərin əlaltıları idilər. Onlar da sərvət qaynaqlarını əldən vermək istəmirdilər. Əgər ev yiyəsi oyaq olsa, oğru evin əşyalarını onun gözü qarşısında toplayıb apara bilməz; ya gərək ev sahibini yatızdırsınlar, ya da əl-ayağını bağlasınlar. Çünki oyaq və əl-ayağı açıq olsa, qüvvəsi də olsa, məgər oğruya imkan verər?! İranlının yuxuda olmasını, əl-ayağının bağlı olmasını, öz təbii sərvətlərini əldə etmək üçün hərəkət etməməsini istəyən şəxslər gəlib bəzi şəxsləri bu məmləkətin başına qoydular. Rza xanı ingilislər gətirdilər, Məhəmmədrzanı İngiltərə və ABŞ birliyi bu məmləkətin başına gətirdi. Dünyanın ən parlaq imkanları dövründə onlar bu məmləkəti əlli ildən artıq saxlayıb gecikdirdilər. Təkcə siyasi və təhlükəsizlik baxımından yox, hətta elmi-mədəni baxımdan da bizi geridə saxladılar.

**Daha böyük mədəni hücum**

Mən "mədəni hücum" deyəndə bəziləri elə bilirlər məqsədim budur ki, məsələn, oğlan saçını filan qədər uzadıb. Elə bilirlər mən uzun saça qarşıyam. Mədəni hücum bu deyil. Daha böyük mədəni hücum budur: onlar uzun illər beynimizə yeridiblər ki, sən bacarmırsan, Qərbin və Avropanın arxasınca getməlisən. Uzun illər bizi özümüzə inanmağa qoymayıblar.

**Vahiməyə düşmüş qərbpərəstlər**

Siz bu gün humanitar elmlərdə, təbiət elmlərində, fizikada, riyaziyyatda və ya başqa bir sahədə dünyanın məşhur nəzəriyyələrinin ziddinə bir nəzəriyyə irəli sürsəniz, bəziləri ona qarşı çıxıb deyəcəklər ki, sizin iqtisadiyyatda filan sözünüz filan nəzəriyyənin ziddinədir; psixologiyadakı sözünüz filankəsin nəzəriyyəsinə müxalifdir. Yəni bunlar bir avropalı alimin fikirlərinə möminlərin Qurana və ilahi vəhyə inandığı kimi, hətta ondan da çox inanırlar. Maraqlıdır ki, bəzən bu nəzəriyyələr köhnəlib sıradan çıxır, yerinə yeni nəzəriyyələr gəlir, amma bunlar 50 il qabaqkı nəzəriyyələri müqəddəs mətn kimi qoruyub saxlayırlar. On illərdir Popperin siyasi və ictimai nəzəriyyələri köhnəlib qüvvədən düşüb, Avropada onun əleyhinə onlarla kitab yazılıb. Amma son zamanlar bəziləri peyda olub fəlsəfi dərk iddiası ilə onun nəzəriyyələrini yaymağa başlayıblar. Uzun illərdir dünyanın iqtisadi mərkəzlərinə hakim olan nəzəriyyələr qüvvədən düşmüş və yeni fikirlər otraya çıxmışdır. Amma indi də bəziləri iqtisadi layihələr həyata keçirmək istəyəndə

köhnəlmiş nəzəriyyələrə baxırlar. Bunların iki eybi var: biri budur ki, təqlid edirlər, ikincisi budur ki, yeniliklərdən xəbərsizdirlər. Vaxtilə onlar üçün tədris olunan bir mətni müqəddəs kitab kimi beyinlərində saxlayıblar və indi bizim cavanlarımıza öyrədirlər. Bizim ölkəmiz fəlsəfənin beşiyidir, amma onlar fəlsəfəni düşünmək üşün başqalarına müraciət edirlər.

**Həmədan İslam dövründə**

Mən Həmədan şəhərinin İslam dövründən xəbərdaram. İslamdan qabaqkı dövrdən çox da xəbərim yoxdur, yəni heç kimin xəbəri yoxdur. Bizim fəlsəfə və üsul kitablarımızda İbn Sinanın bu şəhərdə fəlsəfə, tibb, həndəsə, riyaziyyat və digər elm və incəsənət sahələrində ən üstün nəzəriyyələri yazıb-yaratdığı, öyrətdiyi dövrdə həmədanlı bir kişidən söhbət açılır. Bu həmədanlı kişinin məntiq, fəlsəfə və üsul elmlərində nəzəriyyələri var. İbn Sina Həmədana gəlib bu kişi ilə görüşəndə onun barəsində deyir: "O, çox yaxşı və çoxlu üstün cəhətlərə malik bir kişi idi". Barəsində deyilən sözlərdən bəlli olur ki, bu kişi min il əvvəl həndəsə, fəlsəfə və məntiqdə mütəxəssis imiş. Min il bundan əvvəl, hicri tarixi ilə dördüncü, miladi tarixi ilə onuncu əsrdə. Onuncu əsr hansı zamandır? Dünyanın məşhur Orta əsrlərinin ortası. Eşitdiyiniz Orta əsrlər Avropaya aiddir, İrana yox. Avropada Orta əsrlərin qaranlıq, zülmət və cəhalət tərənnümü olduğu gün Həmədanda İbn Sina və həmədanlı kişi vardı. Bir müddətdən sonra Rəşidüddin Fəzlullah vardı, Baba Tahir vardı, böyük alimlər vardı. Bunlar bizim elmi və mədəni keçmişimizə dair sənədlərdir. Biz nə üçün bacarmadığımızı düşünməliyik?! Bəli, bizi inkişaf etməyə qoymayıblar. Həqiqət budur ki, biz dünya elmindən 200 il geri qalmışıq. Amma elmin sərhədlərinə çatmaq o demək deyil ki, avropalıların iki yüz ilə getdikləri yolu biz də iki yüz ilə gedək, sonra onların bu gün çatdıqları yerə çataq. Yox, belə deyil, biz kəsə yollar tapmalıyıq. Biz elmi birinciliyi avropalılardan almalıyıq. Biz öyrənməyə utanmırıq. İslam deyir ki, dünyada bir neçə qrup var. Onların biri bilmədiklərini öyrənmək fikrində olanlar, öyrənməyə utanmayanlardır. Biz bu gün bəşər beyninin, ağlının və istedadının nəticəsi olan elmləri öyrənirik. Bilmədiklərimizi böyük məmnuniyyətlə öyrənirik, müəllimlərimizə hörmət də edirik; bizə elm öyrədənlərə hörmətsizlik etmirik. Amma ayrısından elm öyrənmək həmişə şagird qalmaq mənasında başa düşülməməlidir. Biz bu gün şagirdik, sabah onların müəllimi olacağıq. Necə ki, onlar bir gün bizim şagirdimiz idilər, amma indi müəllimimiz olmuşlar.

Qərblilər elmi bizdən öyrəndilər. Siz Pier Russonun Elmlər tarixi kitabına baxın: Dörd-beş əsr öncə bir tacir Avropa ölkələrindən birində bir müəllimə müraciət edir, deyir ki, istəyirəm övladım dərs oxusun, onu hansı məktəbə yollayım? Müəllim cavab verir ki, əgər dörd riyazi əməllə - toplama, vurma, çıxma və bölmə ilə kifayətlənirsənsə, onu bizim, yaxud digər bir Avropa ölkəsinin istənilən məktəbinə yolla, amma bundan artığını istəyirsənsə, onu Andalusa, yaxud müsəlmanlar yaşayan başqa bir bölgəyə göndərməlisən. Bunu Pier Russo yazır, mənim sözüm deyil.

Xaç yürüşləri bu sahədə onlara kömək etdi. Onlar bizdən öyrəndilər. Onların alimlərinin bu bölgələrə səfərləri bizdən öyrənmələrinə səbəb oldu. Həmçinin bizim alimlərimizin səfərləri və kitablarımızın aparılması onlara böyük kömək göstərdi. Bir gün onlar bizdən öyrəndilər, bizim şagirdimiz oldular, sonra isə bizə müəllimlik etdilər. İndi də biz onlardan öyrənirik, onların şagirdi oluruq və sonra onlara müəllimlik edəcəyik. Buna görə ölkəmizin tələbə, tədqiqatçı və alim nəsli bilsin ki, bu gün elmi üstünlük qərblilərdədir, amma sizin əmək və iradəniz sayəsində yaxın gələcəkdə onu sizdən öyrənə bilərlər.

**Elm sərhədlərini yarmaq**

Elmin sərhədlərini yarın. "Proqramlaşdırma hərəkatı" dedikdə mənim siz gənc və müəllimlərdən gözlədiyim budur. Elmi istehsal edin, elmin sərhədlərinə sarı gedin, fikirləşin, işləyin. İş və fəaliyyətlə elmin bugünkü sərhədlərindən keçmək olar; bəzi fənlərdə tez, bəzi fənlərdə isə gec. Texnologiya da belədir. Elm texnologiyanın inkişafına hesablanmalıdır. Texnologiya da çox əhəmiyyətli və yüksək mərhələdir. Biz texnologiyada da inkişaf edə bilərik; necə ki, inkişaf etmişik.

**Kök hüceyrələr vasitəsilə texnologiya**

Bilməniz yaxşıdır ki, ölkəmizdə elmin çox həssas sahələrinin bəzisində hələ dünyada analoqu olmayan işlər görülmüşdür. Mən bir müddət öncə dedim ki, Tehranda sizin kimi bir qrup gənc kök hüceyrələrin istehsalı texnologiyası üzərində işləyir. Bunlar iradə ilə çalışdılar, gedib başqalarından öyrəndilər, özləri də fikirləşdilər, düşüncə baxımından zəhmət çəkdilər və nəticədə kök hüceyrələrin istehsalının, dondurulmasının, qorunmasının və əkilməsinin sirrini əldə etdilər. Bu gün bunlar ilk dəfə olaraq İranda insulin düzəldən kök hüceyrələr istehsal etmişlər. Bu hələ dünyada istehsal olunmamışdır.

**Elmdə şagirdiliyin mənası**

Deməli, şagirdlik etmək əvvəla, şagird qalmaq demək deyil. Biz həmişə şagird qalmağı düşünməməliyik. Xeyr! Çalışın, görəcəksiniz ki, onlar sizdən öyrənməyə məcbur olacaqlar. İkinci tərəfdən, elmdə şagirdlik etmək mədəniyyətdə təqlidçilik etmək demək deyil. Bu, çox əhəmiyyətli məsələdir. Qacarlar dövründə Qərb mədəniyyətinin nümunələri ilk dəfə olaraq ölkəyə daxil oldu. Avropalılarla əlaqə quran birinci təbəqə olan ozamankı əyan-əşrafın və saray iranlılarının öyrəndikləri ilk məsələ elm deyildi, onların adət-ənənələrini, rəftarını və davranış tərzlərini öyrəndilər. Səhv və yanlış xətt oradan başladı. Bəziləri belə düşünürlər ki, qərblilər elmi cəhətdən bizdən üstün olduqlarına görə, biz mədəniyyəti, inancları, həyat tərzini, ictimai və siyasi münasibətləri də onlardan öyrənməliyik. Bu, düzgün deyil. Əgər çox gözəl və sevdiyiniz bir müəllim sizə dərs verirsə, bu o deməkdir ki, onun xoşu gəlsin deyə, mütləq onun paltarı rəngində paltar geyinməlisiniz?! Əgər bu müəllimin pis bir adəti varsa, siz də bu adəti ondan

öyrənməlisiniz?! Məsələn, müəllim dərsin ortasında əlini burnuna salırsa, siz ondan elm öyrənirsiniz deyə, bu işini də yamsılamalısınız?!

Avropalıların səhv işləri və çirkin hərəkətləri olduqca çoxdur. Nəyə görə bunları öyrənməliyik?! Qərblilərin elminə ürəkdən məftun olan bir nəfər deyirdi ki, biz təpədən dırnağa qədər qərbləşməliyik. Niyə? Biz iranlıyıq, iranlı da qalmalıyıq; müsəlmanıq, müsəlman da qalmalıyıq. Onların elmi bizdən çoxdursa, eybi yox, biz gedib onlardan elm öyrənərik. Nəyə görə adət-ənənələri, mədəniyyət və rəftarları da onlardan öyrənək?! Bu, çox yanlış məntiqdir. Onlar hər hansı bir səbəbə görə qalstuk adlı bir şeyi boyunlarına dolayırlar. Biz onları bu işə görə qınamırıq, qalstuk onlarındır. Amma biz də onları yamsılamalıyıqmı?! Bu iş üçün bizim məntiqimiz nədir?! Biz nə üçün onların geyimlərini, rəftarlarını, davranış və danışıq tərzlərini və hətta ləhcələrini yamsılamalıyıq?! Mən bəzən televiziyada bizim müxbirimizin dünyanın hansısa nöqtəsindən farsca bir reportaj verdiyini izləyirəm. O, farsca elə danışır ki, elə bil bir ingilis fars dilində danışır. Bu, milli qürurun zəifliyindən və həqarət hissindən doğur. Mən nə üçün iranlı olduğumdan ötrü həqarət hissi keçirməliyəm?! Mən öz mədəniyyətimlə, vətənimlə, ölkəmlə, tariximlə fəxr edirəm. Nə üçün onları yamsılamalıyam?! Onları yamsılamağa səbəb yoxdur. Onların elmi çoxdur, çox yaxşı, biz elmi onlardan öyrənərik. Bunun üçün pul lazım olsa, onu da ödəyərik. Təsadüfən, onlar elmi pula dəyişməyi öyrəniblər. Bu gün qərblilər üçün ən çox əhəmiyyətli olan puldur, İslamda isə belə deyil. İslamda elmin özü şərəflidir. Onlara görə isə elm pula çevrilə bildiyi üçün dəyərlidir. Elə elm qiymətlidir ki, onunla dollar, yaxud funt qazanmaq mümkün olsun. Biz onların bu vəziyyətindən istifadə edərik və elmlərini onlardan satın alarıq, xərcini də ödəyərik, lakin heç kəsi yamsılamarıq; bunu etməməliyik. Bu mənim siz gənclərə sözümdür. Düzdür, bu sözləri demək asandır, lakin əməl etmək bu qədər asan deyil. Bizim işimiz buna görə çətindir.

**Mədəni təqlid - böyük təhlükə**

İki məqama toxunub söhbətimi bitirirəm. Mədəni təqlid məsələsinə işarə vurdum. Əlbəttə, mədəni təqlid çox böyük bir təhlükədir, amma bu, mənim yaşayış üslublarında moda ilə, rəngarəngliklə, dəyişikliklə müxalif olduğum kimi səhv anlaşılmasın. Xeyr, modaya və yeniliyə təmayül ifrat həddinə çatmasa, bir-biri ilə bəhs edən uşaqların rəqabəti kimi olmasa, eybi yoxdur. Geyim, rəftar və bəzənmə dəyişilir, bunun eybi yoxdur, lakin ehtiyatlı olun ki, bu təmayülün qiblənüması Avropa səmtinə olmasın. Bu, pisdir. Əgər jurnallarda moda göstərən Avropa və ABŞ manekenləri öz kişiləri, yaxud qadınları üçün hansısa geyim tərzini göstərsələr, biz burada - Həmədanda, Tehranda, yaxud Məşhəddə onlara təqlid etməliyik?! Bu, pisdir, özünüz hazırlayın və özünüz təqdim edin.

**Milli geyim məsələsi**

Mən prezidentlik dövrümdə Mədəni İnilab Ali Şurasında milli geyim məsələsini qaldırdım və dedim ki, gəlin bir milli geyim hazırlayaq. Hər halda, bizim

milli geyimimiz pencək-şalvar deyil. Əlbəttə, mən pencək-şalvarlara qarşı deyiləm, özüm də bəzi vaxtlar, yüksəkliklərdə və digər yerlərdə kurtka geyinirəm. Bunun eybi yoxdur, amma hər halda, milli geyimimiz deyil. Ərəblərin öz milli geyimləri var, hindlilərin öz milli geyimləri var, indoneziyalıların öz milli geyimləri var, müxtəlif şərq ölkələrinin öz milli geyimləri var, afrikalıların milli geyimləri var və beynəlxalq toplantılarda hər kəs öz milli geyimini geyinir, bununla qürur duyur. Biz bir yerdə milli geyimi kimi yubka geyinmiş bir prezident gördük. Yekə kişi yubka geyinmişdi, ayaqları da açıq idi. Təxminən dizə qədər olan bir yubka geyinmişdi və əsla həqarət hissi keçirmirdi. Tam fəxrlə o məclisdə iştirak edirdi, gəlirdi, gedirdi və oturúrdu. Bu onun milli geyimidir. Eybi də yoxdur. Ərəblər fəxrlə öz milli geyimlərini geyinirlər – uzun ləbbadə, şal və qalın ip. Bunun mənim və sizin baxışımızda heç bir məntiqi olmaya da bilər, amma onların geyimidir və onu sevirlər. İranlı olan mənim və sizin geyimimiz nədir? Siz bilmirsiniz bizim geyimimiz nədir. Əlbəttə, mən demirəm ki, bu geyim tərzi 500 il bundan qabaqkı kimi olmalıdır. Əsla. Mən deyirəm ki, oturun özünüz üçün bir paltar hazırlayın. Əlbəttə, indi bunu sizdən istəmirəm. Bunu Mədəni İnqilab Ali Şurasında dedim. O zaman biz hökumətin bir hissəsinə bu işlə məşğul olmağı tapşırdıq. Bəzi işlər də gördülər, lakin bir yerə çatmadı. Bizim prezidentlik dövrümüz də bitdi. Mən demək istəyirəm ki, siz saç düzümünüzü əvəzləmək, yaxşı paltar geyinmək, öz yerişinizi dəyişmək istəyirsinizsə, edin, amma özünüz edin, başqalarından öyrənməyin.

**Modanı yamsılamaq haqda bir xatirə**

Təqribən 30-40 il bundan əvvəl Qərb ölkələrində və ən çox Amerikada bir qrup cavan ictimai şəraitdən bezib bəzi hərəkətlərə başladılar. Bu hərəkətlər günümüzədək davam edir. Bizim dövrümüzdə beləlləri çox qəribə görkəmdə və bu gün bütün dünyada məşhur olan Pop musiqisinə bənzər bir musiqidə özlərini göstərirdilər. Mən inqilabdan sonra Əlcəzairə getdim. Bizim maşınımız küçədən keçirdi. Bir dəfə gördüm cavan bir oğlan saçının yarısını qırxdırıb, yarısını isə saxlayıb. Mən çox baxdım, gördüm ki, bu formada heç bir gözəllik yoxdur. Aydın idi ki, o, başqalarını yamsılayıb. Ümumiyyətlə, Əlcəzairdə sənayenin və texniki istehsal alətlərinin ictimai həyata təzyiqi o həddə deyil ki, bir cavan ABŞ-da, İngiltərədə, yaxud başqa bir yerdəki kimi hərəkət etsin. O, bunu kimdənsə görüb götürmüşdü. Mən belə məsələlərə qarşıyam və bizim cavanımızın belə hərəkət etməsini, oğlan və qızlarımızın başqalarını yamsılamasını istəmirəm.

**Təqdir və ilahi hidayətin rolu**

Demək istədiyim ikinci məqam budur: Dedik ki, təqdir yolunu seçməkdə seçim sizinlədir. Buna şübhə yoxdur. Amma Allahın hidayət və yardımının rolunu da mütləq nəzərə almaq lazımdır. Bəzən siz bir işi yerinə yetirməyə yorulursunuz, Allah-Taaladan güc istəyirsiniz, Allah-Taala da güc bağışlayır və siz işinizi davam etdirirsiniz. Bəzən bir seçimdə problemlə rastlaşır, Allah-Taaladan hidayət və yardım diləyirsiniz, O da sizi hidayət edir. Biri də var ki, belə bir şəraitdə Allahdan

güc istəmir, güc də əldə edə bilmir. Allahdan hidayət istəmir və hidayətdən kənarda qalır. Aləmlərin Rəbbi bizə buyurub ki, Məndən istəyin; hidayət istəyin, kömək istəyin, yardım diləyin. Mən xüsusən cavanlara deyirəm ki, Allahla rabitənizi möhkəmləndirin, duanın və Allaha yalvarmağın rolunu bilin. Duanın mənası bu deyil ki, siz Allahdan istəyə və sonra oturub düşünməyəsiniz. Xeyr, Allahdan istəyin ki, hərəkət etdiyiniz zaman hərəkətdə, seçim etdiyiniz zaman düzgün seçimdə sizə kömək etsin. Allahdan istəyin ki, məsələ qaranlıq və şübhəlidirsə, haqla batili ayırd etməkdə sizə yardım etsin.

İlahi! Öz rəhmətini, hidayətini, yardımını və lütfünü bu məclisin iştirakçılarının hər birinə nəsib et!

Allahın salamı və rəhməti olsun sizə!

## İslam oyanışı və gənclər[24]

Bismillahir-Rəhmanir-Rəhim.

Əvvəla, siz əziz gənclərə - elmi, inqilabi, mənəvi və dini fəaliyyətin gözəl və təsirli bir görünüş yaratdığı nurlu insanlara xoşgəldin deyir, təşəkkür edirəm. Həmçinin möhtərəm müəllimlərə, bu elmi və mənəvi layihəni hazırlayanlara xoşgəldin deyirəm. Mən bu layihənin və bu kursların müəllimlərinə demək istəyirəm ki, bizim dövrümüzdə ən gözəl işlərdən biri məhz sizin öhdənizə götürdüyünüz və bir neçə ildir əziyyətini çəkdiyiniz bu işdir.

**Əmirəlmöminin - əzəmətin zirvəsi**

Əmirəlmömininin doğum günü münasibətilə təbrik, əslində, bəşər tarixinin möhtəşəm bir hadisəsi münasibətilə təbrikdir. O əzəməti və böyük zirvəni əsrlər arxasından məchul şəkildə olsa belə, müşahidə və hiss edən hər bir insanı belə böyük hadisə münasibətilə təbrik etmək lazımdır. Bu gün də azad, ağıllı, insan məqamının və insan dəyərlərinin tərəfdarı olanlar doğrudan da bir-birini təbrik etməlidirlər ki, bu böyük tarixdə Əli ibn Əbu Talib (ə) kimi bir insan yaşamışdır.

**İmam Əlinin məqbərəsinin mənəviyyatının ABŞ-a qeyzi**

Mən hiss edirəm ki, bu il Əmirəlmömininin doğum gününün sevinci digər zamanlardan daha həyəcanlı və daha fəal keçir. Bunun səbəbi işğalçıların o həzrətin nurlu məqbərəsinə qarşı etdikləri mənfur hörmətsizlikdir. Əslində, bu parlaq simanın tarixi məzlumluğu bu həftələrdə və son ayda bir daha əyan oldu. Mənəvi və uca insani dəyərlər baxımından tamamilə başsız-ayaqsız olanlar Əmirəlmömininin məqbərəsinə tökülüşüb o həzrətin pak məqbərəsini və Nəcəf-əşrəf qalasını öz ədəbsizlikləri və qanmazlıqları ilə tapdadılar və əlbəttə ki, məğlub oldular. Bu da bizim dövrümüzün qəribə hadisələrindən biridir. Hərbi qüvvə, zirehli tanklar, modern hərbi texnikalar bu məkanın mənəviyyatına məğlub oldular. Bu, bir həqiqətdir; istər amerikalılar etiraf etsinlər, istər etməsinlər. Onlar şəxslərə məğlub olmadılar, böyük mənəvi heybətə məğlub oldular və bir iş görə bilmədilər. Hər halda, günlər, dövrlər, zamanlar ötür, lakin əsl dəyərlər cəmiyyətdə möhkəm qalır, tarixdə yaşayır. Bunların biri Əmirəlmöminindir.

**Əmirəlmömininі tanımaq**

Bu gün gənclərin bu elm mənbəyi ilə əlaqələrini daha da artırmaları yaxşı olar. Təkcə mənəvi təvəssül baxımından yox, həm də elmi görüş və məlumat

---

[24] Vilayət layihəsində iştirak edən tələbələrlə və Tələbə Bəsicinin rəhbərləri ilə görüşdə çıxışı: 31 avqust 2004.

baxımından Əmirəlmöminin bizim cəmiyyətimizdə bir haqsevər, xalqdan olan, qorxmaz, təvazökar, güclü və məzlum hakim kimi tanınmışdır. Lakin bunlar tarixin bu qocaman və böyük insanının həyatının son beş ilinə aiddir. Əmirəlmömininin həyatının əsas dövrü onun gənclik çağıdır. Bu dövrün hər anı və hər günü bizim gənclərimiz üçün örnək ola bilər.

**Əmirəlmömininin fəzilətləri**

Ucqar bir nöqtədə, cahiliyyət Məkkəsi kimi kiçik və əkinçiliyə yararsız bir cəmiyyətdə güclü qlobal dəyişikliyin başlanğıcı olan böyük bir inqilab baş verir. Bu sözün və bu hərəkatın dərinliyini dərk edən kimdir? Bəziləri iman gətirirlər, çünki bu risalətin sözü onların ürəyinin sözüdür. Qullar və məzlumlar görürlər ki, bu xilaskar hərəkat onların ürək sözlərini, qəm-qüssələri və boğazlarında qalmış qəhərləri tərcümə edir. Onlar iman gətirirlər. Allah-Taala da onlara yardım edir və mənəviyyat nurunu onların qəlbinə saçır. Peyğəmbərin dəvətinin əvvəllərində iman gətirənlərin əksəriyyəti belə idi. Lakin nübüvvət məntiqinin mənəvi damlalarının, işığının və möhkəmliyinin cəlb etdiyi azsaylı insanlar da vardı. Onların birincisi Əmirəlmöminindir. Bu yeniyetmə sözün haqq olduğunu dərk edir və Peyğəmbərə iman gətirir; hələ heç kəsin və heç bir kişinin bu sözü eşitmədəyi, tanımadığı və iman gətirmədiyi bir zamanda. Həqiqəti tanımaqda bu öncüllük, bu müqəddəs varlığın Allaha və İslama imanında birinci gözəllikdir. O bütün vücudi ilə bu imanın arxasında dayanır. Döyülmək, yaxud çətinliklərə dözmək və ya mübarizə aparmaq hərtərəfli bir cihadın mühüm sahələri deyil, daha mühüm sahələri məhəbbətdən məhrum olmaq, xalqın gözündə hörmətdən düşmək, təhqirə məruz qalmaqdır. Çoxları cihada gedir, vurur, vurulur və bəzən də bu yolda canlarını verirlər, lakin təhqir olunmağa taqətləri çatmır. Bu onların zəif cəhətləridir. Əziz peyğəmbərin özü və ikinci növbədə Əmirəlmöminin bu sahədə də öncüllüyün son həddini göstərən şəxslər idilər. Təhqir olundular, amma geri çəkilmədilər; inkar olundular, amma inkarlar onların möhkəm iradəsini əsla sarsıda bilmədi, müqavimət göstərdilər. Nəhayət, çox ağır zəhmətlərə ehtiyacı olan bu yeni ağac kök atdı, inkişaf etdi. Bütün bu hadisələr Əmirəlmömininin gənclik dövründə baş vermişdir.

**Dəyərli gənclik fürsəti**

Məkkədə mötəbər bir ailəyə mənsub olan, hörmətli atası, babası və əmiləri olan, fiziki cəhətdən güclü və qorxmaz olan bu gənc çox yüksək mövqe əldə edə bilərdi, lakin bütün bu imtiyazlara göz yumdu, hərəkata qoşuldu, bu yeni təfəkkürün, yeni yolun inkişafına kömək göstərdi, Peyğəmbər məktəbinin nurlu elm bulağında öz vücudunu zərrə-zərrə suvardı. Allah-Taala da buna görə ona yardım etdi, lütf etdi və oldu Əli ibn Əbu Talib (ə). Bu gün uzun əsrlər arxasından, hər yerdən o uca zirvəni müşahidə etmək mümkündür. Əmirəlmöminin nə etdisə, öz yeniyetməlik və gənclik dövründə etdi. Sizə deyim ki, hamı belədir. Öz insani və düşüncə şəxsiyyətinizin, kimliyinizin əzəməti və ucalığı üçün görəcəyiniz hər bir işi

gənclikdə görməlisiniz. Gənclikdə elm, ibadət, təfəkkür, mücahidlik, təqva və zahidlik, uçurumlardan uzaqlaşmaq bir insanın şəxsiyyətini ucaldır, kamala çatdırır və ömür boyu onu çoxlu dəyərlərin və qiymətli fikirlərin mənşəyi edir. Gənclik dövrünün belə bir xüsusiyyəti var. Peyğəmbərlə dəvət etdi, Peyğəmbərlə cihad etdi, Peyğəmbərlə təhqir və hörmətsizlik gördü, Peyğəmbərlə müqavimət göstərdi və ən çətin zamanlarda öz canını, varlığını, hörmətini, qüvvəsini və fiziki gücünü bu təfəkkür və bu yeni yola xidmətə sərf etdi. Beləliklə oldu Əmirəlmöminin. Bu yol bütün gənclərə açıqdır. Belə deyil ki, bütün gənclər Əmirəlmöminin ola bilərlər. Xeyr, başqa şərtlər də toplaşmalıdır ki, bəşər tarixində belə bir insan meydana çıxsın. O, zirvədir. Bu zirvəyə sarı yol hamının üzünə açıqdır.

**Hegemonizm modeli**

İslam ədalət yaratmaq üçün gəldi və bu gün də İslam Respublikasının hərəkəti və məqsədi ədalətdən ötrüdür. Bu gün bizim siyasi leksikonumuzda və onun ardınca dünyanın siyasi leksikonunda mövcud olan hegemonizm sözü nə deməkdir? Hegemonizm - tarix boyu bəşərin yaxasını tutmuş bəladır. Yəni güclü və qüdrətli olan məqsədsiz bir qrup insanların yaxasını tutur, onlara hökmranlıq edir, onların varlığını, sərvətini və təbii hüququnu görməzdən gəlir və onlardan öz maraqları üçün istifadə edir.

**İslam oyanışı**

Bu gün dünyada hegemon quruluşun qeyri-bərabər üstünlüyündən əziyyət çəkən hər bir xalq sizin nə üçün mübarizə apardığınızı və İslam Respublikasının sözünün nə olduğunu bilsə, potensial, bəziləri də aktual olaraq İslam Respublikasının əsgərlərindən birinə çevriləcək. Bu bir həqiqətdir ki, dünyada İslam oyanışı başlanmışdır, bunu inkar etmək olmaz. İslam dünyasında, elm adamları və hətta bəzən adi xalq arasında İslam kimliyinə və İslam təfəkkürünə yeni baxış, İslam izzətinə təmayül, xalqların və insanların hüququnun bərpa edilməsi üçün İslam təlimlərinə diqqət yaranmışdır. Bu hərəkət elə hərəkətlərdən deyil ki, bir xalqda yarandıqda onu asanlıqla məhv etmək olsun. Xeyr, bu, xalqlarda günbəgün dərinləşəcək. Xalqların arasında bu oyanışı, bu yenilik istəyini və İslam şəxsiyyəti ilə başucalığı hissini məhv etmək hegemonizm üçün çox çətindir.

**Oyanışın mənbəyi**

Bu gün İslam dünyasında yaranmış bu hərəkatın mənbəyi İranda böyük İslam hərəkatı və İslam Respublikası dövlətinin qurulmasıdır. Bunun aşkar həqiqətləri imamın sözləri, onun xətti və yolu idi. Bu sözlər dünyada haraya getdisə, deyənin kimliyi bilinmədən haqsevər insanların könlünü oxşadı. Bu söz və şüarların ardınca imamın adı xalqın ürəyində yer açdı. Nəhayət, imamın sayəsində bu hərəkat hər yerdə tanındı.

Biz zaman dünyanın hegemon gücləri - ABŞ, İngiltərə, Keçmiş Sovetlər, onlardan da öncə Fransa, Hollandiya, Portuqaliya və digər ölkələr İslam ölkələrinə girmək istəyəndə İslam kimliyi, İslam ümməti və İslam şəxsiyyəti adlı bir şey onların qarşısını almırdı. Bu gün İslam Respublikası quruluşu sayəsində İslam müsəlmanları təcavüzkarlara qarşı qaldırmış və onların ürəklərində ümid yaratmışdır.

**İslam oyanışının dinamikliyinin simvolu**

Bir gün vardı, müsəlmanlara "oyanın, iş görün, hərəkət edin və özünüzü bu zəncirlərdən xilas edin" deyəndə çoxları bu işin yaxşı olduğunu qəbul edirdilər, amma deyirdilər ki, mümkün deyil, alınmayacaq. Lakin bu gün bu həqiqətin İslam Respublikasında həyata keçməsi ilə bu "olmaz"lar və ümidsizliklər ümidə çevrilmişdir. Buna görə siz görürsünüz ki, sionistlərin möhkəm, zalımcasına və qəddar mühasirəsində qalmış Fələstinin əli hər yerdən üzülmüş silahsız bir qrup insanı bir neçə ildir müqavimət göstərir. Onları ayaq üstə saxlayan ümiddir. Bu xalq, bu gün Fələstində müqavimət göstərənlər başqa yerdən gəlməmişlər. Bunlar əlli ildir sionistlərin hegemonluğuna, təkəbbürlülüyünə və hökmranlığına dözən və bir iş görməyən insanlardır. Onların ən böyük işi bu idi ki, gənclərinin bir qədəri getsinlər başqa ölkəyə və bir müddətdən sonra qayıbıb bir zərbə vursunlar və sonra yenidən qaçsınlar. Eşitdiyiniz bu hərəkatların, Fələstin Azadlıq Təşkilatının və digərlərinin hünəri bu idi. Bir xalq sionistlərin divarları daxilində bu şəkildə müqavimət göstərir; ev və məscidlərini uçururlar, şəxsiyyətlərini öldürürlər, uşaqlarına işgəncə verirlər, minlərlə insanı həbsxanada saxlayırlar, evlərini qarət edirlər, özlərini blokadaya salırlar, əkin sahələrini məhv edirlər, ağaclarını kəsirlər. Elə cinayətlər törədirlər ki, onun onda biri də bayırda əks olunmur, amma bu xalq yenə müqavimət göstərir. Onları saxlayan ümiddən başqa bir şey deyil. Bütün bu illər boyunca Fələstin mübarizlərinin özləri İslam Respiblikasına gəlir və deyirdilər ki, bizə ümid bəxş edən imamın və İran xalqının hərəkətidir. Doğrudan da elədir.

**İraqda İslam oyanışı**

Bu məsələ eynilə İraqda da mövcuddur. Bu məsələ sizin İslam hərəkatını müşahidə etdiyiniz hər bir yerdə mövcuddur. Bu məsələ az-çox təxminən bütün İslam dünyasında mövcuddur, amma zirvə buradır. Ümid, məlumat və məqsəd bulağı buradan çağlayıb İslam ümmətinə sarı axır. Təbii ki, hegemon cəbhənin ən çox təzyiqləri də buraya olacaq.

**Mədəni və siyasi müharibə**

Bu gün hamı hərbi müharibədən söhbət edir. Biri deyir ehtimal var, biri deyir yoxdur. Biri o tərəfdən təhdid edir, biri bu tərəfdən cavab verir. Halbuki biz bu gün müharibənin ortasındayıq, amma hərbi müharibənin yox, ondan qat-qat ağır bir müharibənin. Bu müharibədə nə mina qoyulub, nə də pusqu var. Bu gün bizim ölkəmizdə belə bir müharibə gedir. Hegemon cəbhənin bütün səyi ümidi

məyusluğa, İslam təlimlərindən qaynaqlanan məqsədi məqsədsizliyə və müxalif məqsədə çevirməkdir. İslamın müəyyən etdiyi yol və xətlərin – fədakarlıq, cihad və şəhadət xəttinin aydınlığından qaynaqlanan müqaviməti və dirənişi müqavimətsizliyə, təslimçiliyə və əlləri qaldırmağa çevirsin. Bu gün bizim ölkəmizdə buna çalışırlar. Bu gün belə bir müharibə yaşanır. Raket və təyyarələrin də müharibəsi olsun, yaxud olmasın – mühüm deyil. Əhəmiyyətli olan budur. Əlbəttə, bu müharibə inqilabın birinci günündən başlandı. Lakin o zaman düşmənimiz qəmgin, ümidsiz və pərt olduğundan, zərbə gördüyündən çox da fəal deyildi. Bir neçə il ötəndən sonra yavaş-yavaş özünə gəldi. Mənim irəli sürdüyüm mədəni hücum məsələsi düşmənin bayraqlarını görməkdən irəli gəldi. Mən düşmənin bayraqlarının irəlilədiyini gördüm. Bu şəraitdə ən pis hal odur ki, insan düşmənin hücumunu anlamasın və bilməsin. Siz düşmənin hücumunu anlayanda hələ gedib düşmənin taktikalarını öyrənməlisiniz ki, onun əleyhinə bir iş görəsiniz. Lakin hücumun özünü inkar etsəniz, daha taktika öyrənmək mənasızdır. Bu gün bu müharibə aydın görünür.

**İctimai ədalət**

Əgər biz ictimai ədalətdən danışırıqsa, bizim sözümüz bütün mənası ilə qlobal bir məsələdir. Biz ictimai ədalət sahəsində kiçik məsələlərlə kifayətlənmirik. Biz ictimai ədaləti özümüz üçün, cəmiyyətimiz üçün və bütün bəşəriyyət üçün tələb edir və istəyirik. Biz əgər insan məqamının ucalığı məsələsini ortaya qoyuruqsa, onun bütün cəhətlərini, bütün dərəcələrini və mərhələlərini nəzərdə tuturuq. İnsan məqamına ən böyük hörmətsizlik dünyadakı müstəmləkə quruluşudur, bu gün bərqərar olan siyasi və iqtisadi istismarçılıqdır.

**Liberal-demokratiyanın böyük yalanları**

Dünyada liberal-demokratiya mövzusunu və məktəbini ortaya atıb insana və insaniyyətə hörmət göstərdiklərini bildirmək istəyənlər çox rüsvayçı və biabırçı bir yalan danışırlar. Müstəmləkəçiliyin əsasını qoyub insanlara ən böyük hörmətsizliyi, özü də ümumi bir formada ölkələrə və xalqlara hörmətsizlik edən və bu gün də etməkdə olan bu liberal-demokratiyadır. Bunu isbatlamaq çətin deyil. Hegemon quruluşun insan məqamına və insan hüquqlarına hörmətdən kilometrlərlə uzaqda olduğunu sübut etmək üçün atdıqları bu bombalardan, istehsal etdikləri bu silahlardan və törətdikləri bu cinayətlərdən daha yaxşı hansı dəlili göstərəcəklər?! Hansı dəlil Fələstindən, Nəcəfdən, Fəllucədən, ondan qabaq Əfqanıstandan, ondan da qabaq Şərqi Avropadan, balkanlardan və ondan da qabaq Afrikadan və sizin gördüyünüz digər yerlərdən üstün ola bilər?! Bu iddiaçı təfəkkürün insani dəyərlərdən kilometrlərlə uzaq olmasına dair daha aydın hansı dəlil lazımdır?! İndi bəziləri özlərini aldadıb otursunlar Qərbin, ABŞ-ın insan hüquqları, Qərbdə və Amerikada qadın hüquqları barədə yazsınlar, danışsınlar. Bu məsələlər müsəlman tələbənin, mömin, ayıq, istedadlı və inqilabçı qız və oğlanın bilməli olduğu məsələlərdir. O, iradə ilə çalışıb elmi çevrəsində, universitetdə,

mədəni mühitdə, cəmiyyətdə və ailədə təsir buraxmalıdır. Siz əziz gənclərdən gözlənilən budur.

**Mübarizə və gənclərin rolu**

Biz bir mübarizə dövründəyik. Biz heç bir dövrdə özümüzə zəfər çalmış qalib bir toplum gözü ilə baxmamalıyıq. İnqilab qələbə çaldı, hegemonizm və düşmən cəbhəsi vuruldu. Ondan sonra da bizim inqilabımız tərəfindən müntəzəm olaraq zərbə gördü. Bundan sonra da Allahın lütfü ilə zərbə görəcək, lakin bunların heç biri o demək deyil ki, biz işin bitdiyini düşünək, rahat oturub bəhrə görməklə və istifadə etməklə məşğul olaq. Xeyr, biz mübarizənin içindəyik. Bu meydanda sizin gənc və fəal ruhunuz düşmənin taktikalarını öyrənməli, özünü mübarizə və müqavimət üçün hazırlamalıdır. Bir gün gələcək ki, sizin bu işləriniz bu xalqın və bəlkə də digər xalqların da ətrafında elə uca sədlər və elə möhkəm və təhlükəsiz qalalar yaradacaq ki, düşmən heç bir texnika və silahla onu qıra bilməyəcək. Bu, qarşıdadır və bilin ki, qeyri-mümkün deyil, lakin bizim fəaliyyətimiz, işimiz və sayıqlığımız ilkin və qəti şərtdir.

Allah-Taaladan istəyirəm ki, sizin hamınızı müvəffəq etsin. Bizim dünya miqyasında ən seçilmiş və ən yaxşılarımız olan siz əziz, mömin, nurlu müsəlman və iranlı gənclər yaxın gələcəkdə bəşəriyyətin xilası üçün güclü qüvvələr olasınız.

Allahın salamı və rəhməti olsun sizə!

## Müsəlman gənc və özünəinam[25]

Bismillahir-Rəhmanir-Rəhim.

**Özünəinamın əhəmiyyəti**

Mənim əzizlərim! Sizə deyim ki, bu ölkədə elm və tədqiqat prosesini zəiflədən və sonra tamamilə saxlayan şəxslərin ilk siyasəti iranlıda özünəinam hissini məhv etmək idi. Yəni iranlı düşünsün ki, elmdə, düşüncədə, həyat yollarını tapmaqda, hətta öz məqsədini ifadə etmək üçün lazımi sözlər axtarmaqda da özünün bir şeyi yoxdur. Bu, bir xalqı qara günə qoyur; özünəinamı olmayan xalqı. Mən sevinirəm ki, bu il siz gənclərdə bu ruhiyyəni görürəm. Gənclərlə olan digər toplantılarda da xoşbəxtlikdən, bu ruhiyyənin günbəgün inkişaf halında olduğunu görürəm. Əlbəttə, burada mövcud olan incə məqam budur ki, bu özünəinam və insanın düşüncələrini ifadə etmək hissi dava-dalaş deyil. Davakarlıq gəncin xislətində var, məqsədim bu deyil. Mən görürəm ki, siz və bu bir neçə ildə rastlaşdığım digər gənclər məntiqli, əsaslı və elmi etiraz ruhiyyəsindən istifadə edirsiniz. Bu mənim üçün çox dəyərlidir. Dediyiniz sözlər çox yaxşı və diqqətəlayiq sözlərdir. Mən indi qısa qeydlər götürmüşəm, lakin sizin sözlərinizin hamısı kompüterdə yığılacaq və baxılacaq.

**Ümidsizlikdən ehtiyatlı olmaq**

Sizin qeyd etdiyiniz bu problemlərin bəzisi qısa müddətdə, bəzisi uzun müddətdə tamamilə həll olunasıdır. Bu problemləri deməyin heç bir eybi yoxdur; xüsusən də çox səmimi və mehriban şəraitdə təşkil olunmuş belə bir məclisdə. Mən bunu normal qarşılayıram. Lakin diqqət yetirin ki, demək tərzi məyusedici olmasın, ümidsizlik yaranmasın. Mənim əzizlərim! Hər bir şey ümidə bağlıdır. Yəni siz, ölkə universitetlərinin məsul şəxsləri, müxtəlif dövlət məmurları, hər hansı bir sahədə, o cümlədən sizin dediyiniz bu sahələrdə fəaliyyət göstərməli olan sizlər ümidvar olsalar, ideal nöqtəyə çata bilərlər. Heç bir yerdə ümidsizlik və məyusluq yoxdur. Bu baxımdan, mənim fikrimcə, ümidsizlik mesajı da yersizdir.

**Avropada elm; elmin dinlə ziddiyyəti**

Qərbdə və Avropada vəziyyət fərqli idi. Məsihi Avropasında elmi hərəkətin başlanması dini maarifin bitməsi ilə bir oldu, yəni bu mərhələnin başlanması o mərhələnin sonu sayıldı. Bəlkə elə belə də olmalı idi, çünki məsihi aləmində dini maarif xurafatçı, təəssübkeş və tamamilə elm əleyhinə idi. Avropada elmi kəşf etdiyinə görə alimləri ya həbsxanaya salır, ya qamçılayır və ya odlayırdılar. Uzun əsrlər boyu alimi cadugər adlandırıb yandırırdılar. Siz Qərbin ədəbi əsərlərində və

---

[25] Nümunəvi gənc və tələbələrlə görüşdə çıxışı: 27 sentyabr 2004.

elm tarixində bu məsələni aydın görə bilərsiniz. Cəmiyyətin dini çevrəsinin, dini rəhbərlərin və yüksək mövqe sahiblərinin elmlə belə rəftar etdiyi bir ictimai şəraitdə elm özünə yer açsa, təbii ki, dini və dini inancları bədbəxt günə qoyar və bitirər. Bu, aydın məsələdir.

**İslam, elm və ağıl**

İslamda isə vəziyyət tam başqadır. İslamda dinin elm və ağılla ziddiyyət məsələsi ümumiyyətlə, mənasızdır. İslamda dinin ideoloji prinsiplərini və praktik məsələlərini əldə etmək üçün əsas qaynaqlardan biri ağıldır. Etiqad prinsiplərini ağılla qavramaq lazımdır. Lakin hüquqi-praktik hökmlərdə də ağıl əsas dəlillərdən biridir. Əgər siz bizim hədis kitablarımıza baxsanız, misal üçün, min il bundan öncə yazılmış əl-Kafi kitabına baxsanız, görərsiniz ki, onun birinci fəsli “Ağıl və cəhalət” adlanır. Bu fəsil ağıl, onun dəyəri və əhəmiyyəti, bilginin və ağlın əhəmiyyəti barədədir. İslam həmçinin elmə dair ən mühüm hərəkəti etmiş və ən güclü həvəs yaratmışdır. İslam sivilizasiyası İslamda ilk gündən başlayan elmi hərəkətin hesabına yarandı. Hələ İslamın doğmasından iki əsr ötməmişdi ki, elə bir mühitdə İslamın güclü elm hərəkatı başlandı. Onu bu günlə müqayisə etmək üçün gərək dünyanın bugünkü elmi avanqardlarını təsəvvür edib, sonra dünyanın ucqar bir nöqtəsində yerləşən bir ölkəni nəzərə alasınız. Hər növ mədəniyyətdən uzaq olan bu ölkədə birdən-birə sivilizasiya yaranmağa başlayır və misal üçün, 100, yaxud 150 ilə elmi baxımdan hamıya üstün gəlir. Bu, bir möcüzədir, ümumiyyətlə, təsəvvüredilləsi deyil. Əgər İslam elmə, elm öyrənməyə, öyrətməyə və alim yaşamağa həvəsləndirməsəydi, bu baş verməzdi. Görün dillər əzbəri olan, lakin bəzən dərinliyinə diqqət yetirilməyən bəzi hədislərdə nə qədər mühüm məqamlar var: "İnsanlar üç qisimdir: alim, nicat yolunda olan öyrənci və su üzündəki çör-çöp".[26] Ümumiyyətlə, insanlar üç qisimdir: alim insanlar, öyrənənlər və digərləri, yəni sərgərdan, dəyərsiz və çəkisiz insanlar. Görürsünüz ki, İslam elm məsələsində birinci növbədə dəyəri elmin üzərinə aparır; istər elmə malik olmaq və onu digərlərinə öyrətmək, istərsə də öyrənmək. İslam belə bir dindir.

**Gənc, elm, əxlaq və fəzilət**

Siz əziz gənclər bilin ki, hansı elm olursa-olsun, istər humanitar elmlərə, istər Quran elmlərinə, istər təbii elmlərə, istər bu gün çalışdığınız müxtəlif elmlərə girişmək və tədqiqat aparmaq sizi dini sahədə inkişafdan, əxlaqi çalışmadan saxlamasın. Bunların hamısına birgə malik olmalısınız. Əziz qardaşımızın məclisin əvvəlində oxuduğu ayədə deyilir ki, Allah-Taala Peyğəmbəri insanları öyrətmək və mənən paklamaq üçün göndərdi. Buna əsasən, təlim və paklamaq bir-biri ilə yanaşıdır. Bunları bir-birindən ayırmayın. “Elmi işlərə qoşulan şəxs təbii olaraq mənəviyyat və əxlaqdan kənarlaşmalıdır” fikri tamamilə səhv və idxal edilmiş bir fikirdir, məsihi Avropasında mövcud olan keçmişə əsaslanır, İslam cəmiyyəti və

---

[26] "Əl-İrşad", c. 1, səh: 227.

İslam təlimləri ilə əsla əlaqəsi yoxdur. Alim fəzilətli və əxlaqlı olsa, hansı fəndə olursa-olsun, bəşəriyyətin və öz ölkəsinin yüksəlişi üçün ona ümid bəsləmək olar. Bu alimin məqsədləri dəyərli məqsədlər, hərəkəti insaniyyətin, ədalətin, fəzilətin xeyrinə və bu gün dünyada mövcud olan neqativ hallara qarşı olar. Çalışın gələcəkdə belə alimlərdən olun, bu işləri özünüzə məqsəd seçin, dünyanın çarxını düzgün istiqamətə yönəldən insanlardan olun. Bunu özünüzə məqsəd seçin. Bu mümkündür və təbii ki, buna nail olmaq üçün çox çalışmaq lazımdır.

**Elmi nümunələr**

Sizin elmi nümunələr barədə dedikləriniz mənim düşündüyüm sözlərdir: elmi nümunə yetişdirmək üçün şərait yaratmaq, nümunəvi istedadları tapmaq, elm və tədqiqat zirvələrinə doğru getməkdə onlara kömək etmək. Bunların hamısı çox mühüm işlərdir. Əlbəttə, bu işlər ölkəmizdə başlanmışdır. Keçmişdə, yəni inqilabdan öncə ölkədə əsla belə bir şey mövcud deyildi, hətta onun əksinə işlər görülürdü, yəni əslində, elmi nümunələri məhv edir, gənclərdə ümidi öldürməyə çalışırdılar. Elə adamı məşhurlaşdırmağa çalışırdılar ki, Qərb variantını tam şəkildə oxuyub, icra edib, ona inansın, özü nəsə nəzəriyyə irəli sürməsin, kəşf və ya ixtira etməsin. Bunun mənası odur ki, ölkəmiz və xalqımız həmişə başqalarına tüfeyli və davamçı olsun. Bəllidir ki, belə bir ölkə inkişaf etməz. Keçmişdə vəziyyətimiz belə idi, amma inqilab ruhiyyələri və vəziyyəti dəyişdirdi. İndi bir neçə ildir Allahın lütfü ilə elmi nümunələrə, tələbə və alimlərə diqqət cari proqramlarda yer alır. Lakin indiyədək edilənlər kifayət deyil. Hər halda, dostların dediklərinin çoxu diqqət mərkəzində olan məsələlərdir. Bunlar üçün bəzi işlər görülüb, fəaliyyətlər göstərilib, inkişaflar əldə olunub və inşallah, daha artıq olunmalıdır.

**Elmi nümunələrin xaric olması məsələsi**

Bəzən bu gün mövcud olan istedadlar elə işlərə sərf olunur ki, o işlər ölkəyə çox da lazım deyil; misal üçün, elmi nümunələrin ölkədən getmə məsələsi. Mən bir neçə dəfə demişəm ki, elmi nümunələrin ölkədən çıxması mütləq şəkildə mənfi bir məsələ deyil. Çünki ola bilsin, bir elmi nümunə ölkədən getsin, bəzi ixtisaslara yiyələnib yenidən qayıtsın və ölkəyə xidmət etsin. Əlbəttə, daha yaxşı olar ki, istedadın çiçəklənməsi üçün lazım olan şərait ölkənin özündə yaradılsın, laboratoriyalar, elm və tədqiqat mərkəzləri olsun. Daha yaxşısı budur. Əgər yoxdursa, elmi nümunələr getsinlər; dünya genişdir. Lakin onların getməsi proqramlı şəkildə olmalıdır; yəni gedən bilsin ki, nə üçün gedir, nə etmək istəyir, lazım olanı öyrənəndən sonra ondan necə istifadə edəcək. O elmdən ölkənin inkişafı, xalqının tərəqqisi, ölkəsinin digər elm adamlarına kömək etmək üçün istifadə etmək istəyir, yoxsa onu bir kanadalı, amerikalı, yaxud avropalı biznesmenin şirkətində işlətmək istəyir?! Bu, elmi baxımdan görkəmli bir insan üçün ən böyük təhqirdir: çalışsın, zəhmət çəksin, işləsin, ölkəsinin bütün imkanları bu gənc alimin ərsəyə gəlməsi ilə nəticələnsin, amma o, dünyanın hansısa nöqtəsində olan, heç nə anlamayan, heç nə bilməyən, insanlıq düşməni olan

hansısa zavod, yaxud kompaniya sahibinin xidmətində dursun və ondan alət kimi istifadə etsinlər. Bir elmi nümunə o zaman başıuca və şərəflidir ki, öz ölkəsinin, evinin və xalqının vəziyyətinin yaxşılaşmasında, boynunda haqqı olan insanların həyatının, gələcəyinin və tarixinin parlamasında rol oynasın. Siz yalnız ölkənizdə çalışdığınızda parlaq simaya malik olarsınız. Heç bir iş görməyən minlərlə ali təhsilli gəncin arasında fizika, tibb, yaxud İran ədəbiyyatı sahəsində çalışıb ölkədə ölməz bir şəxsiyyətə çevrilən bir gənci fərz edin. Ölməz şəxsiyyətlər bunlardır. Ölkədə bizim tibb, fizika, ədəbiyyat, fəlsəfə və bəzi humanitar elmlərdə görkəmli şəxsiyyətlərimiz var. Ölkə bunlarla fəxr edir. Ölkə gedib hansısa topluma, yaxud şəxsə aid bir biznes təşkilatına üzv olan mühəndislə, həkimlə, yaxud ali təhsilli bir şəxs və alimlə fəxr etmir. O gedib bir insanın uşaqları, qızları, oğlanları, itləri və xidmətçiləri üçün pul istehsal etmişdir. Bunda fəxr etməli bir şey yoxdur. Fəxr odur ki, insan öz ölkəsi daxilində, öz ölkəsi üçün tərəqqi, inkişaf və hörmət yarada, gerilikləri aradan qaldıra bilsin. Bu baxımdan, kimsə bu niyyətlə istər burada, istər xaricdə hər hansı dərsi oxusa, hansısa sahədə işləsə, dəyərli olar. Hər halda, belə məsələlərin məqsəd və siyasətlərinin təyin və onları icra etmək işi Elmi Nümunələr Fondunda həyata keçə bilər.

**Müqəddəs müdafiə**

Bəzi dostlar yaşadığımız müqəddəs müdafiə həftəsinə toxundular. Mən çox sevindim. Mənim əziz övladlarım! Ehtiyatlı olun, bu ölkədə baş verən müqəddəs müdafiə məsələsinə diqqətsiz olmayın. Böyük bir iş baş verdi. O gənclər də sizin kimi idilər. Müharibədə mühüm rol ifa edən bu gənclərin əksəriyyəti tələbələr və çoxları da elmi nümunələr idilər. 22-23 yaşlı bir gənc bir diviziyanın komandiri olurdu. O, diviziyanı elə idarə edir, indiyə qədər görmədiyi bir iş olan əməliyyat planlarını elə hazırlayırdı ki, təkcə qarşımızdakı düşmənləri, yəni İraqın Bəs işğalçılarını yox, hətta düşmənlərin peyklərini də heyrətə salırdı. Bizdə görüləsi və inanılası olmayan Vəlfəcr 8 əməliyyatı oldu. Yəqin ki, bunu eşitmisiniz və bilirsiniz ki, Amerika peykləri İraqa kömək edir, məlumat ötürürdülər. Bəs rejiminin müharibə qərargahları daimi olaraq ABŞ-ın informasiya aparatları və peykləri ilə əlaqədə idilər. O peyklər bizim qüvvələrimizin daşınmasını və yaxud haradasa toplaşmasını qeyd edir və dərhal onlara ötürürdülər. Mütləq bilirsiniz ki, müharibədə informasiya çox mühüm və fövqəladə rola malikdir. Lakin bu peyklərin nəzarəti altında on minlərlə canlı qüvvəni Ərvəndruda qədər apardılar, amma düşmən anlamadı. Çox qəribə üsullarla iş gördülər. Bilirəm ki, siz bunları bilmirsiniz. Düzdür, o zaman bizə bəlli idi, sonra isə xalqa da aşkar oldu. Lakin təəssüf ki, müharibənin məlumatları geniş yayılmır. Bizim işimizin problemlərindən biri budur. Buna görə də xəbəriniz yoxdur. Onlar yük maşınları ilə müxtəlif formalarda, sanki qarpız daşıyırmışlar kimi on minlərlə canlı qüvvəni qəribə geyimlərdə, ayın belə görünmədiyi qaranlıq gecələrdə Ərvəndrudun sahilinə apara bildilər. Sonra bu böyük qüvvələri, bəzi yerlərdə eni 2-3 kilometr uzunluğunda olan Ərvəndrud çayından o tərəfə keçirdilər; suyun altı ilə və

Ərvəndin qəribə vəziyyətinə rəğmən. Sizlər bəlkə bunu da bilməzsiniz: Ərvəndin iki axını var: Bir axını şimaldan cənuba doğrudur. Bu, onun əsas axınıdır. Dəclə və Fərat çayları da bu istqamətdə Ərvəndlə birləşir və birgə Fars körfəzinə axırlar. Başqa axını isə bunun əksinədir. Bu mövqelərdə dənizin suyu təxminən 2-3, yaxud 4 diametrlə dəniz tərəfdən, yəni cənubdan şimala tərəf gəlir, yəni dəniz yuxarıdan çaya tökülür. Bu hesabla, Ərvəndin bir-birinə 180 dərəcə əks olan iki axını var. Hər halda, belə bir mürəkkəb vəziyyətdə o zaman biz işin xırdalıqlarından xəbərdar idik. İslam döyüşçüləri bu şəkildə oraya gedib bir bölgəni qaytara bildilər və heyrətamiz bir iş bacardılar. Bu iş Bəsic və korpusda olan tələbələrin, gənclərin və elmi nümunələrin işi idi. Çox həssas bir dönəmdə o işi görən bir qrup mömin gənclər idilər. Əgər o işi görməsəydilər, ölkənizin bir hissəsi getmişdi. İran dövləti də məğlub edilmiş, təhqir edilmiş, zəif və rəzil bir dövlət olacaqdı. Digərləri, təkcə dünyanın böyükləri yox, hətta ətrafdakı tör-töküntülər də nə desəydilər, qəbul etməyə məcbur olacaqdı. Amma bu gün sizin qüdrətli ölkəniz, bu ölkənizdə başıuca bir xalq və iqtidarlı dövlət var. Dünyanın qərar mərkəzləri, mühüm və həssas qlobal məsələlərdə İslam Respublikasının fikrini öyrənməyə və nəzərə almağa məcburdurlar. Bunu etiraf da edirlər. Bu, həmin gənclərin göstərdiyi fədakarlıqlara görədir. O gəncləri unutmayın.

Mən burada bəzi məsələləri qeyd etmişdim. Sizin də çoxlu sözləriniz deyilməmiş qaldı. Bizim də deyilməmiş sözlərimiz olsun, eybi yoxdur.

Hər halda, bunu sizə deyim, mənim əzizlərim! Sizlər elmi nümunə, bizim əzizimiz və gözümüzün işığısınız. Amma yadınızda olsun ki, nə qədər alim və elmi nümunə olsanız, bir o qədər təvazökar olun. Bunu yaddan çıxarmayın. Məbada elmi nümunə olmaq, Allah eləməmiş, sizdə qürur yaratsın! Elmi nümunə olmaq zəruri olaraq məğrur olmaq demək deyil. Əlbəttə, mən bunu sizdə görmürəm, sizin nurlu simalarınız belə göstərmir, amma hər halda, ehtiyatlı olun. Ölkədə elmi nümunə mühiti təkəbbürdən tam uzaq olmalıdır. Sizin elmi uğurlarınız nə qədər çox olsa, harada yeni bir tədqiqata nail olsanız və daha artıq müvəffəqiyyət əldə etsəniz, daha təvazökar və xalqa daha yaxın olun. Bu sizin naliyyətlərinizi artıra bilər.

Ümidvarıq Allah sizi qorusun, ata-analarınıza, ailələrinizə və ölkənizə bağışlasın! Hamınız gələcəkdə xalqınızın və ölkənizin gözünün işıqlanmasına səbəb olasınız!

Allahın salamı və rəhməti olsun sizə!

## İdeal tələbə təşkilatının meyarları[27]

Bismillahir-Rəhmanir-Rəhim.

**Ramazan məclisləri**

Əziz tələbələr, çox xoş gəlmisiniz. İllərdir mübarək ramazan ayının bir günündə bu məclis keçirilir. Bu məclis mənim danışmağım üçün deyil, sizin danışmağınız üçündür. Mənim tələbələrə çox sözüm var; deməli və lazımlı sözlər. Lakin onları universitetlərə gedəndə, tələbə görüşlərində və yaxud bəzi səfərlərdə gənclərlə təşkil olunan məclislərdə deyirəm. Ramazan ayı məclisi isə əsasən, sizi dinləməkdən ötrüdür. Bu məclisdə bizim məqsədimiz iki-üç məsələdir:

Əvvəla, universitetə və tələbəyə hörmətdir. Bu, simvolik bir işdir. Biz istəyirik ki, bununla universitetin və tələbənin məqamı və mənəvi dəyəri gözəl şəkildə bəyan olunsun. Biz təxminən iki saat vaxt ayırırıq ki, sizinlə oturub söhbət edək.

İkincisi budur ki, tələbə təşkilatları bir-birinin yanında olsunlar. Bəllidir ki, söhbət ölkə qanunları və İslam Respublikasının təməl prinsipləri çərçivəsində fəaliyyət göstərən tələbə təşkilatlarından gedir. Təbii ki, təqvaya, düzgün düşüncəyə və imana kim daha çox bağlı olsa, bizim üçün daha əzizdir. Lakin İslamın fikir və əməl əsasları və İslam Respublikası quruluşunun əsas meyarı ilə hərəkət edən təşkilatların hamısı bizim üçün məqbul və idealdır. Həmçinin digər sahələrin elmi nümunələri indi dostumuzun dediyi şəkildə bir-birinin yanında oturur və xalqa ümumi bir təsvir təqdim edirlər. Çünki bizim məclisimizi sonra bütün xalq görəcək.

Üçüncüsü budur ki, sizin sözlərinizi eşitmək mənim üçün çox faydalı bir imkandır. Sizdə - istər təşkilatlarda, istər elmi nümunələrdə eşitməli sözlər var. Mən nə zaman tələbələrdən bir söz eşitmişəmsə, qeyd etmişəm. Bu qeydlər də təkcə kağız üzərinə yazmaq üçün deyil. Bunların əsasında iş görülür, addım atılır. Bəziləri universitetlərlə, bəziləri nazirliklə, bəziləri dövlətin digər sahələri ilə əlaqədar olur. Bunlarla mümkün həddə məşğul olurlar.

Sevinirik ki, bu il də buna müvəffəq olduq, lakin təəssüf ki, vaxt az olub, indi təxminən bir saat yarımdan artıq vaxtımız yoxdur. Hər halda, dostlar başlasınlar. Xahiş edirəm ki, söhbətlərin girişindəki hörmət və komplimentləri də ixtisara salsınlar.

**Dövlət və işgüzarlıq mövzusu**[28]

---

[27] Mübarək ramazan ayında tələbələrlə görüşdə çıxışı: 31 oktyabr 2004.

[28] Müstəqil İslam birliklərinin baş katibi cənab Pərviz Əmini.

Dostumuz əhəmiyyətli məsələlərdən danışdı. Həm işgüzarlıq məsələsi əhəmyyətlidir, həm dövlət mövzusu. O bunu işgüzarlıqla əlaqələndirdi. Tamamilə doğru və mühümdür. Bizim elan dediyimiz Cavabdehlik ilinə də diqqət yetirilməlidir. Lakin burada bir-iki incə məqam da var. Əvvəla, siz bir şey soruşub cavab istəyəndə sualı elə verməlisiniz ki, kimin tərəfindən olursa-olsun, cavabı kəmiyyət baxımından təyin edilməli və dəyərləndirilməli olsun. Məsələn, siz "bilirsinizmi işsizlik səbəbindən hansı problemlər yaranır?" – deyə soruşsanız, cavabı budur ki, bəli, bilirik. Belə sual tərzi nəticəsizdir. Yaxud Ali Məhkəmədən soruşursunuz ki, siz bu xarabalığı aradan qaldırmaq üçün son beş ildə nə etmisiniz? Onlar sizə beşsəhifəlik bir statistika göstərəcəklər ki, bu işləri görmüşük. Cavabdehlik çox həssas bir məsələdir.

Ədalət və fəsadın aradan qaldırılması tələbi də çox əhəmiyyətlidir. Bu istəklər olmalıdır. Bu istəklərin yanında, həm də belə olmalı deyil ki, insan məsul şəxslərin gördüyü bütün işləri sual altına aparsın və hamısına şübhə ilə baxsın. Xeyr, təsadüfən, sizin dediyiniz sahələrdə çoxlu yaxşı işlər görülmüşdür. Lakin bugünkü dövrdə ölkənin idarəsi çox çətin işdir. Bilirsiniz ki, biz bu gün böyük bir problem içindəyik. Güc mərkəzlərinin fikri budur ki, bu quruluş öz işgüzarlığını tam surətdə isbat etsə, onların vəziyyəti pisləşəcək. Necə ki, onlar indi də görürlər ki, İslam Respublikası quruluşu qarşısında az iş görmüşlər və bizim quruluşumuz dostumuzun toxunduğu inkişaflara nail ola bilmişdir. Mənsə sizə deyim ki, müxtəlif sahələrdə olan inkişaflar bunlardan da çoxdur.

**İslam quruluşu – işgüzar bir quruluş**

Düzdür, bəzi nöqsanlar mövcuddur, amma bacarıqsızlıq yoxdur. Bunları bir-birindən ayırmaq lazımdır. Bacarıqsızlıq yoxdur, İslam quruluşu işgüzardır. Quruluşun işgüzarlığının bir əlaməti sizin varlığınızdır. Mömin və quruluşa inamlı tələbə gənc öz sözünü və məqsədini cəmiyyətdə qüdrətlə ortaya qoya bilir. Sizin sözünüz sabah bütün cəmiyyətdə yayılacaq. Bu, çox mühüm bir məqamdır. Bunun özü quruluşun uğrudur. Quruluşun işgüzarlığı bu qurumun, yaxud o qurumun işgüzarlığı deyil. Quruluş işgüzar bir quruluşdur.

**İranlının milli ruhiyyəsinin təhqiri**

Cəmiyyətdə elm uca tutulduqda, insanların daxili istedadı çağladıqda elm yerliləşir. Elm üçün sərmayə qoyuluşu bu məqsədlə olmalıdır. Başqalarının öz elmi nailiyyətlərini, formul və nəzəriyyələrini öyrətmələri, öyrənənlərin də dərinliyə varmadan öyrənmələri heç bir ölkənin inkişafına kömək etməz; nə bizim, nə də başqa ölkənin.

Keçmişdə bu ölkədə elm bulaqları qurumuşdu. Bu iş müxtəlif yollarla baş tutmuşdu. Biri bu idi ki, Qərbin elmi tərəqqisi qarşısında ölkəmizdə belə bir təsəvvür çox ciddi şəkildə formalaşmışdı və təkidlə deyilirdi ki, iranlı qadir deyil, iranlı bacarmır, iranlının elm və sənaye inkişafı üçün lazım olan istedadı yoxdur. Bu gün bu söz sizin qulaqlarınıza tanış deyil, amma bilin ki, uzun müddət ölkədə bu

düşüncə tərzi yayılırdı. Deyirdilər ki, iranlı ancaq ədəbiyyatı bacarır, özü də poetik ədəbiyyatı - gülü-bülbülü və sair belə məsələləri. Ədəbi araşdırmalarımızı da avropalılar və Avropa şərqşünasları aparırdılar, iranlı ciddi və əsaslı işləri bacarmırdı. Elmi yoxsulluğun nəticəsi sənaye yoxsulluğu oldu. Sənaye yoxsulluğunun nəticəsində adi dünya yaşayışı səviyyəsinə nail olmaq üçün bütün ehtiyatları xərcləməli olduq; yəni həmişə idxal etdik, montaj sənaye yaratdıq, başqalarının ardınca qaçdıq, neft və digər daxili ehtiyatları əldən verdik. Başqa bir nəticəsi də bu oldu ki, bu ölkədə humanitar istedadlardan əlavə, həm də çoxlu təbii potensiallar məhv oldu. İnsanlar alim olmadıqda, sənaye, elm və texnologiyaları olmadıqda, özlərinin təbii sərvətlərindən xəbərsiz qaldılar.

Uzun illər ötürdü; bu ölkədə neft var idi, amma heç kim bilmirdi ki, o nədir və hansı işə yarayır. İnkişaf etmiş əcnəbilər isə onu tanıyır, işləndiyi yerləri yaxşı bilirdilər. Buna görə də, gəlib onu kəşf etdilər, ona sahib çıxdılar və öz xeyirlərinə işlətdilər. Həm bizim ölkəmizdə, həm də dünyanın çoxlu neft ölkələrində belə etdilər. Bütün bunlar elmi geriliyin nəticəsidir. Elm olmayan yerdə sənaye də olmaz; sənaye olmasa, cəmiyyətin çoxlu sərvətləri gizli qalar, bütün ehtiyatlar günün sənayesini əldə etməyə xərclənər. Bunun ardınca isə əcnəbiləri izləmək, yad mədəniyyətləri yamsılamaq və çarəsiz halda onların siyasətlərinə tabe olmaq gəlir. Bütün bunlar elmsizliyin nəticəsidir.

**Elmin yayılması – inqilabi vəzifə**

Buna görə də, bu ölkədə elm yayılmalıdır. İnqilabın mühüm işlərindən biri bu idi. Elmi ölkə daxilində yaydı. İnqilabın əvvəlində qısa bir dövrdə biz universitetsiz qalmağa məcbur olduq. Universitet mədəni inqilaba və universitetdə mövcud məsələlərə görə tələbələrin təkidi ilə tətil olundu. Tehran universitetində müxtəlif qruplaşmalar döyüş otaqları düzəldib universitetdən çaxnaşma, fitnə, inqilabla, quruluşla və İslamla müharibə üçün istifadə edirdilər. Universitet bir müddət bağlı qaldı. Lakin bu qısa müddətdən sonra elmi fəaliyyət, universitet və tələbə fəaliyyəti möcüzəli şəkildə inkişaf etdi. Siz bu gün işin içindəsiniz; bizim hansı vəziyyətdə olduğumuzu və haradan haraya çatdığımızı yaxşı bilmirsiniz. Biz uzun illər bu ölkədə öz müalicəmiz üçün taylandlı, pakistanlı və hindistanlı həkimə müraciət etməyə məcbur idik. Çünki ciddi həkim çatışmazlığı vardı. Bu gün isə dövlətin narahatlıqlarından biri budur ki, bu qədər həkimi necə işlə təmin etsin. Bəziləri bundan ötrü kədər içindədirlər. Mənim fikrimcə isə, bu, üslubun yanlış olmasından irəli gəlir. O zaman ölkənin azsaylı universitetlərinin idarəsi üçün müəllimimiz yox idi. Düzdür, inqilabın əvvəlində bir qədər müəllim ölkədən getdi, amma gedənlər çox deyildilər, onların sayını şişirtdilər. Bu gün xoşbəxtlikdən, ölkədə açılmış bütün bu universitetlərdə çalışan fəal müəllimlərimiz çoxdur. Bugünkü universitetlərimizin sayı keçmişlə müqayisəedilməzdir. Onların siyasətlərinin təyin və icrasında bəzi səhvlər baş verə bilər. Kəmiyyətin bu formada artımını da mütləq şəkildə müdafiə etmirəm, lakin əsas məsələ budur ki, elmə əhəmiyyət verildi. Mən bu gün sizə demək istəyirəm

ki, mənim əzizlərim, elmə əhəmiyyətli yanaşın. Müxtəlif qıfılları açmağın əsas açarı elmə əhəmiyyətli yanaşmaqdır.

**Təqvasız elm**

Əlbəttə, onun yanında bu bəlli məsələyə də diqqət yetirməlisiniz ki, elm və alimin faydalı olması qədər zərərli olması da mümkündür.

Oğru çıraq ilə gələrsə əgər,
Ən yaxşı meyvəni ağacdan dərər!

Elmi olan, lakin təqvası, əmanətdarlığı və sədaqəti olmayan bir insan zərərli mövcud ola bilər, öz elmini ölkə əleyhinə, onun maraqlarına qarşı işlədə bilər. Buna görə elmin yanında mədəniyyət, mənəvi paklıq, əxlaq və mənəviyyat da lazımdır. Buna əsla şübhə etməyin. Universiteti və tələbəni dinsiz və mənəviyyatsız etmək üçün bəzi işlər görürlər. Mənim fikrimcə, onun bir qədəri diqqətsizlikdən olsa da, bir qədəri planlı şəkildə görülür. Bu işdə çoxları müqəssirdir; həm universitetlərdə təqsirkar var, həm nazirlik və dövlət qurumlarında. Bəziləri planlı şəkildə ölkənin elm, elmi inkişaf, elmi tərəqqi, elmi tərbiyə və elmi gələcək mühiti olan universiteti və tələbəni mənəviyyatdan uzaqlaşdırmaq istəyirlər. İsətiylər ki, onda iman, təqva, mənəviyyat, Allaha və dinə bağlılıq olmasın. Qətiyyətlə deyirəm ki, bu, ölkə maraqlarının zərərinə olan bir hərəkətdir.

İlahi! Bu gənc və itedadlı qəlbləri Öz mərifət nurunla doldur!

İlahi! Ramazan ayının bir saatında bu əziz gənclərin oruc halda bir yerə toplaşmasını Öz bərəkətinlə mübarək et!

İlahi! Bizim gənclərimizi saleh və möhkəm et!

İlahi! Ölkənin gələcəyini bu gənclərin əli ilə elmli, mərifətli və təqvalı et! Düşmənləri bu ölkəyə və İslam Respublikası quruluşuna yol tapmağa günbəgün ümidsiz et! Dövrün imamının müqəddəs qəlbini bizdən şad və razı et! Bizim şəhidlərimizi peyğəmbər və övliyalarla birgə et! Böyük İmamın pak ruhunu övliyalarınla birgə et!

Allahın salamı və rəhməti olsun sizə!

## Həqiqi elm və inkişaf[29]

Bismillahir-Rəhmanir-Rəhim.

Bir neçə cümlə deyirəm və sonra buraya təşrif buyurmuş dostların sözlərini eşitməyə hazıram.

Əvvəla, bütün qardaş və bacılara xoşgəldin deyirəm. Bu məclisin təşkil olunduğuna, alim və müəllimlərin buraya toplandığına görə özümü xoşbəxt sayıram. Bu mənim üçün şərəfli və sevindirici haldır. Əgər ölkənin bütün müəllimlərini bir yerə toplaya və saatlarla oturub dinləyə bilsəydik, şübhəsiz, bunu edərdik, amma təbii ki, mümkün deyil. Buna görə də, hələlik bu qədər dostlarla kifayətlənirik: "Hamısı mümkün olmayanın bəzisi tərk edilməz".

### Müəllimlərə hörmət

Bu məclislər birinci növbədə müəllimlərə hörmət üçün təşkil olunur. Bu, simvolik bir işdir. Biz bununla müxtəlif sahələrin müəllimlərinə, ölkədə elm və universitet işinin həqiqi və mənəvi icraçılarına sevgi və hörmətimizi göstəririk. Bilirik ki, elmi inkişaf etdirmənin bir neçə şərtindən biri alimə hörmətdir. Buna görə, əməli surətdə bu hörməti bildirmək istəyirik.

### Mövcud olanlarla kifayətlənmək

Bu məclisin ikinci məqsədi budur ki, bəzi məsələləri sizin dilinizdən eşidək. Siz zehninizdə olanın xülasəsini deyin, mən yaxşı dinləyiciyəm. Ümidvaram ki, bu dinləmək xeyirli və təsirli olsun. Bəllidir ki, bu qısa vaxtda yalnız bəzi şəxslər danışmaq imkanı əldə edə bilərlər. Lakin yenə də, hamısı mümkün olmayanın bəzisi tərk edilməz. Sizin deyəcəyiniz məsələlərin bəzisi bəlkə də burada iştirak edənlər, yaxud mənim üçün yeni olmasın. Lakin şübhəsiz, onların çoxu yeni olacaq. Bundan əlavə, eşitməkdə bilməkdə olmayan bir təsir var. Bu baxımdan, dinləmək lazımdır. Bu dinləmək yolu ilə Allaha şükür olsun ki, bəzi işlər də həll olunmuşdur. Biz ötən illərdə ramazan ayında bu məclisi keçirirdik. Bəlkə də siz qardaş və bacıların bəzisi, yaxud bir çoxu o məclislərdə iştirak ediblər. Bu il Tehrandan kənarda olan bəzi dostlara da bu məclisdə xidmət göstərmək və onlardan istifadə etmək məqsədilə ramazan ayından sonraya saldıq. Bu gecə bu səadət bizə nəsib olmuşdur. Buna görə də, ikinci məqsəd sizi dinləməkdir. Bu bizim üçün faydalıdır.

### Tətbiqi tədqiqat və dissertasiyalar

[29] Universitet müəllimləri ilə görüşdə çıxışı: 16 dekabr 2004.

Bir məsələ ölkədəki tədqiqat işlərinin tətbiqiliyini təmin etməkdən ibarətdir; istər müəllimlər və elmi nümunələr tərəfindən olsun, istər universitetlərdə dissertasiya yazan tələbələr tərəfindən. Təhsil zamanı, yaxud onun sonunda tələbə və müəllim tərəfindən bir dissertasiyanın, tədqiqat işinin hazırlanmasına çox qiymətli saatlar sərf olunur. Bu mövzuların seçimi plan əsasında və ölkənin ehtiyaclarına uyğundurmu? Müəllim və tələbənin müştərək halda və yaxud ümumi şəkildə yerinə yetirdiyi tədqiqat məhsulu icra və əməl mərhələsinə çatırmı? Bunun vasitəsi ilə bizim universitetimiz, elmimiz və tədqiqatımız inkişaf edir, yoxsa yox? Bəzi tələbələr öz dissertasiyalarını cildli və qəşəng şəkildə mənə göndərirlər. Mən kitabxanamda bir şkafı bu dissertasiyalar üçün ayırmışam. Təəssüf ki, onları oxumağa vaxtım olmur, lakin üzərlərində gördüyüm adların bəzisi çox maraqlı və gözəldir, adamda oxumağa həvəs yaradır. Bəzisi də çox kənar, ölkənin elmi, praktik və icra sahəsindən çox uzaq mövzulardır. Dəyərli saatların sərf olunduğu bu tədqiqat, dissertasiya və elmi işi səmərəli etmək üçün hansı çıxış yolu var? Çıxışınız əsnasında buna toxunsanız, faydalı olar.

**Universitetlərdə məsuliyyət hissi**

İkincisi budur ki, Allahın lütfü ilə bu gün bizim müəllim və tələbələrimiz arasında ictimai məsələlərə dair məsuliyyət hissi çox aydın şəkildə müşahidə olunur. İnqilabdan öncəki universitet mənim yaxşı yadımdadır. Bu gün tələbənin və müəllimin ölkə məsələlərinə, ictimai məsələlərə dair məsuliyyət hissi yaxşıdır. Bunun nümunələrini görməkdəyik. Lakin ölkənin taleyi qarşısında bu məsuliyyət hissinin və bu ruhiyyənin gücləndirilməsi üçün nə etməliyik? Nə edək ki, qaynar və həvəskar mühitdə, elm və tədqiqat ruhiyyəsinə malik olan, fəaliyyət və gənclik hissi ilə aşıb-daşan universitetdə bu məsuliyyət hissi daha artıq olsun? Müəllim və tələbələrin hamısı, yaxud böyük əksəriyyəti ölkənin taleyinə və gələcəyinə, nəsillərin gələcəyinə aid məsuliyyət hiss etsinlər, fərdiyyətçilik ruhiyyəsi, öz şəxsi taleyi barədə fikirləşmək hissi bir qədər zəifləsin, yəni tələbə və müəllimin bütün fikri-zikri özünə gələcək qurmaq olmasın.

**Seminarlar barədə bir xatırlatma**

Təbiidir ki, belə bir dost və səmimi məclisdən elmi-ixtisaslı bir seminar kimi bəhrələnməyi gözləmirik. Əlbəttə, mən tövsiyə edirəm ki, bütün mühüm sahələrdə həqiqi seminarlar keçirilsin, formal və şərti seminarlar yox. Bəzən insan görür ki, beynəlxalq, yaxud daxili bir seminar və konfrans keçirilir. Lakin çox zaman axırından bir şey çıxmır. Doğrudan da faydalı olan elmi-ixtisas seminarları təşkil olunmalıdır. Biz dostcasına keçirilən bu səmimi məclisdən belə bir şey gözləmirik. Amma bu məclis bütün ölkəyə yayımlanacaq. Bu baxımdan, ilham bəxş edib tamaşaçılara çoxlu ipucları versin.

## Böyük Rəhbərin müəllimlərin çıxışından sonrakı söhbəti

**Elm – həqiqi inkişafın mərkəzi**

Ölkədə iş üfüqu çox yaxşıdır, istedadlar yaxşıdır. Ölkədə mövcud olan potensiallar məqbuldur. Bu imkanları artırmaq olar. Dövlətin icraçı məsul qurumları elmə əhəmiyyət verməkdə maraqlıdırlar, elmin ölkə üçün həqiqi inkişaf amili olduğunu qəbul etmişlər. Biz elmsiz bir yerə çata bilmərik. Bu həm iyirmiillik mənzərə sənədində gəlib, həm də bu məsələ ətrafında baş verən müzakirələrdə.

**Elm istehsalı və elm təhsili**

Əhəmiyyətli olan elm istehsalıdır. Dostlar bəzi statistikalar göstərdilər, mən də qəbul edirəm. Tədqiqat inkişafları və dünyanın mötəbər elmi jurnallarında çap olunan məqalələr barədə də məlumatlar verildi. Lakin unutmayın ki, elm istehsalı, yəni elmin sərhədlərini keçib inkişaf etmək elm öyrənməkdən və dərin biliyə malik olmaqdan fərqli bir şeydir. Bizim birinciyə ehtiyacımız var. Əlbəttə, bu o demək deyil ki, ikincisinə ehtiyacımız yoxdur; ehtiyacımız var, lakin kifayət etmir. Alimlərin müxtəlif elmi sahələrdə, istər humanitar, istərsə də təcrübi elmlərdə araşdırmalarının son sözə və meyara çevrilməsi yaxşı deyil. Biz görürük ki, bu və ya digər sahələrdə tədqiqatları, araşdırma və nəzəriyyələri öyrənmək Qərb dünyasında da qəbul olunan və etmiad göstərilən əsas deyil, xüsusən humanitar sahədə belədir. Əlbəttə, bu, təcrübi elmlərdə və texnologiyada da özünü göstərir.

**İslam, məsihilik və elm**

İslamın insana, elmə, insan həyatına, təbiətə və varlıq aləminə baxış tərzi yeni məlumatlar ortaya qoyur. Bu baxış Qərbdə elmi tədqiqatların əsası və təməli olmayıb. Qərbdə elmi tədqiqatlar din adlandırdıqları bir şeylə ziddiyyət fonunda aparılıb. Əlbəttə, onlar buna haqlı idilər. Renessansın qiyam etdiyi, dünyanın elm və düşüncə istqamətinə zidd olan bir din din deyildi, din adı altında xurafat və əfsanələr toplusu idi. Orta əsrlər kilsəsinin dini əsl din deyildi. Təbii idi ki, alimlərin, ziyalıların və düşüncə sahiblərinin beyinlərində düyün və şübhələr qalsın və onlar antidin çıxış yolları axtarsınlar. Buna görə də, onlar üçün elm və dinin bir araya gəlməsi çox çətin məsələdir, bizdə isə problem deyil. Bizim dünyagörüşümüzdə elm dindən baş qaldırır, elmin ən yaxşı həvəslənidiricisi dinin özüdür. Bizim tanıdığımız din, Qurandan öyrənib əxz etdiyimiz dini dünyagörüş, eləcə də yaranış, insan, metafizika, tövhid, ilahi iradə, qəza və qədər haqda təsəvvürlərimiz elmə uyğundur. Ona görə də din elmə səbəb olur və həvəsləndirir. Nümunəsinə özünüz tarixdə baxın. Bu dinin həvəsləndirməsinə görə İslamın ilk əsrlərində bütün sahələrdə elmi hərəkət yüksəlib o zamana qədər analoqu olmayan həddə çatdı. O zaman elm və dinin bir-birinə sıx bağlı olduğu şəraitdə elm, tədqiqat və texnika özünə görə çox inkişaf etdi.

Bu gün Qərbdə mövcud olan humanitar elmlərin - iqtisadiyyat, sosiologiya, idarəetmə və digər sahələrin bünövrəsi İslamın uca tövhid etiqadına inananlar üçün etibarsız olan antidin və qeyri-dini dərkə əsaslanır, yüksək biliyə və İslam tövidinə inanan şəxslərə görə etibarsızdır. Biz bu sahələrdə işləməliyik. Biz təcrübi

elmlərdə də işləməli, özümüzdə elmi inkişaf bacarığı, yeni yol və üfüqlər açmaq istedadı yaratmalıyıq. Məqsədimiz bu olmalıdır, gözlənilən budur. Xöşbəxtlikdən, biz inkişaf etmişik; bunu açıq-aydın görmək olar.

Əgər elm qeyri-dini və antidin mühitdə inkişaf edirsə, inqilabdan qabaqkı dövrdə bu cəhətdən inkişaf etməli idik, amma biz bu sahədə geri qalmış və geridə saxlanmışdıq. 50 ildən artıq bir müddətdə bu ölkədə elmi fəaliyyətlər olduqca zəifləmiş, bəzi sahələrdə isə ümumiyyətlə, dayandırılmışdı. Yaradılmış maneələr bu millət üçün öldürücü zəhər kimi idi. Bizim xalqdan özünəinamı almışdılar. Bizim xalqımızı, istedadlı şəxslərimizi və aydın beyinlərimizi bu sərhədlərdən xaricdə olanlara o qədər vurğun etmişdilər ki, ümumiyyətlə, heç kəs cürət və cəsarət toplayıb o söz və nəzəriyyələrin əleyhinə, yaxud onlardan fərqli bir fikir yürütmək haqqında düşünmürdü. Biz hələ də müəyyən həddə bu problemlə qarşı-qarşıyayıq. Əlbəttə, İslam bizə özünəinam verdi, inqilab bizə cəsarət bağışladı. Bu gün gördüklərimiz həmin cəsarətin nəticəsidir. Bu cəsarəti gücləndirib inkişaf etdirmək lazımdır. Bizim istedadlarımız yaxşıdır, cavanlarımız yaxşıdırlar. Əgər cənabların toxunduqları məsələlər - istedadların zamanında tanınıb cəlb edilməsi, düzgün istiqamətləndirilməsi, işlədilməsi və bu sahədə düzgün mənəvi təşkilatşılıq baş tutsa, Prezident aparatı yanında bizim təklif etdiyimiz İstedadlılar fondu yaradılsa, bu məqsədlərə yaxınlaşacağıq. Bu işlər mümkündür və onları icra etmək üçün kifayət qədər iradə vardır. Mən eşitmişəm ki, İstedadlılar fondunun bəzi işləri görülüb və əsasnaməsi də yazılıb.

Mən bir məqamı da düzəldim. Dostlar bir neçə yerdə bizə dedilər ki, fərman verin. Mən bu sahələrdə heç kimə heç bir fərman vermirəm. Çünki bu sahədə bizim işimiz fərman işi deyil. Misal üçün, Təhsil nazirliyinə fərman verim ki, bu sahədə belə edin. Xeyr, biz hökumətə və məmurlara siyasətləri elan edirik. Yaxud bəzi dostlar dedilər ki, hakimə fərman verin. Mən hakimə fərman vermirəm. Hakim öz işini yerinə yetirir, öz işinə cavabdehlik daşıyır. Necə ki, dövlət qurumlarının da öz məsuliyyətləri var. Biz çalışır və izləyirik ki, bu işlər öz qanuni, düzgün və məntiqli yollarında həyata keçsin. Bu məsələlər fərman məsələləri deyil. Çoxlu problemlər də fərmanla, sərəncamla, bu kimi məsələlərlə həll olunmur.

Hər halda, ümidvarıq Allah-Taala bizim buaxşamkı toplantımıza bərəkət versin, sizin dediklərinizi, zehninizdə olanları və yəqin ki bəzi dostların yazıb verəcəklərini bizim ali təhsil sahəsində işimizin daha artıq inkişafına vasitə etsin!

Allahın salamı və rəhməti olsun sizə!

## Mədəniyyət - ölkə hərəkətinin əsas sahəsi[30]

Bismillahir-Rəhmanir-Rəhim.

Kaş vaxtımız olaydı və bu faydalı imkandan istifadə edib təhsil ocaqlarının başçıları olan siz cənabların fikirləri ilə daha yaxından tanış olaydıq! Baxmayaraq ki, mən bəzi səfərlərdə və ya ayrı-ayrı görüşlərdə universitet rektorlarından olan bəzi dostların fikirlərini dinləmişəm.

**Elm və ölkənin sabahı**

Əvvəla, siz dostların hamısına xoşgəldin deyirəm və zəhmətlərinizdən dolayı təşəkkür edirəm. Mənim fikrimcə, məsələnin məğzi budur ki, biz universitetin və elmin əhəmiyyətinə bütün vücudumuzla inanaq. Əgər bu, baş tutsa, görülməli işlərin çoxu öz-özünə görüləcək. Həm siz universitet başçıları, həm Təhsil nazirliyinin, həm Səhiyyə nazriliyinin, həm İdarəçilik və Planlaşdırma Komitəsinin məsul işçiləri və həm də bütün ölkədə ümumi məsələlərdə məsuliyyət daşıyan şəxslər inansınlar ki, elm və onun əhəmiyyətli şərtlərindən biri olan universitet ölkənin bu günü və sabahı üçün hansı rola malikdir. Bu bəlli məsələyə nə üçün inanmalıyıq? Ona görə ki, çox uğurlu elmi keçmişimizə və tariximizin dünyada uzun müddət elm ocağı kimi tanınmasına rəğmən, dünyada Qərb dövlətləri vasitəsilə müstəmləkəçilik başlanan son bir-iki əsrdə onların siyasətləri səbəbindən elmə ya etinasız qalmışıq, ya onu əldə etməyə ümidsiz olmuşuq, ya da onun üsullarında səhvə yol vermişik və nəticəsi bu olub. Bir dövrdə bu ölkədə Darülfünun yaratmaqla, əslində, öz iradələri ilə möcüzə etdilər. Siz baxın, biz bu gün də Darülfünunu Əmir Kəbirin gözəl işlərindən bilirik. Məgər bizim xalqımızın elmdən malik olduğu dərin tarix və böyük işlər qarşısında Darülfünun nədir ki?! Biz bu qədər geridə saxlanıldıq; ya iradəsizlik etdik, ya diqqətsizlik. Hər halda, bizim vəziyyətimiz elə bir yerə çatıb ki, siz bundan xəbərdarsınız.

**Milli özünəinam amili**

Elm bir fərddə başucalığı və özünəinam yaratdığı kimi, bir xalqda da eyni işi görür. Siz baxın, özü üçün hər hansı bir elmi məqam tanıyan alim insan pul və siyasi güc qarşısında qalarkən, bəzi ehtiyaclar üzündən zahirən kiçilsə və güzəştlərə getsə də, ürəyində özünə ucalıq və hörmət tanıyır, özündə olanı tərəf-müqabilinin uyğun yoxsulluğu ilə müqayisə edib başucalığı, özünəinam və qürur hissi keçirir. Bir millət də belədir. Elmdən bəhrələnən, elmi tərəqqisi olan və elmdə yenilik göstərə bilən xalq, təbii olaraq özünə inanar və qürur duyar. Hər hansı bir millətdə inam və başucalığı olsa, onun çoxlu problemləri həll olunar,

[30] Təhsil naziri və universitet rektorları ilə görüşdə çıxışı: 6 yanvar 2005.

böyük işlər görər, risklərdən qorxmaz, çətin işlərə girişər, dağları yerindən qoparar. Bütün bunların açarı elmdir. Biz ölkəmizdə elmi dirçəltməliyik. Əsas məsələ budur.

**Bütün elmlərdə inkişaf**

Elm təkcə maddi deyil, humanitar elmlər də çox əhəmiyyətlidir. Elmin bütün sahələrində sözün əsl mənasında başucalığı duymalı, bir millət və bir elmi cəmiyyət olaraq, özümüzdə elm istehsalçısı olmaq və elm zirvələrini fəth etmək hissi yaratmalıyıq. Bu kimin işidir? Bunun ən mühüm yerlərindən biri universitetlərdir.

**Müəllimlərə hörmət**

Mənim universitetlərə get-gəl etməyim, universitet müəllimlərinə və rektorlarına hörmət üzərində təkid göstərməyim, həmişə ölkənin məsul şəxslərinə universitetlərlə və elm mərkəzləri ilə əlaqə saxlamalarını, onları dinləmələrini tövsiyə etməyim və özümün də imkan daxilində buna əməl etməyim ondan ötrüdür ki, bu işlərin bizim ölkəmizi yaradılmış xroniki xəstəliyindən xilas edə bilən ən mühüm amillərdən olduğunu bilirəm. Allaha şükür olsun ki, inqilabla bu sahədə möhtəşəm dəyişikliklər yarandı. Bizim əsas sözümüz budur.

**Elmə əhəmiyyət - əməli bir iş**

Universitetlər elmə əhəmiyyət verməlidirlər. Əhəmiyyət vermək yalnız bir könül işi deyil, tətbiq etmək lazımdır. Bu tətbiq bir sıra müqəddimələr, proqramlaşdırmalar, ciddi yanaşma tələb edir. Universitetin imkanları hesabına qeyri-elmi işlərə vaxt sərf etmək, sərmayə qoymaq təbii olaraq elmi ciddiyyəti azaldır. Əlbət ki, bu zaman (həmin qeyri-elmi iş) lazımi, zəruri olarsa, eybi yoxdur. Lakin o işlərdə ifrata varmaq bu gün ehtiyacımız olan elmi yönlənməyə, elmi hərəkata, quruculuğa, elmi inkişafa zərbə vuracaq.

**Qalxmaq - hərəkətin müqəddiməsi**

Cənab Doktor Tofiqi elmi məsələlər sahəsində uğurlardan danışdı. Bunların hamısı çox yaxşıdır. Hərçənd bəllidir ki, o, müsbət cəhətləri deməlidir. Mən də buna sevinirəm və etirazım yoxdur. O uğurların mühüm bir hissəsi onun özünün universitet məsələsində peşəkar və elmi təmayülündən qaynaqlanır. O, elmi bir şəxsiyyətdir. Gələn gündən dedi ki, mən universitetlərdə elm istehsalını, elmi işin dərinləşdirilməsini və inkişafını istəyirəm. O, peşəkar şəkildə bu işlə məşğul oldu. Allaha şükür olsun ki, bu onun nəticələrinin bir hissəsidir. Bu nəticələri qorumaq lazımdır. Düzdür, bunlar nəticələr də deyil, müqəddimələrdir. Əgər məqbul və optimist bir ifadə işlətmək istəsək, deməliyik ki, bizdə qalxmaq və sıçrayış yaranmışdır. Qalxmaq məqsəd deyil, hərəkətin müqəddiməsidir. Hərəkət də mənzil başına çatmaq üçün vasitədir. Bunların hamısı üçün iş və ciddi çalışmaq lazımdır.

**Yaxşı müəllimlər**

Xoşbəxtlikdən, ölkəmizdə çox yaxşı müəllimlər var. Təxminən bir il öncə çox yaxşı və etimadlı qardaşların vasitəsilə Mədəni İnqilab Ali Şurasında bir araşdırma aparıldı. Onun nəticələrini mənə verdilər. O məlumatda gördük ki, ölkəmizdə və universitetlərimizdə təhsil və tədqiqat imkanlarının vəziyyəti müəllim baxımından inkişaf etmiş dünyadan çox da zəif deyil. Bizim çox yaxşı müəllimlərimiz var. Səbəbi də bu gün cənab Doktor Tofiqinin sözlərində deyiləndir: istedad. Bəlkə on ildir əlimdə olan məlumatlar və statistik rəqəmlər əsasında istedad üzərində təkid göstərirəm. O dedi ki, beynəlxalq tədqiqat mərkəzlərinin hansında iranlılar varsa, təqdir olunurlar. Bəli, elədir. Bu sahədə mənim də çoxlu məlumatım var. Biz istedadlı xalqıq. Əsla qəribə deyil ki, bizim müəllimimiz yüksək istedadına görə, bir qədər çalışmaqla daha artıq nailiyyət əldə etsin. Bizim görkəmli və yaxşı müəllimlərimiz var. Bu baxımdan çatışmazlığımız yoxdur.

**Gənc müəllimlərə yer vermək**

Mənim fikrim budur ki, gənc müəllimlərə yer verilməlidir. Qeyd etdiyim müəllimlik istedadımızın və qabiliyyətimizin çox əsas hissəsi son bir neçə ildə təhsil almış bu gənclərə aiddir. Bəziləri xaricə də getmiş və elm öyrənmişlər, bəziləri bizim universitetlərimizdə və ya tədqiqat mərkəzlərimizdə işləmişlər. Bu gün bizdə çox istedadlı və perspektivli müəllimlər çoxdur. Təcrübəli və qədim müəllimlərin təcrübə və elmindən maksimum istifadə etmək, bu gənclərə də imkan yaratmaq lazımdır ki, fəaliyyət göstərsinlər və inkişaf etsinlər. Bunlar fayda yetirməkdən əlavə inkişaf da edirlər.

**Gənclik və hövsələ**

Gənclik barədə mühüm bir məqam var. Mən bunu dəfələrlə təkrarlamışam. Gəncliyin ən mühüm xüsusiyyəti hövsələdir. Bunu biz qocalar yaxşı anlayırıq. Gənclərin özləri yaxşı diqqət yetirmirlər. İnsan zamanın və ömrün keçməsini təcrübə edəndə bəzən istedadı, meyli və marağı olur, amma hövsələsi olmur. Hövsələ imkanı gənc üçün ən mühüm amildir. Gəncin hövsələsi var, işin dalınca gedir, məsələnin kökünə çatır, nəticə əldə etmək üçün dərindən araşdırır. İnsana maraqlanma, axtarış, yorulmazlıq və dərin araşdırma həvəsi verən gənclik hövsələsindən maksimum istifadə etmək lazımdır. Bu gənclərə yer vermək lazımdır.

**İstedadların universitetə cəlb olunması**

İstedadları universitetə cəlb etmək lazımdır. Universitetlər xaricində yaxşı istedadlar mövcuddur. İmkan daxilində onları universitetlərə cəlb edin.

**Proqramlaşdırma hərəkatı barədə**

Bir neçə il öncə ilk dəfə Əmir Kəbir Universitetində Proqramlaşdırma hərəkatı məsələsini irəli sürdüm. Proqramlaşdırma hərəkatı elmi istehsal etmək, elmin sərhədlərini yarmaq və böyük bir hərəkat başlatmaqdır. Bu təklif yaxşı qarşılandı və bu gün universitetlərin, müəllimlərin və məsul şəxslərin sözlərində təkidlə vurğulanır. Əlbəttə, bir müddətə qədər bəziləri deyirdilər ki, biz ümumiyyətlə, bu sözün mənasını anlamırıq. Bəziləri də şübhə yayırdılar ki, məgər elm istehsal ediləsidir?! Əlbəttə, əbəs mübahisələr edirdilər və deyirdilər ki, nə üçün deyirsiniz elm istehsalı. Siz adını nə istəyirsiniz qoyun, məqsəd bəllidir. Proqramlaşdırma hərəkatı budur ki, elmi sahədə oturub əlinizi uzatmayın ki, başqaları əksinlər, meyvələrini toplasınlar və özlərinə lazım odluğundan artığını gətirib sizin ovcunuza qoysunlar. Get ək, suvar, başqalarının düzəltdiyi binanın üzərində bina tik. Bizim məqsədimiz bu idi. Bəziləri deyirdilər biz başa düşmürük. İndi də hərdən eşidirəm ki, bəzi insanlar ümidsiz danışırlar. Deyirlər məgər biz bacararıq?! Bəli bacararıq. Biz müxtəlif sahələrdə elmi cəhətdən bu gün dünyada yeni sayılan işlər görə bilərik. Bu, bütün sahələrdə tamamilə mümkündür.

**Nano texnologiya**

Biz hələ nano texnologiyada mühüm bir iş görməmişik, amma məsələni tez anladıq, qırx il ötəndən sonra xəbər tutmadıq. İşin əvvəllərində bu məsələni anladıq və indi də bununla məşğuluq. Əgər iş yaxşı yerinə yetirilsə, büdcə verilsə, həvəsləndirilsə və bu işlə məşğul olmaq üçün kadrlar ayrılsa, çox keçmədən bu sahədə dünyanın birinci ölkəsi olarıq. Əgər “bacarmırıq” desək, bu, bacarmaq və inkişaf yolunda olan ən böyük maneə olacaq. Demək lazımdır ki, bacarırıq. Həqiqətən də belədir. Biz bacarırıq.

**Bacarmağın gözəl dadı**

Bu gün çoxlu işlər görmüşük. Uzun illərdir, prezidentlik dövründən bu günə qədər ölkənin vəziyyəti haqda mənə məlumat verilir. Görürəm ki, bir zaman bizim üçün əfsanə görünən bəzi işlər bu gün həyata keçmişdir və adi işlərdən sayılır. Prezidentlik dövrümdə bir gecə ölkənin məsul şəxslərindən bir neçəsi bizim idarəyə gəldilər. Digər iki orqanın başçıları da orada idilər. Onlar bizə sübut etmək istəyirdilər ki, inqilabdan qabaq yarımçıq buraxılmış buxar stansiyasını düzəldə bilmərik. Biz qəbul etmədik, dedik ki, siz bacarmazsınızsa, başqaları bacararlar, onlar gəlib düzəltsinlər. O stansiya düzəldi, ölkəyə bəhrəsini verdi və istifadə olundu. Düzdür, onun kimi çoxlu stansiyalar da tikildi.

Məyusluq yaratmaq çox pisdir. Bu sözün əsas müraciət obyekti müəllimlər və təhsil mərkəzlərinə rəhbərlik edən, müəllimləri bu işə səfərbər etməli olan sizlərsiniz. Onlara imkan yaradın, inanın ki, bacararlar və bu inamın arxasında onlar üçün iş görün, proqram hazırlayın, şərait yaradın.

**Mənzərə sənədi**

Mənim fikrimcə, çox əhəmiyyətli məsələlərdən biri də iyirmiillik mənzərə sənədidir. Bu sənəd ixtisaslı bir sənəddir. Müxtəlif yerlərə bağlı olan iqtisadi ekspertlərdən hansı bu sənəd barədə fikir bildirmişsə, müsbət fikir bildirmişdir. Xaricdə də onun əks-sədasını siyasi müzakirələrdə, siyasi sənədlərdə görmüşük. Bu sənəd üzərində işləsəniz, yaxşı olar. Bu sənəddə bəzi hissələr universitetlərə aiddir. Cənab Doktor Tofiqi də buna toxundu. Yaxşı olar ki, bu sənədin müxtəlif sahələri üzərində tədqiqat aparılsın. Bu sənəddən elm və tədqiqat layihələri çıxarılsın, sonra bir il, iki il ərzində işin inkişafı ilə müqayisə olunsun. Hər halda, iyirmi ili bir addıma getmək olmaz. İyirmiillik hərəkəti iyirmi ildə yerinə yetirmək olar, o da əgər yaxşı yerinə yetirilsə. Buna əsasən, bir ildən, yaxud iki ildən sonra bəlli olmalıdır ki, biz bu sahədə irəliyə getmişik, yoxsa getməmişik. Bu, müəllimlərin və universitetlərin işidir. Oturub bu sənəd üzərində işləsinlər, maneələri ölçsünlər, dövlətin və ölkənin məsul işçilərinə kömək etsinlər, maneələri aradan qaldırmaq üçün yol göstərsinlər. Bu, çox əhəmiyyətli işlərdən biridir.

**Müəllimlərə lazım olan xüsusiyyətlər**

Siz cənabların işində başqa bir məqam universitetlərin müəllimləri məsələsidir. Müəllimin çox mühüm və təsirli rolu var. Bu sahədə həm siz çox məsuliyyət daşıyırsınız, həm də universitetlərin idarə heyətləri. Müəllim tələbələri təsir altına sala bildiyindən, onun üçün bəzi xüsusiyyətlər lazımdır. Bunlar imkan həddində nəzərə alınmalıdır. Müəllim İslama, inqilaba, milli və dini qürura eşq bəsləməlidir. İdeal müəllim budur. Müəllim doğrudan da milli qürur və dini qeyrət hissi keçirməli, xidmət ruhiyyəsi ilə aşıb-daşmalı, gəncləri öz uşaqları kimi yetişdirməlidir. Laqeydlik və etinasızlıq halı, başdan etmək və dərsi necə gəldi başa vurmaq əsla qəbuledilməzdir.

Müəllim dünyada baş verən hadisələrlə tanış olmalıdır. Bizim müəllimimiz sinifdə təsir buraxdığına görə bunları bilməlidir.

Müəllim siyasətpərəst olmamalıdır. Demirəm ki, siyasəti bilməməlidir. Qeyd etdiyimiz qabaqkı məsələ siyasəti bilməyi tələb edir, amma siyasəti bilmək və siyasi olmaq siyasətpərəst olmaqdan başqa bir şeydir. Siyasətbazlıq pisdir. Nə etdiklərini bilməlidirlər, amma bütün işlərinin həmişə siyasi bir maraq ətrafında olması çox pisdir. Xüsusən də cinah, şəxs və partiya cəhətlərində olan siyasi rəng aldıqda daha pis olur.

Müəllim tələbəyə vaxt ayırmalıdır. Düzdür, bu məsələ bir qədər müəllimlərin məişət məsələsi ilə əlaqədardır. Mən bundan xəbərdaram və bilirəm. Elə edin ki, müəllim vaxt ayıra bilsin, bir neçə yerdə işləməyə məcbur olmasın. İndi bir müəllimdən soruşsanız ki, gündə neçə saat dərs deyir, deyəcək ki, misal üçün, səkkiz saat. Bir müəllim necə yeddi-səkkiz saat dərs deyə bilər?! Nə zaman mütaliə edir, nə zaman fikirləşir, nə zaman özünü tədris yerinə çatdırır?! Bunun çoxlu problemləri var. Onları bir qədər məişət məsələləri sarıdan arxayın etmək lazımdır ki, çox o tərəf-bu tərəfə qaçmasınlar.

**Mədəniyyət - ölkə hərəkətinin əsas sahəsi**

Burada işarə vurulan və mənim də çox əhəmiyyətli yanaşdığım mədəniyyət sahəsi də olduqca mühümdür. Biz mədəniyyəti yalnız elmin, təhsilin deyil, ümumiyyətlə, insan həyatının əsas sahəsi hesab edirik. Bir ölkənin mədəniyyəti onun ümumi hərəkət obyektidir. Ölkənin siyasi və elmi hərəkəti də mədəniyyət müstəvisindədir. Mədəniyyət - yəni cəmiyyətin intrinsik xüsusiyyətləri, xalqın yerli özəllikləri, təfəkkür, inam və idealları. Bunlar bir ölkənin mədəniyyətinin əsasını təşkil edən elementlərdir. Bir xalqı qorxmaz, qeyrətli, cəsarətli və müstəqil, yaxud qorxaq, xar və rəzil edən bunlardır. Mədəniyyət çox əhəmiyyətli bir məsələdir. Biz mədəniyyətdən, mədəni inkişaf və tərbiyədən imtina edə bilmərik. Mədəniyyət də elm kimidir. O, öz-özünə bitən ot-ələf deyil. Sizin öz cəmiyyətinizdə və yaxud dünyanın hər hansı bir nöqtəsində gördüyünüz mədəni əlamətlərin toxumu, heç şübhəsiz, bir əl tərəfindən səpilmişdir. Əlbəttə, insan bəzi əlləri görür, bəzisini isə yox. Evin içindən tutmuş məktəbə, küçəyə, radio və televiziyaya, peyk antenlərinə, beynəlxalq təbliğata və internetə qədər hamısı bu qəbildəndir. Mədəniyyət istiqamətləndirilməli və inkişaf etdirilməlidir. Buna görə də, universitetlərdə mədəni iş görmək olduqca əhəmiyyətlidir.

Uzun illərdir Allah-Taalanın köməyi ilə universitetlərdə nümayəndəlik orqanı yaratmışıq. Xoşbəxtlikdən, cənab Qumi doğrudan da görkəmli bir şəxs, alim və aydın bir ruhanidir. Düzdür, mən müxtəlif universitetlərdə çalışan bütün ruhaniləri tanımıram, amma bilirəm ki, cənab Quminin dəyərli və yaxşı fəaliyyətləri var. Eyni zamanda belə deyil ki, iş təkcə bu şəxslərin çiynində olsun. Universitetlərin rektorları onlara kömək etməli, işlərini asanlaşdırmalıdırlar ki, doğrudan da mənəvi, dini, ruhani, hidayətçi və ata kimi fəaliyyət göstərə bilsinlər. Bundan əlavə, universitetlərin rektorlarının və məsul şəxslərinin özü və nazirliyin əsas idarəsi mədəni məsələlərə dair çox böyük məsuliyyət daşıyırlar. Bəzən bizim dediyimiz sözlər təxmini və gümanla başa düşülür. Amma sonra xoşbəxtlikdən, Allah-Taala bizi xəcalətli etməmək üçün onun elmi və konkret əlamətlərini də göstərir. Baxmayaraq ki, əvvəldən deyəndə də yalnız güman deyil, məlumatlara əsaslanan bir təhlildir.

**Mədəni hücum**

Mən dəfələrlə demişəm ki, İran xalqının düşmənləri top-tüfəng və bu kimi şeylərdən daha çox fəsad mədəniyyətini yaymağa ehtiyaclıdırlar. Xəbərlərdə yazılana görə, ABŞ-da mühüm bir siyasi mərkəzin başçılarından biri deyib ki, İrana bomba atmaqdansa, qısa yubkalar göndərin. Doğru deyir. Əgər bir ölkə üçün cinsi ehtirasları, qadın və kişinin, oğlan və qızın fəsadlı qarışığını yaysalar və cavanın təbii instinktinin çəkdiyi yollara yönəltsələr, top-tüfəngdən istifadə etməyə ehtiyac qalmayacaq. Fəsad bir xalqı öz-özünə məhv edir, onun gələcəyini korlayır.

**Amerikalılar süqut astanasında**

Bu gün amerikalıların özləri gələcəklərindən qorxurlar. Mən bunu onların ziyalılarının bəzi məqalələrində görürəm. Təkcə bu günə də aid deyil, bəlkə 10-15 ildir ki, Amerikada bu problem var. Onların bəzi mütəfəkkirləri bugünkü Amerika nəslini və ondakı fəsadın inkişafını görürlər. Onlar homoseksualizmin yayılmasını, ailənin məhv edilməsini, küçələrdə yatan uşaqların çoxalmasını, uşaq və yeniyetmə cinayətlərinin artmasını müşahidə edirlər, bilirlər ki, bu vəziyyət ABŞ kimi sivilizasiyalı bir ölkəni, bütün elmi və texnoloji tərəqqisinə rəğmən, yaxın gələcəkdə yerə yıxacaq. Buna görə də, həyəcan təbli çalırlar. Uzun müddətdir onlar hətta Hollivuda və başqa mərkəzlərə təzyiq göstərərək tövsiyə edirlər ki, televiziyada ehtiraslı və aqressiv filmlər göstərmək əvəzinə ailə filmləri göstərsinlər. Buna dair romanlar da yayılıb. Onlar hətta yazıçıların adını da deyirlər. Əlbəttə, onların fəsad dolu hərəkətləri elə bir məqama çatıb ki, qarşısını almaq mümkün deyil. Onu bir qədər gecikdirə bilərlər, amma qarşısını almağı bacarmayacaqlar. Bizsə bacararıq. Biz hələ belə təhlükəli uçurumlardan çox uzaqdayıq.

**Sənaye və universitet**

Universitet və sənayenin əlaqəsi məsələsini də dedilər. Bu da mühümdür. Mən yenə də bunun üzərində təkid göstəririrəm. Xəbərim var ki, yaxşı işlər görülüb, amma bundan da artıq çalışmaq lazımdır.

**Universitetlərdə siyasi fəaliyyət**

Cənabların dediyi siyasi məsələlər barədə də bir məqamı deyim. Fəal siyasi tələbə tələbələrin çox aşağı faizidir. Bunu sizin hamınız bilirsiniz, bəllidir ki, belədir. Bizim gənclik dövrümüzdə də belə idi. O zaman universitetlərdə siyasi fəallar az idilər və əlbəttə ki, universitetdə təsir də buraxırdılar.

Mən tələbələrin siyasi hərəkətlərinin tərəfdarıyam, özünüz bilirsiniz, dəfələrlə də demişəm. Mən bu sözləri deyəndə ölkənin ogünkü siyasi mühitində çox da tərəfdarı yox idi. Narahat olurdular nə üçün demişəm ki, universitetlərdə siyasi fəaliyyəti məhv edən şəxslərə lənət olsun. Mən 10-12 il bundan əvvəl bu hüseyniyyədə bu sözü dedim. Mən tələbələrin siyasi hərəkətinin tərəfdarıyam.

Amma biz tələbələri siyasətə çəkməliyikmi? Mən bunu qəbul etmirəm. Bu, zəruri deyil. Tələbə gəncin emosiyası, hərəkəti, bu işə meyli var, əlavə stimula gərək yoxdur. Lakin tələbə gəncin duyğuları birinci növbədə ədalətsevərliyə yönəlmişdir. Tələbəni hər şeydən artıq cəlb edən ədalətsevərlikdir. Bu hissi onda gücləndirin. Ola bilsin, ölkənin məsul şəxslərindən çoxuna etirazı da olsun. Amma onun etirazı bir gəncin etirazıdır, heç bir eybi yoxdur. Mən tələbələrin toplantılarında iştirak edəndə görürsünüz ki, minlərlə tələbə duyğularını necə ifadə edirlər. Mən bilirəm ki, bu bir neçə min nəfərin mühüm bir faizinin mənə etirazı var. Amma öz məhəbbətimi onların arasında bölmək istəsəm, belələrinin payı bir misqal da azalmayacaq. Bunlar da gəncdirlər, bunlar da mənim övladlarım və uşaqlarımdırlar, bunlar da bu ölkənin tələbələridir. Tutaq ki, haqlı, ya haqsız

hansısa bir məsələyə etirazlıdırlar. Nə olsun?! Etirazlı olmağın eybi yoxdur, amma işin əsası və bünövrəsi düzgün olmalıdır.

**İSİ-nin nəzarəti**

Son məqam yenə də elmi məsələlərə qayıdır. Biz tədqiqat işlərində və elmi məqalələrimizi ISI jurnallarında dərc etdirməkdə bəzən problemlərlə rastlaşırıq. Düzdür, qeyd olunduğu kimi, çap olunmuş məqalələrimizin həcmi yaxşıdır, amma xəbərim var ki, xüsusən humanitar elmlərdə ISI jurnallarının bəzisi ümumiyyətlə, bizim tədqiqatçılarımızın məqalələrini çap etmirlər. Nə üçün? Ona görə ki, onların elmi əsaslarına uyğun deyil. Bəli, fəlsəfədə, psixologiyada, pedaqogikada və digər mövzularda bizim sözlərimiz var. Bizim tədqiqatçımız araşdırma aparıb və bir nəticə alıb. Bizim istədiyimiz kimi, bir sərhədi keçib, amma bu sərhəd həmin elmin vətəni olan Qərb və onun dəyərləri ilə uyğun deyil. Buna görə məqaləni çap etmirlər. Bu, liberal-demokratiya dünyasının sözün həqiqi mənasında açıq olduğunu və hamının istədiyi sözü danışa bildiyini düşünən bəzi şəxslərin sadəlövhlüyünə cavabdır. Xeyr, onlar hətta elmi işləri də meyar əsasında görürlər. Bu, xəbərdaredici və ibrətamiz məsələlərdəndir. Əgər məlumatınız yoxdursa, araşdırın, sözümün doğru olduğunu görəcəksiniz.

**Liberal-demokratiyanın yalançı iddiaları**

Biz eşitmişdik ki, Stalin dövründə hökumət elmi tədqiqat mərkəzlərinə deyirdi ki, biz bu nəticəni əldə etmənizi istəyirik. Elm azad deyildi. Düzdür, bunu da amerikalılar və qərblilər deyirdilər. O zaman biz şübhə etmirdik ki, belədir, amma indi mən şübhə edirəm. Bunların o qədər yalan danışdığını görürəm ki, deyirəm bəlkə bu da Stalinə atılan böhtandır. Yalan, yoxsa doğru olduğunu bilmirəm, amma deyirdilər ki, elmi araşdırmanın nəticəsi dialektik materializmə zidd olsaydı, qəbul olunmurdu. Deyirdilər elə tədqiqat aparmalısınız ki, nəticəsi məhz belə olsun. İndi biz liberal-demokratiya dünyasında bunu öz gözlərimizlə görməkdəyik, lakin modern, səliqəli, nəzakətli, ütülü və qalstuklu formada. Bir müsəlman tədqiqatçının elmi araşdırması ISI hakimlərinin meyarlarına zidd olduqda dərc edilmir.

**Müsəlman ISI-sinin təsis edilməsinin zəruriliyi**

Müsəlman ISI mərkəzinin yaradılması üzərində fikirləşin. Bu sahədə müsəlman ölkələri ilə dialoqa girin. Biz xoşbəxtlikdən, müsəlman ölkələri arasında inkişaf etmişik. Əlbəttə, bunun mənası o deyil ki, biz dünyadakı ISI jurnalları ilə əlaqəmizi kəsməliyik. Xeyr, bu mərkəzi də yaradaq ki, bizim özümüzə aid olsun. Bu da mötəbər bir mərkəz olsun. Bu işlərdən nə qədər çox görsəniz, ölkənin inkişafına bir o qədər kömək etmiş olacaqsınız.

Çox yaxşı bir görüş idi. Yeganə nöqsanı bu idi ki, sizi dinləyib dostların söhbətlərindən istifadə edə bilmədik. Ürəyim istəyirdi bu da olsun, amma olmadı.

İnşallah, ömür və imkan olsa, gələcəkdə belə bir məclis təşkil etsək, o məclisdə mən heç nə danışmayacağam və yalnız siz danışacaqsınız.

Allahın salamı və rəhməti olsun sizə!

## Ölkə inkişafının maneələri[31]

Bismillahir-Rəhmanir-Rəhim.

Çox şadam ki, bu gün namazı siz əziz və mömin gənclərlə birgə qıldım. İnşallah, siz mömin gənclərin, qız və oğlanların təmiz qəlbləriniz və lətafətli ruhlarınız, həmçinin duyğularınızla bəzənmiş mühit sayəsində biz də Allah-Taala yanında yaxşı bəhrələr götürək.

Bir gənc toplumu üçün əsas məsələ budur ki, uca məqsədlər yolunda çalışıb fəaliyyət göstərsin, ayıq olsun. Mənim sizin təşkilatınızı sevməyim bundan ötrüdür ki, o, Allahın lütfü ilə təsis olunduğu 10-15 ildə get-getə möhkəmlənmiş və dərinləşmişdir. İnsanların və müxtəlif təmayüllərin get-gəli ilə dəyişilməyən bu düzgün istiqamətin qədrini bilin.

**Gənclik aləmi**

Gənc tələbədə gənc olduğuna görə bəzi xüsusiyyətlər var, tələbə olduğuna görə də bəzi xüsusiyyətlər. Bunlara dini, inqilabçı və mömin bir təşkilatın öz dindarlığı, inqilabçılığı və möminliyi baxımından irəli gələn xüsusiyyətlərini də əlavə edək. Bunların məcmusu gözəl bir təsvir yaradır. Gəncliyin çox üstünlüyü var: hövsələ, həvəs, bacarıq, yenilik qüvvəsi, yeniliyə meyl, qavrayış qabiliyyəti və bunların hamısından üstünü, ürəyin təmiz və ruhun aydın olması. Bəziləri bu imtiyazlardan öz ehtirasları üçün istifadə edirlər. Ehtiras da hamıda mövcuddur; gənclərdə var, qocalarda da. Bəzi qocalar nəfs və ehtiras baxımından gənclərdən də irəlidədirlər. Ehtiras və həvəsin də müxtəlif növləri var: mal həvəsi, vəzifə həvəsi, hakimiyyət həvəsi, hörmət həvəsi, bir də cinsi həvəs. Qocalar bütün bu sahələrdə bəzən gənclərdən də öndədirlər, lakin onların fiziki, sinir və düşüncə bacarıqları zəif olduğundan geri qalırlar. Bu baxımdan, təkcə gəncləri ittiham etmək olmaz.

Gənc fiziki və ruhi baxımdan üstündür. Elə bir kitabdır ki, onun ilk fəsilləri yazılmış, sonrası isə yazılmamışdır. O, yazılanda kamilləşəcək. Sizin hələ bir neçə fəsliniz yazılmışdır, digər fəsilləriniz sonradan yazılacaq. Biz son səhifələrə çatmışıq. Əlbəttə, qocalar üçün bu bir üstünlükdür, lakin əsas məsələ necə və nə yazmaqdır. Əgər siz gənclər indidən çalışsanız, növbəti fəsilləri daha yaxşı, daha təmiz, məndən və mənim kimilərdən daha dərin yaza bilərsiniz. Bu da gənclər üçün bir üstünlük sayılır.

Mən cavan olanda yaşlı bir ruhani vardı. Atamla dost idi, bizə çox get-gəl edirdi. Biz yeniyetməlik çağından bu kişini tanıyır, ona hörmət edirdik. O adətən, bizi görəndə deyirdi ki, gəncliyinizin qədrini bilin. Əlbəttə, özü ibadət, mənəviyyat,

---

[31] Tələbələrin İslam birliyinin üzvləri ilə görüşdə çıxışı: 4 fevral 2005.

mərifət və irfan adamı idi. Nəcəfin böyük ariflərindən olmuş məşhur Şeyx Məhəmməd Bahari ilə əlaqədə olan şəxslərdən idi. O bizə deyirdi ki, gənclikdə ibadət daha yaxşı, daha asan, daha şirin və Allah yanında daha məqbuldur. Yəni siz gənclərin ibadəti Allah-Taala yanında daha artıq qəbul olunma şansına malikdir. Siz bu xüsusiyyətlərin tərənnümünü gəncliyin həvəs və hərəkətində görürsünüz: elmə, öyrənməyə, fəaliyyətə, işə və çalışmağa həvəs.

**Tələbə mövqeyi**

Gənc tələbə olanda bunlara tələbəlik xüsusiyyətləri də əlavə olunur. Tələbə mühiti aydın fikirli, yeni düşüncəli və gələcəyə baxan amalçı bir mühitdir. Tələbə mühitində başıaşağı olub gələcəkdən xəbərsiz qalmaq çox mənasızdır. Tələbə dünyanın, gələcəyin, ölkənin, siyasətin, iqtisadiyyatın, iş, fəaliyyət və quruculuğun nə olduğunu bilir. Tələbə bunları digərlərindən daha yaxşı dərk edib elm və bilik sahəsinə girir. Buna görə də, tələbə mühiti ölkənin və dünyanın hər yerində bu cəhətdən üstün bir mühitdir. Universitetdə qocalar da var, onlar da alimdirlər, amma bu imtiyaza malik deyillər. Siz bu imtiyazların hamısına maliksiniz.

**Əxlaqi sağlamlıq və mənəvi paklıq**

Sonra çatırıq əxlaqi və əməli paklıq məsələsinə. Bu, dindarlıq sayəsində əldə edilir. Bunun özü də bir aləmdir. İnsanın həyatında elə vəsfedilməz ləzzətlər var ki, heç bir maddi vasitə ilə əldə oluna bilməz; Allahla ünsiyyətin, zikrin ləzzəti, sizin namaz halında, yaxud Ərəfə və ya Kumeyl duasında gözəlliklərin və yaxşılıqların mərkəzi və yaradıcısı ilə xəlvətdə danışarkən hiss etdiyiniz anın ləzzəti. Cəmiyyət arasındasınız, amma onunla xəlvət duyursunuz. Bu, çox yüksək bir ləzzətdir. Gec və az əldə ediləndir, amma çox qəribə ləzzəti var. Yəqin ki, bunu təcrübə etmisiniz. Ara-sıra bütün insanlar bunu təcrübə edirlər. Onlar üçün bəzi vaxtlar qarşıya çıxır və bir anlıq, bir dəqiqəlik, yaxud bir saatlıq bu ləzzəti hiss edirlər. Bizim problemimiz budur ki, ətrafımızın problemlərinə və çirkinliyinə görə onu davam etdirə bilmirik, amma o anda sizə ən gözəl bir şey də versələr, ona rəğbətiniz olmaz, ürəyiniz istəyər ki, öz vaxtınızı Allahla ünsiyyətlə, Rəbbinizlə sevgili zümzümə ilə keçirəsiniz.

O zaman insan Allahla danışanda qəlbi Allahın cavabını da eşidir. Bunlar salehliyin nəticəsidir. İnsan nə qədər artıq saleh olsa, günahdan nə qədər artıq çəkinsə, öz rəftarına, əməlinə və düşüncəsinə daha artıq nəzarət edə bilsə və ehtiyatlı olsa, - bu ehtiyatlılığın adı təqvadır - mənəvi halı daha aydın və daha işıqlı olacaq. O zaman insan saleh olacaq və dünyanın hər bir yerində "əssəlamu əleyna və əla ibadillahis-salihin" deyəndə sizə salam göndərəcəklər. Bu salamlar kompliment deyil. Siz "salam sənə, ey Əbu Abdullah!", yaxud "salam sənə, ey Allahın rəsulu!" deyəndə bu, əslində, müraciət etdiyiniz şəxsə Allahdan mənəvi sağlamlıq və təhlükəsizlik istəməkdir. Biz Peyğəmbərə və İmam Hüseynə (ə) hörmət və sevgi ilə bu duanı edirik. Biz mühüm bir şəxs deyilik, o uca, şərafətli və böyük insanlarla müqayisəedilməz dərəcədə dəyərsiz bir zərrəyik, amma eyni

zamanda yenə də hörmət bildiririk, öz qədərimizcə bir hədiyyə edirik. Siz saleh olanda Allahın bütün bəndələri "salam olsun bizə və Allahın saleh bəndələrinə!" deyəndə sizin üçün həmin salamı və hədiyyəni göndərirlər. Salehlik budur.

**Saleh tələbə**

Əgər bir təşkilatın üzvləri həm gənc, həm tələbə, həm də saleh insanlar olsa, bu, çox qiymətli və dəyərlidir. Bunu qoruyun. Neməti qorumaq adətən, onu əldə etməkdən çətin olur. Mənəvi nemətlər də belədir, onları saxlamaq çətindir. “Çətindir” nə deməkdir? Yəni saxlamaq olmur?! Demək lazımdır ki, boşla getsin?! Xeyr, məqsəd bu deyil. Yəni bunu saxlamaq üçün çalışmaq və diqqətli olmaq lazımdır. Elm də belədir; onu da təkrarlamasanız, yadınızdan çıxar. Müəllim çox əziyyətlə bir söz tapıb deyir, siz də qeyd edirsiniz. Əgər qeydi bir kənara atsanız, yada salmasınız, təkrarlamasanız, getdikcə əldən verəcəksiniz.

**Təqva və mənəviyyat**

Bütün mənəvi məsələlər belədir. Onları qorumaq lazımdır. Bu qorumağın təqvaya ehtiyacı var. Təqva - ehtiyatlı olmaqdır. Bu salehliyin qorunması üçün ehtiyatlı olmalısınız. Müxtəlif təsirlərin təlatümlü çəkişməsində insan çoxlu mənəvi təhdidlərlə üzləşir. Buna görə salehliyi saxlamaq lazımdır. Nə üçün saxlamalısınız? Çünki ona ehtiyacınız var. Həm özünüzün ehtiyacınız var, həm də tarixinizin qurulmasında rol oynayan bir şəxs olaraq. Sizin qiyamətdəki həqiqi simanız topladığınız ehtiyatlardan asılıdır. Yaxşı işlər görmüş insan orada sağ tərəfdə olanlardandır və üzü cənnət sahiblərinin üzü kimidir. Amma burada pis bir iş görəndə oradakı sifəti yırtıcı heyvan sifətinə çevrilir.

Həyat bir növ yuxudur. Siz yuxu görəndə yuxuda olduğunuzu hiss etmirsiniz, elə bilirsiniz ki, həqiqəti görürsünüz. Sonra isə yuxudan ayılır və həqiqəti dərk edirsiniz. Bu dünyada həqiqət saydıqlarımız da öz növbəsində, ölümdən sonrakı həyata nisbətən bir yuxudur: "Və həqiqətən, axirət əsl həyatdır". Həqiqi həyat və yaşayış oradadır. O həqiqi yaşayışda insan bu dünya yuxusundan ayıldıqda özünün dünyadakı canavar sifətlərini görür. Amerikalı əsgər İraqda günahsız bir gəncə - heç o amerikalını tanımayan, ona bir pislik etməmiş, yalnız şübhələnən bir gəncə işgəncə verir. Şəkillərdə, filmlərdə və yazılarda görmüsünüz ki, onların başına nə bəla gətirirlər. Belə bir şəxs canavardır, lakin insan paltarında olan canavar. O, əyninə adam paltarı geyinib Florida və Texas küçələrində yeriyəndə, odekolonunun ətri ətrafı bürüyəndə, təmiz və ütülü pencək-şalvar geyinəndə, qalstuk da vuranda canavar olduğu bilinmir, amma əslində, canavardır. O bu ağır yuxudan oyananda bir canavardır; istəyir adı Buş olsun, ya başqa bir şey. Bu məsələ eynilə yaxşı iş barədə də belədir. Saleh əməliniz olanda mələkdən də yaxşı şəkildə yuxudan oyanırsınız. Qiyamətdə saleh insanın özü işıqlı olduğundan ətraf mühiti də işıqlandırır.

**Saleh olmağa ehtiyac**

Siz nəinki təkcə özünüz bu salehliyə ehtiyaclısınız, dediyimiz dəlilərə əsasən, tarix yazmaq üçün də bu salehliyə ehtiyacınız var. Sizin tarixiniz məzlum bir tarixdir, ölkəniz indi də məzlum bir ölkədir. Biz bir xalqıq, bizim bir sözümüz var. Bu söz bu gün dünyaya hakim olan qüvvələrə acı görünür. Bu söz zülm əleyhinə mübarizədir. Biz zülmə qarşıyıq. Bizim Fələstin xalqı ilə heç bir qohumluğumuz yoxdur, amma Fələstini müdafiə edirik. Nə üçün? Çünki orada böyük bir zülm baş vermişdir.

**Məzlumları müdafiə**

10-20 il bundan əvvəl ingilislər Şimali İrlandiyada bəzi şəxsləri həbs edəndə mən cümə namazında 80-90 gün həbsxanada aclıq elan edən və orada da ölən ingilis Bobbi Sendzin adını çəkdim. O zaman İranda bir küçənin adını Bobbi Sendz qoydular. Təkcə o ölmədi, bir neçə gündən sonra eyni aksiyanı keçirən başqa birisi də öldü. Bir neçə gündən sonra üçüncü şəxs də öldü. Amma ingilislər veclərinə də almadılar. Həmin ingilislər indi həbsxana və insan hüquqları barədə bu qədər səs-küy salırlar. O şəxslər nə müsəlman idilər, nə şiə idilər, nə də bizim üçün nə zamansa hörmət məktubu yazmışdılar, amma məzlum olduqlarına görə onları müdafiə etdik. Bu, İslam quruluşuna hakim təfəkkürdür. Harada məzlum varsa, özümüzü onun yanında bilirik. Düzdür, bu o demək deyil ki, biz qoşun yeridirik, yaxud maddi kömək edirik. Xeyr, bizim prioritetlərimiz var. Çox zaman insanlar məzlumdurlar və mübarizə aparırlar, amma biz onlara bir rial da maddi kömək edə bilmirik və etmirik. Bu dəstək maddi, yaxud hərbi kömək deyil, mövqe bildirməkdir. Əgər bizim özümüzə zülm etmək istəsələr, biz daha möhkəm dayanacağıq.

**Böyük zülm**

Bir xalq üçün bundan böyük zülm yoxdur ki, üstün bir güc onun ölkəsinin işlərini əlinə keçirsin, başçı təyin etsin, siyasət təyin etsin, maddi sərvətləri xərcləsin. Bu müddətdə İraq neftini səssiz-səmirsiz şəkildə bacardıqları qədər apardılar, satdılar, heç kimə də heç bir hesabat vermədilər. Çoxlu başqa işlər də görmüşlər. Onları yazsaq, bir neçə kilometrlik bir şey alınar.

**Qəmli müstəmləkə dastanı**

Son 2-3 əsrdə hegemon siyasi güclərin zəif ölkələrə qarşı müstəmləkə tarixinin qəmli dastanı var. Əvvəllər də müstəmləkə olub, lakin bu formada və bu üslubda olmayıb. Müstəmləkəçiliyin meydana çıxdığı illərdə çox qəmli hadisələr baş vermişdir. Avropalılar başladılar, amerikalılar da davam etdirdilər; illərlə Hindistanı, Afrika ölkələrini... Siz görün bu gün Asiya və Afrika ölkələri hansı vəziyyətdədirlər. Bu gerilikdə heç bir təbii xüsusiyyətin rolu yoxdur. Sanki müştərək bir irs iki qardaşa çatır. Bir qardaş o biri qardaşın yatmasından və xəbərsizliyindən istifadə edib malları toplayır, sonra onun əl-ayağını bağlayır və tüfənglə başının üstündə durur. Sonra da bu sərvətlə istədiyi işi görür. Demək

olmaz ki, o biri qardaşın istedadı çoxdur. Xeyr, əslində, bu qardaş mövqedən namərdcəsinə istifadə etmişdir. Avropalılar bu işi gördülər. Sonra həmin pulla öz elm və texnologiyalarını artırdılar. Əldə etdikləri elm və texnologiya ilə yenidən təzyiqi artırdılar və bu günə qədər də müxtəlif formalarda davam etdirirlər. Harada xalqların təzyiqi ilə üzləşiblərsə, geri çəkilmiş və yeni bir hiylə işlətmişlər.

**Müstəmləkənin dərəcələri**

Bir gün müstəmləkə birbaşa idi; öz sözləri ilə desək, kolonializm. Bir gün də müstəmləkə dolayısı ilə baş verdi. Özləri bunun adını neo-kolonializm qoydular. Bu gün daha yeni bir müstəmləkə mövcuddur və artıq qabaqkı neo-kolonializm formasında deyil, ondan da dərindir: xalqlara qarşı informasiya vasitələrindən, psixoloji təsirlərdən istifadə etmək, xalqların arasından fəal, görkəmli və aparıcı qüvvələri satın almaq, onların vasitəsilə müstəmləkəyə şərait yaratmaq. Bizimlə, siz xaqla və mömin gənclə düşməndirlərsə, bundan ötrüdür. Çünki qapı onların üzünə bağlıdır. Düzdür, yol tapırlar, pis işlər görməkdədirlər. Biz də mübarizə aparırıq.

**Müxtəlif sahələrdə müharibə**

Bu gün müharibə başqa bir sahədədir, hərbi sahədə deyil; internet, peyk antenləri, müxtəlif təbliğat yolları, muzdur junalistlər, dövlət qurumlarına yol tapmış və həmin məqsədlə işlər görən ünsürlərlə. Əlbəttə, onların qarşısında çalışıb fəaliyyət göstərən güclü bir cəbhə də mövcuddur. Bu mübarizənin təsiri ölkənin gələcəyinin qurulmasında özünü göstərməlidir. Onlar istəyirlər ki, bir ölkəni yox etsinlər, elm və yaradıcılıq qüvvəsini alsınlar, bir xalqın öz istedadını çiçəkləndirib, müxtəlif sahələrdə zirvəyə çatmasının qarşısını tamamilə alsınlar. Onların qarşısındakı mübariz bir xalqın məqsədi budur ki, öz istedadını üzə çıxarsın, meydana atılsın, öz işlərinə hakim olsun, ölkəsini özü idarə etsin, sərvətlərini özü çıxarsın, düzgün yerdə xərcləsin, öz etiqadları, mədəniyyəti və imanı üzərində dayansın və öz yolunu seçsin. İslam Respublikası bu yolu seçmişdir.

**İslam dünyasının təsirlənməsi**

İslam dünyası ötən onillər boyunca heç zaman inanmazdı ki, zahiri baxımdan belə böyük hərbi, maddi və media gücü qarşısında müqavimət göstərmək olar. Buna görə təslim olmuşdu. Bəziləri özlərini tamamilə satmışdılar. Sanki bir şəxs narkotik maddələrə alışıb, zərər olduğunu bilir, amma həmin ötəri ləzzəti ilə deyir ki, qənimət anıdır. Bəzilərinin də ürəyi yanırdı, belə vəziyyəti istəmirdilər, amma heç bir iş görə bilmirdilər.

**Hegemonizm**

Bu gün İslam dünyasında bu hiss yaranıb ki, qlobal hegemonizm qarşısında dayanmaq olar. Hegemonizm də təkcə ABŞ deyil, ABŞ onun bir şaxəsidir. Hegemonizm yeddibaşlı bir əjdahadır, yekə bir başı Amerikadır. Hegemon

dünyanın düşünən beyni və döyünən ürəyi isə ABŞ dövləti deyil, ABŞ hökumətlərini iş başına gətirənlər; necə olursa-olsun, indiki dəli prezidenti iş başına gətirməyi lazım bilənlərdir; sionist və qeyri-sionist mərkəzləri, kapital mərkəzləri, böyük istehsal və ticarət kartelləri, yüzlərlə informasiya vasitəsi, televiziya kanalı, qəzeti və digər imkanları olan böyük bir güc mərkəzidir. Heç kim inanmırdı ki, belə bir güc qarşısında müqavimət göstərmək və hər bir məsələdə "yox" demək olar. Təəssüf ki, indi də İslam dövlətləri bunu dərk etmirlər. Onlar da "daha faydası yoxdur" - deyib təslim olurlar, xalqlar isə ayılmışlar.

**İslam Respublikasının başçılarının dünyada sevilməsinin sirri**

Görürsünüz ki, bizim prezidentimiz bir neçə Afrika ölkəsinə gedir və xalq onu gül-çiçəklə qarşılayır. Bu ümumiyyətlə, misilsizdir. Dünyada misli görünməyib ki, bir ölkənin prezidentini başqa bir ölkənin xalqı belə qarşılasın. Bəli, bir qrup adam nümayiş məqsədi ilə küçələrə çıxır, əl çalır və əl tərpədirlər. Amma belə böyük izdiham görünməmişdir. Mən də prezident olanda Pakistana getdiyimdə, doğrudan da qiyamət oldu. Təəssüf ki, bu mühüm tarixi hadisələr bəzilərinin yadından çıxır. Bir qədəri də bunları işıqlandırmayan media qurumlarımızın təqsiridir. Mən Pakistana gedəndə siz uşaq idiniz, bəlkə də yadınızda deyil. Orada qiyamət qopdu - İslamabadda, Ravalpindidə və hər yerdən çox Lahurda. Pakistan xalqının izdihamı İran xalqı kimi idi. Maşınımı əlləri üstündə qaldırmaq istəyirdilər. Pakistanın ozamankı prezidenti Ziyaülhəqq mənim yanımda oturmuşdu. O, xalqı görüb dəhşətə düşmüşdü. Biz İranda belə izdihamın oxşarlarını gördüyümüzdən bu rəğbətin mənasının nə olduğunu anlayırdıq. Cənab Haşimi Rəfsəncani prezident olanda Sudana getdi, onda da belə qiyamət qopdu. Cənab Xatəmi Livana və ondan bir qədər sonra Afrikaya getdi, yenə də həmin mərəkə yarandı. Onlar bir şəxs üçün bu işləri görmürlər, məsələ müsəlman İranın və İran xalqının heysiyyəti, həmçinin İslam Respublikasını, milləti və dövləti təşkil edən heysiyyət, eləcə də inqilabın və imamın şəxsiyyəti məsələsi idi.

Xalq ümidvar olmuşdur. Cənab Xatəmi deyirdi mən Afrika ölkələrinin birinin prezidentindən soruşdum ki, digər ölkə başçıları da sizin ölkəyə gələndə belə qarşılanırlarmı? Dedi bir prezident gələndə bir neçə nəfər tamaşa üçün çıxır, əl edir və bəzən də tapşırırıq ki, bəzi idarələrdən bir qədər adam gətirsinlər. O həmçinin demişdi ki, ən izdihamlı qarşılama mərasimi Jak Şirak gələndə oldu. Çünki bizim ölkəmiz keçmişdə Fransanın müstəmləkəsi olub, dilimiz fransız dilidir. Lakin Jak Şirakın qarşılanma mərasimi ilə sizin qarşılanma mərasiminiz arasında yerlə göy qədər fərq var, ümumiyyətlə, müqayisəyə gəlmir. Bu, İslam Respublikasına və onun İslam təfəkkürlərini, İslam məqsədlərini ucaltdığına, bayraq etdiyinə görədir.

**Zülmə, istismarçılığa və müstəmləkəyə qarşı çıxmaq**

Biz zülmə, hegemonizmə, istismarçılığa müxalifik. Biz qərara gəlmişik ki, bu yolla hərəkət edək və edirik; qərara gəlmişik ki, qorxmadan yola davam edək və

edirik. Düzdür, bizim az işləməyimiz, düşmənlərin təxribatı və bəzi məsul şəxslərin bacarıqsızlıqları təsir buraxmışdır, dediklərimiz və istədiklərimiz ideal deyil, yarımçıq həyata keçmişdir. Amma bu yarımçıq da bu gün dünyanın diqqətini çəkir. Yarımçığı budur ki, biz bir zaman RPG-7 və mərmi düzəldə bilmirdik, xaricdən gətirməli idik. Amma bu gün düşmən elə bilir ki, biz atom bombası düzəldirik. Yəni inkişaf ümumiyyətlə, təsəvvüredilәsi deyildi. İslam Respublikasının əvvəli ilə bugünkü elmi və praktik fərqlər demək olar ki, yerlə-göy qədərdir.

**Ölkəni qurmaq**

Allaha şükür olsun ki, biz inkişaf etmişik. Lakin bir ölkə bir neçə nəsil ərzində qurulur. Bu, bir bəndi, bir stansiyanı, yaxud bir zavodu tikmək kimi deyil. Bir ölkə təkcə maddi işlərlə qurulmur, onun mədəni, elmi, iqtisadi və ictimai cəhətləri də var. Bu isə bir ilin, iki ilin işi deyil, bir nəslin işi də deyil. Ardıcıl nəsillər gəlməlidirlər. Bir ölkədə əgər bütün nəsillər uğurla çalışsalar, iş çox tez və yaxşı surətdə, əgər tənbəllik və səhlənkarlıq etsələr, gec və yarımçıq şəkildə, amma hər halda, bir neçə nəsil ərzində başa çatar. Nəsil halqalarından biri sizsiniz. Bu ölkəni siz qurmalısınız.

Ölkəni bu gün universitetlərdə təhsil alanlar idarə edəcəklər. Əgər zəif olsalar, imanları zəif olsa, nəfsə meyllləri işə, çalışmağa və fəaliyyətə olan meyllərinə üstün gəlsə, şəxsi maraqlar ümumi və uzunmüddətli maraqlara üstün gəlsə, olmayacaq. Əgər savadsız yetişsələr, dərs oxumasalar, tədqiqat aparmasalar, elmi sözün həqiqi mənasında məhsuldar etməsələr, elmin mövcud sərhədlərini keçib irəliləməsələr, həmişə digərlərinin sözlərinin istehlakçısı olsalar, olmayacaq. Sizin vəzifəniz bunlardır. Mənim bu məsələləri mömin və saleh gənclərə təkidlə tövsiyə etməyim buna görədir.

**Siyasi baxış**

Siz bir təşkilat olaraq təkcə özünüzü yox, tələbə və universitet mühitini islah etməkdə də rol oynamalısınız. Bir təşkilat bütün bu sahələrdə təsirli olmağı bacarmalıdır. Elm, fəaliyyət, hərəkət və düzgün siyasi baxış lazımdır. Əgər düzgün siyasi baxış olmasa, insan səhvə yol verər. Əgər düzgün siyasi baxış olmasa, insan bəzi vaxtlar özünün bütün duyğularını tamamilə düşmənin xeyrinə olan yerə sərf edər; necə ki, bəzilərinin bu işi gördüyünü bilirsiniz. Eyni gənclik duyğuları, eyni tələbə mənliyidir, lakin istiqamət yanlış və səhvdir, ölkənin gələcək təməllərinin möhkəmləndirilməsinə yönəlməyib, onun əksi ilə tamamlanır, düşmənin xeyrinə və düşmən üçündür. Deməli, salehliyin, mənəviyyatın, Allaha diqqətin və Ona arxalanmağın yanında elm, tədqiqat, gənclik fəallığı, düzgün siyasi baxış və gələcəyə ümid də lazımdır.

**Ümid**

Ümid çox mühümdür. Düşmənin işlərindən biri budur ki, daim desinlər: “Cənab, olmur, bacarmırsınız”; “Gələcək qaranlıqdır”; “Məgər mümkündür?!”;

“Tezliklə düşmən belə edəcək, elə edəcək”. Xeyr, düşmən heç bir qələt edə bilməz. ABŞ-ın indiki prezidenti İslam Respublikasını məhv etmək qərarına gələn beşinci prezidentdir. Ondan qabaq dördü gəlib-gedib: Karter, Reyqan, ata Buş və Klinton. Onların hər biri bir yolla İran xalqının və İslam Respublikasının kökünü kəsmək qərarına gəliblər. Şair deyir ki, biri öldü, biri murdar oldu, biri də Allahın lənətinə giriftar oldu.

**Daxili birlik**

Biz möhkəm dayanmalı və nə iş gördüyümüz bilməliyik. Mənim sizə tövsiyələrimdən biri budur ki, öz daxili və qardaşcasına birliyinizi ehtiyatla qoruyun. Üsul fərqlərinin aranızda ixtilaf yaratmasına qoymayın; misal üçün, gələcək prezident seçkilərinə namizəd kim olsun, kim olmasın. Belə məsələlərdə çox tələsmək lazım deyil, diqqətlə və hövsələ ilə işləmək lazımdır.

Allah-Taaladan kömək istəyin, O sizə kömək edəcək. İnşallah, həzrət İmam Mehdinin xeyir-duaları sizə şamil olsun. Biz sizin kimi yaxşı və mömin gənclərlə fəxr edirik və Allahdan istəyirik ki, salehliyinizi, möhkəmliyinizi, lütf və nurunuzu günbəgün artırsın!

Allahın salamı və rəhməti olsun sizə!